


1

Frans Kafka

MİLENAYA

MƏKTUBLAR

MERAN-UNTERMAYS, "OTTOBURQ" PANSİONU Əziz Milena xanım,

Sizə Praqadan, sonra isə Merandan bir neçə sətirlik məktub göndərdim. Cavab olmadı. Əslində, yazdıqlarıma təcili cavab elə də lazım deyildi, susqunluğunuz, bildiyimiz kimi, məktub yazmağa rəğbətin olmaması kimi ifadə olunsa da (əgər bu, doğrudan da, nisbi rifah əlamətidirsə), onda mən tamamilə qane oluram. Amma ola bilər ki, - elə buna görə də yenidən yazıram - öz sətirlərimdə Sizi hardasa incitmişəm (belə olan halda, əllərim iradəmin əleyhinə kobudluq edib), yaxud daha artıq dərəcədə pis hal o ola bilər ki, Sizin yazdığınız kimi, həmin pis dövr yetişmişdir və yenidən Sizin üçün ağır günlər başlamışdır. Birinci fərziyyə barədə fikir yürüdə bilmərəm, çünki belə niyyətlər mənə çox yaddır, bütün qalanlar isə bir az həqiqətə yaxındır. İkincisi barədə falçılıq edə bilmərəm, - axı mən əvvəlcədən necə müəyyən edə bilərəm? - təkcə bir şeyi soruşmaq istəyirəm: niyə də Siz lap qısa müddətə Vyanadan getməyəsiniz?

Məgər sizin də başqaları kimi sığınacağınız yoxdur? Bəlkə Bohemadakı gəzintilər Sizə qüvvə bəxş edəcək? Amma başqa bir

səbəbi vardırsa, o mənə məlum deyildir, Siz Bohemanı istəmirsinizsə, onda daha başqa bir yerə-ola bilsin ki, lap Merana da getmək pis olmazdı? Siz Meranda olmusunuzmu?

Beləliklə, iki şeydən birini gözləyirəm: ya sonrakı susqunluğu - bu, "Narahat olmayın, mənim işlərim qaydasındadır" deməkdir; ya da heç olmasa, bir neçə sətir yazmağınızı.

Qəlbən sizin Kafka

Mən birdən başa düşdüm ki, Sizi, xüsusən də üzünüzü hərtərəfli şəkildə xatırlaya bilmirəm. Yalnız kafenin çıxışına yönələrkən stolların arasından keçdiyinizi görürəm. Sizin qamətinizi, Sizin donunuzu - bütün bunları isə görmürəm.

Əziz Milena xanım, Vyanadakı məyusluğun içində siz tərcümə üzərində çalışırsınız. Bu məni riqqətə gətirir və utandırır. Siz, yəqin ki, artıq *Volfdanl* məktub almısınız, bir müddət əvvəl belə bir məktub barədə o mənə yazmışdı. Hansısa bir kataloqda "Qatil" novellasını mənim yazdığım haqqındakı elan anlaşılmazlıqdır; amma o mənim ən yaxşı əsərim hesab olunursa, eybi yox, qoy belə olsun. Sizin sonuncu və ondan əvvəlki məktublarınıza əsasən, həyəcan və qayğılar bütövlükdə və tamamilə Sizi tərk edib, mən Sizin üçün və Sizin əriniz üçün bunu arzu edirəm.

Bir neçə il əvvəlki bazar axşamını xatırlayıram, mən Fransiskonun sahilyanı küçələrində dolaşırdım və Sizin ərinizlə rastlaşdıq, biz qarşıqarşıya yeriyirdik. O məndən heç də yaxşı halda görünmürdü - hər birimiz başağrısı sahəsində böyük mütəxəssislər idik, amma hər

birimiz tamamilə özünəməxsus idik. Onu xatırlaya bilmirəm ki, biz yolumuzu birlikdə davam elədik, ya ayrıldıq, bəli, əslində, bunların elə də böyük fərqi yoxdur. Amma bütün bunlar ötüb keçmişdir və keçmişin dərinliklərində qalmalıdır. Evdə Sizə yaxşıdırmı?

Ürəkdən gələn salamlarla, Sizin Kafka Meran-Untermays, pansion "Ottoburq"

Əziz Milena xanım, yağış indicə kəsib, iki gün idi ki, gecə-gündüz leysan tökürdü, ola bilsin ki, bu, qısamüddətli fasilədir, amma bu cür hadisəni bayram etmək lazımdır - bax, mən də Sizə yazıram. Öz aramızdır, yağış mənim üçün asan keçdi, çünki qəriblikdəyəm, o, kiçik olsa da, ürəyim ona görə fərəhlənir. Əgər düz hiss etmişdimsə (o, yeganə yarımlal və qısamüddətli görüşü heç vaxt yaddan çıxarmaq olmayacaq), Siz də Vyanada qəriblikdə olarkən şad idiniz, sonralar isə vəziyyət hər şeyi tündləşdirdi, amma Siz qürbətdə beləcə fərəhli idinizmi? (Əslində, bu, yəqin ki, pis əlamətdir və yaxşısı budur ki, ondan fərəhlənməyəsən).

Mən burada birtəhər yaşayıram, fani bədənim daha diqqətli qəyyumluğa layiq deyildir, mənim otağımın balkonu yaşıllığın içində itib-batmış, çiçək kollarının altında qalmışdır (buradakı bitkilər qəribədir - Praqada belə havada çəmənlik artıq donur, mənim balkonumun önündə isə piyalə kimi çiçəklər açır), çünki o, günəşin düz altındadır (daha doğrusu, artıq bir həftədir ki, buludlu göyün altındadır). Mənasız tanışlarım olan kərtənkələ və quşlar mənə qonaq gəlirlər. Ah, sizə Meranı bağışlamağı necə də istərdim! Bu yaxınlarda

yazmışdınız ki, "boğulursunuz", burada obraz mənaya tamamilə uyğun gəlir, amma buralar hər şeyi, azca da olsa, yüngülləşdirə bilərdi.

Ürəkdən gələn salamla, Sizin F.Kafka

"Ola bilsin ki, ciyərlərdir". Bütün günü bu fikri başımda fırlatmışam, başqa bir şey haqqında düşünə bilmirdim. Xəstəlik məni xüsusilə qorxutmurdu, yəqin ki (buna ümid edirəm, deyəsən, eyhamlarınız da bunu təsdiq edir), o sizə yüngülcə toxunub, amma hətta ciyərlərin ciddi xəstəliyi belə (ciyərlərin az, yaxud çox dərəcədə zədələnməsi indi Qərbi Avropanın yarısını əhatə edib), mənim özümə də artıq üç ildir ki, tanışdır və mənə şərdən çox rifah gətirib. Bu, bir il əvvəl gecə yarısı başladı - boğazımdan qan gəldi. Mən yataqdan durdum (sonralar oxudum ki, bunun əvəzində uzanmağa davam etməli imişəm) bütün təzə xəstələr kimi, baş vermiş hadisə məni ehtiyatlandırdı, bir az da qorxutdu: pəncərəyə yaxınlaşdım, başımı çölə çıxartdım, sonra əlüzyuyanın yanına getdim, otaqda gəzdim, çarpayıya oturdum - qan dayanmırdı. Amma buna görə özümü heç də bədbəxt hesab etmirdim - bir müddət sonra birdən aydın dərk etdim ki, üç il, dörd il sonra, yuxusuzluğun axırında yata biləcəyəm - əlbəttə ki, qanaxma dayanarsa). Tezliklə hər şey kəsildi (və həmin vaxtdan sonra bir daha qayıtmadı), belə ki, gecənin qalan hissəsini sakit yatdım. Düzdür, səhər tezdən köməkçi gəldi (mən onda Pale Şönbornda mənzil tutmuşdum), qanı gördü və bu xeyirxah, az qala fədakar, lakin yüksək dərəcədə işgüzar olan qız dedi: *"Pane doktore, s Vami to dlouho nerotrrva"2.* Amma özümü adi vaxtlardan da yaxşı hiss edirdim, işə

və yalnız nahardan sonra həkimə getdim. Bu tarixçənin davamı artıq maraqlı deyildir.

Nəyi demək istəyirdim: məni Sizin xəstəliyiniz qorxutmur (həm də mən dəfələrlə xatirələrimi götür-qoy edərək öz-özümü təkzib edirdim, lap kəndlilərdə olduğu kimi, gümrah və zərif naturanızı xəyalıma gətirirdim və belə bir nəticəyə gəlirdim: yox, Siz xəstə deyilsiniz, bu yalnız ehtiyatkarlıqdır, ciyərlərin xəstəliyi deyildir) - bax, belə, bu, məni qorxutmur, məni qorxudan bu narahatlığa səbəb olmuş fikirlərdir. Mən burada, başlanğıc üçün, yazdığınız qalan şeyləri istisna edirəm: cibimdə bircə quruş yoxdur, yalnız çay və alma ilə keçinirəm, hər gün saat ikidən səkkizə qədər belə olur - bütün bunlar başa düşmədiyim şeylərdir və onların şifahi şərhlərə ehtiyacı vardır. Ola bilsin ki, məhz buna görə fikrim yayınır (amma yalnız məktubda - yoxsa belə şeyi unutmaq mümkün deyil) və öz şəxsimdə xəstəliyin izahı barədə düşüncələrimi - bu izahlar bir çox hallarda yarayır - xatırlayıram. Beynim o vaxtlar xəstəlik barədəki qayğı və əzablara dözə bilmirdi. O deyirdi: "Mən təslim oluram, amma kimin üçünsə tamlığın saxlanması əhəmiyyətlidirsə, qoy o mənim yükümü yüngülləşdirsin, onda biz bir müddət dayana bilərik". O vaxt ciyərimin səsi gəlirdi - yəqin ki, onun itirəcəyi bir şey yox idi. Mənim iştirakım olmadan beynimin və ciyərimin bu mükaliməsi, əlbəttə ki, dəhşətli idi.

Və Siz indi nə etmək niyyətindəsiniz? Mənim başa düşdüyümə görə, Sizi bir az qorumaq boş bir şeydir, bu heç nəyə dəyməz. Amma Sizi bir az qorumaq fikri Sizi sevənlərin hamısına aydın olmalıdır,

qalan fikirlərin hamısı susmalıdır. Bəlkə qurtuluş tapıldı? Axı demişdim ki, - amma yox, zarafat etməyəcəyəm, qəlbimdə heç də sevinc yoxdur və Siz yeni, daha sağlam həyat tərzinə keçməniz barədə mənə məktub yazana qədər də sevinc olmayacaqdır. Niyə Sizin Vyanadan çıxıb getmədiyiniz barədə artıq soruşmuram - axırıncı məktubunuzdan sonra bunun səbəbini başa düşdüm, amma Vyananın yaxınlığında da qayğı ilə əhatə oluna biləcəyiniz möcüzəli yerlər vardır. Qəlbimdə daha vacib bir şey olmadığından, bu gün başqa heç bir şeydən yazmıram. Bütün qalan şeyləri sabaha saxlayıram, o cümlədən jurnala görə təşəkkürü də.3Mənim halım pozulub, pərt olmuşam, qayğılıyam və şadlanıram. Yalnız bircə şeyə görə - əgər Siz tərcümə xətrinə yuxunuzun bir dəqiqəsini qurban verirsinizsə, bu, hər halda mənim üçün əbədi lənət olacaq. Axı nə vaxtsa iş məhkəməyə verilsə, heç bir xüsusi təhqiqat olmadan, sadəcə, qərar qəbul ediləcəkdir: sizi yuxudan məhrum etdiyimə görə mühakimə olunacağam - və haqlı olaraq mühakimə olunaram. Ola bilsin ki, Sizdən bu işlə məşğul olmamağınızı xahiş edərkən mən öz xeyrim barədə fikirləşirəm.

Sizin Frans K.

Əziz Milena xanım, bu gün mən başqa şey haqqında yazmaq istəyirəm, lakin yaza bilmirəm. Ona görə yox ki, mən hər şeyi ciddi qəbul edirəm; bu belə olsaydı, ayrı cür yazardım, axı hardasa bağdakı yarıqaranlıq bir küncdə sizin üçün yelləncək və əl altında da on fincan

süd olmalıdır ki, dərhal götürə biləsiniz. Qoy bu lap Vyanada olsun, nə olar, lap yayda olsun, təki aclıq çəkməyəsən və həyəcanlanmayasan. Doğrudanmı, bir adam yoxdur ki, kömək eləsin? Bəs həkim nə deyir?

Mən jurnalı böyük zərfdən çıxaranda, demək olar ki, tamamilə məyus oldum. Sizin haqqınızda bir şey eşitmək istəyirdim, köhnə qəbirdən çox tanış olan bu səsi yox. Niyə o bizim aramızda ilişib? Amma sonra başa düşdüm ki, bizi birləşdirən də odur. Amma öz aramızdır, bu ağır əməyi öz üzərinizə götürməyə qərar verməniz mənim üçün başa düşülməzdir, məni Sizin bu işi sözbəsöz necə sədaqətlə icra edəcəyiniz dərindən riqqətə gətirir; hələ də saxladığınız həmin möhtəşəm qətiyyət və sədaqətinizin çex dilində ifadə olunacağını təsəvvür etmirdim. Doğrudanmı, alman və çex dilləri belə yaxındır? Amma necə olursa-olsun, vicdanla danışsaq, hekayənin özü çox pisdir. Əziz Milena xanım, bunu sizə sətirbəsətir isbat etmək asandan da asan olardı və bəlkə də mənim nifrətim - bu sübutun zəruriliyini gücləndirmişdir. Hekayənin xoşunuza gəlməyi, təbii ki, onun qiymətini artırır, amma dünyanın şəklini mənim təsəvvürümdə tutqunlaşdırır. Bu haqda kifayətdir. "Kənd həkimi"ni *Volfdan4* alacaqsınız, ona yazmışam.

Əlbəttə ki, çexcə başa düşürəm. Dəfələrlə Sizdən soruşmaq istəmişəm ki, niyə mənə çex dilində yazmırsınız? Bu, qətiyyən o demək deyildir ki, Siz almancanı bilmirsiniz. Siz onu necə lazımdırsa, heyrətləndirici dərəcədə bacarırsınız və kimsə hardasa aşkar etsə ki, bu dili bilmirsiniz, onda könüllü olaraq qarşınızda təzim edəcəkdir, onda

bu xüsusilə gözəl olacaqdır; həmin alman öz dilindən bunu gözləmir, belə ki, şəxsən o, yazmağa cəsarət etməzdi. Amma mən Sizi çexcə oxumaq istərdim, axı bu Sizin dilinizdir, axı yalnız burada Milena bütövdür (tərcümə bunu təsdiq edir), amma almancada Milena Vyanalıdır, yaxud da Vyanaya getməyə hazırlaşır. Beləliklə, xahiş edirəm, lütfən, çexcə yazın.

Və yazdığınız felyetonları da göndərin.5 Qoy lap "boş şeylər" olsunlar, eybi yoxdur. Siz ki mənim boş povestciyəzlərimin arasından haralara qədər yüksəlmisiniz? Bilmirəm. Amma birdən mən də bacardım, bacara bilməsəm, eybi yoxdur, bütün mümkün ola bilən ən yaxşılara inamın astanasında qalaram.

Mənim nişanım barədə soruşursunuz. İki dəfə nişanlanmışam (əgər belə demək mümkündürsə, üç dəfə, çünki iki dəfə eyni bir qızla nişanlanmışam); beləliklə, mən üç dəfə nikahın bir neçə günlük məsafəsində qalmışam.6

Birinci hadisə tamamilə geridə qalıb (oradan artıq yeni evlilik meydana çıxmışdır və mənim eşitdiyimə görə dünyaya körpə də gəlmişdir), ikincisi isə hələ yaşayır, amma bunun nikaha qətiyyən dəxli yoxdur, daha doğrusu, artıq yaşamır, daha dəqiq desək, insanların hesabına müstəqil həyat yaşayır. Ümumiyyətlə, bu halda - elə başqa hallarda da - o nəticəyə gəlmişəm ki, kişilər çox əzab çəkirlər, məsələyə ayrı cür baxsaq, az müqavimət göstərirlər, qadınlar isə həmişə günahsız olaraq əzab çəkirlər və bu ona görə deyil ki, bu işdə onlar "nə isə etməkdə gücsüzdürlər", lap başlanğıcda, sözün

müstəqim mənasında, kişilər "gücsüzdürlər". Əslində, niyə bu məsələ barədə baş sındırmalıyıq? Sən sanki cəhənnəmdəki yeganə qazanı aşırmağa çalışırsan; əvvəla, buna müvəffəq ola bilməyəcəksən, əgər müvəffəq olsan belə, özün o pıqqıldayıb qaynayan lavada yanacaqsan, cəhənnəm isə onsuz da bütün qüdrəti ilə qalacaqdır. Başqa cür hərəkət etmək lazımdır.

Amma əvvəlcə, hər halda, bağa gedib uzanmaq lazımdır, xüsusən də əgər bu, gerçək xəstəlik olmadığından, mümkün olan bütün ləzzətləri dadmaq lazımdır, burda da çoxlu ləzzətlər vardır. Sizin Frans K.

Əziz Milena xanım, dərhal onu deyim ki, - yoxsa nə qədər yaxşı olsa da, iradəmin əleyhinə olaraq bunu mənim məktubumdan hiss edəcəksiniz -təxminən iki həftədir ki, yuxusuzluqdan əziyyət çəkirəm, ümumiyyətlə, mən bundan faciə düzəltmirəm, belə dövrlər gəlir və gedir və həmişə onlar üçün lazım olduğundan daha çox səbəblər tapılır (bu, gülməli olsa da, Bedekerə görə onlardan biri Meranın havasıdır), amma bu səbəblər başqa hallarda, demək olar ki, hiss olunmur; necə olursa-olsun, bundan kötük kimi küt, meşə vəhşisi kimi narahat olursan.

Amma heç olmazsa, bir sevincim vardır: Siz sakit yatmısınız - qoy lap "qəribə tərzdə olsa da", qoy lap dünən "özünüzdə olmasanız da" sakit yatmısınız.

Əgər gecələr, ola bilsin ki, yuxu məndən qaçarsa da, artıq onun yolunu bilirəm və şikayət etmərəm. Şikayət etmək axmaqlıq olardı, axı

bütün varlıqlardan ən günahsızı yuxudur, yuxusu olmayan insanın özü günahkardır.

Və həmin yuxudan məhrum olan insana sonuncu məktubunuzda təşəkkür edirsiniz. Əgər kimsə kənar adam bunu oxusaydı, yəqin ki, düşünərdi: "Bu necə adamdır! Yəqin ki, o, dağı da yerindən oynatmağı bacarar". Amma bununla yanaşı olaraq, insan heç bir şey etmirsə, barmağını da tərpətmirsə (heç olmasa qələmi), südlə və Tanrının yetirdiyi ilə qidalanırsa (amma bu həmişə olmur və əl altında ancaq "çay və alma" olur), qalan bütün şeyləri özbaşına buraxır və dağları da öz yerində saxlayır. Siz Dostoyevskinin birinci uğurunun tarixçəsini bilirsinizmi? Bu əhvalatdan özüm üçün çox şey götürmüşəm və ondan yalnız şöhrətli olduğu üçün misal gətirirəm, çünki qonşuluqdakı bütün əhvalatlar, hətta bir az da yaxındakı olaylar eyni məna kəsb edirlər. Yeri gəlmişkən, artıq onu təxmini bilirəm, xüsusən də adları. Bu vaxt Dostoyevski özünün "Bədbəxt adamlar" adlı ilk romanını yazırdı və dostu, ədəbiyyatşünas Qriqoryevlə birgə yaşayırdı.7 O, bir neçə ay ərzində stolun üstündə bir qucaq yazılmış vərəqləri görsə də, *manuskripti8yalnız* roman hazır olanda əlinə almışdı. Qriqoryev romanı oxumuş, heyrətə gəlmiş və Dostoyevskiyə heç bir kəlmə demədən o dövrün məşhur tənqidçisi Nekrasova aparmışdı. Gecə saat üçdə Dostoyevskinin qapısının zəngi çalınır. Qriqori Nekrasov içəri təpilib onu qucaqlayır və öpür, əvvəllər onu tanımayan Nekrasov Dostoyevskini "Rusiyanın ümidi" adlandırır, onlar bir saat, iki saat, əsasən, roman haqqında danışırlar, yalnız səhər açılanda ayrılırlar.

Sonralar bu gecəni həyatında ən xoşbəxt gecə adlandıran Dostoyevski pəncərəyə yaxınlaşaraq onun ardınca baxır, göz yaşları içində hıçqıraraq heç cür özünü ələ ala bilmir. Dostoyevski özündə yaranmış hisləri sonralar təsvir edib. Onu haradan oxuduğumu dəqiq xatırlamasam da, təxminən belə idi: "Necə də yaxşı insanlar vardır! Necə xeyirxah, necə nəcibdirlər! Mən isə nə qədər miskinəm! Əgər onlar qəlbimə boylana bilsəydilər. Amma mən onlara danışsam da, inanmayacaqlar". Dostoyevskinin sonralar onların yolunu davam etməyə qərar verməsi isə artıq arabeska9 idi, o, məğlubedilməz gəncliyin təxəyyülü idi, bunun təsvir olunan əhvalata heç bir dəxli yoxdur, yəqin tezliklə sovuşmuşdu. Başa düşürsünüzmü, əziz Milena xanım, bu əhvalatın təfəkkür üçün nüfuzedilməz olan gizli mənasını anlayırsınızmı? Fikrimcə, iş bundadır ki, Qriqoryev və Nekrasov, ümumiyyətlə desək, Dostoyevskidən heç də nəcib olmayıblar, amma
Siz indi ümumi baxışlardan imtina edirsiniz (həmin gecə bu heç də Dostoyevskiyə də lazım deyildi, ayrı-ayrı hallarda onun nə faydası ola bilər ki?). Siz yalnız Dostoyevskiyə qulaq asın, Siz yalnız o vaxt Qr. və N. — in misilsiz olduqları qənaətinə gələcəksiniz və görəcəksiniz ki, D. çirkin, hədsiz dərəcədə miskindir, o heç bir vaxt bu yüksəkliklərə çata bilməyəcəkdir, onun haqqında Qr. və N. — in dedikləri eşidilməmiş tərifl ərə layiq deyildir, bu sözlərin əvəzini verə biləcək mövqeni fəth edə bilməyəcəkdir. Təəssüf ki, bu əhvalatın əsl mahiyyəti Dostoyevskinin nəhəng adı altında əriyib gedir. Yuxusuzluq

məni hara gətirib çıxartdı? Hər halda, mən ən xoş duyğu və arzularla dediklərimin üstündə dururam.

Sizin Frans K.

Əziz Milena xanım, cəmi bir neçə sətir özümə görə qeyd edirəm, sabah, yəqin ki, Sizə yenidən yazacağam; yalnız məktubunuzdan aldığım təəssüratı özümdən uzaqlaşdırandan sonra - yoxsa o, gecəgündüz məni izləyəcək-yazacağam, bu gün isə özüm üçün yazıram. Çox qəribəsiniz, Milena xanım, Vyanada qalaraq hələ bir vaxt tapıb başqalarının, məsələn, mənim çox da yaxşı yaşamadığıma, hansı bir gecəni isə sonrakılardan daha pis keçirdiyimə təəccüblənirsiniz də.

Buradakı üç tanışımın (üç bacımdan böyüyünün beş yaşı var idi) münasibətləri məntiqə uyğun gəlmir, onlar imkan düşən kimi, çaydazadda məni batırmaqda israrlıdırlar. Bu ona görə belə deyildir ki, mən onlarla pis davranıram. Yaşlılar uşaqları belə şeylərlə qorxudanda, bu, əlbəttə ki, zarafat və sevgi kimi yozulur, təxminən belə məna verir: əyləncə xətrinə tamamilə qeyri-mümkün şeylər danışırıq. Uşaqlar isə hər şeyi ciddi qəbul edirlər, onlar üçün mümkün olmayan şey yoxdur, onların səni on dəfə suda batırmaq üçün uğursuz cəhdlərinə

baxmayaraq, inanmırlar ki, on birinci cəhd də uğursuz olacaq, onlar hətta bundan əvvəlki on yayınmanı yaddan çıxarırlar.

Ə ər uşaqların sözlərini yaşlıların bilikləri ilə müqayisə etsək, çox qıcıqlandırıcı olar. Sanki yalnız öpmək və sıxmaq üçün yaradılmış

dördyaşlı, bütün balacalar kimi koppuş və ayı balası kimi güclü uşaq sənə hücum edəndə iki bacısı da sağdan və soldan onlara kömək edir, arxadan isə bu üç körpənin xeyirxah atası və yumşaq, gözəl, gonbul ana hər şeyə sanki qanad gərmişlər, onlar baş verənlərə təbəssümlə baxır (onların dördüncü uşağı artıq beşikdədir), amma səni xilas etməyə tələsmirlər - sən artıq məhv olmaq üzrəsən və yazı ilə təsvir etmək mümkün deyildir ki, sən hansı möcüzə nəticəsində xilas olmağa müvəffəq olursan. Dərrakəli, yaxud bəsirətli uşaqlar məni suya, elə bir səbəb olmadan da atmaqda tərslik edirlər, bəlkə də onlar məni artıq faydasız hesab edirlər, axı onlar nə Sizin məktublarınızı, nə də mənim cavablarımı oxumayıblar.

Axırıncı məktubumdakı "xeyirxah niyyətlər və arzular" sizi qorxutmasın. O vaxtlar, əksər hallarda olduğu kimi, yuxusuz gecələr dövrü keçirirdim, bu məktubu yazanda, əsasən, Sizinlə bağlı fikirlərlə məşğul idim, qurtaranda isə hər iki tərəfindən gicgahlarım elə ağrıdı ki, bunları yazmağımın səbəbini başa düşmürdüm, əlavə olaraq, danışmaq istədiklərim formasız bir qaya parçası kimi mənə mane olurdu. Həmin söhbət balkondakı yelləncəyin yanında Sizə deyilməli idi, ona görə də mən indi yalnız hissiyyatıma əsaslanıram, çünki indi başqa heç nə bacarmıram.

Sizdə indi Volfun göndərəcəyi kiçik hekayələr məcmuəsi olan "Kənd həkimi" kitabçasından başqa, dərc etdiklərimin hamısı vardır. Hər ehtimala qarşı, bir həftə bundan əvvəl bu haqda ondan xahiş etmişdim. Nəşriyyatda elə bir şey yoxdur, nəyinsə çıxa biləcəyini

xatırlaya bilmirəm. Siz bu kitablarla və tərcümələrlə nə etsəniz, eləyə bilərsiniz, təəssüf ki, onları Sizə bəslədiyim əsl etibara uyğun şəkildə əllərinizə təqdim edə bilmədiyim üçün mənə lazım olan qədər qiymətli deyildirlər. Əvəzində isə, çox şadam ki, "Ocaqçı"ya etdiyiniz bəzi qeydləriniz barədəki xahişinizə görə, həqiqətən kiçicik qurban verə bilərəm; bu elə bir cəhənnəm əzabı barədəki xəbərdarlıqdır ki, ən pis hal mənim öz həyatıma yenidən, idrak gözü ilə baxmaq zərurəti yox, bəzi hərəkətlərimi o vaxtlar xeyirxah hesab etməyimdir.

Heç bir şeyi nəzərə almayaraq deməliyəm ki, yazmaq hər halda yaxşı və xeyirlidir, mən iki saat əvvəl balkonda, yelləncəyin yanında Sizin məktubunuzu aldığım vaxtdan indi yaxşıyam. Orada uzanmışdım, bir addım məndən uzaqda hansısa bir böcək arxası üstə yerə düşdü, o cidd-cəhdlə çalışırdı ki, ayaqları üstündə dursun, amma bacarmırdı, məmnuniyyətlə ona kömək edərdim, axı bu asandan da asandır: bir addım atırsan və ona yüngülcə toxunursan. Bax bu həqiqi kömək olardı, amma başım Sizin məktubu oxumağa qarışdı, dura bilmədim, bir kərtənkələ yenidən diqqətimi ətraf aləmə yönəltdi.

Kərtənkələnin yolu məhz böcəyin yanından idi, böcək isə artıq tamamilə sakitləşmişdi, öz-özümə dedim ki, deməli, bu, təbii ölümlə mübarizə aparmaq barədə nadir rast gələn tamaşa idi; kərtənkələ böcəyin üstündən keçəndə təsadüfən onu çevirdi, o isə, düzdür, bir neçə dəqiqə tərpənmədi, sonra, heç nə olmamış kimi, divarla yuxarı qaçmağa başladı. Bu, hansısa bir formada məni gümrahlaşdırdı, qalxdım, süd içdim və Sizə yazdım. Sizin Frans K.

Sabah sizə öz qeydlərinizi göndərəcəyəm, yeri gəlmişkən, onlar bir az çox və əksəriyyətində səhifələr yoxdur, tərcümələrin dəqiqliyi məni dönə-dönə təəccübləndirir, mənə uyğun olmasa da öyünürəm ki, izahatların möhkəm və qətiliyi üçün yol verilən bəzi boş şeylərdən başqa heç bir xəta yoxdur. Ancaq bilmirəm, çexlər Sizin alman dilinə belə sadiqliyiniz barədə məzəmmət edəcəklərmi, çünki siz məni tərcümə edərkən çox mərhəmət göstərmisiniz (təkcə hekayələrin yox, həm də mənim xətrimə); mənim çex dili barədəki hissiyyatım tamamilə təmin olunub, amma fövqəladə surətdə mən öncədən qənaətə gəlmişəm; kimsə Sizə bu haqda tənə vurarsa, mənim təşəkkürümlə onu tarazlaşdırmağa çalışın.

Əziz Milena xanım (bu müraciətim artıq məni bezdirib, amma etibarsız dünyamızda bu, xəstələrin yapışa biləcəyi tutacaqlardan biridir və əgər tutacaqdan yapışmaq bezdirirsə, bu, hər halda, sağalmağınız barədə yaxşı əlamət deyildir), mən heç vaxt alman xalqının içərisində yaşamamışam, alman dili mənim üçün anamla doğmalaşıblO və ona görə mənim üçün təbiidir, amma çex dili də mənim üçün əzizdir, ona görə də məktubunuz duman pərdəsini qaldırır, Sizi aydın görürəm, - qamətinizi, cəld və qətiyyətli əllərinizi görürəm, bu, təxminən, elə görüş kimidir - düzdür, mən gözlərimi qaldırıb üzünüzü görmək istəyəndə məktubunuz od tutub yanır (qəribə pritçadır!) və mən alovdan başqa heç nə görmürəm.

Yaşamağınız üçün özünüzün yaratdığınız qayda-qanunlara inanmaq və uymaq olar. Sizin qayda və qanuna görə, heç kəsin Sizə yazığı

gəlməməsi barədəki istəyiniz tamamilə anlaşılandır, amma bu qanunun tətbiq olunması başqa şey yox, kobudluq və lovğalığın *(ja jsem ten, ktery plati)11* təzahürüdür; düzdür, irəli sürdüyünüz qanunun nəticələrini müzakirə etməyə dəyməz, burada yalnız susaraq əlinizi öpmək qalır. Mənə gəlincə, əlbəttə, sizin qanuna inanıram, amma onun bu cür çılpaq qəddarlığına inanmıram, onun əbədi olaraq həyatınıza kölgə salmasına inanmıram; o, bir açılışdır, amma yola doğru açılışdır, yol isə sonsuzdur.

Lakin insanın adi ağlının məhdudluğundan asılı olmayaraq, yaşadığınızı qızmar sobada təsəvvür etməyin özü dəhşətdir. Yalnız özüm haqqında danışmağa cəhd edəcəyəm. Hər şeyə adi məktəblinin məsələsi kimi baxılarsa, onda mənə qarşı münasibətinizdə üç hal ola bilər. Məsələn, mənə öz haqqınızda heç nə danışmaya bilərsiniz, amma onda məni Sizin haqqınızda məlumat almaq xoşbəxtliyindən məhrum edərsiniz, həmçinin bundan daha da vacib olanı budur ki, bütün bunları öz üzərimdə yoxlaya bilməyəcəyəm. Ola bilsin ki,
qarşımda susa bilmədiniz. Siz elə edə bilərdiniz ki, məsələn, çox şeylər haqqında danışmaz, çox şeyləri ayrı cür bəzəyərdiniz - indi də bunları edə bilərsiniz - amma mən işlərin indiki vəziyyətində heç nə deməsəm də və mənim üçün ikiqat çətin olsa da, bunları hiss edərdim. Deməli, bunu da etməməlisiniz. Yalnız üçüncü imkan qalır: mümkün olduqca özünü xilas etməyə çalışmaq. Və bu imkana olan xırda ümid məktubunuzdan da sezilir. Mən indi oradan çoxluca ümid, qətiyyət

oxuyuram, bəzən də oradan başqa şeylər də, hətta *"realni hruza"12* da oxumalı oluram.

Sağlamlığınız haqqındakı məlumatlarınız (yaxşıyam, amma buranın dağ havasında pis yatıram) mənim üçün kifayət deyildir. Həkimin diaqnozunu elə də məqbul hesab etmirəm, daha doğrusu, nə yaxşıdır, nə də ki pis və yalnız Sizin davranışınızdan asılıdır ki, o necə izah olunmalıdır.

Əlbəttə, bütün həkimlər kütdürlər, daha doğrusu, onlar, təbii ki, başqa insanlardan axmaq deyillər, amma ambisiyaları gülməlidir; hesab etmək lazımdır ki, onların əllərinə keçən kimi axmaq olurlar.
Amma həkimin sizdən tələb

etdiklərini axmaqlıq, qeyri-mümkünlük hesab etməməlisən. Mümkün olmayan şey isə yalnız odur ki, ciddi xəstəsiniz və bu elə o cür də çarəsiz qalır. Həyatınız həkimlə söhbətdən sonra necə dəyişdi - bax əsas məsələ budur.

İndi isə ikinci dərəcəli suallar: Siz icazə verirsinizmi? Nə üçün və nə vaxtdan siz pulsuz otururs unuz? Niyə Siz, yazdığınız kimi, əvvəllər Vyanada çoxlu insanlarla əlaqə saxladığınız halda, indi heç kəslə ünsiyyətdə deyilsiniz?

Siz öz felyetonlarınızı mənə göndərmək istəmirsiniz. Ola bilsin ki, haqqınızda tərtib etdiyim obraza bu felyetonları bacarıqla, uyğun şəkildə daxil edə biləcəyimə inanmırsınız. Yaxşı, onda mən bu məsələyə münasibətdə sizə hirslənirəm, açığını desəm, tarazlığı saxlamaq naminə ürəyimin bir küncündə Sizə azca hirsin hazırlanması hətta yaxşıdır. Sizin Frans K.

1

Kafkanın Münhendəki naşiri Kurt Volf (1887-1963). 2

"Cənab doktor, siz çox yaşamazsınız". *(çex.)*

3

Gündəlik çex ədəbi jurnalı "Kmen".

4

Kafkanın "Kənd həkimi" adlı seçilmiş hekayələri Münhendə Kurt Volf tərəfindən 1920-ci ildə çap olunub.

5

Milena 1920-ci ilin yanvarında çex qəzetlərində Vyana həyatından felyetonlar yazırdı. 6

Söhbət Kafkanın Felisiya Bauerlə 1914-cü ilin mayında və 1917ci ilin iyulunda olan nişanlanmalarından gedir.

7

Burada Kafka səhv edir - söhbət bu tarixçəni öz xatirələrində qeyd edən D.Qriqoryevdən gedir.

8

Qiymətli əlyazma nüsxəsi.

Kiçik ədəbi əsərlər məcmuəsi.

Kafkanın anası almanca danışmağa üstünlük verirdi, atası isə çexcə. 11

Mən o adamam ki, hamının haqqını ödəyirəm. *(çex.)*

12

"Əsl dəhşət". (çex.)

13

"Yaxud da tam ədalətli deyildir". (çex.)

14

"Xeyirxah niyyət". (çex.)

15

Milenanın çex dilindəki qəzet felyetonları

16

Bojena Nemtsova (1820-1862) - çex yazıçısı, çex xalq nağıllarının tərtibçisi, çoxlu povest və hekayələrin müəllifi. Onun "Nənə" (1855) povesti məşhurdur.

17

Ernest Vays nəzərdə tutulur (1882-1940), Avstriya nasiri, tərcüməçisi və dramaturqu. Kafka ilə dostluq münasibəti saxlayıb.

18

Xəstəliyi sağaltmayıb müvəqqəti yüngüllük verən tədbir.

19

Milenanın rəfiqəsi.

20

Yanız sizin haqqınızda qorxu. (çex.)

21

Yazıçı Frans Verfel (1890-1945) o vaxtlar Vyanada yaşayırdı, Milena və onun əri - Ernest Pollakla tanış idi və Milena onun bəzi nəsr əsərlərini çex dilinə tərcümə etmişdi.

"Çox dəqiq ölçülüb-biçilməyən bircə söz də yoxdur". *(çex.)*

23

"Ağac, ağac, dəyiş!" (çex.) - uşaq oyunu.

24

"Bu məni ağrıtdı". (çex.)

25

Fransanın milli qəhrəmanı olan Janna d'Arkın ləqəbidir.

26

Siz yəhudisinizmi? (çex.)

27

"Başa düşmürəm" (çex.)

28

Ola bilsin ki, bu üç heca Praqa saatlarında üç həvarinin simvollaşdırılmış hərəkətlərinə oxşardır: Gediş, görünüş və hirslə çıxış.

29

Orijinalda üstündən xətt çəkilib.

30

Çex dilində "Milena" sözünün birinci hecası vurğu ilə deyilir.

31

(Sol kənarında) Cümə gününün məktubu yalnız çərşənbə günü çatdı; sifarişli və təcili məktublar adilərdən yavaş gəlir. 32

Söz oyunudur: Milenanın ərinin adı Ernestdir (almanca "ciddi").

33

"Mənim cəmi iki paltarım vardır, amma əla görünürəm" (çex.) - təxminən xalq mahnısından misralardır.

Kafka burada 1917-ci ilin sentyabrından 1918-ci ilin aprelinə qədər Züranda bacısı Ottllanın yanında yaşadığını xatırlayır.

35

Söhbət Kafkanın birinci nişanlısı Felisiya Bauerlə yazışmalardan gedir.

36

1908-ci ildən Kafka sənayedə bədbəxt hadisələrdən sığorta şirkətində xidmətçi işləyirdi.

37

(Sol kənarında) Bəli, Milena, sən hələ də məni başa düşmürsən, "yəhudi məsələsi", olsa-olsa, axmaq bir zarafatdır.

38

"Heç vaxt gözəl olmur, çünki başqa vaxtlarda o belə olmur". *(çex.)*

39

Qərbin bəzi iri şəhərlərində o vaxt fəaliyyət göstərən poçt sistemidir. Məktublar poçtdan-poçta güclü hava təzyiqi vasitəsilə sürətlə ötürülürdü *(tərc.)*. 40

Kafka hesab edir ki, "Milena" latınlaşdırılmış addır. Amma onun kiçildilmiş forması "milenka" şəksiz çexcədir, və "sevimli" deməkdir. Amma Kafkaya görə "Milada" sözündəndir.

41

Lerxenfelderştrass, 113 küçəsində Milena əri ilə yaşayırdı. 42

Kafka Milenaya yazdığı məktubları "tələb olunanadək" qaydası ilə göndərdiyi poçtu nəzərdə tutur.

43

Kafka Milena ilə çərşənbədən şənbəyə qədər Vyana və onun ətraflarında dörd gün birlikdə olmuşdu. 1921-ci ilin əvvəlində Milena bu görüşü xatırlayaraq Maks Broda yazırdı ki, o günlərdə Kafka ilə özünü çox yaxşı hiss edirdi. 44

Məşhur Avstriya yazıçısı German Barın (1863-1934) gündəlik qeydləri o vaxtlar "Yeni Vyana jurnalı"nın bazar günləri buraxılışında dərc olunurdu.

Milenanın xalası, çex yazıçısı Rujena Yesenskaya (1863-1940). O, daim Praqa qəzeti "Narodni listı" qəzetində çap olunurdu.

46

Söhbət Kafkanın nişanlısı Yuliya Voxrısekdən gedir; bu məktubda o, təcili görüşməyi xahiş etmişdi.

47

Maks Brod nəzərdə tutulur.

48

Almanların gəzərgi, səyyar musiqi ifaçılarına verilən ad (tərc.). 49

Avstriya yazıçısı Frans Qrilparsenin (1791-1872) novellası. 50

Xalq bağı (Folkstarten)-Vyananın mərkəzindəki kiçik park. Orada Qrilparserin heykəllərindən biri yerləşir.

51

(Məktubun sağ tərəfində) Heç bir şeyə baxmadan, bəzən mən düşünürəm: əgər xoşbəxtlikdən ölmək mümkün olsaydı, onda bu məhz mənim başıma gələrdi. Ölümə məhkum insanın sağ qalması isə mümkün olsaydı, onda mən yaşamağa davam edərdim.

52

Yan Qusun ölüm günü Çexoslovakiya Respublikasında rəsmi bayram olmuşdur. 53

Kafkanın valideynləri olan evin qarşısında rus kilsəsi var idi.

54

Milenanın əri.

55

(Sol kənarında) Sənin qorxu haqqında yazmaq niyyətin məni bir az qorxutdu.

Məşhur katolik yazıçısı və naşiri, Leon Bluanın yeznəsi; həmin vaxt Stasya onun yanında işləyirdi.

57

Bədii sənət emalatxanası.

58

Hipernerqassda ədəbiyyatçı və rəssamların kafesi.

59

(Sol kənarında) Dünən mən yaza bilmədim, Vyanada hər şey mənə çox qaranlıq göründü. 60

"Bəli, sən haqlısan, mən onu sevirəm. Amma F., mən ki, səni də sevirəm". *(çex.)* 61

Xanım Koler - Milenanın Vyanadakı tanışı.

62

14 iyul Praqada da bayram kimi qeyd olunur.

63

Mum heykəl və antikvar şeylər muzeyi.

64

Orijinalda üstündən xətt çəkilib.

65

Milenanın ərinin bankdakı işini buraxıb Vyanaya gəlmək planlarından biri. 66

"Mari Donadyo" (1904) fransız yazıçısı Şarl Lui Filippin (1874- 1909) romanı. 67

M.Brodun "Bütpərəstlik, xristianlıq və iudaizm" (1921) adlı ikicildlik essesindən söz gedir.

68

Mən Çikaqo planına tərəfdaram, bir şərtlə ki, qaça bilməyən uşaqların öyrədilməsi ilə əlaqədar iş olsun.

Söhbət həkim-psixoanalitik və filosof Otto Qrossdan (1877- 1920) gedir, həmin vaxtdan bir az əvvəl, fevralda ölmüşdü. 70

O vaxtkı jurnal və qəzetlər.

71

Sən məhz o adamsan ki, bu haqda anlayışın yoxdur... *(çex.)*

72

Anlayışı yoxdur! *(çex.)*

73

İnsanı gözləməyə məcbur etmək. (çex.)

74

"Mən hər şeydən çox nə sənə, nə də ona aparmayan üçüncü yolla tənhalığa qaçmaq istərdim". (çex.)

75

Məni heç nə dayandıra bilməz, hətta... hətta... hətta... (çex.)

76

Mən sənin cavabını bilirəm, amma onu yazılı şəkildə görmək istəyirəm.

77

Çex pul vahidi, təxminən səkkiz heller *(tərc.)*.

78

"O sizin haqqınızda heç vaxt nə yazmamış, nə də danışmamışdır".

(çex.)

79

Milenanın xahişi ilə Kafka onun erkən ölmüş qardaşı Yeniçekin qəbri üstünə gedib.

80

(Bütün səhifə boyunca yazı) Bütün bu müddət ərzində mən hər gün yazırdım, ümid edirəm ki, sən bu məktubları hələ alacaqsan.

81

Söhbət çex Qustav Yanouxdan (1903-1968) gedir, sonralar o, məşhur yüngül musiqi bəstəçisi, musiqişünas olmuşdur; bu vaxtlar Kafka ilə söhbətləri əsasında 1981-ci ildə "Kafka ilə söhbət" kitabını yazıb. 82

Məryəm anaya Tanrı tərəfindən verilən xoş xəbərə işarədir *(tərc.)*.

83

Dirilmə - İsanın dirilib göylərə çəkilməsinə işarədir.

84

Vyana vağzalında, aclıq illərində qadın yükdaşıyanlar da var idi.

85

Katib. (çex.)

86

Xəlvəti, gizli. *(çex.)*

87

Qustav Landauer (1870-1919) - Münhen hökumətinin üzvü, dahi esselər müəllifi, 1919-cu ildə öldürülmüşdür.

88

Nahaq yerə. (çex.)

89

Bəs sən niyə kədərlisən?

Sən niyə kədərlisən? *(çex.)*

90

91

Dünya tərəzisi. (çex.)

92

Bu ad altında xristian rahiblər Məsihi nəzərdə tutur.

93

Musiqi əsəri mənasını versə də, ümumiyyətlə, "əsər" kimi də işlənilir.

94

Ehtimal ki, burada Maks Brodun "Bütpərəstlik, xristianlıq, yəhudilik" kitabı haqqında gedir, həmin vaxt Kafka əlyazmanı oxumuşdu, sonra da 1921-ci ildə Münhenə göndərmişdi. Kafka əvvəlki məktublarının birində bu barədə xatırlatmışdır. 95

Ədəbiyyatşünas, çexcədən almancaya tərcümələr eləyən yazıçı; Kafka onunla 1910-cu ildə tanış olmuşdu.

96

Qadınlar çox şey tələb etmirlər. *(çex.)*

97

Vyanaya getməyi əsaslandırmaq üçün Milena və Kafka arasında razılaşdırılmış şifrə.

98

Hans Kras - bəstəkar, həbs düşərgəsində həlak olub.

99

Praqada çıxan gündəlik qəzetdir, Milena da onunla əməkdaşlıq edirdi.

100

Kafkanın bacısı Ottla onun həyatında mühüm rol oynayıb.

101

Uşaq, körpə. (çex.)

102

Bu cür, özün barədə.

103

Mən ona görə belə çərənçilik edirəm ki, heç bir şeyə baxmadan sənlə olmaq mənə xoşdur.

104

Sink və ya mis lövhələr üzərində turşular vasitəsi ilə şəkillər yaradan oymaçı *(tərc.)*.

105

Burada Kafka Milena ilə Vyanadakı görüşünü nəzərdə tutur.

106

Öz-özünə aydındır. *(çex.)*

Dul qadınları tovlayan yaşlı adam.

108

Aydındır ki, Milena saxta teleqram göndərməyə hazırlaşırmış. 109

Otto Pik (1887-1938) - Praqalı tənqidçi və yazıçı, "Praqa mətbuatı"nın redaktoru, Kafkanın çoxdankı dostu. 110

Frans Blyay (1871-1942) - Avstriya yazıçısı, satiriki və memuaristi.

111

Laqun - dənizdən ayrılmış göl.

112

Sol kənarında bu məktubdakı "heç bir şeyə baxmadan" həqiqətən lazım idi; məgər bu sözlər həqiqətən pisdir? "Baxmayaraq"da sanki büdrəyirsən, burada "dünya" da vardır, "heç bir şey"də isə dibsizliyə düşürsən, orada isə heç nə yoxdur. 113

Bu sadə və aydın faktdır. (çex.)

114

Bu sənə lazım olana qədər gözləyirsən. (çex.) 115

"Yazıq" və "dəhşətli dərəcədə kədərli". (çex.)

116

(Sol kənarında) Mən məzuniyyət vaxtı sənin gəlməyinin qətiyyən əleyhinə deyiləm. Mən bunun necə əleyhinə ola bilərəm və sən bunu haradan çıxarırsan?

Öz-özünə aydındır. *(çex.)*

117

Və sən gəlmirsən, çünki gözləyirsən ki, sənə nə vaxt lazım olanda gələsən. (çex.) 118

Sağlam ol, Frans. (çex.)

Ona görə də sənə yalançı teleqram göndərməyin mənası yoxdur, mən də onu göndərmirəm. *(çex.)*

120

Praqalı vəkil, d-r Paul Ştayn.

121

Qorxu, qüssə (yaxud arzu). (çex.)

122

(Sol kənarında) Sən saat onda gəlirsən, avstriyalı kimi gömrükdə ləngidilməyinə yol vermə, mən saatlarla təkrar edə bilmərəm ki, səninlə salamlaşmaq istəyirəm. 123

Söhbət qəribə bir praqalı aferistdən gedir: bir neçə adam Milenanın xətti ilə yazılmış, amma onun özünün yazmadığı məktublar almışdı.

124

"Bir az dolanmaq istərdinizmi?" (çex.)

125

Bəli. (*çex*.)

126

Yəhudilərin Bar-Mitsva bayramında on üç yaşına çatan oğlan uşaqları üçün mərasim keçirirlər.

127

Bu necə adamdır, başa düşmürəm... (çex.)

128

"Kavarna" (qəhvəxana) Milenanın hekayələrindən birinin adıdır.

129

Aydındır ki, Vyana xəz firmasının anonslarından söhbət gedir.

130

"Bu gözəldir, bu gözəldir!" (çex.)

Milena Sankt-Gilgendə idi.

132

133

Gündəlik qəzet.

134

Görünür ki, yuxarıda qeyd etdiyimiz fırıldaqçının məktubu nəzərdə tutulur.

135

Kafka Qmyundda Milena ilə görüşüb (Praqa və Vyana arasındakı sərhəd stansiyası) və bundan dərhal sonra Milena Sankt-Gilgen sanatoriyasına gedib.

136

Sən mənimsən. (çex.)

137

Əgər mümkündürsə, yaşayışını təsvir elə.

138

Bəli, mən bilirdim ki, onu oxuyanda nəyi isə unutmuşam, əvvəlcə yadımda olsa da, heç cür onu xatırlaya bilmirəm: temperatur?

Doğrudanmı temperaturun yüksəkdir? Onu ölçmüsənmi?

139

Buna cavab verməyini istəmirəm. (çex.)

Bu heç vaxt olmayacaq. *(çex.)*

140

Kafka özünün "Hökm" hekayəsinin Milena tərəfindən tərcüməsini nəzərdə tutur.

141

Oskar Baum (1883-1940) - Avstriya yazıçısı, Kafkanın yaxın dostlarından biri. 142

İncildəki bir rəvayətə işarədir. Gözəl Dəliləyə vurulan qəhrəman Samsonun gücü uzun saçlarındadır. Dəlilə kamil gözəlliyə çatandan sonra Samsonu dilə tutub saçlarını kəsir və onun gücünü əlindən alır.

Bir ailə şənliyində Kafka Milenanı müdafiə edib, göründüyü kimi, o bunu çox fərqli şəkildə yerinə yetirib. Biz onun özünə qarşı bu cür dəhşətlə özünü ittiham etməsinin konkret səbəbini tapa bilmirik.

144

Birinci giriş. *(çex.)*

145

Sənin atan barədə qorxularını mən qismən dəf edə bilərəm, bu günlərdə o barədə yazacağam.

146

"Sizin sevmək qüvvəniz yoxdur". (çex.)

147

Bibliyadakı Nuhun tufanı zamanı baş verən bir hadisəyə işarədir. Qurunu tapmaq məqsədilə buraxılan göyərçinlər torpağı tapa bilməyərək yenidən gəmiyə qayıtmışdılar *(tərc.)*.

148

Yellənən kreslo. 149

Xəyalatlar kitabı. (çex.) 150

Frans Verfelin dramı (1920).

151

16-19 noyabrda Praqada antisemit nümayişi olub.

152

"İyrənc məxluq". (çex.).

153

Albert Erenştayn (1886-1950) - Vyana şairi.

154

Kafka Avstriya yazıçısı Ernst Vaysın (1884-1940) "Tanya" dramını nəzərdə tutur.

155

Erenştaynın 1920-ci ildə çıxmış kitabında essedəki Karl-Krauss qocanın haqqındakı əhvalat nəzərdə tutulur. 156

Çarəsizliyin, kobudluğun simvoludur. Şəhərə səhra arabası ilə ilk girən adamın kral olacağını bildirən kahinlər yoxsul kəndli olan Qordini seçməli olurlar, çünki darvazadan ilk girən o olur. Qordi bundan sonra öz arabasını Zevsin məbədinə aparıb qurban verir və onu məbədə bağlayıb elə bir düyün vurur ki, tarixdə "Qordi düyünü" adı ilə tanınan bu düyünü uzun müddət heç kəs aça bilmir. Bu düyünü açan adam Asiyanın hökmdarı olacaqmış. Bunu bilən Böyük İsgəndər də düyünü açmaq üçün çox əlləşir, aça bilmir və səbri tükənərək qılıncla onu doğrayır. Doğrudan da İsgəndər fars hökmdarı olur, Asiyanın da hökmdarı olmaq üzrə idi. Amma 33 yaşında ikən qəflətən şiddətli qızdırmaya tutularaq ölür. Bu ölümü İsgəndərin Qordi düyünü qarşısında kobudluğu və səbirsizliyi kimi qiymətləndirirlər *(tərc.)*. 157

Çexiya aqrar partiyasının qəzeti.

158

Orta əsrlərdə Avropada mövcud olan, günahlardan təmizləmək üçün özünü qamçılatmaq ayini. 159

Praqadakı bulvarın adıdır. 160

Orada Kafkanın atasının mənzili yerləşir.

161

"Sən mənə görə sındın". *(çex.)*

162

Oyqen Levine (1883-1919) - Münhen Şura hökumətinin üzvü.

163

Əgər mən, hər halda, sanatoriyaya gəlsəm, əlbəttə ki, sənə məlumat verəcəyəm. 164

Axırıncı məktub Milenanın evinə ünvanlanmışdı.

165

Avstriya yazıçısı AdalbertŞtifterin (1805-1868) romanı.

166

Georq Kayzer (1878-1945) - alman dramaturqu və ekspessionisti.

167

Plan adlı yerdə Kafka 1922-ci il iyunun axırından sentyabrın ortasına qədər yaşamışdır. 168

Kafka Erxendorfun "Vida" şeirini nəzərdə tutur.

169

Kafkanın sevimli şeiri olan "Çarxlı dəyirmanın yanındakı yolçu" şeiri nəzərdə tutulur. 170

Kafka "Tribuna"dakı 2 aprel 1922-ci il nömrəsində dərc olunmuş "Bahar şlyapaları" qeydlərini nəzərdə tutur.

171

Mlındakı Şpindler dağ kurortu (Çexiya).

172

Şarl Lui Filipp. 173

"Böyük yolda" *(çex.)* -görünür, kitabın adıdır.

174

İngilis yazıçısı Robert Stivensonun (1850-1894) "Şən oğlanlar və başqa macəralar" kitabındakı novella. 175

Maks Brodun 1922-ci ildə çıxmış romanı.

176

Kafka həyatının son ilini birgə yaşadığı Dora Dimantdan bəhs edir.

Hər şeydən əvvəl, Milena, bu mənzil məsələsi nə olan şeydir, Siz bazar günü oradan yazırdınız? Geniş və boş? Siz tənhasınız? Gecə və gündüz?

Yəqin ki, hər halda, gözəl bazar günü, üzləri "yazılmış vərəqlərə oxşar" olan "yad adamlara qarşı" orada tənha oturmaq kədərlidir. Mənim vəziyyətim isə nə qədər yaxşıdır! Mənim otağım balaca olsa da, amma burada əsl Milena vardır, o, bazar günü Sizdən qaçıb gəlmişdi və inanın ki, onunla olmaq bir möcüzə idi.

Siz "heç kim"lilikdən gileylənirsiniz. Başqa vaxtlar belə deyildi və belə də olmayacaqdır. Bircə cümlə (o hansı məqsədlə deyilmişdi?) Sizi dəhşətə gətirir, axı o aydın idi və bu mənada da onun bərkdən, yaxud öz-özünə deyilməsi nəzərdə tutulmur, özünün iblislərindən əzab çəkən insan tamamilə şüursuz olaraq yaxınlarından qisas alır. Belə dəqiqələrdə Siz istəyirsiniz ki, o tam qurtulsun, amma o xilas ola bilmir, onda özünüzü "heç kim" hesab edirsiniz. Bu cür hörmətsizlik etmək kimə icazə verilib? Axı bu heç kəsə, o cümlədən, məsələn İsaya da müyəssər olmayıb. O yalnız "Məni təqlid et" deməyi bacarmışdı və sonra da (sitatlarım tamamilə düzgün olmaya da bilər) özünün böyük sözünü demişdi: "Mənim sözlərimlə hərəkət elə, onda görərsən ki,

bunlar insan sözü deyil, Tanrı sözləridir" və yalnız onu təqlid edənlərdən İblisi qovurdu. Özü də həmişəlik yox, çünki əgər onlar insandan ayrılırdısa da, o təsirini və "faydalılığını" itirirdi. Açığını desək, - bu, Sizinlə razılaşdığım yeganə şeydir - o da aldanmağa uymuşdu.

CUMƏ

Bu gün axşamtərəfi ilk dəfə uzun gəzintini təkbaşına başa vurdum, adətən ya başqa insanlarla gəzişir, ya da çox vaxt evdə uzanırdım. Bura necə yerlərdir! İlahi qüvvələr və yazıq, heç bir fikir yürütməyə qadir olmayanlar, Milena, əgər burada olsaydınız! Desəydim ki, yalnız Siz çatışmırsınız, aldatmış olardım; mən haradayamsa, siz də oradasınız, hətta bir az da güclü şəkildə; bu bitkin və

əzabverici bir sehrdir - Siz elə mənim kimi, hətta bir az da artıq şəkildə burdasınız, başqa sözlə, burada mən çatışmıram və Siz soruşursunuz: "O haradadır? Məgər o yazmamışdımı ki, Meranda olur". F.
Siz mənim iki cavab məktubumu almısınızmı?

Əziz Milena xanım, günlər çox qısadır, çünki o Sizinlə və digər başqa əhəmiyyətsiz xırdalıqlarla ötüb, indi isə sona çatır. Lap az qalır ki, əsl Milenaya məktub yazım, o yenə də bir əsl, bütöv günü burada - otaqda, balkonda, buludların arasında idi.

Son məktubunuzdakı təzəlik, ovqat və dərd-qəmsizlik haradandır? Nə isə dəyişilib? Yaxud da səhv edirəm və buna fərəhsiz, adi şeylər səbəb olub? Bəlkə də siz bütün bu şeyləri də, özünüz kimi nəzarət altına almısınız? Nə məsələdir?

Məktubunuz birbaşa məhkəmə sənədi kimi başlanır, doğrudan da belə hesab edirəm. Və Siz haqlı olaraq tənə vurursunuz: *"Ci ne tak docela pravdu"13 , "dobre mineno”14* barədə olduğu kimi, mahiyyətcə burada da haqlısınız. Bu öz-özlüyündə aydındır. Əgər yazıldığı kimi həyəcanlansaydım, yelləncəkdən bezərdim və heç bir maneə, bir gün sonra Sizin otağınızda olmaqdan məni heç bir şey saxlaya bilməzdi. Bu, yeganə şeydir ki, həqiqəti yoxlaya bilərsən, qalanları isə, o cümlədən bax bu da - danışıqlardır. Yaxud da hislərə əsaslanan apelyasiyadır, lakin o susur və əllərini sallayaraq oturur.

Həmçinin, təsvir etdiyiniz insanların hamısı gülməlidirlər (məhəbbətlə yazdığınız üçün belə qəribədirlər), bəs onlar - sizə suallar verənlər və digər çoxlu adamlar Sizi bezdirmirlər ki? Siz ki hökm çıxarmalısınız, axı sonda məhz qadın hökm verir (Paris haqqında

əfsanə bu fikrə azca kölgə salır, amma sonda Paris bildirir ki, hansı ilahənin sözü qətidir). Ümumiyyətlə, iş gülünclükdə deyildir, ola bilsin ki, gülünclük onlarda bir dəqiqəlikdir, sonradan onlar ciddi və yaxşı olurlar. Sizi bu insanlara bağlayan həmin bu ümid deyilmi? Kim deyə bilər ki, hakimlərin gizli fikirləri ona bəllidir, amma mənə elə gəlir ki, gülünclüyü əfv etməniz onları başa düşdüyünüz, sevdiyinizdən irəli gəlir və siz onları sevgi ilə nəcibləşdirirsiniz. Bununla yanaşı olaraq, bu təlxəklik başqa şeyin yox, itin ziqzaqşəkilli qaçışının mahiyyətidir, sanki itin sahibi heç bir maneəyə baxmadan qətiyyətlə düz yolla irəliləyir. Lakin sevginizdə, yəqin ki, bir məna vardır, buna tamamilə əminəm (sadəcə, mən buradakı qəribəliyi görməzliyə vuraraq onu soruşmaya bilmirəm) və yalnız bu cür imkanı təsdiq etmək üçün bir iş yoldaşımın sözlərini xatırlayıram. Bir neçə il əvvəl mən tez-tez balaca, dar qayıqda Vetava boyunca üzür, avarla axının əksinə, daha yuxarılara qalxır, sonra isə qayığın darısqal dibində uzanaraq, dalğaların iradəsinə tabe olaraq, körpülərin altı ilə üzürdüm.

Yuxarıdakı körpüdən baxanlara bu mənzərə, mənim arıqlığıma görə, yəqin ki, çox gülməli görünürdü. Nə isə, məni körpüdən görən həmin yoldaşım situasiyanın komizmini nəzərə çatdırandan sonra öz təəssüratını belə yekunlaşdırdı: Qiyamətdə dəhşətli məhkəmənin başlanmasından öncə sanki tabutlar aralanmış, lakin ölülər hələ qalxmamışdır. ***

Kiçik bir gəzinti həyata keçirdim (sizə xatırlatdığım, lakin hələ də həyata keçirə bilmədiyim həmin böyük gəzinti yox) və demək olar ki, üç gün yorğunluqdan (tamamilə xoşagəlməz olmasa da) heç nə eləyə bilmədim, hətta yaza da bilmədim, yalnız *məktubları, məqalələri15*

oxuyurdum, həm də bir dəfə yox, çünki hesab edirdim ki, belə nəsr nümunələri təkcə özün üçün deyildir, insanın həyat yolunun göstəricisidir, həmin yolla - gözlərinin açıldığı anda dərk edənədək ki, qətiyyən hərəkət etmirsən, sadəcə, öz labirintində azıb dolaşırsan, getdikcə adi vəziyyətdən daha artıq həyəcanlanır və azırsan, xoşbəxtcəsinə gedirsən. Amma oradakılar, nə olursa-olsun, saysızhesabsız müəllifciyəzlər tərəfindən yazılmayıb. Bunlardan sonra Sizin yazılarınıza, Sizin qədər etibar bəsləyirəm. Çex dilində (mənim zəif anlamıma əsasən) mənə yalnız bircə musiqili dil nümunəsi məlumdur - Bojena Nemtsovanın16 musiqisi və indi də bu yeni musiqi, amma yaranışdan həmin birinci kimidir-qətiyyətli, qəribə, zərif və hər şeydən əvvəl, ağlın bütün bəsirəti ilə birgə. Bu, son illərmi həyatına daxil olmuşdur? Siz əvvəllərdə yazırdınızmı? Əlbəttə, deyə bilərsiniz ki, bu, səhvən mənim ağlıma gəlmişdir və siz haqlısınız, doğrudan da bu belədir, çünki şəksiz surətdə bu mənim əvvəlcədən beynimə girmişdir, amma bu yalnız ona görə belədir ki, bu qeydlərdə olanları (yeri gəlmişkən, dağınıq və bəzi yerləri də qəzetin pis təsirlərinə məruz qalıb) nəinki mən ilk dəfə tapmışam, həm də mən onu yenidən tapmışam. Mənim natamam mühakimələrimə dərhal irad tuta

bilərsiniz ki, iki mətn arasında çaşıb yoldan çıxmışam (Sizin modalar haqqındakı məqalənizin qəzet kəsiklərini nəzərdə tuturam). Məmnuniyyətlə bu kəsikləri özümdə saxlayardım ki, heç olmasa onları bacıma göstərim, amma onlar Sizə təxirəsalınmadan lazım olduğu üçün məktuba əlavə edirəm, qıraqlarda mən bəzi hesablamalar görürəm. Ərinizi başqa cür qiymətləndirirdim. Kofe stolu arxasında o

mənə anlaqlı, başa düşən, sakit, az qala atalıq qayğısı göstərən, xülasə, qapalı (amma o qədər yox ki, yuxarıdakı keyfiyyətlərə kölgə sala bilsin) bir adam təsiri bağışlamışdı. Ona həmişə hörmətlə yanaşmışam, amma onun yaxınlarını tanımaq fürsətim olmamışdı, nə dostlarını, - xüsusən də Maks Brodu (onun haqqında yüksək fikirdədirlər) - nə də onun qabiliyyətlərini. Mən onun haqqında düşünəndə daim bunu xatırlayıram. Bir dəfə isə, xüsusən, onun möcüzəli adam olması xoşuma gəlmişdi: istənilən kofe məclisi vaxtı ona bir neçə telefon zəngi olurdu. Görünür, kimsə yatmaq əvəzinə aparatın önündə mürgüləyərək başını kreslonun söykənəcəyinə qoyur və zaman-zaman təşviş içində oyanaraq ona zəng edirdi. Mənə bu vəziyyət elə tanışdır ki, yəqin ona görə bu haqda yazıram. Sizin Frans K.

Necə düşünürsünüz? Bazar gününədək məktub almaq mənə müyəssər olacaqmı? Axı ehtimal vardır! Amma məktublara olan bu ehtiras çox yöndəmsiz və yersizdir. Məgər bir məktub, bir xəbər kifayət deyilmi? Əlbəttə ki, kifayətdir, hər halda yelləncəkdə bu məktubu içirsən, təkcə onu bilirsən ki, durmadan onu içirsən. Milena, bunu izah edin, müəllimə!

CUMƏ AXŞAMI

İndi mən bundan başqa heç bir şey haqqında danışmaq istəmirəm (mən heç məktubunuzu əməlli oxumamışam, yalnız nəzərlərimi, mığmığanın şam ətrafında uçuşu kimi sürətlə gəzdirmişəm, bir neçə dəfə başım dumanlanıb, yeri gəlmişkən, müəyyən edə bildim ki, bunlar iki müxtəlif məktublardır - biri yalnız dəhşətə gəlmək üçün, hey içmək üçün, digəri isə, görünür, sonradan yazılıb): bir tanışına rast gələndə gərgin maraqla soruşursan ki, iki dəfə iki neçə eləyər, onda bu, dəlinin

sual verməyinə bənzəyər, lakin ibtidai məktəbin birinci sinfində o, tamamilə yerində verilmiş sualdır. Milena, mənim sizə sualımda hər ikisi - həm dəlixana, həm də ibtidai məktəb birləşir, nə yaxşı ki, heç olmasa ibtidai məktəb də vardır. İş bundadır ki, kimsə mənə yaxınlıq edərkən bir başqası ilə *(Məsələn, Vaysla)17* digər insani münasibətləri pozursa, insan təfəkkürünün məntiqinə əsasən, o, digərini (yəni məni) azdırdığını, başqa sözlə, bir möcüzə elədiyini düşünür.

Niyə belə şeyləri düşünərək, onsuz da həyatımdakı bulanıq suyu bir az da bulandırıram. Qarşımdakı mümkün ola biləcək yolların bir hissəsini təsadüfi bir baxışla görürəm və əvvəlki olduğum yerdən nə qədər böyük, keçilməz məsafədə olduğumu (başqa birisini yox, məhz özümü!) dərk edirəm (bu, ciddilik deyildir, yaxşı düşünsəniz məhz təkəbbürdür) , və budur, Sizin məktubunuzu aldım, Milena. Bu fərqi necə izah etməli? Kimsə çirkabda uzanaraq ölüm yatağında can üstədir və bütün mələklərdən ən nəcibi olan ölüm mələyi gəlir, ona baxır. Bu adam, ümumiyyətlə, ölməyə cəsarət edəcəkmi? O qıvrılır, çevrilir, yataqda eşələnir, amma ölə bilmir. Xülasə, yazdıqlarınıza inanmıram, Milena, amma bütün bunlara sübutum yoxdur, heç Dostoyevskiyə də həmin gecə heç kəs, heç nə sübut edə bilməzdi, mən isə tamamilə inanıram ki, onu sənə sübut etsəm, həyatım bir gecə uzanardı, yalnız onu sübut edə bilərəm (siz bir dəfə yelləncəkdəki adamı təsəvvür etmişdiniz), amma mən özümə inanmıram. Bax, buna görə də bu sual gülməli *palliativ18idi.* - Siz, yəqin ki, bunu dərhal başa düşdünüz. - Müəllim ya yorğunluqdan, ya da başqa bir səbəbdən şagirdin düzgün cavabını eşidərkən qəsdən özünə tələqin edir ki, şagird doğrudan da fənni başa düşür, amma şagird cavabı hansısa qeyri-təbii bir yolla bilir

və heç cür fənnin mahiyyətini başa düşə bilməz, çünki belə izahı yalnız müəllim ona başa sala bilər. Amma şikayətlənməklə, nəvazişlə, xahişlə, arzu ilə və ya sızıldamaqla yox (Sizdə son beş-altı məktub qalırmı? Onlar mənzərəni tam əks etdirirlər), başqa cür isə... Sualı açıq saxlayaq.

***

Qeyd etmişdim ki, öz məktubunuzda o qızı da xatırlatmısınız. Bütün şübhələri dərhal dağıtmaq üçün belə deyirəm: əgər ağrılardan bir dəqiqəlik yayına bilsəniz, bu qıza böyük yaxşılıq etmiş olarsınız. Mən, sadəcə, özüm üçün təsəvvür edə bilmirəm ki, başqa nə cür o məndən ayrıla bilər. Düzdür, onun bir cür xəstə hissiyyatı var idi, amma o qətiyyən görmədi ki, yanımdakı yerin istiliyi (həyəcanlandırıcı, lakin onun üçün olmayan) haradandır. Xatırlayıram ki, Vrşovitsedəki birotaqlı mənzilin taxtında yanaşı oturmuşduq (deyəsən, noyabr idi və bir həftə sonra mənzil yaşayış yerimiz olacaqdı), o xoşbəxt idi ki, belə əziyyətdən sonra, heç olmazsa bu mənzili tapmışdı, onunla bir yerdə gələcək əri oturmuşdu (təkrar edirəm, nikah təşəbbüsü təkcə mənə aid idi, təkcə mən toy etməyə təkid edirdim, o isə yalnız qorxaqcasına mənə tabe olurdu, sonra isə bu fikrə adət elədi). Bu səhnənin bütün təfərrüatlarını götür-qoy edərək, onların xəstə ürəyin çırpıntılarından daha çox olduğu qənaətinə gəlirəm və inanıram, hər bir insanın kor ola biləcəyini başa düşürəm (həmin dövr məndə aylarla davam etmişdi, açığı, mən təkcə kor deyildim, həm də məqsədli, hesablanmış nikahların, sözün əsl mənasında, belə olduğunu təsəvvür edirdim), bəli, bütün hallarda gözlərin tutulmasının sonu vardır və süd stəkanını dodaqlarıma aparmağa qorxuram, çünki o, təsadüfün yox, düşüncənin

məhsuludur, tamamilə mümkündür ki, burnumun önündə sınsın, qəlpələri isə üzümə batsın.

Sual: Sizi nədə günahlandırırlar?

Bəli, bəzən elə hallar olub ki, mən də insanları bədbəxt etmişəm, amma təbii ki, onlar bu haqda məni daim günahlandırmırlar, onlar sadəcə susurlar, hətta mənə belə gəlir ki, onlar qəlbinin dərinliyində də mənə kin bəsləmirlər. İnsanlar arasında bu cür müstəsna vəziyyətim vardır.

Lakin bütün bunlar bu səhər məni çulğalayan fikirlə müqayisədə əhəmiyyətsizdir, ona görə də mən sehrlənmiş kimi yataqdan qalxdım, necə geyindiyimi, necə yuyunduğumu hiss eləmədim, elə bu manera ilə üzümü qırxacaqdım, lakin tezdən gələn qonaq məni bu vəziyyətdən çıxartdı.

Qısaca desək, iş belədir: müvəqqəti olaraq ərinizi tərk edirsiniz, burada yeni heç nə yoxdur, axı siz bir dəfə belə etmişdiniz! Bunun səbəbi xəstəliyiniz və onun nevrozudur (Siz onun həyatını da yüngülləşdirirsiniz) və nəhayət, Vyana şəraiti. Hara getməyi düşünəcəyinizi bilmirəm, yaxşı olardı ki, Bohemada uzaq, sakit yerlərin birinə gedəsiniz. Mənim üçün hər şeydən yaxşısı odur ki, qarışmayım və gözə görünməyim. Bunun üçün zəruri olan pulu məndən götürə bilərsiniz (Qaytarma şərtlərini biz razılaşarıq. Əlavə bir gəlirimin adını açıqlayıram ki, mən ondan pul ala bilərəm: zirək bir kontor qulluqçusu kimi işləyəcəyəm, yeri gəlmişkən, xidmətlərim çox gülünc olsa da, həddən artıq yüngüldür, hətta təsəvvür edə bilməzsiniz ki, nəyə görə pul alıram, bu barədə anlayışım belə yoxdur). Əgər bir

aydan sonra, yenə də çatmazsa, siz çox güman ki, əlavə məbləği əldə edə bilərsiniz, yəqin ki, o çox kiçik məbləğ olar.

Bu ideyanı, daha çox tərifləməyəcəyəm, amma öz mühakimələrinizi söyləmək imkanı verildiyi üçün mənə nümayiş etdirəcəksiniz ki, taleyinizi digər planlarıma uyğunlaşdırmaq yolverilən dirmi (çünki bu ideyanın qiyməti mənə bəllidir).

Sizin Kafka

Mən bu dəhşətli, amma tamamilə dəhşətli olmayan məktubu oxuduğum vaxt, onu aldığım üçün mənə sevinc bəxş etdiyi barədə sizə təşəkkür etmək çox da asan deyildir. Bayram günü olduğundan adi poçt heç cür gəlməyəcəkdir, heç sabah - cümə günü də çətin ki, Sizdən bir xəbər olacağını düşünmək mümkündür, ola bilsin ki, kar sükut dövrü çatıb, amma Sizlə bağlı şeylər çətin ki, kədərli olmayacaq, çünki Siz axırıncı məktubunuzda çox güclü idiniz və sizə yelləncəkdən alpinistlərə baxdığım kimi baxırdım (əgər buradan çox-çox hündürdəki qarda onları görmək mümkünsə...) və düz nahardan əvvəl bu məktub gəldi, onu özümlə gəzdirə bilərəm, cibimdən çıxarıb stolun üstünə qoya bilərəm, yenidən cibimdə gizlədə bilərəm, qısası, adətən, barmaqlarım məktubla oynayır, bu uşaqlara baxıb fərəhlənirəm. Qarşımdakı generalı, mühəndisi (əla, mehriban adamlardır) tanımıram, onları çətin eşidirəm, bu gün yenidən yemək yeməyə başladım (dünən, ümumiyyətlə, heç nə yeməmişdim), yemək mənə çox da mane olmadı, nahardan sonrakı hesab tapşırıqları, qısa məsələlər mənə onların həllindən daha asan görünürdü, onların uzun-uzadı həlli vaxtı, yaxşı ki, geniş açılmış pəncərədən şam ağacları, günəş, dağlar, kənd (hər şeydən əvvəl, onların arxasında gizlənən Vyana) mənzərələri görünürdü.

Xülasə, sonra mən diqqətlə məktubu oxudum, daha doğrusu, bazar gününün məktubunu diqqətlə oxudum, məktubun oxunuşunu bazar ertəsindən ta Sizdən xəbər alınana qədər uzadıram, orada elə şeylər vardır ki, onları bütün diqqətimlə oxumaq iqtidarında deyiləm, görünür ki, mən hələ tam sağalmamışam, həm də bu məktub artıq köhnəlib - mənim hesabımla beş məktub yoldadır, onlardan ən azı üçü artıq əlinizdə olmalıdır, hətta onlardan yenə də biri itsə belə, sifariş kağızları gedir. İndi isə mənə yalnız lazımdır ki, Siz *dərhal və yenə də buraya* cavab yazasınız, bircə söz də kifayətdir, amma o elə söz olmalıdır ki, bazar ertəsi göndərdiyiniz məktubdakı bütün eyhamların tikanları qırılsın və onları oxumaq mümkün olsun. Yeri gəlmişkən, bu məhz o bazar ertəsidir ki, burada (heç də ümidsiz vəziyyətdə olmadan) öz mühakimələrimi bərk-bərk silkələyirdim.

İndi isə digər məktub. Amma artıq gecdir, bir neçə qeyri-müəyyən razılaşmalardan sonra mən həmin mühəndisə qəti vəd etdim ki, uşaqların buraya gətirilə bilməyən böyük şəkillərinə baxmaq üçün gedəcəyəm. O, olsa-olsa, bir az məndən böyükdür, bavariyalıdır, fabrikantdır, alim adamdır, lakin şən və ağıllıdır, onun beş uşağı var imiş, yalnız ikisi sağdır (öz aramızda qalsın, onun arvadına görə daha uşaqları olmayacaqdır), oğlanın artıq 13 yaşı vardır, qızın isə 11. Qəribə dünyadır! O isə bunlara tab gətirə bilir, Siz belə tarazlığa etiraz etməməlisiniz.

Sizin F.

Yenidən sabah açıldı. Amma birisi gün olsaydı, onda "nifrətsiz" surətdə onsuz ötüşərdik.

Mən yenə bir neçə dəfə bazar günü yazdığınız məktubu oxudum, o, birinci dəfə oxuduqdan sonra düşündüyümdən daha dəhşətlidir. Milena, üzünüzü əllərimin içinə alaraq düz gözlərinizə baxmaq lazımdır ki, başqasının gözlərində özünüzü görəsiniz və bundan sonra bir daha orada yazdıqlarınızı ağlınıza belə gətirməyəsiniz.

CUMƏ

Axı bu nahaq dünya nə vaxt düzələcəkdir? Gündüzlər əzab çəkmiş başınla gəzirsən, - buranın dağlarında elə gözəl yerlər vardır ki, sanki sən özün də belə gözəl olmaq istəyirsən - yataqda isə yuxu əvəzinə başına sadəcə gözəl fikirlər gəlir. Bu gün, məsələn, dünənkilərə əlavə olaraq, ağlıma gəldi ki, yayda Stasyanın19 yanına getməyiniz pis olmazdı. Axı yazmışdınız ki, o, kənddə yaşayır. Dünən axmaqcasına yazmışdım ki, guya başqa aylarda sizin pulunuz çatmayacaq, bu, boş şeydir, onun korluğunu siz heç vaxt çəkməyəcəksiniz.

Çərşənbə axşamının səhər və gecə yazılmış məktubları mənim məktublarımın məxsusi və təsadüfi yox, lazımlı — olduğunu təsdiq edir, çünki təklifin qiymətli olduğu istisnasız olaraq hər yerdə doğrulması ilə təsdiqlənir. Əgər orada biclik, kələk vardırsa, - bu harda yoxdur ki, amma həmin acgöz vəhşini zərurət məqamlarında tamamilə kiçiltmək lazımdır - onda mən onu cilovda saxlayacağam, bu işdə hətta Sizin əriniz də mənə tamamilə etibar edə bilər. Mən nəyi isə şişirtmirəm. Və hər halda mənə etibar etmək olar. Gözünüzə görünməyəcəyəm, nə indi, nə də sonra. Siz kənddə yaşayacaqsınız. Siz ki oranı sevirsiniz (bu barədə biz bir-birimizə oxşayırıq, dağların qonşuluğundakı sakit yerləri və orada mütləq göl və çayların olmasını mən hər şeydən çox sevirəm).

Məktublarınızın təsirini qiymətləndirmirsiniz, Milena. Bazar ertəsinin məktubunu *(jen strash o Vas20)* hələ axıra qədər oxumamışam (bu gün səhər mən müəyyən uğurlar əldə etməklə buna cəhd etdim, lakin mənim təsəvvürlərimə görə həmin məktub artıq, azca da olsa, tarixə qovuşmuşdur, amma hər halda, mən onu oxuyub qurtara bilmədim). Lakin çərşənbə axşamının məktubu və qəribə açıqcadakı - kofe verilən yerdə yazılmış? - Verfelin21 ünvanına siz tərəfdən irəli sürülən ittihamlara isə mən hələ cavab verməliyəm, axı

Sizə, xüsusi olaraq, heç bir cavab yazmıram, Siz isə çox yaxşı cavablar yazırsınız, bu çox yaxşıdır, bazar ertəsi yazılan məktubunuzdan ötəri keçirdiyim yuxusuz gecələrə baxmayaraq, mənə kifayət qədər sakitlik və inam təlqin edir. Əlbəttə ki, çərşənbə axşamının məktubunda da iti tikanlar vardır və o, bədənimə batır, amma onları sən çıxarırsan. Bu yalnız bir dəqiqəlik həqiqətdir, xoşbəxtlik və ağrı arasında titrəyən dəqiqənin, yoxsa mən dözə bilərdimmi? F.

Xahiş edirəm, əgər sizə bu ağır gəlmirsə, mənim xətrimə Verfelə nə isə bir xoş söz deyin. Siz, təəssüf ki, nədənsə, bəzi şeylərə cavab vermirsiniz, məsələn, Sizin yazılarınız barədəki suala.

Bayaq yenidən yuxuma girmişdiniz, yuxu uzun idi, amma mən, demək olar ki, heç nə xatırlamıram. Mən Vyanada idim, amma ora haqqında heç nə yadımda qalmayıb, sonra isə Praqada peyda oldum və ünvanınızı unutdum, həm də nəinki küçənin adını, hər şeyi, hər şeyi unutdum. Nədənsə Şrayber adı beynimdə canlanırdı, amma bilmirdim ki, onunla nə etməliyəm. Ola bilərdi ki, sizi tamamilə itirə bilim.

Məyusluqla cürbəcür hiylələr düşünürdüm, amma bilmirəm, nədənsə onlar həyata keçmirdilər, onlardan yalnız birini xatırlayıram. Zərfin

yuxarısında "Milena" yazdım, aşağısında isə qeyd etdim: "Xahiş edirəm ki, bu məktubu çatdırasınız, əks halda maliyyə orqanları böyük itkilərə məruz qalacaqdır". Mən belə hədələrlə bütün dövlət strukturlarını axtarışınıza cəlb etmək istəyirdim. Yaxşı biclikdirmi? Və bunlar qoy səni mənə qarşı qaldırmasın. Mən yalnız yuxuda belə qorxunc oluram.

Məktubu yenidən zərfdən çıxardıram. Xahiş edirəm, mənə yenə də - həmişə yox, mən bunu arzulamıram - bir daha "sən" de.

ÇƏRŞƏNBƏ AXŞAMI

Hesab edirəm, məktub şənbə günü yazılmışdır, bazar gününə baxmayaraq, artıq çərşənbə axşamı alınıb, həmin gün də poçtalyonun əlindən qapılıb. Poçt rabitəsi belə, əla işləyir və mən bazar ertəsi gedəcəyəm, belə xidmətdən də yararlana bilməyəcəyəm.

Sizə məktubların çatmadığı üçün narahat olmağınız Sizin tərəfdən necə də lütfkarlıqdır, bəli, keçən həftə mən bir neçə gün yazmamışam, lakin şənbədən başlayaraq mən gündəlik olaraq yazacağam, beləliklə, Siz üç məktub alacaqsınız, müqayisəyə əsasən, məktub almadığınız günlər Sizə xoşbəxtlik kimi görünəcəkdir. Hesab edəcəksiniz ki, qorxunuz tamamilə əsaslıdır, başqa sözlə, Sizə qarşı, ümumiyyətlə, çox acıqlanmışam, xüsusən də məktublarınız qətiyyən xoşuma gəlməyib, felyetonlar məni qıcıqlandırır və s.

Yox, Milena, Sizin bütün bunlardan ehtiyatlanmağınıza əsas yoxdur, amma əksi olsaydı, narahat olmağa əsasınız olardı.

Məktubunuzu almağım və ona yuxusuz başla cavab yazmaq zərurəti necə də yaxşıdır! Nə yazacağımı bilmirəm, sadəcə, gözlərinizin

işığında sanki gözəl və xoşbəxt gün kimi gözəl, xoşbəxt olan dodaqlarının nəfəsində sətirlər arasında gəzişirəm. Yorğunluqdan başım ağrısa da, bazar ertəsi buradan Münhen vasitəsi ilə keçib getmək lazımdır. Sizin F.

Siz mənə görə var qüvvənizlə evə qaçdınız? Bəli, lakin Siz xəstə deyilsinizmi və məgər mən daha Sizə görə narahat olmuram? Əslində də, mən daha narahat olmuram - yox, mən yenə o vaxtkı kimi şişirdirəm, lakin həyəcanlanıram ki, guya burada nəzarətim

altındasınız, sanki mən südü içirəm və eyni zamanda da onu Sizə içirirəm, bağdan gələn hava ilə nəfəs alıram və eyni zamanda onunla Sizi də möhkəmləndirirəm, yox, bunlar azdır, mən onlarla özümdən daha çox Sizi möhkəmləndirirəm.

Ehtimal ki, bəzi səbəblərə görə, mən bazar ertəsi yox, bir az gec gedəcəyəm, amma belə olan halda birbaşa Praqaya, çünki bu yaxınlarda Bosen-Praqaya sürət qatarı xətti açılıb. Əgər siz yenə də bir neçə sətir yazmaq istəyirsinizsə, tamamilə mümkündür; əgər məktublarınız mənə çatmasa, onları Praqada mənə göndərəcəklər.

Mənə qarşı xeyirxah olaraq qalın!

F.

Hər halda insan - axmaqlıq nümunəsidir. Mən Tibet haqqında kitab oxuyuram, Tibet sərhədindəki dağlarda olan qəsəbənin təsvirinə çatıram və birdən ürəyim ağırlaşır, Vyanadan belə uzaq olan o kəndciyəz mənə çox yetim, kimsəsiz görünür. Burada mən Tibetin

Vyanadan uzaqlığını axmaqlıq adlandırıram. Məgər doğrudanmı belə uzaqdır?

Görürsünüzmü, Milena, səhərdir, mən yelləncəkdə uzanmışam, lütəm, bədənimin yarısı gün altında, yarısı isə kölgədədir, axşam, demək olar ki, yatmamışam. Əgər mən hey səni düşünürəmsə, əgər mən, eynilə yazdığınız kimi, "əllərə doğru üzərək" yüngülcə başınızın üstündə dövrə vururamsa, elə bir dəhşət içindəyəm ki, məsum uşaqlar ikən (indi artıq bunun əhəmiyyəti yoxdur) deyilənlərə əsasən, gələcək

peyğəmbərlər birdən onları çağıran səsi eşidib bu səsin niyə bu cür dəhşətli səsləndiyini başa düşməyib - ya qulaqları zəif imiş, ya da səsi çox qüdrətli imiş, amma bu "uşaqlar" başa düşməyiblər ki, səs artıq qələbə çalıb və öncədən göndərilmiş qorxu vasitəsi ilə onlarda özünə yer eləyib. Düzdür, bu hələ onların peyğəmbərlik adı haqqında heç nə demir, axı səsi başqaları da eşidib, amma onlar buna layiqdirlərmi, ən layiqli cavab xətrinə qətiyyətlə "yox" demək lazımdır. Belə dəhşət içində yata bilərəmmi, ümumiyyətlə. Mən beləcə uzanmışdım ki, hər iki məktubunuz gəldi.

Deyəsən, bir xüsusiyyətimiz eynidir, Milena: biz elə ürkək və qorxağıq ki, bütün məktublarımız bir-birindən fərqlidir, demək olar ki, hər biri sonrakından, xüsusən də cavab məktubundan qorxuruq. Siz ki təbiətən belə deyilsiniz, bu, dərhal görünür, mən isə, hətta təbiətən bu cür olmasam belə, bu artıq təbii hala keçib və yalnız ümidsizlik, qəzəb və dəhşət hislərinin coşması vaxtı sovuşur.

Bəzən məndə elə təəssürat yaranır ki, bizim üzbəüz iki qapısı olan bir otağımız var, hər birimiz qapı dəstəyindən yapışmışıq, birimiz kirpiyimizi qırpan kimi, o birimiz qapı arxasında yox olur və birinci bircə söz deyən kimi, o biri növbəti saniyədə içəri girib qapını ardınca qapayır və gözdən itir. Əlbəttə, o, qapını yenidən açacaq, çünki bura onların otağıdır, buranı tərk etmək mümkün deyildir. Əgər birinci olan ikincidən fərqli olaraq sakitcə, o tərəfə boylanmadan, otağa girməyə tələsmədən, sanki o, başqalarından heç nə ilə fərqlənmirmiş kimi

hərəkət eləsə (amma başqa vaxtlar o da öz qapısında özünü o birisi kimi aparırdı), onda bəzi hallarda onlar hər ikisi qapı arxasında qalarlar və bu gözəl otaq boş olar.

Bundan əzablı bir anlaşılmazlıq yaranır. Milena, şikayətlənirsiniz ki, bəzi məktublarımı nə qədər silkələyirsən də heç nə tökülmür, səhv etmirəmsə, bunlar məhz o məktublardır ki, orada mən Sizə çox yaxın olmuşam, coşmuş qanımı (elə Sizin qanınızı da) sakitləşdirmişəm, onlarda meşə dərinliyindəki kimi elə

sakitləşdirici dinclik vardır ki, o vaxt həmin sözlərdən başqa heç nə deməyə həvəsin olmur, ağacların təpələri arasından yalnız göyü görə bilirsən və bir saat sonra yenə də həmin sözləri təkrar edirsən - əslində, haqlısınız, bunda *"ani jedine slovo, ktere by nebylo velmi dobre uvazeno".22* Bu cür həzz uzun sürməyəcəkdir, bu bir anlıqdır-yenidən yuxusuz gecələr öz şeypurunu gurladacaqdır.

Həm də, Milena, yanınıza necə gəldiyim haqqında, otuz illik səyahəti (yəhudi olduğum üçün o hələ çox davam edəcəkdir) necə keçirdiyimi düşünün və mən sanki yolun döngəsində təsadüfən Sizi görürəm. Beləsini görməyi heç arzu da edə bilməzdim, amma bu indi, bu qədər gecikmiş vaxtda baş verəndə, Milena, qışqıra da bilmirəm, daxilimdə heç nə qışqıra bilmir, minlərlə axmaq şeylər də danışa bilmirəm, məndə elə şeylər də yoxdur (başqa axmaqlıqları nəzərə almasaq da, məndə belələrindən minlərcə vardır), düşünün ki, mən o vaxt diz üstə çökdüyümü, yalnız gözlərim önündə Sizin ayaqlarınızı gördükdə və onlara pərəstişkarcasına toxunduqda dərk edirəm.

Və məndən səmimilik tələb etməyin, Milena. Heç kəs inadla onu özümdən artıq məndən tələb edə bilməz, amma çox şeylər, bəlkə də hər şey məndən yan keçir. Amma məni ona həvəsləndirmək cəhdləri faydasızdır, onlar məni təşviq etmir, əksinə, onda mən, ümumiyyətlə,

bircə addım da ata bilmirəm, hər şey birdən yalana çevrilir, izlənilən ov quşu ovçunun axırına çıxır.

Mən belə bir təhlükəli yoldayam, Milena! Siz bir ağac budağının yanında qətiyyətlə dursunuz, gənc, gözəl və gözlərinizin parıltılı şüası dünyanın kədərini ram edir. Burada *"Skatule, skatule heybejte* se”23oynayırlar, bir ağacın kölgəsindən o biri ağacın kölgəsinə keçərək gizlənirəm, artıq yarıyoldayam, Siz məni səsləyirsiniz, təhlükə barədə xəbərdarlıq edirsiniz, addımımın səhv olduğundan dəhşətə gəlirsiniz, mənə xatırladırsınız ki (mənə ha!), ciddi oyun gedir, mən isə bacarmıram, yıxılıram, artıq üzüqoylu yerə düşürəm. Eyni zamanda qəlbimin və Sizin səslərinizə qulaq asa bilmirəm, amma ona qulaq asaraq onun dediklərini Sizə, dünyada başqa birisinə yox, yalnız Sizə etibar edə bilərəm.

Sizin F.

BAZAR

Məktubunuzdakı iki səhifəlik nitqiniz ürəyinizin dərinliyindən gəlir, Milena, yaralı ürəyinizin ("to *mne rozbolelo”24* — oradadır və bunu mən, mən Sizə eləmişəm!), amma elə təmiz və məğrur səslənir ki, sanki zərbələri ət parçası yox, polad vurub; Siz yalnız təbii olan şeyi istəyirsiniz, amma məni düzgün anlamırsınız, bunlar həm mənim, həm də Sizin "gülməli adamlarınızdır, sonra isə məgər mən Sizinlə əriniz arasındakı əhvalatda kiminsə tərəfində dururammı? Siz bunu harada görmüsünüz? Mənim hansı ağılsız cümləmdə bunu oxumusunuz?

Doğrudan da real mənada mən ailə, iş, qurban, mərdlik, təmizlik, azadlıq, müstəqil, həqiqət məsələlərində sizin hər ikinizdən o qədər aşağıda dururam ki, bunlar barədə danışmaq hüququm olmadığı təqdirdə məgər nəsə bir mühakimə yürüdə bilərəm? Mən harada kömək etməyə cəsarət etmişəm və buna cəsarət etsəydim belə bunu necə həyata keçirə bilərdim? Daha suallar kifayətdir, onlar yerin altında bərk yatdıqları halda niyə gün işığına çıxsınlar? Onlar boz və kədərlidirlər, insanı da bu biçimə salırlar. Ah, iki saatlıq həyatın iki səhifəlik yazıdan daha yaxşı olduğunu deməyin (məktub kasıb olsa da, daha aydın və təmizdir). Siz, yəqin ki, məni başa düşdünüz, amma fərqi yoxdur, deyilənlər mənə müraciətdir, mən isə çətin ki, günahsız olaram, çünki yuxarıdakı sualları, qəribə olsa da, yalnız "heç vaxt", "yox" deyə cavablandıra bilərəm. Sonra isə Sizin əziz, əziz teleqramınız - gecə əleyhinə sakitləşdirici teleqramınız gəldi, bu gecələr mənim çoxdankı düşmənimdir (əgər o, pis şəkildə keçirsə, siz günahkar deyilsiniz, gecənin özü günahkardır; bu qısa qış gecələri yalnız insanda əbədi yuxudan əvvəlki dəhşəti sevindirməyə qadirdir); düzdür, məktubunuzda da çoxlu belə möcüzəli təsəlli vardır, lakin məktubda hər halda yeganə məqsəd vardır - orada fırtına cövlan edir, teleqramın özü isə bu haqda heç nə bildirmir. Amma, Milena, bu teleqrama mən belə cavab verə bilərəm: əgər bütün qalan şeylərdən yayınıb Vyanaya gəlsəm və Siz bu deyilənləri (yuxarıda dediyim kimi, onlar işsiz ötüşmədi, onlar məni çox mütəəssir etdi və haqlı olaraq mütəəssir elədi, tamamilə olmasa da güclü şəkildə mütəəssir elədi)

mənim üzümə desəydiniz (onlar bu və ya başqa bir şəkildə mütləq deyiləcəkdi - sözlərlə yox, fikirlərlə, baxışlarla, kirpiklərin titrəyişi ilə, yaxud da, heç olmasa, düşünməklə), onda sanki bir zərbə ilə vurulmuş kimi, sadəcə, səndirləyər və tirtap yerə sərilərdim, kimi köməyə çağırsaydınız da məni ayaq üstə qoya bilməzdilər. Amma bu belə yaxşı qurtarmasaydı, onda daha pis ola bilərdi. Bax görürsünüzmü, Milena?

Sizin F.

Milena, insan xüsusiyyətini tanımaq barədə Sizin bacarığınız necədir?

Bəzən bundan şübhələnməyə başlayıram, məsələn, Siz Verfeldən yazanda; Sizin sətirlərinizdə məhəbbət də hiss olunur (ola bilsin ki, təkcə məhəbbət), lakin bu, anlaşılmayan məhəbbətdir, çünki başqa şeyləri bir kənara qoyaraq, Verfelə bir insan kimi baxaraq onu gonbul kimi qələmə verirsiniz (fikrimcə, o buna layiq deyildir, Verfel ilbəil daha da gözəlləşir və sevimli olur, biz hərdənbir görüşsək də mən belə düşünürəm), məgər Sizə məlum deyildir ki, yalnız şişman adamlara etibar etmək olar? Yalnız bu qalın qablarda hər şey hazır olana qədər qaynayır. Yalnız bu hava fəzasındakı kapitalistlər, insan üçün mümkün ola biləcək qayğı və dəliliklərdən mühafizə olunaraq, sakitcə öz işləri ilə məşğul ola bilirlər, onlarda olan qüsurlar da, bir dəfə hansısa birinin

dediyi kimi, yerdəki əsl vətəndaşlardakı kimidir, onlar şimalda insanları isindirir, cənubda isə kölgəliklərdə sərinlədir. (Əlbəttə, əksinə də demək olardı, amma onda bu həqiqət olmazdı).

İndi isə yəhudilik haqqında. Məndən soruşursunuz ki, bu zarafatdır, ola da bilər ki, siz yalnız mənim də həmin qorxaq yəhudilərdən olubolmadığımı sadəcə öyrənmək istəyirsiniz; lakin Siz, hər halda, Praqalısınız və buna görə də məsələyə, tutaq ki, Heynenin arvadı Matilda qədər səmimi ola bilmirsiniz. Yeri gəlmişkən, bu tarixçəni bilirsinizmi? Ümumiyyətlə, sizə deyilməli çoxlu şeylər var, amma bu, yəqin ki, ziyanımadır, amma hekayənin özü yox, yalnız onu danışmağıma görə ziyanımadır. Siz, rəngarənglik xətrinə, axır ki, məndən qəribə şeylər eşitməlisiniz. Bohemadan olan alman şairi, yəhudi olmayan Maysner öz xatirələrində bu əhvalatı nəql edir.

Matilda almanlara qarşı atmacaları ilə onu həmişə qıcıqlandırırdı: onlar dəyişkəndir, xudpəsənd, xırdaçı, dar düşüncəli, bədniyyətli, qısa desək, dözülməz xalqdır. Bir dəfə Maysner dözməyib deyir: "Amma siz almanları elə də yaxşı tanımırsınız! Henrix yalnız alman jurnalistləri ilə əlaqə saxlayır, amma burada - Parisdə onların hamısı yəhudidirlər". "Of, - Matilda deyir, - siz hər şeyi şişirdirsiniz. Onların arasında Zeyfert kimi bir-ikisini tapmaq olar...". "Yox, - Maysner deyir, - o burada yeganə adamdır ki, yəhudi deyildir". "Necə yəni?" — Matilda təəccüblənir. — Eytels necə, o da yəhudidir?" (O, sarışın, ucaboy, güclü bir nəhəng idi). "Əlbəttə ki! Özü də necə!" — Maysner cavab verir. "Bəs Bamberger? — O da". "Bəs Arnşteyn?" — "Həmçinin o da". Beləliklə, onlar tanışlarını bir-bir sadalayırlar. Ən nəhayət, Matilda hirslənərək deyir: "Siz, sadəcə, mənə gülürsünüz. Siz indi deyəcəksiniz ki, Kon da yəhudi familiyasıdır, amma Kon

Henrixin yeznəsidir, Henrix isə lüterandır". Buna isə Maysner etiraz edə bilmədi. - Nə olursa-olsun, görünür siz yəhudilərdən qorxmursunuz. Bizim şəhərimizdəki iki nəsil - indiki və bundan əvvəlki nəsil yəhudilərdən bir təmiz, gənc qız öz valideynlərinə "Məni buraxın!" deyərək çıxıb bir yəhudinin yanına getməsi - zarafat eləmirəm! - Orlean bakirəsinin25 öz kəndlərindən çıxmasından daha böyük qəhrəmanlıqdır.

Belə olan halda, siz yəhudiləri çox qorxaq olduqları üçün günahlandırmaqda haqlısınız, amma bu ittiham insanların praktiki biliklərinə yox, əsasən, nəzəri biliklərinə əsaslanır. Çünki əvvəla, bu ittihamın, Sizin əvvəlki təsvirinizə əsasən, ərinizə dəxli yoxdur; ikincisi, mənim təcrübəmə əsasən, bunun əksər yəhudilərə də dəxli yoxdur; üçüncüsü, bu yalnız ayrı-ayrı fərdlərə aiddir, onlarda da bu çox güclüdür, məsələn, məndə. Burada ən təəccüblü odur ki, irad əksər hallarda düzgün deyildir. Belə görünür ki, yəhudilərdəki ümumi inamsızlıq (burada həm daxili inamsızlıq, həm də insanlar arasında özünə inamsızlıq vardır) onunla izah olunur ki, onlar yalnız dişlə, dırnaqla qazandıqlarını özlərininki hesab etməyə adət etmişlər; yalnız möhkəm tutub saxlamaq qabiliyyəti onlara yaşamaq hüququ verir, onlar bircə dəfə nəyi isə buraxdıqda həmin şey bir daha geri qayıtmır və sakitcə onlardan üzülüşüb uzaqlaşır. Ən gözlənilməyən tərəflərdən yəhudiləri təhlükələr gözləyir, yaxud da daha dəqiq ifadə etmək üçün təhlükəni bir tərəfə qoyaraq belə deyək: "onları təhdidlərlə qorxudurlar". Misal göstərmək üçün çox da uzağa getmək lazım deyil,

Sizinlə əlaqəsi olan misala baxaq. Düzdür, bir vaxtlar vəd etmişdim ki, susum (o vaxtlar mən təzətəzə sizinlə tanış olmuşdum), lakin heç bir vicdan ağrısı duymadan Sizə bunu danışıram, çünki siz heç bir yeni şey eşitməsəniz də öz yaxınlarınızın məhəbbətini qiymətləndirəcəksiniz, ad və detalları isə göstərməyəcəyəm, artıq onları xatırlamıram. Kiçik bacım bir xristian çexə ərə getməyə hazırlaşırdı, həmin adam bir dəfə yəhudi qadınla evlənmək niyyətini Sizin qohumlardan birinə deyir, o isə bildirir: "Allah eləməsin! Yəhudi ilə əlaqə qurmaq? Bax, qulaq asın, bizim Milena..." və s.

Bütün bu şeyləri bildirməklə sizi haraya yönəltmək niyyətindəyəm? Azca yolumdan sapmışam, amma eybi yoxdur, çünki ümid edirəm ki, Siz də mənimlə addımlamısınız və birgə azmışıq. Yeri gəlmişkən, tərcümənizdəki ən yaxşı şey sədaqətdir (Bu "sədaqətə" görə məni nə qədər lazımdırsa, danlayın, Siz hər şeyi bacarırsınız, lakin danlamaq sizə daha çox yaraşır. Sizin şagirdiniz olmaq və daim səhvlər etmək istərdim ki, hey məni danlayasınız; skamya arxasında oturursan, gözlərini qaldıranda isə görürsən ki, dəftərin üzərinə əyilmisiniz və barmağınızla gəzib səhvləri tapır, onu döyəcləyirsiniz. Yəqin ki, bu belə də olardı, eləmi?). Ola bilsin ki, tərcümə də "sədaqətli" olacaqdır, məndə elə bir hissiyyat vardır ki, mən Sizin əlinizdən tutaraq dar, qaranlıq, dəhşətli yeraltı yollarla - öz hekayələrimin, demək olar ki, sonsuz keçidləri ilə (elə buna görə də cümlələr də sonsuzdur, məgər Siz bunları duymamısınız?) sonsuz bir zaman ərzində Sizi apararam (deyirsiniz ki, cəmi iki aya?), sonra isə çıxışda, gün işığına çıxanda

özümdə sağlam təfəkkürü kifayət qədər işə salmağa ümid edirəm ki, izsiz-soraqsız yox ola biləcəyəm.

Bu mənim üçün bir işarədir ki, bu günlük mənə xeyir-dua verən əllərimi yanıma salım. Sabah isə mən yenidən yazacağam və izah edəcəyəm ki, - buna zəmanət verirəm - niyə Vyanaya gəlməyəcəyəm və mən o vaxta qədər sakitləşməyəcəyəm ki, deyəsiniz "o haqlıdır"!

Sizin F.

Xahiş edirəm ki, ünvanı aydın yazın, məktubunuz zərfə qoyulandan sonra artıq o, demək olar ki, mənim mülkiyyətimdə olur və siz də özgənin mülkiyyətinə ehtiyatla, böyük məsuliyyətlə yanaşmalısınız.

Belə.

Yeri gəlmişkən, tamamilə dəqiqləşdirə bilməsəm də, məndə belə bir təəssürat vardır ki, məktublarımdan biri itib. Yəhudi ehtiyatkarlığı! Əslində, mən məktubların sağ-salamat əlinizə keçməsindən qorxmalıydım!

İndi mən bu barədə daha bir axmaqlıq söyləyəcəyəm, daha doğrusu, axmaqlıq orasındadır ki, dediklərimin mənə ziyanı olacağını nəzərə almadan düzgün hesab etdiyim şeyləri danışıram. Milena da, əlavə olaraq ehtiyatkarlıq barədə məni mühakimə edir və çexcə jest və səslənməsi tamamilə eyni olan bir suala cavab istəyir: *Jste zid26* Məgər siz görmürsünüzmü ki, bu *"jste"də* yumruq yellənir, əzələ gücü toplanır? Sonra isə *"zid"* kəlməsində dəqiq, uğurlu və irəliyə tuşlanmış zərbə endirilir? Çex dilinin bu cür əlavə təsirlərini alman qulağı tez hiss edir. Məsələn, bir dəfə siz soruşdunuz ki, bircə məktuba görə

burada qalmağımı necə izah edərdim və dərhal da özünüz cavab verdiniz: *“nechapu"27.* Çex dilində bu çox qəribə sözdür, xüsusən də ağzınızda elə ciddi, quru, yığcam, başlıcası isə qozsındırana bənzəyir, çənələr üç dəfə şaqqıldayır, daha dəqiq desək, birinci heca qozu saxlamağa cəhd edir, ikinci heca ağzını daha geniş açır, indi artıq qoz oraya girə bilir, və nəhayət, üçüncüdə qabıq parçalanır. Siz dişlərin səsini eşidirsinizmi? Xüsusən də dodaqların bu qəti yapışması sonda hər hansı başqa bir izahatı qadağan edir, bəlkə də bu çox yaxşı hərəkətdir, məsələn, indi çərənçilik etməyimin qarşısını almaqda.28
Amma çərənçi hər halda özünə haqq qazandırmaq üçün deyir: "Yalnız bir az şənlənəndə çərənçilik edirsən".

Yeri gəlmişkən, indi sizdən məktub gəlmədi. Sonda deyəcəyim sözü hələ də demədim. Başqa bir vaxt. Sabah mən çox istərdim ki,
Sizdən nəsə eşidim, qapını çırpmazdan əvvəl Sizdən eşitdiyim axırıncı sözlər kimi, - çırpılan qapılar həmişə zəhlətökən olur - onlar çox dəhşətli idilər.

BAZAR ERTƏSİ

Beləliklə, dünən vəd etdiyim izahat:

İstəmirəm ki (Milena, mənə kömək edin! Çalışın dediklərimdən də artıq şeylər qavrayasınız!), istəmirəm ki (düşünməyin ki, kəkələyirəm), istəmirəm ki, Vyanaya gəlim, çünki zəif ruhum belə gərginliyə tab gətirməz. Mən ruhən xəstəyəm, ağ ciyərlərimin xəstəliyi isə onun nəticəsidir ki, ruhi xəstəlik öz məcrasından çıxmışdır. Artıq dörd-beş

ildir ki, xəstəyəm, o vaxtlar nişanlı idim. (Sizin sonuncu məktubunuzun qayğısız, şən ovqatını özlüyümdə heç cür izah edə bilmirdim, yalnız sonradan başa düşdüm: daim unuduram ki, Siz hələ belə gəncsiniz, Sizin, yəqin ki, heç iyirmi beş yaşınız da yoxdur, cəmi iyirmi üç ancaq olar. Mən otuz yeddini adlamışam, demək olar ki, otuz səkkiz yaşım var, Sizdən tam bir yeniyetmənin yaşı qədər böyüyəm, gecələri qoca adamlar kimi yuxusuz keçirdiyimdən və başağrılardan saçlarım çallaşmışdır). Bütün bu uzun tarixçəni onun həqiqətən mürgüləyən təfərrüatları ilə birgə sizin üçün eşələmək istəmirəm. Mən indi də bir uşaq kimi, lakin unutmaq qabiliyyəti olmayan uşaq kimi həmin detallardan qorxub dəhşətə gəlirəm. Ümumiyyətlə, hər üç nişanımda bütövlükdə günahkar çıxdım, mübahisəsiz günahkaram, hər iki qızı bədbəxt eləmişəm (burada birinci qız haqqında danışıram, ikincisi haqqında danışa bilmərəm, o çox hissiyyatlıdır, hər bir söz, hətta ən xoş söz belə ona dəhşətli inciklik gətirə bilər və onu başa düşürəm), məhz ona görə ki, onun bütün səylərinin əksinə olaraq (əgər istəsəydim, yəqin ki, özünü fəda edərdi) bütün vaxt şən, sakit, qətiyyətli, qısası, ailə həyatına hazır olmağı bacarmadım, amma təkrartəkrar öz təşəbbüsümlə ona bu haqda söz verməyimə baxmayaraq, onu kədərlə sevməyimə baxmayaraq, beləsi ilə ailə həyatı qurmağı qətiyyən arzu etmədiyimə baxmayaraq onu başa düşürəm. Təxminən beş il mən daim ona (daha doğrusu, özümə) zərbələr vurdum. Xoşbəxtlikdən o, sarsılmaz imiş - prussiyalı və yəhudi qarışığı güclü qarışıqdır, zəfər qazanan qarışıqdır. Mən belə

möhkəm deyildim; düzdür, o yalnız əzab çəkməli olurdu, mən isə eyni vaxtda həm zərbələr endirir, həm də əzab çəkirdim.

Vəssalam, daha yaza bilmirəm, izah da eləyə bilmirəm, yenicə ruhi xəstəliyimi təsvir etməyə başlamışdım və digər səbəbləri də göstərməyə hazırlaşırdım ki, gələ bilməyimi anlayasınız, teleqram gəldi: "Xahiş edirəm ki, Karlsbaddakı görüş barədə yazılı məlumat verəsiniz". Etiraf edirəm ki, mən onu açanda qorxulu bir sifətlə qarşılaşacağımı düşünürdüm. Orası da düzdür ki, onun arxasında ən qayğısız, ən sakit və ən ciddi adam dururdu və görüş mənim maraqlarıma uyğun idi. Mən indi bunları izah etmirəm, axı xəstəliyin təsvirini verə bilmərəm ki. Yalnız bir şey aydındır: mən bazar ertəsi buradan gedirəm; aradabir teleqrama baxıram və onu bütövlükdə oxuya bilmirəm, sanki orada şifrə ilə yazılan gizli yazı vardır ki, əvvəl yazılanları silib bildirir: Vyanadan gedərsən! Bu, açıq-aşkar əmrdir, lakin digər əmrlərdəki kimi deyildir. Mən bunu etməyəcəyəm, hətta ən səthi baxışla belə, bu əlverişsizdir - Münhendən keçən qısa yoldansa, Lintsdən keçən ikiqat uzun olan yolla gedərək Vyanaya dönmək yolu çox uzaqdır. Təcrübə aparıram: balkondakı sərçə gözləyir ki, stoldan ona çörək atacağam, bunun əvəzində isə qırıntıları döşəmədə öz ətrafıma səpirəm. O, çöldən baxır və yarıqaranlıqda öz sevimli yemini görür, bu yem onu cəlb etdiyindən silkələnir və əlbəttə ki, tezliklə burada olardı, amma bura qaranlıqdır, çörəyin yanında da gizli bir qüvvə - mən durmuşam. O, hər halda, kandarı tullanıb keçir, bir neçə dəfə sıçrayıb yaxınlaşır, amma daha çox gəlmir, qəfildən qorxur və

uçur. Bu kiçicik quşcuğazda necə bacarıq vardısa, bir az sonra o, yenidən buraya gəlir, vəziyyəti öyrənir. Daha xırda qırıntılar səpirəm ki, onun işini yüngülləşdirim, əgər bilərəkdən, ya da bilməyərəkdən etdiyim yöndəmsiz hərəkətimlə onu qorxutmasaydım (gizli qüvvələr bu cür fəaliyyət göstərirlər), o öz çörəyini götürəcəkdi.

İyunun axırında mənim məzuniyyətim bitir, yerdəyişməm üçün, üstəlik də burada dözülməz istilərin başlanmasına görə, şəhər kənarındakı hansısa bir yerdə yaşamaq istəyirəm. O da getməyə hazırlaşır və biz orada görüşməliyik. Mən orada bir neçə gün qaldıqdan sonra Konstantincbaddakı valideynlərimin yanında da bir neçə gün qalmağım mümkündür, sonra isə Praqaya gedəcəyəm; bu səfəri

nəzərdən keçirib başımın vəziyyəti ilə müqayisə edəndə mən elə hisslər keçirirəm ki, yəqin Napoleon da Rusiya səfərini

planlaşdırarkən, əvvəlcədən onun nəticəsini dəqiq bilsəydi, bu cür hislər keçirərdi.

Sizdən ilk məktub gələn vaxt, bu, nəzərdə tutulan toydan bir az əvvəl olmuşdu (planlar bütövlükdə və tamamilə mənim əllərimin işi idi), sevindim və məktubu ona göstərdim. Sonra isə... yox, kifayətdir, daha bircə kəlmə də bu barədə yazmıram, bu məktubu cırmaq istəmirəm, bizim oxşar cəhətlərimiz çoxdur, amma əlimin altında soba yoxdur və mən dəhşətlə düşünürəm ki, belə başladığım məktubları tamamlayaraq həmin qıza da göndərə bilirəm.

Lakin bunların əhəmiyyəti yoxdur, mən, teleqram gəlməsəydi də, Vyanaya gələ bilməyəcəkdim, əksinə, teleqram gəlişimin xeyrinə ola biləcək bir arqumentdir. Mən yəqin ki, gəlməyəcəyəm, amma bu, baş versə belə, — bu heç vaxt baş verməyəcək — Vyanada olsam, mənə nə nahar, nə şam lazım olmayacaqdır, mənə bir xərək lazım olacaqdır ki, bir az uzanıb dincəlim. Sizin F.

Əgər Siz bircə dəfə mən Karlsbadda olarkən "tələb olunanadək" tipli məktub yazsaydınız... Yox, yaxşısı budur ki, əvvəlcə Praqaya yazarsınız.

Sizin dərs dediyiniz ağlagəlməz məktəblər hansılardır ki, iki yüz şagirdi vardır, ya əlli şagirdi? Mən çox istərdim ki, axırıncı sırada oturub bütöv dərs boyu orada qalım, onda mən sizinlə hər cür görüşdən imtina edərdim (onsuz da o baş tutmayacaqdır), hər cür səfərdən çəkinərdim. Kifayətdir, qurtarmaq bilməyən bu kağızlar insanın gözünü qıcıqlandırır və bu da onu yazmağa təhrik edir. Əvvəl yazdıqlarım nahardan sonra idi, indi isə on birə azca qalır. Mən hər şeyi həmin vaxt bacardığım qaydada qurdum. Praqaya teleqraf etdim ki, Karlsbada gələ bilməyəcəyəm, bunu əsəb pozuntusu ilə izah elədim, bu da bir tərəfdən çox düzgündür, digər tərəfdən isə o qədər də düz deyildir, axı məhz buna görə əvvəl Karlsbada hazırlaşırdım. Bax canlı insanla bu cür oynayıram. Amma başqa cür bacarmıram, çünki Karlsbadda nə susa, nə də danışa bilməyəcəm, daha dəqiq desək, mən hətta sussaydım da danışacaqdım, axı mən indi yeganə bir sözdən ibarətəm. Mən indi şəksiz Vyanadan yox, bazar ertəsi Münhendən

gedəcəyəm. Münhendən Karlsbada, yoxsa Marienbada gedəcəyimi bilmirəm, hər halda yalqız olacağam. Sizə yazacağam (ola bilər29), məktubunuzu da yalnız Praqada alacağam, yalnız üç həftə sonra.

ŞƏNBƏ

Daim öz-özümdən soruşuram ki, bunu başa düşdünüzmü ki, ümumi vəziyyətim nəzərə alınarsa, cavablarım başqa nə cür ola bilərdi? Onlar hətta daha yumşaq, daha aldadıcı, daha da bəzəkli alınırlar. Həmişə, gecə və gündüz mən cavab məktubunuzu gözləyərək bunu soruşuram, sanki mənə əmr olunub ki, bir həftə gecə-gündüz daşa mismar vurum, özü də həm mismar, həm mismarı vuran mən özüməm, Milena! Belə bir şayiə gəzir ki, - mən ona inana bilmirəm - tətil olduğuna görə Tirolla dəmiryol əlaqəsi kəsiləcəkdir.

ŞƏNBƏ

Məktubunuz gəldi, məktubunuzla birgə xoşbəxtlik də gəldi. Orada olan bütün qalan şeylərdən başqa bir əsas yer vardır: Siz, ehtimal ki, Praqaya mənim üçün məktub yaza bilmirsiniz. Bunu birinci növbədə qeyd edirəm ki, bütün dünya bunu ayrıca görsün, o cümlədən də Siz görəsiniz, Milena. Deməli, bir insanı qorxudurlar, amma uzaqdan da olsa onun mənasını bildikləri halda özlərini elə göstərirlər ki, guya ona yaxşı yanaşırlar.

Amma ola bilsin haqlısınız ki, daha mənə məktub yaza bilməyəcəksiniz. Məktubunuzdakı müəyyən yerlərdə buna işarə vurulur. Belə yerlərə etirazım yoxdur. Onlar məhz həmin yerlərdir ki, -

elə mən də onu etiraf edirəm və dəqiq bilirəm - yüksək yerdə yaşayıram, məhz bu səbəbdən hava mənim ciyərlərim üçün seyrəkdir və dincəlməliyəm.

Sizin F.

Sabah yazaram.

BAZAR

Bəlkə bu gün bəzi şeylər sənə aydın ola bilər, Milena (necə də şahanə, ağır bir addır, o elə bütövdür ki, qaldırmaq olmur, amma əvvəllər mənim elə də xoşuma gəlmirdi, Bohemada azmış yunan, yaxud romalı olduğunu düşünürdüm, elə bilirdim ki, onu zorla çexə çevirmiş, vurğu ilə çexləşdirmişlər,30 amma rənginə və təsvirinə görə - ah, möcüzədir! - bu qadındır, bunu əl üstündə bu dünyadan, alovdan, bilmirəm daha nələrdən keçirib aparmaq lazımdır və o, itaətlə, etibarla sənə sığınacaq, təkcə "i"-nin üzərindəki vurğu bu ahəngi pozur: birdən bu ad sürüşüb səndən ayrıla bilər? Yaxud da bu bəlkə sənin özünün öz qiymətli yükünlə birgə etdiyin qurtuluş sıçrayışındır?)

Sən iki əkizlər kimi məktub yazırsan: mən qələm və karandaşı nəzərdə tutmuram, düzdür, karandaşın özü nəyinsə haqqında bir işarədir, ehtiyatlanmağa məcbur edir, amma bu fərq əsas deyildir, məsələn, son illər mənzilin planı karandaşla çəkilir, hər halda, o məni xoşhal edir; əsas mənim - başa düş - sənin gəncliyin, təmizliyin, mərdliyin barədəki qorxumdur. Çünki mənim qorxum daim artır, o ya dünyanın təzyiqi qarşısında geriləməni ifadə edir, ona görə də bu təzyiq getdikcə artır, sənin mərdliyin isə hücum ifadə edir, ona görə də

təzyiqin azalması və mərdliyin artması baş verir - məni yalnız sakit məktublar xoşbəxt edə bilər; onun ayaqları önündə sonsuz dərəcədə xoşbəxtcəsinə oturardım və sanki yağış kimi sözlər başıma səpələnərdilər. Amma o biri məktublar gələndə, onlar lap birinci məktuba nisbətən daha çox xoşbəxtlik gətirsələr belə (amma zəifliyim ucbatından yalnız bir neçə gün sonra bu xoşbəxtliyi dərk edirəm), - bu nida ilə başlayıb (axı mən çox uzaqdayam!) sonunda isə bilmirəm, hansı dəhşətlə qurtaran - Milena, doğrudan da əsməyə başlayıram, sanki həyəcan zənginin səsini eşidirəm, onları sakit oxuya bilmirəm, amma susuzluqdan əziyyət çəkən vəhşinin su içməsi kimi onu oxuyuram, qorxu isə hey artır, nə etməli, vurnuxuram ki, hansı stolun, yaxud şkafın altına dürtülüm, küncə sıxılıb dua edirəm, başımı itirərək, büsbütün əsərək dua edirəm ki, bu məktubla birgə otağıma soxulmuş fırtına kimi sən yenidən taybatay açılmış pəncərədən uçub gedəsən, axı mən fırtınanı otağımda saxlaya bilmərəm; mənə elə gəlir ki, sənin belə məktublarında Meduzanın parıldayan başını görürəm, dəhşət ilanları onun ətrafında qıvrılırlar. Mənim başımın ətrafında isə, aydındır ki, hələ də qorxunun hiddətli, azğın ilanları qıvrılır.31

Sənin çərşənbə və cümə axşamları yazdığın məktublar. Körpə, körpə *(Meduzanı* belə adlandırıram). Sən bütün axmaq zarafatlarımı ("zid" , "nechapu" və "nifrət etmək" barədə) ciddi qəbul edirsən, mən isə bunlarla səni bir az güldürmək istəyirdim, qorxu səbəbindən biz birbirimizi düzgün başa düşmürük, xahiş edirəm ki, məni çexcə yazmağa məcbur eləmə, burada məzəmmətin kölgəsi belə yoxdur,

olsa-olsa səni ona görə məzəmmət edə bilərəm ki, yəhudilər haqqında həddən ziyadə yaxşı fikirdəsən, sənin tanıdıqlarından (o cümlədən məndən) da başqaları vardır! - bəzən onların hamısını (o cümlədən özümü də) məhz yəhudilər kimi paltar dolabının yeşiyinə doldurmaq, azca gözləyib bir az açaraq onların gəbərib-gəbərmədiklərinə baxmaq, sonra isə qapağı örtüb sona qədər bu cür davam etmək istəyirəm...

Sənin "nitqin" haqqında dediklərim, həqiqətən ciddidir. (Bu "ciddi" sözü bir daha oğrunca məktubuma daxil oldu. Yəqin ki, mən onunla yola gedəcəyəm,32 — son dərəcə ədalətsiz olsa da - amma mən indi onunla əlaqədə olduğum qədər güclü hislər keçirirəm, bu əlaqə getdikcə güclənir və onu həyata yox, ölümlə əlaqəyə bənzədirəm. Onunla danışa bilsəydim! Amma mən ondan qorxuram, o məndən elə yüksəkdədir ki! Bilirsənmi, Milena, sən ona doğru gedəndə öz səviyyəndən aşağıya böyük bir addım atdın, amma sən mənə doğru gəlsən, uçuruma tullanmış olarsan, sən bunu bilirsənmi? Xeyr, həmin məktubda mənim yox, sənin "yüksəkliyin" var idi.) Mən "nitq" haqqında danışırdım, sən də axı orada ciddi idin, mən burada səhv edə bilmərəm.

Yenidən sənin xəstəliyin haqqında eşidirəm. Milena, sən yataqda uzanmalısan.

Sən, əlbəttə ki, bunu etməlisən. Ola bilsin ki, bunları yazanda artıq sən uzanmısan. Məgər bir ay əvvəl mən yaxşı deyildimmi? Sənin qayğına qalmaq (düzdür, fikrimdə olsa da) məni tamamilə sənin xəstəliyin

barədə bilgilərlə məşğul etmişdi, indi isə öz xəstəliyim və sağlamlığım haqqında fikirləşirəm, əslində isə bu da, o da sənsən. F.

Bu gün həmin sevimli mühəndislə bu yuxusuz atmosferdən qurtulmaq üçün kiçik bir səyahət həyata keçirdik. Elə orada da sənə açıqca yazdım, amma imzalayaraq göndərməyi bacarmadım, mən artıq sənə yad bir adam kimi yaza bilmirəm.

BAZAR ERTƏSİ

Bu gün səhər ayılmazdan bir az əvvəl təzəcə yuxuya getmişdim ki, xoşagəlməz bir yuxu gördüm (dəhşətli deməmək üçün xoşagəlməz deməliyik, çünki xoşbəxtlikdən yuxunun təsiri tez sovuşur). Yeri gəlmişkən, onun sayəsində azca yatdım, çünki belə yuxulardan ayıla bilmirsən, onlar qurtarana qədər səni tutub saxlayır və oyanmağa qoymurlar.

Hadisələr Vyanada cərəyan edirdi - buraya səyahət edəcəyimdən öncə xəyalımda canlandırdığım kimi görünən şəhərdə. (Bu röyada Vyanada yeganə kiçik meydança var idi. Onun bir tərəfində sənin evin, digər tərəfdə isə yaşayacağım mehmanxana yerləşirdi. Solda mənim gəldiyim Qərb vağzalı, ondan solda isə mənim gedəcəyim Frans Yozef vağzalı yerləşirdi. Mənim evimin alt mərtəbəsində pəhriz yeməkləri verilən qəşəng yeməkxana var idi. Mən burada yalnız yemək xətrinə yeyirdim ki, Praqaya müəyyən bir çəkidə gedib çıxa bilim. Bunları niyə danışıram? Ümumiyyətlə, bunların yuxuya dəxli

yoxdur, hələ də ondan qorxuram.) Qısaca desək, hər şey tam dəqiqliklə dünən

düşündüklərim kimi deyildi, şəhər, həqiqətən, böyük, yaş, qaranlıq idi, küçələrdə görünməmiş bir hərəkət var idi, uzun, düzbucaqlı şəklində bağ yaşadığım evlə sənin evini ayırırdı. Mən Vyanaya qəfil gəlmişdim, sənə yazdığım, amma hələ yolda olan məktubumu ötərək gəlmişdim (sonra o mənə çox ağrılar yaşatdı). Sən hansısa bir şəkildə gələcəyimi bilirdin və biz görüşməli idik. Xoşbəxtlikdən (eyni zamanda da nəsə narahatlıq keçirirdim) tək deyildim, kiçik kompaniya içərisində idim, o cümlədən də, orada, deyəsən, bir qız var idi, mən onu dəqiq xatırlaya bilmirəm, amma o, sekundantım kimi idi. Onlar bir az sakitləşmək əvəzinə ağızlarını yummadan elə hey çərənləyirdilər, yəqin ki, mənim məsələlərimlə bağlı sözlər danışırdılar, amma yalnız əsəbiləşdirici mızıltılar eşitsəm də, bircə söz belə anlaya bilmirdim, heç eşitmək də istəmirdim.

Öz evimin sağındakı səkinin qırağında duraraq səninkinə baxırdım. Sadə, gözəl daş lojaların üstü dairəvi tağlarla örtülmüşdü və birinci mərtəbənin üstündə yerləşirdi. Bu alçaq villa çox gözəl idi.

Birdən məlum oldu ki, səhər yeməyinin vaxtıdır, lojada stol açdılar. Uzaqdan görürdüm ki, sənin ərin gəldi, hörmə kresloda oturdu, hələ də yuxulu idi, qollarını açaraq gərnəşdi. Sonra sən gəldin, stolun arxasında oturdun, amma elə oturdun ki, bütövlükdə görünürdün. Düzdür, çox da aydın görünmürdün, məsafə böyük idi, sənin ərin daha aydın görünürdü, səbəbini bilməsəm də, sən yalnız ağ-göy rəngdə,

şəffaf və axıcı görünürdün. Sən də qollarını açdın, amma bu, gərnəşmək üçün deyildi, bu, səndə təntənəli poza idi.

Bir az gözləyəndən sonra - lakin gün artıq sona çatırdı - sən küçədə göründün, mənimlə bir yerdə idin, səkidə durmuşdun, mənim isə bir ayağım yolun gediş-gəliş olan yerində idi, mən sənin əlini tutmuşdum və bizim ağlagəlməz dərəcədə sürətli qısa ifadəli danışığımız başladı: çıq-çıq, tap-tap və dayanmadan, yuxunun sonuna qədər davam etdi.

Mən onları danışa bilmirəm, mahiyyətcə yalnız iki birinci və iki sonuncu cümlələri xatırlayıram, arasındakılar isə təsvirəgəlməz əzablar idi.

Salam əvəzinə tez dedim (sənin üzündə nəsə məni buna vadar etdi): "Sən məni başqa cür təsəvvür edirdin". Sən cavab verdin: "Açığını desək, düşünürdüm ki, sən daha qəşəngsən". (Ümumiyyətlə, sən daha çox Vyana ifadələri işlədirdin, amma mən onları unutdum.)

İlk iki cümlə belə idi (bununla əlaqədar birdən mənim ağlıma gəldi ki, o cür kamilliyə heç vaxt rast gəlməmişəm, görəsən, sənə mənim musiqili olmamağım məlumdurmu?), prinsipcə arada hər şey həll olunurdu, daha nə lazım idi ki? Amma yeni görüşlər barədə danışıqlar — başladı, əslində isə sənin tərəfindən qeyri- müəyyən replikalar, məndən isə sonsuz, inadlı suallar olurdu.

Bu vaxt yoldaşlarım işə qarışırdılar, belə bir təsəvvür yaranırdı ki, mən Vyanaya, həm də hansısa bir kənd təsərrüfatı məktəbinə baş çəkmək üçün gəlmişəm, bunlar azmış kimi, aydın oldu ki, buna mənim

vaxtım da çatacaqmış və onlar mənim qayğıma qalaraq buradan uzaqlaşdırmaq istəyirlər. Mən bu qarmaqarışıqlığı anlayaraq onlarla birgə vağzala getdim, yəqin bu qədər ciddi şəkildə getməyimin sənə təsir edəcəyinə ümid edirdim. Biz hamımız yaxınlıqdakı vağzala getdik, orada aydın oldu ki, Vyana yaxınlığındakı həmin məktəbin adını unutmuşam. Biz böyük qatar cədvəlinin qarşısında durduq, hamı bir-bir barmağı ilə stansiyanın adlarını mənə göstərərək soruşurdu: bəlkə budur, yaxud budur, amma lazım olan adı tapa bilmirdilər.

Bunlarla yanaşı, mən sənə baxa bildim, əslində mənim üçün fərqi yox idi ki, sən necə görünürsən, əsas sənin sözlərin idi. Sən özünə çox da oxşamırdın, həddən artıq qarabuğdayı, arıq üzlü idin, girdə yanaqlarında elə qəddarlıq var idi ki, başqasında ola bilməzdi. (Amma o, qəddarlıq idimi?) Sənin kostyumun, qəribə tərzdə eynilə mənimki kimi idi, üstəlik də kişi paltarı kimi tikilmişdi və mənim qətiyyən xoşuma gəlmədi. Amma sonra məktubdakı bir yeri xatırladım (misra: *"dvoje satu mam aprese slusne vuradam"33* və sənin sözlərinin hökmü mənim üzərimdə o qədər böyük idi ki, bu dəqiqədən etibarən sənin paltarın çox xoşuma gəldi.

Sonda yoldaşlarım cədvəli incələyir, biz isə bir tərəfdə duraraq danışırdıq. Söhbətin son bölümü təxminən belə idi: sabah bazardır; sənə çox pis gəlir və anlaya bilmirsən ki, sabah görüşmək üçün sənin vaxtının ola biləcəyini mən necə soruşa bilərəm. Nəhayətdə isə sən sanki geri çəkilirsən və deyirsən ki, bəlkə qırx dəqiqə vaxt ayıra bildim. (Bu danışıqda ən dəhşətli şey, əlbəttə ki, sözlər yox, mətnaltı

mənalardır, hər şeyin faydasız olduğudur, sənin daimilik susqun sübutlarındır: "Mən gəlmək istəmirəm. Gəlməyimdən sənə nə xeyir olacaq ki?"

Sən bu qırx dəqiqəni ayıran vaxtda mən onu qəbul edə bilmirdim. Sən özün də başa düşmürdün: gərgin düşünməyə baxmayaraq, vaxt müəyyən edə bilmirdin. Nəhayət, soruşdum: "Nə etməli, bütün günümü gözləməliyəm?" "Bəli", - sən cavab verdin və dönüb səni gözləyən kompaniyaya tərəf getdin. Cavabın mahiyyəti onda idi ki, sən, ümumiyyətlə, gəlməyəcəksən, yeganə bacardığın şey isə gözləməyə icazə verməyindir. "Gözləməyəcəyəm", - sakitcə dedim, elə düşündüm ki, sən eşitmədin, bu isə sonuncu şansım idi, kədərlə bu sözləri sənin ardınca qışqırdım. Amma bu sənin vecinə deyildi. Və səni qətiyyən maraqlandırmırdı. Nə yollasa mən yavaş-yavaş geriyə - şəhərə döndüm.)

İki saat sonra isə məktub və çiçəklər - xeyirxahlıq və təskinlik gəldi.

Sizin F.

Milena, yenə də ünvan oxunmur, poçtda onu yenidən yazıb tamamlayıblar. Birinci xahişimdən sonra ünvan əla, aydın, gözəl idi, amma yenə də bəzi hərflər seçilmirdi. Əgər poçt xidmətçisinin gözləri də mənimki kimi olsaydı, sənin ünvanından başqa heç nə oxuya bilməzdi. Amma poçt poçtdur...

BAZAR ERTƏSİ

Sən haqlısan, indi məktubu alanda, təəssüf ki, gecədir, sabah isə mühəndislə Bosendə kiçik bir gəzintiyə çıxmaq niyyətindəyəm.

"Körpə" barədəki məzəmmətlərini oxudum, mən, doğrudan da, özümə belə dedim: kifayətdir, bu məktubu bu gün oxumaq olmaz, əgər sən sabah gəzintiyə çıxacaqsansa, heç olmasa bir az yatmaq lazımdır, amma oxumağa davam edənədək müəyyən vaxt keçdi, hər şeyi başa düşdüm, gərginlik yox oldu, əgər sən burada olsaydın (mən yalnız bədən yaxınlığını nəzərdə tutmuram), üzümü yüngülləşmiş halda dizlərinə söykəyə bilsəydim... Bu, xəstəlikdir, eləmi? Mən ki səni tanıyıram, həm də "körpə"nin elə də pis müraciət forması olmadığını bilirəm. Mən də zarafatı başa düşürəm, amma hər şey mənim üçün qorxu ola bilir. Əgər sən dünən yazsaydın ki: "Dünən mən məktubundakı "və"ləri saydım, filan qədər oldu, sən necə cürət edib mənə filan qədər "və" yazırsan, sən əgər bunları ciddi desəydin, onda səmimi- qəlbdən qərara alardım ki, səni incitmişəm və üzülərdim. Axı bunun, doğrudan da, səni narahat etdiyini düşünmək çox çətindir.

Unutma ki, zarafatla ciddiliyi fərqləndirmək çox asandır, amma sənin üçün qiymətli olan insanlarda, həyatının asılı olduğu insanlarda isə bunu fərqləndirmək asan deyildir, risk həddən artıq böyükdür, gözlər mikroskop kimi işləyir və onda nəyi isə ayırd etmək, ümumiyyətlə, çətin olur. Bu mənada mən güclü olduğum vaxtlarda belə, güclü deyildim, məsələn, ibtidai məktəbin birinci sinfində. Bizim balaca, quru, arıq, sivriburun, yanaqları batıq, sarımtıl, bunlarla yanaşı, möhkəm, enerjili, inamlı aşpazımız hər səhər məni məktəbə ötürürdü. Yaşadığımız ev balaca Rinqi böyük Rinqdən ayıran yerdədir. Ona görə də əvvəlcə Rinqdən, sonra Taynqassdan, sonra isə bir-birinə oxşayan

qapıların önündən keçərək Flyayşmarktrassa və aşağıya - Flyayşmarkta keçmək lazım gəlirdi və bu ilin bütün günlərində, səhərlər təkrar olunurdu.

Evdən çıxanda aşpaz mənim evdə sözəbaxan olmadığım haqqında müəllimə danışacağını deyirdi. Yəqin ki, o qədər də sözə baxmayan deyildim, amma inadkar, dikbaş, tənbəl bir uşaq idim və müəllimlər də həmişə bunlardan nəsə şən şeylər tapırdılar. Bunu başa düşdüyüm üçün aşpazın hədələrini ciddi qəbul edirdim. Amma əvvəlcə mən düşündüm ki, məktəbə qədər getmək çox-çox uzaqdır və yolda hər şey ola bilər (uşaq təfəkkürünün az, yaxud çox dərəcədə yüngülfikirliliyi barədə yaxşı misaldır, tədricən bu ürəklilik və ölügözlü ciddilik də artmağa başladı) və Rinqin yanında mən tərəddüd edirdim, aşpaz buna cəsarət edəcəkmi, o mühüm adam olsa da, yalnız evdə mühümdür, müəllim isə ümumdünya əhəmiyyətli şəxsdir. Ehtimal ki, mən bu ruhda hətta ona da nəsə deyəndə, aşpaz adəti üzrə amansız qəddar, qısa və dar dodaqlarını sıxaraq cavab verdi ki, mən ona inanmaya bilərəm, amma o deyəcəkdir. Flyayşmarktrassın çıxışına az qalmış - həmin yer onda mənim üçün tarixi əhəmiyyətli yer idi (uşaqlıqda harada yaşamısan?) - təhdid qarşısında qorxum artdı. Məktəb onsuz da mənim üçün kabus idi, indi də aşpaz bir az da təhlükəni artırırdı. Mən xahiş etməyə başlayırdım, o, başını yelləyirdi, mən nə qədər çox xahiş edirdimsə, öz xahişimin nə qədər vacib olduğunu hiss edirdim, təhlükənin nə qədər dəhşətli olduğunu zənn edir və dayanırdım, bağışlanmağımı xahiş edirdim, o məni uzaqlara sürükləyib aparırdı,

onu valideynlərimə şikayət edəcəyimlə qorxutmaq istəyirdim, o gülürdü, burada o, hökmran idi, mağazaların qapısından, evlərin tinlərindən yapışır, irəli getmək istəmirdim, istəyirdim ki, o məni bağışlasın, donunun ətəyindən tutaraq geri çəkirdim (onun üçün də asan deyildi), amma o məni irəli çəkərək, bunları da müəllimə söyləyəcəyinə əmin edirdi, biz artıq yubanırdıq, İakov kilsəsindəki saat

səkkizi vururdu, məktəb zəngi eşidilirdi, bütün uşaqlar qaçmağa başlardı, ən çox gecikməkdən təşvişlə qorxardım, biz də qaçmağa başlardıq, beynimi isə "deyəcək- deməyəcək" səsləri deşirdi. Qısası, o heç nə demirdi, heç vaxt bunu deməsə də, belə bir imkan onda həmişə var idi, özü də bu imkan daim artırdı (dünən demədim, amma bu gün deyəcəyəm) və bu imkandan o imtina etmirdi. Bəzən - Milena, sən bir fikirləş - mənə qarşı çılğınlıqdan ayağını körpüdə yerə döyəcləyirdi və bəzən də hansısa bir kömüryandıran qadın bunu görürdü. Milena, ah, bu nə axmaqlıqlardır, mən nə qədər, hansı dərəcədə səninəm, bütün aşpazlarımla, onların təhdidləri ilə, bütün ağlagəlməz çirkablarla, 38 yaşımdakı səksəkələrimlə, çirklənmiş ciyərlərimlə səninəm.

Amma heç vaxt bunları danışmaq istəmirdim, yaxud da bunları ayrı cür danışmaq istəyirdim, artıq gecdir, qurtarmaq və uzanıb yatmaq lazımdır, amma yata bilməyəcəyəm, çünki sənə yazılacaq məktubu qurtara bilməmişəm. Əgər nə vaxtsa sən mənim necə yaşadığımı bilmək istəsən, mən Praqadan sənə böyük bir məktub göndərərəm,

mən onu təxminən yarım il öncə atama yazmışam, amma hələ də göndərməmişəm.

Sənin məktubuna isə mən sabah, yubatsam, birisigün cavab yazacağam. Mən burada bir neçə gün ləngiyəcəyəm, çünki

Fransesbaddakı valideynlərimin yanına getməməyi qərara aldım, beləliklə, balkonda uzanıb qalıram, ümumiyyətlə, buna qərar demək olmaz.

Məktuba görə bir daha sağ ol.

F.

Çərşənbə

Bu gün səni yenə də yuxuda gördüm. Biz yanaşı oturmuşduq və sən məni itələdin, amma hirslə yox, dostcasına itələdin. Mən çox bədbəxt idim. İtələnməyimə görə yox, öz-özümdən idi səbəbi, axı mən sənə birinci dəfə görüşən dilsiz qadın kimi yanaşmışdım və sənin mənə müraciətlə çıxardığın səsi qulaqardına vurduğum üçün. Yaxud da qulaqardına vurmamışdım, amma cavab verə bilməmişdim. Elə beləcə

də, ilk yuxumdakı kimi, təskinlik tapmamış çıxıb getdim.

İndi mən xatırladım ki, bir dəfə kimdənsə oxumuşdum: "Mənim sevgilim yerlə sürüşən odlu sütundur və o məni də əsir götürür. Amma əsirlərə yox, açıq gözlə onu görənlərə yol göstərir".

Sənin

(Mən indi adımı da kənara qoyuram; o tamamilə qısaldı və indi belə səslənir: *sənin).*

ÇƏRŞƏNBƏ AXŞAMI

Bu gün naharda dalbadal iki məktubunuz gəldi, onları oxumaq yox, stolun üstünə qoyaraq üzünü söykəyib huşunu itirmək lazımdır. Amma dərhal da aydın olur ki, sənin onları, demək olar ki, itirməyin çox yaxşıdır, çünki qalanlarını mümkün olduğu qədər yaxşı qoruyarsan və buna görə də mənim 38 yəhudi yaşım Sizin 24 xristian ilinizin üzü qarşısında deyir:

Bu necə ola bilər? Dünya qanunları və ilahi ədalət qoruyucuları hara baxırdılar? Sənin 38 yaşın vardır, sən elə yorulmusan, yaşa görə, yəqin ki, belə yorulmurlar. Daha düzünü desək, sən heç də yorulmamısan, narahat olmusan, sən yerin bu təhlükəli tələlərinə düşməmək üçün artıq addım atmağa qorxursan, ona görə də faktiki olaraq hər iki ayağın həmişə göydədir; sən yorulmamısan, yalnız dəhşətli yorğunluqdan qorxursan, o bura narahatlıqdan sonra gəlməlidir (sən ki yəhudisən, qorxunun nə olduğunu bilirsən), təsəvvür edirsən ki, bu, ən yaxşı halda, Karl meydanının arxasındakı dəlilər evinin bağçasında küt, axmaq baxışlarla heyvani ömür sürməkdir.

Yaxşı ki, sən beləsən. Çoxlu vuruşlara qatıldın, bu işdə dostunu da, düşmənini də bədbəxt etdin (ətrafında isə düşmənlər yox, çoxlu dostların var idi), artıq əlil oldun, oyuncaq tapançanın təkcə görünüşündən titrəyən birisi ikən, birdən-birə dünyanın xilası naminə böyük vuruşun iştirakçısı kimi görünürsən. Bütün bunlar qəribə deyilmi?

Həmçinin də sənin həyatının yaxşı hissəsi (bunları yəqin ki, heç kəsə danışmamısan) iki il bundan əvvəl kənddə yaşadığın həmin səkkiz aydır,34 o vaxt sən hər şeyi yekunlaşdırdığını güman edərək, əməllərinin şəksiz düzgünlüyünə əsaslanıb özünü azad hiss etdin, - məktublarsız, Berlinlə35 bu beşillik gərgin yazışmalarsız, xəstəliyin qanadları altında - buna görə özündə heç də çox şeyləri dəyişməli olmadın, sadəcə, varlığının əvvəlki incə konturlarını daha qalın xətlərlə çəkməli oldun (ona görə də çal saçlarının arasındakı sifətin, altı yaşında olduğun vaxtdan bəri, demək olar ki, dəyişilməmişdir).

Təəssüf ki, bunların son olmadığını son il yarımda başa düşdün və onda da elə yıxıldın ki, ondan aşağı yıxılmağa yer yoxdur (son payızı nəzərdə tutmuram, onda vicdanla nikah barədə mübarizə edirdim) və dalınca da başqa insanı dartdın, əziz, mehriban qızı, fədakar qurban nümunəsini, - ah, bundan aşağı daha getməyə heç yer yoxdur, dibsizlikdə belə yer yoxdur.

Yaxşı, səni indi Milena çağırır, onun səsi ağlına və ürəyinə eyni qaydada nüfuz edir. Əlbəttə, Milena səni tanımır, sənin bir neçə hekayələrin və məktubların onun gözlərini tutub; o, dəniz kimidir - onda olan güc dənizin gücü kimidir, özünün bütün fəlakəti ilə səni çulğalayır, bütün gücü ilə çırpınır, bəzən də çaşaraq ölüləri, əsasən də, uzaqdakı ayı izləyir. O səni tanımır, amma, ola bilsin ki, həqiqəti hiss edir və səni çağırır. Çünki sənin real varlığın onun gözlərini bağlamayacaqdır, buna əmin ola bilərsən. Bundan ötrü sən çağırışa getmək istəmirsən, ey həssas qəlb? Məhz bundan qorxursan?

Əgər etiraf etsən ki, bunu rədd etməyin üçün yüzlərlə daxili səbəbin vardır (onlar həqiqətən də vardır), onlarla birgə yeganə xarici səbəb də vardır: axı sən əri yanında olmayanda Milenanı görüb danışa bilmirsən - əgər bütün bunları etiraf etsən də, yenə təsəvvür qalır.

Əvvəla, gəlməyi vəd etsən də, ola bilsin ki, Milena artıq bunu istəməyəcəkdir,

- səbəb onun qətiyyətsizliyi yox, sadəcə, təbii yorğunluğudur - o, asanlıqla və məmnuniyyətlə sənin istədiyin yerə getməyinə yol verər.

İkincisi isə - hə, nə olar, get Vyanaya! Milena da oturub yalnız qapının açılacağını gözləyir. Əlbəttə ki, o açılacaqdır, bəs sonra? Sonra qapıda ucaboylu, arığın biri görünəcəkdir, onun üzündə xoş təbəssüm vardır (o, aramsız gülümsəyəcəkdir, bu xasiyyət qoca bibisindən ona keçib, o da bu cür ara vermədən gülümsəyirdi; hər iki halda bu, bilərəkdən yox, utandıqlarından ötrü idi) - sonra da göstərilən yerdə oturacaqdır. Bayram əhvalı və təntənəli mərasim bununla da sona çatacaqdır, çünki onda bunun üçün həyati qüvvələr az olduğundan zorla danışacaqdır, - mənim yeni stol qonşum olan yerli adamlardan birisi dünən vegetarian pəhrizi saxlayan, dinib-danışmayan qardaşı haqqında dedi: "Fikrimcə, ət yemək zehni işlər üçün, sadəcə, zəruridir" - o, həyati qüvvəsi çox az olduğu üçün xoşbəxt də ola bilməyəcəkdir.

Milena, görürsünüzmü, mən açıq danışıram. Lakin Siz ağıllısınız, dərhal hiss etdiniz ki, mən həqiqəti deməyimə baxmayaraq (hər şey, şəksiz, düzdür), çox açıq danışıram. Axı, belə xəbərdarlıqlar etmədən

də gələ bilərəm və sizi ikiqat heyrətləndirərəm. Əgər bu cür etmədimsə, deməli, bunlar haqlı olduğuma - zəif olduğuma əlavə sübutlardır.

Burada daha iki həftə qalıram, əsasən də ona görə ki, müalicənin bu cür pis nəticələrindən dəhşətə gəlirəm və utanıram. Evdə və ən pisi odur ki, xidməti işimdə36 bu müalicəvi məzuniyyətimdən az qala tam sağalmağımı gözləyirlər.

Bu suallar bezdiricidir: "Hə, nə qədər kökəlmisən?" (Sən isə elə hey arıqlayır, arıqlayırsan.) "Yeməyə qənaət eləmə!" (Bu, xəsisliyimə eyhamdır. Mən isə pansiona görə pul ödəyirəm, yemək yeməyi isə bacarmıram.) Və bu cür digər zarafatlar.

Çoxlu danışmalı şeylər vardır, amma belə etsəm, onda, ümumiyyətlə, məktub qurtarmaz. Hə, bir şeyi də deyim: əgər bu iki həftənin sonunda Siz, cümə günü olduğu kimi, mənim gəlişimi arzu etsəniz, mən gələcəyəm.

Sizin F.

YENİDƏN ŞƏNBƏ

Milena, məktublarımız bir-birini qovur, bu atlanbac oyununu dayandırmaq lazımdır, o, ağlımızı alır, bilmirsən ki, nə yazmısan, sənə nə cavab verəcəklər, hər iki halda titrəyirsən. Sənin çexcəni mən gözəl anlayıram və gülüşünü eşidirəm, amma məktubuna qərq oluram,

hərisliklə hər bir sözü, gülüşü təhlil edirəm, axırda isə yalnız sözləri eşidirəm, axı mənim varlığımın əsası qorxudur.

Sonuncu məktubumdan sonra, əvvəlkitək məni görmək istəyirsənmi; hökm edə bilmərəm; sənə olan münasibətimi bilirəm (sən mənimsən, hətta mən səni heç vaxt görməsəm də), mən onu dillə deyilməsi mümkün olmayan qoxu fəzasına girməyəcək dərəcədə bilirəm, amma sənin mənə olan münasibətini isə, təkrar edirəm, bilmirəm, Milena.37

Baş verənlər mənim üçün dəhşətlidir: dünyam dağılır, dünyam yenidən xarabalıqdan baş qaldırır. Bəs səni burada necə saxlamaq olar? Onun dağılmasına təəssüf etmirəm, o çoxdan laxlamışdı, mən ona heyfsilənirəm ki, o yenidən baş qaldırır, ona heyfsilənirəm ki, bu dünyaya gəlmişəm və bu dünyanın gün işığına da heyfsilənirəm.

Bundan sonra necə yaşayacağıq? Əgər sən mənim cavab məktubumla razısansa, sən Vyanada hec cür yaşaya bilməzsən, bu, sadəcə, mümkün deyildir.

Milena, söhbət bundan getmir, sən mənim üçün qadın deyilsən, sən qızcığazsan, mən heç vaxt bu qədər bakirəlik görməmişəm, mən hətta cəsarət etmirəm ki, çirkli, titrəyən, dırnaqlı, çatlaqlı, inamsız, istisoyuq əlimi sənə təqdim edim. F.

"Praqalı sifarişçi" məsələsinə gəlincə isə, bu, pis plandır. Sən yalnız boş bir ev tapırsan-ora mənim bürom olacaqdır.

Mən isə həmin vaxt üzümü əllərimlə örtərək yazı stolunun arxasında oturacağam. Ünvan: Staromest Rinq, 6, 3-cü mərtəbə.

ÇƏRŞƏNBƏ

Həqiqəti demək çətin olur, o, yeganə olsa da, canlıdır və bütün canlılar kimi dəyişkən sifətə malikdir *("krasna vubec nikdy, vazne ne, snad nekdu* hezna").38 Əgər mən bazar ertəsindən çərşənbə axşamına keçən gecə sənə cavab yazsaydım, bu çox dəhşətli olacaqdı, yatağımda uzanaraq sanki işgəncə altında idim, bütün gecə sənə cavab verirdim, şikayət edirdim, səni özümdən uzaqlaşdırmaq haqqında düşünürdüm, özümü lənətləyirdim. (Bunlar hamısı ona görə baş verdi ki, məktubun gecə vaxtı gəldi, gecənin düşməsindən əvvəl isə mən çox həyəcanlanmışdım və ciddi sözlərə qarşı həssas idim.) Səhər tezdən mən Bosenə getdim, oradan elektrik qatarı ilə Klobenştayna getdim, orada - 1200 metr hündürlükdə, erkən dolomit qayalarının yaxınlığında təmiz, demək olar ki, buzlu hava ilə nəfəs aldım və hələ özümə tam gəlməmiş, geri qayıdarkən sənə aşağıdakıları — yazdım (mən indi onu yazıram, amma mühakimələrim - ən azı bu günün nəzərincə - çox sərt görünür; günlər belə dəyişkəndir!).

Nəhayət ki, təkəm, Merana qayıdıram, mühəndis Bosendə qaldı. Mühəndisin və mənzərələrin bizim aramızda durmasından, çətin ki, çox əziyyət çəkdim, çünki mən özümdə deyildim. Dünən gecə saat birin yarısına qədər sənin*lə* idim, - sənə yazırdım və daha çox sənin haqqında düşünürdüm - sonra səhər altıya qədər yataqda o üz, bu üzə çevrilərək yuxusuzluqla əlləşdim, sonra isə hey çırpınıb- silkələndim, ancaq yad adam ona yad olan bir adamı bu cür yataqda silkələyər və bu, yaxşı oldu, çünki mən Meranda qalsaydım belə, günü itirəcəkdim, ancaq burnumu sallayıb yazacaqdım. Bu gəzintini xüsusilə dərk edə

bilməməyimə baxmayaraq, yaddaşımda anlaşılan yuxu kimi qalıb. Gecə isə ona görə əzablı idi ki, öz məktubunla (sənin nüfuzedici baxışların vardır və bu yaxşıdır, küçədə çoxlu adamlar sənin nəzərlərini cəlb edəcəklər, lakin bu baxışların amansız olması və daha dərinlərə boylana bilməsi əsas məsələdir, bunu sən bilirsən) yenidən köhnə tanışlarımı - bir gözünü yumub birini açıq saxlayaraq fürsət gözləyən tanışımı; bu çox dəhşətlidir, əlbəttə ki, dərhal qorxudan adamı soyuq tər basır (sənə and içirəm ki, başqa şeylərə görə yox, yalnız dərkedilməz qüvvələr qarşısındakı qorxudan)

- şeytanları yenidən oyandırdı, amma bu həm də yaxşıdır, bu, sağlamlığın xeyrinədir: onların paradını qəbul edirsən və bilirsən ki, onlar vardır. Amma hər halda bu sözlərimi heç də bütünlükdə doğru qavramırsan ki, guya mən "Vyanadan get!" sözlərini düşünmədən yazmışam. Bizə toxuna biləcək heç bir çətinlikdən qorxmuram (mən az qazansam da, düşünürəm ki, bizim ikimizə də tamamilə kifayət eləyər - əgər xəstəlik işə qoşulmasa), sonra isə mən öz fikirlərimdə, ifadələrimdə (mən əvvəllər də belə olmuşam, amma təkcə sən bunu görə bilərsən və baxışların mənə dayaqdır!) tamamilə səmimiyəm, bəs nədən qorxuram - qorxunun, özündən gedənlər kimi yaddaşsızlığın dəhşətindən gözlərimi bərəldərək qorxuram (əgər qorxuya qərq olduğum kimi yuxuya da qərq ola bilsəydim, onda artıq yaşamazdım), nədən qorxuram - əleyhimə olan gizli danışıqlardan, planlardan (sən atama yazdığım məktubu oxuyanda onu yaxşı başa düşəcəksən, amma yenə də tamam başa düşməyəcəksən, çünki o həddən artıq

məqsədyönlü şəkildə köklənib), elə qurğudan qorxuram ki, belə bir misala əsaslanır: mən nəhəng şahmat taxtasında, olsa-olsa, piyadanın piyadasıyam, hətta bir az da aşağıyam, birdən, oyunun ciddi qaydalarının əksinə olaraq, hər şeyi qarışıq salıram, şahın yerini tutmağa hazırlaşıram - piyadanın piyadası, bəlkə də fiqur hesab olunmayan, oyunda iştirak etməyən bir şahın yerini, bəlkə də bütün taxtanı zəbt etmək istəyirəm! Amma istəyim təkcə bu olsaydı, hər şey tamamilə başqa yolla, daha da qeyri-insani bir yolla baş tuta bilərdi.

Ona görə də mənim sənə təklif etdiyim şeyin sənə nisbətən mənim üçün artıq dərəcədə əhəmiyyəti vardır.

İndiki dəqiqələrdə bu, ən şübhə doğurmayan, xəstəliyə qətiyyən dəxli olmayan şeydir - bu, şəksiz xoşbəxtlik bəxş edəcəkdir.

Dünən belə idi, bu gün isə, məsələn, deyə bilərəm ki, əlbəttə, Vyanaya gələcəyəm, amma bu gün bu gündür, sabah isə sabahdır, özümə fəaliyyət azadlığı verirəm.

Mən heç vaxt sənin üçün gözlənilməzlik etməyəcəyəm və cümə axşamından dərhal sonra da gəlməyəcəyəm. Əgər Vyanaya gəlsəm, onda səni pnevmatik poçtla39 xəbərdar edəcəyəm (səndən başqa kimsəni görə bilməyəcəyəm, bu şəksizdir, amma bu, çərşənbə axşamından tez olmayacaqdır. Cənub vağzalına gedərdim, amma hələ dəqiq bilmirəm ki, hara gedəcəyəm, çünki mehmanxana da

tutmalıyam; heyf ki, hansı kvartalda dərs dediyini bilmirəm, yoxsa orada səni beş saat gözlərdim. (Məncə, bu cümləni bir nağılda

oxumuşam, o, başqa bir cümlənin yanında verilib: "Əgər onlar hələ ölməmişlərsə, deməli, hələ də yaşayıb güzəran sürürlər".)

Bu gün Vyananın planını öyrəndim, bir anlıq mənə aydın olmadı ki, niyə bu qədər nəhəng şəhər salmışlar, axı sənə cəmi bircə mənzil lazımdır! F.

Səhəri gün mən yemək barədə qeydləri gördüm, bir vaxtlar o yəqin mənim də karıma gəlib və mən tezliklə bu cür mühüm adam olmuşam. Bu iki məktubu otağımda çörək qırıntılarını dənləyərkən ehtiyatla göz qoyan, titrəyən, hər səsə qulaq asan, bütün lələklərini qabardan sərçə kimi oxudum.

CUMƏ AXŞAMI

Elə ki, çox yatıb qalmırsan, dağınıq tərzdə yatdığından daha diribaş olursan, dünən mən çox yatdıqdan sonra duraraq Vyana barədə cürbəcür axmaq şeylər yazdım. Ən nəhayət, bu səfər boş şey deyildir ki, onu zarafata çevirək. Heç bir halda sənin üçün sürpriz etməyəcəyəm, bu barədə kiçicik bir fikir məni titrəməyə salır. Mən ki sənin mənzilində peyda olmayacağam! Əgər cümə axşamı pnevmatik poçtla məktubu almasan, deməli, Praqaya getmişəm. Yeri gəlmişkən, Qərb vağzalına gedərdim, - dünən, deyəsən, Cənub vağzalı barədə yazmışdım - bəli, bunun fərqi yoxdur. Və artıq praktiki olmamağımın, fəaliyyətsizliyimin, diqqətsizliyimin orta sərhədlərini çox güclü şəkildə adlayıb keçirəm (bir şərtlə ki, gərək çox yatım), bu barədə narahat olmaya bilərsən, əgər Vyanaya gedən qatara otursam, onda

yəqin ki, Vyanada da düşəcəyəm, ən böyük çətinlik minmək məsələsidir. Beləliklə, görüşənədək (hökmən deyildir ki, Vyanada görüşək, məktublarda da olar). F.

"Milena" sözünə gəlincə isə, almanlığın və yəhudiliyin buraya dəxli yoxdur. Hamıdan yaxşı "Naşe rjeç"dən olan cənablar çexcəni anlayırlar (çex yəhudilərini nəzərdə tutmuram), ikinci yerdə bu jurnalın oxucuları, üçüncü yerdə isə abunəçilərdir, mən isə abunəçiyəm... Və onların sözünü sənə deyirəm:

"Milena"da çex anlamı vardır və onun qısaldılmış forması da vardır: "milenka". Bu sənin xoşuna gəlir, ya yox, amma filologiya belə deyir.40

Əgər Vyanaya gəlsəm, ya teleqraf vuraram, ya da ki, sənə yazaram, ola bilsin ki, poçtamta yazaram.

Ya çərşənbə axşamı, ya da çərşənbədə. Əlbəttə ki, bütün məktublar ödənilir, doğrudanmı, zərfdən görünmür ki, markalar qoparılmışdır?

CÜMƏ, axşam

Bu gün səhər cürbəcür axmaq şeylər yazmışdım və indi sənin dolğun, sevimli məktubların gəldi. Onlara şifahi cavab verirəm: əgər mənim özümdə, yaxud ətrafda gözlənilməz bir şey baş verməsə, çərşənbə axşamı Vyanada olacağam. Əlbəttə, yaxşı olardı ki (çərşənbə axşamı, deyəsən, bayramdır və ola bilsin ki, sənə göndərməyə hazırlaşdığım məktub, yaxud teleqrafı aparan poçt bağlı olacaq), artıq bu gün səni harada gözləyəcəyimi — deyim, amma həmin vaxta qədər, sadəcə,

gəbərə bilərəm, çünki əgər hansısa bir yerin adını desəm, üç gün ərzində çərşənbə axşamı oraya gedəcəyim anı gözlədiyini öz xəyalımda görəcəyəm. Ah, Milena, ümumiyyətlə, dünyada o qədər səbir vardırmı ki, mənə lazım olan qədər çatsın? Bu barədə mənə çərşənbə axşamı danışarsan.

Çərşənbə, səhər saat 10

Saat on ikiyə qədər bu məktub, belə görünür ki, gəlməyəcəkdir, indi saat on olduğu üçün, hətta qətiyyən gəlməyəcəkdir. Onda hər şey sabaha qalır, bəlkə də bu yaxşıdır, çünki Vyanada olsam da, Cənub vağzalının kafesində otururam (bu nə kakao, nə peçenyelərdir, sən bunlarlamı yaşayırsan?), amma sanki hələ bütövlükdə burada deyiləm, iki gecəni ardıcıl olaraq yatmamışam, üçüncünü yata biləcəyim də məlum deyildir, Cənub vağzalının qarajla yanaşı "Riva" mehmanxanasındayam. Ümumiyyətlə, bundan yaxşı bir şey fikirləşə bilmirəm: çərşənbə günü səhər saat ondan başlayaraq mehmanxananın qarşısında gözləyəcəyəm. Səndən xahiş edirəm, Milena, arxadan, yaxud yandan çıxaraq məni qorxutma, mən də bu cür eləməyəcəyəm.

Ola bilsin ki, bu gün görməli yerlərə baş çəkəcəyəm: Lerxenfelderştrassa41, poçt,42 Cənub vağzalından Lerxenfelderştrassa qədər olan yerlər, ticarət dükanları və s. Çalışacağam ki, tanınmadan gəzim.

Sənin

(Praqa) Bazar43

Bu gün, Milena, Milena, Milena, bu gün başqa heç nə yaza bilmirəm! Hər halda, yox. Beləliklə, bu gün, Milena, tələsik yazıram, yorğunluq və boşluq hiss edirəm (sonuncusu, yəqin, sabah da hiss olunacaqdır). Necə də yorğun olmamalıyam? Xəstəyə tam üç ay məzuniyyət vəd edirlər, amma çərşənbə axşamından bazar gününə qədər dörd gün verirlər, həm də bir axşam və bir günü də kəsirlər.

Məgər günahkaram ki, sağalmamışam? Məgər haqlı deyiləmmi?

Milena! (Bunları sənin sol qulağına pıçıldayıram, sən isə nimdaş yataqda özünün dindar mənşəyinə uyğun şəkildə dərin yuxuya dalmısan və yavaşca, hələ heç nə dərk etmədən sağ böyründən sol böyrünə - mənim dodaqlarıma doğru çevrilirsən...).

Mən necə gəlim? Əvvəlcə hər şey çox sadə idi, perronda qəzet tapılmadı, bu meydançaya qaçmaq üçün əlavə bəhanəm oldu, amma sən artıq orada deyildin - hər şey qaydasındadır. Mən kupeyə qayıtdım, qatar tərpəndi, qəzeti açdım, oxumağa başladım, - hər şey qaydasındadır; bir neçə dəqiqə sonra qəzeti qatladım - birdən başa düşdüm ki, artıq mənimlə deyilsən, daha doğrusu, sən mənimlə idin, bunu bütün varlığımla hiss edirdim, amma indi mənimlə birgəliyin ötən dörd günə nisbətən tamamilə başqa cür oldu və buna alışmalı idim. Yenidən oxumağa başladım, lakin Barın44 gündəliyi Dunaydakı Qraynın Kroysen kurortunun təsviri ilə başlayırdı. Qəzeti qatladım, amma pəncərəyə boylananda qatarın keçdiyini gördüm, vaqonun üzərində yazılmışdı: Qrayn. Baxışlarımı yayındırdım və qabağa baxmağa başladım. Qarşımdakı cənab "Narodni listı"nın ötən bazar

çıxan nömrəsini oxuyurdu, orada Rujena Yesenskayanın45 felyetonunu gördüm və oxumaq üçün onu xahiş etdim; oxumağa başlayıram, sonra oxuya bilməyib yenidən tullayıram və budur, otururam, qarşımda isə sənin perronda vidalaşarkən gördüyüm sifətin durub. O, təbiətin təzahürü idi, mən heç vaxt belə bir şey görməmişdim: günün işığı buludla yox, öz içində tutqunlaşıb qaranlıqlaşırdı.

Mən daha nəyi deməliyəm? Boğazım və əllərim mənə tabe olmurlar.

Sənin

Sabah bu möcüzəli səyahətin təsvirini davam edəcəyəm.

1) Bazar, bir az sonra

Göndərdiyim məktubu və içindəkini46 qulluqçu sənə verəcək (zəhmət olmasa, onu da açarsan, Maksdan47 gələn məktubdur), təcili cavab tələb olunur, mən yazdım ki, saat 9-da onun yanında olacağam. Nə deyəcəyimi tamamilə aydın bilirəm, amma necə deyəcəyimi bilmirəm. Mən evliyəm, Tanrı xətrinə, təsəvvür elə ki, evə qayıdıram və gözlərim yataq axtararaq, Vyananın hansısa bir yeraltı keçidində yox, o yataqda uzanıb hamıdan gizlənirəm! Bunu öz-özümə ona görə deyirəm ki, qarşımda duran missiyanın nə qədər asan və cəlbedici olduğunu dərk eləyim.

Sənin

Onun məktubunu sənə göndərirəm ki, evinin qarşısında irəli-geri gəzişərkən tamamilə mənim yanımda olasan.

2) Bazar, saat 11.30

Heç olmasa, bu məktubu nömrələyirəm ki, onların heç birisi səndən yan ötməsinlər, axı mən də kiçik bir parkda sənin yanından ötüb keçə bilmərəm.

Heç bir nəticə yoxdur, hər şey isə aydındır, mənə deyilənlərin də hamısı aydındır. Əvvəlcədən təfərrüatları danışmayacağam, yalnız bunu bildirirəm ki, o nə sənin, nə də mənim haqqımda heç bir kəlmə də pis söz demədi. Tam aydınlıq olduğu üçün mən hətta heç bir şəfqət də hiss eləmədim. Mən yalnız onu deyə bilərəm ki, - və bu, bitkin bir həqiqətdir - münasibətlərimizdə tamamilə heç bir şey dəyişməyib və çətin ki, nə vaxtsa dəyişəcəkdir, təkcə (yox, daha bacarmıram, bu çox iyrəncdir, bu mənim yox, cəlladın sənətidir) yalnız bircə şey, Milena, əgər o ağır xəstələnərsə (o çox pis görünür, onun məyusluğu sonsuzdur, sabah nahardan sonra bir daha onun yanına gedəcəyəm)... Ümumiyyətlə, əgər o xəstələnsə, yaxud ona hər hansı bir şey üz versə, artıq buna hakim ola bilməyəcəyəm, axı mən yalnız onu bacararam ki, dönə-dönə həqiqəti deyim, bu həqiqət isə sadəcə, həqiqət yox, ondan da artıqdır, mən tamamilə səndə qərq olmuşam, onunla yanaşı gedəndə, ola bilsin ki, nəsə baş versin, onda sən buraya gəl, Milena! F. Mən axmaq şeylər yazmışdım, sən həmin səbəbə görə gələ bilməzsən.

Sabah atama yazdığım məktubu sənin ev ünvanına göndərəcəyəm, xahiş edirəm ki, onu saxlayasan, o məktubu birdən ona verməli olaram. Çalış, ona heç kəsin gözü sataşmasın. Özün onu oxuyanda isə, çalış ki, vəkil eyhamlarını (hüquq istilahları - *tərc.)* başa düşəsən - bu

elə vəkil məktubudur. Və həm də özünün çox işlətdiyin "hər halda" sözünü də unutma. **3) Bazar ertəsi, səhər**

Bu gün "Yazıq şpilman48" /49 sənə göndərirəm, ona görə yox ki, o mənim üçün böyük əhəmiyyətə malikdir, amma çox illər bundan əvvəl belə bir əhəmiyyəti var idi. Mən onu sənə ona görə göndərirəm ki, onun müəllifi də Vyanalıdır və o dərəcədə musiqidən uzaqdır ki, ağlamağın gəlir, həm də ona görə ki, o, Xalq bağının50 yuxarısından bizə baxırdı (Bizə! Sən mənimlə yanaşı gedirdin, Milena, bir düşün, mənimlə birgə!) və ona görə ki o, bürokrat olduğuna görə, işgüzar qızları sevirdi.

4) Bazar ertəsi, səhər

Bu gün sənin cümə günü yazdığın məktub, bir az sonra isə həmin günün axşamı yazdığın məktub gəldi. Birincisi sənin perrondakı sifətin kimi kədərli idi.

Məzmununa görə yox, köhnəldiyinə görə, artıq hər şeyin keçmişdə qaldığına görə kədərli idi: ümumi meşəmiz, ümumi yolumuz, ümumi şəhərətrafı yerlərimiz! Onlar isə qurtarmırlar, heçliyə getmirlər, onlar ox kimi düz şəkildə daş döngəyə doğru yuxarıya və xiyabanla geriyə yönələrək batan günəşə tərəf gedir, o qurtarmır, amma onun qurtarmadığını deməyin özü də axmaq zarafatdır. Ətrafda hara baxırsansa kağızlar, sənədlərdir, indicə oxuduğum bir neçə məktublar, direktorla qarşılıqlı salamlaşmalarımız (işdən çıxarılmamışam) və daha ikiüç otaqda olanlar. Bütün bunlarla yanaşı olaraq, qulaqlarımda kiçik bir zəng səslənir: "O artıq səninlə deyildir". Düzdür, hardasa

göylərdə daha bir nəhəng zəng də vardır və səslənir: "O səni tərk edir". Amma kiçik zəng daha yaxındadır, lap qulağının dibində! Sonra isə bu axşamkı məktub (dərkedilməzdir, onu necə oxumaq olar, dərkedilməzdir)...

Sinə kifayət edəcək ölçüdə necə genişlənsin və sıxılsın ki, bu havanı uda bilsin, dərkedilməzdir ki, səndən niyə bu qədər uzaqdayam.

Amma şikayətlənmirəm, bütün bunlar şikayət deyildir və sən də mənə söz vermisən.

İndi isə yol əhvalatlarım barədə; axırda sən mənə mələk deyəcəksən. Çoxdan bilirdim ki, mənim Avstriya vizamın müddəti, sözün həqiqi mənasında (elə məcazi mənasında da), iki ay əvvəl bitmişdir, amma Meranda məni inandırdılar ki, tranzit üçün o lazım deyildir, Avstriyaya indiki səfərimdə heç kim mənə mane olmayacaqdır. Məhz buna görə də Vyanada bu boşluğu təmiz unutmuşdum, amma Qmyunddakı pasport yoxlamasında gənc, ciddi, cavan məmur bunu dərhal aşkar elədi. Pasportu bir tərəfə qoydular, məndən başqa hamını sonrakı gömrük yoxlamasına buraxdılar, artıq təkcə bu, kifayət qədər iyrənclik idi. (Mənə elə hey əngəllər törədirlər, hələ birinci günümdür, onların dedi-qodularınıdinləməyə borclu deyiləm, amma həmişə kimsə meydana çıxıb məni səndən, daha doğrusu, səni məndən

uzaqlaşdırmağa çalışırlar, amma bu onlara müyəssər olmayacaqdır, Milena, düzdürmü?) Deməli, belə, mən bu vəziyyətdə olanda sən gəlib işə qarışdın. Şən, üzügülər, səmimi avstriyalı, hamı ilə qaynayıbqarışan sərhədçi gəldi, məni dəhlizlərlə və pilləkənlərlə

sərhəd mühafizə otağına apardı. Orada pasportunda bu cür səhv ucbatından gətirilmiş bir rumın yəhudisi də var idi, yəhudilərin mələyinin (yəni sənin) qəribə tərzdə, dostcasına göndərdiyi bir adam idi. Lakin düşmən qüvvələr hələ bir az güclü idilər. Yüksək rütbəli məmur və onun cırtdanboylu köməkçisi, hər ikisi sarı, qupquru, qəddar idilər, onlar (ən azı həmin dəqiqələrdə) pasportları əllərinə götürdülər. Müfəttiş dərhal, etiraz yeri qoymadan elan etdi: "Vyanaya qayıdın və oradakı polisə lazım olan qeydləri yazdırın!" Mən yalnız bir neçə dəfə "Bu mənim üçün dəhşətdir!" deməyə qüdrət tapdım. Müfəttiş də bir neçə dəfə bu cür, amma ironiya ilə, hirslə dedi: "Bu sizə belə görünür". "Bəs bu qeydi teleqrafla almaq olmazmı?" - "Yox". "Mən bütün xərcləri ödəyərəm." - "Yox". "Sizin burada daha yüksək instansiyanız vardırmı?" - "Yox". Mənim əzablarımı görən qadın heyrətediləcək sakitliyini saxlayaraq müfəttişdən heç olmazsa məni buraxmağı xahiş edir. Milena, çox zəif vasitədir! Sən bu cür onunla dil tapa bilməyəcəksən. İstəsən də, istəməsən də geriyə qayıdaraq uzun yolu qət etməli, pasport nəzarətindən keçməli, baqajı götürməlisən. Belə olduqda, bu gün getməyə qətiyyən ümid yeri qalmır. Və budur, biz sərhəd mühafizə otağında oturmuşuq, polis də bizə heç bir şeylə təsəlli verə bilmir, o, ancaq biletin vaxtını uzadır və s. Müfəttiş son sözünü deyərək kabinetdən çıxdı, yalnız cırtdan köməkçisi buradadır. Mən hesablayıram: Vyanaya növbəti qatar gecə saat 10-da keçir, 2.30-da ora çatır. Hələ də bədənimdə Riva taxtabitilərinin dişlədikləri yerlər

göynəyir, Frans Yozef mehmanxanasındakı budəfəki nömrəm necə olacaq? Amma mən nömrə almayacağam axı, birbaşa

Lerxenfelderştrassa gedərək (hardasa üçün yarısında) orada bir otaq xahiş edərəm (təxminən saat 5-də). Orada yubanmasam, bazar ertəsi səhər pasportda lazımi qeyd etdirərəm (amma onu dərhal ala biləcəyəmmi, ya çərşənbə axşamı verəcəklər?), sonra sənin yanına yollanaram, sən qapını açanda sənin üçün sürpriz edərəm. Aman, Tanrım! Burada fikirlərim qırılır, sonra davam edir: bu gecədən sonra mən nə vəziyyətdə olacağam, gecə isə mən qatarla altısaatlıq yolda olmalı və həmin görkəmlə də Praqaya çatanda direktora nə deyəcəyəm, axı məzuniyyətin uzadılması haqqında yenidən teleqrafla xahiş etmək lazım olacaqdır. Bütün bunları heç nə hesab eləsən də, nə etmək olar ki? Başqa yol yoxdur. Yeganə yüngüllük ola biləcək şey birdən ağlıma gəlir: Qmyundda gecələyərək Vyanaya səhər getmək.

Tamamilə yorulmuşam və cırtdan köməkçidən soruşuram ki, Vyanaya gedən səhər qatarı saat neçədə buradan keçir. Səhər saat 5.30-da keçir və gündüz 11-də çatır. Kifayətdir, ola bilsin ki, onunla gedəcəyəm, rumın da eləcə və burada söhbət tamamilə yeni məcraya yönəlir. Necə oldusa, qəfildən aydın oldu ki, cırtdan köməkçi bizə kömək etmək istəyir. Əgər Qmyundda gecələsək, səhər tezdən, kontorda ondan başqa heç kəs olmayanda, o bizi sərnişin qatarı ilə Praqaya gizlicə keçirə bilər və biz gündüz saat 4-də Praqada olarıq. Müfəttişə isə deməliyik ki, səhər qatarı ilə Vyanaya yola düşəcəyik. Möcüzədir! Amma öz aramızdır, bu, nisbi möcüzədir, çünki Praqaya onsuz da

teleqraf vurmaq lazımdır. Qoy olsun! Müfəttiş gəlir, bir azca komediya oynayırıq və səhər qatarı barədə ona danışırıq, sonra köməkçi bizi kənara çəkib sonrakı müzakirələr üçün gecə gizlicə görüşməyi təklif edir. Düşünürəm ki, bütün bunlar səndən gəlir, problemlər isə düşmən qüvvələrin sonuncu zərbəsidir. Beləliklə, mən və həmin qadın yavaşca vağzaldan çıxırıq (bizi aparacaq sürət qatarı hələ də platformada durub, baqajın yoxlanılması uzun çəkir). Şəhərə uzaqdırmı? Bir saat. Yeni bir problem! Amma aydın olur ki, vağzalda iki mehmanxana vardır, onlardan birinə doğru irəliləyirik. Mehmanxananın qabağından dəmiryolu xətləri keçir; relslərin üstündən keçmək lazımdır, amma yük qatarı yaxınlaşır; qaçmaq istəyirəm, çatdıra bilərəm, amma yol yoldaşım məni saxlayır, yük vaqonu da qarşımızda dayanır, gözləmək lazımdır. "Bədbəxtliyimizə kiçik əlavələr də gəldi", - biz fikirləşirik.

Lakin məhz Praqaya bazar günü çata bilməyəcəyim haqqındakı fikrimdə bu gözləmə dönüş nöqtəsi oldu. Sanki, sən bütün mehmanxanaları qaçdığın kimi, indi də bütün göyün qapıları boyunca qaçaraq mənim üçün xahiş edirdin, çünki elə bu dəqiqələrdə sənin polisin təngnəfəs bizə tərəf qaçaraq qışqırdı: "Cəld geri qayıdın, müfəttiş sizi buraxır!" Bu mümkündürmü? Belə anlarda, sadəcə, boğazın göynəyir. Polis məmuruna azı on dəfə yalvardıq ki, bizdən hədiyyə kimi pul götürsün.

İndi isə cəld geriyə gedib müfəttişdən baqajı götürmək, qaçaraq pasport yoxlanmasına, sonra isə gömrük yerinə getmək lazımdır.

Amma sən hər şeyi yoluna qoyursan, mənim gücüm çatmır ki, baqajı daşıyım, o dəqiqə yükdaşıyan yanımda peyda olur, pasport yoxlaması zamanı izdihamla qarşılaşıram, polis mənim üçün yolu açır, baqaj yoxlanması zamanı bilmədən qızıl sancağımı qabla qarışıq itirirəm - məmur onu tapıb mənə verir. Biz qatara otururuq və hiss olunmadan yola düşürük, nəhayət ki, alnımdan və sinəmdən təri silə bilərəm.

Həmişə mənimlə qal!

5) Deyəsən, bazar ertəsi

Əlbəttə, uzanıb yatmaq lazımdır, axı gecə saat birdir. Yəqin ki, sənə çoxdan məktub yazardım, amma Maks burada idi. İndiyə qədər görüşünə qızın və ona görə olan həyəcanın mane olduğu bu adamı qonaq qəbul etdiyimə görə çox şadam. 8.30-a qədər qızla birlikdə idim, 9-da Maks gəldi, 12.30-a qədər onunla gəzdik. Təsəvvür elə ki, güman etdiyimə görə, çox aydın yazdığıma baxmayaraq, bəhs etdiyim adamın sən, sən, sən olduğunu, - yazı yenə də bir az qırılır - sənin bəhs etdiyim adam olduğunu qətiyyən başa düşməmişdir və yalnız indi adını öyrəndi (yeri gəlmişkən, kobudcasına, birbaşa yazıları yazmırdım ki, hər halda onları arvadı da oxuya bilərdi.). Qız haqqında: bu gün əvvəlkilərə nisbətən yaxşı idi, - amma bu çox baha başa gəlmişdi - mən ona icazə vermişdim ki, sənə yazsın. Və buna çox təəssüf edirəm. Qorxumun səbəbi sənə görədir - sənə poçtla göndərdiyim "tələb olunanadək" tipli teleqramım ("Qız sənə dostcasına cavab yazır və... burada mən, ümumiyyətlə, istərdim ki, "çox" yazam, amma "ciddi" deyirəm, sən isə məni tərk etmə".).

Bütövlükdə hər şey sakit keçdi, özümü ələ aldım və Meran haqqında sakit danışdım, ovqatı daha az təhlükəlidir. Amma söhbət yenidən əsas məsələyə çatanda qız bir müddət Karl meydanında yanımda duraraq bütün bədəni ilə titrədi, yalnız onu deyə bildim ki, sənlə bir yerdə olanda hər şey, dəyişməz qaldığına baxmayaraq, yox olur və heçliyə qovuşur. O, özünün sonuncu sualını (məhz həmin sualı) verdi ki, onun qarşısında mən həmişə müdafiəsizəm: "Mən gedə bilmərəm, amma sən məni göndərirsənsə, onda çıxıb gedərəm. Sən məni göndərirsənmi?" (Mənim qürur hissinə əhəmiyyət vermədən bunları sənə söyləməyimdə dərin bir iyrənclik vardır, amma mən bunları sənə görə qorxduğumdan danışıram. Sənin üçün qorxmağıma görə isə mən nələr edərdim.51 Görürsənmi necə qəribə, yeni qorxudur.) Mən cavab verdim: "Bəli". Buna cavab olaraq o dedi: "Amma mən gedə bilmirəm". Və burada həmin sevimli, xeyirxah varlıq öz qüvvəsi xaricində olaraq danışmağa başladı ki, sənin mənimlə gizli görüşdüyünə görə öz ərini sevdiyinə inanmır və s. Düzünü desəm, burada sənin haqqında xoş olmayan sözlər də işlədildi ki, onlara görə o döyülməli idi və mən bunu istəyirdim, amma mən ona məgər imkan verməməliyəmmi ki, heç olmasa bu işə görə ağlamasın? O xatırlatdı ki, sənə yazmaq istəyir və mən onun barəsində həyəcanıma, sənin barəndə isə sonsuz etibarıma görə ona icazə verdim ki, bunu eləsin, amma bilirdim ki, bunlar mənə bir neçə gecəyə başa gələcəkdir. Bu icazənin onu məhz sakitləşdirməyi məni narahat eləyir. Mehriban və ciddi ol, amma mehribanlıqdan daha çox ciddi ol, amma mən nə

deyirəm, məgər bilmirəm ki, sən, necə lazımdırsa, həmişə düzünü yazacaqsan?

Məgər onun öz bədbəxtliyinə görə sənə nəsə dəhşətli bir şey yazacağı və səni mənim əleyhimə qaldıracağı barədəki qorxum sənin üçün alçaldıcı hiss deyildirmi? O alçaldıcıdır, amma mən nə edə bilərəm ki, sinəmdə ürək əvəzinə qorxu döyünür? Nahaq yerə ona icazə verdim. Eybi yoxdur, sabah onunla yenidən görüşəcəyəm, sabah bayramdır (Qus52). O, nahardan sonra gəzinti barədə məndən çox xahiş etdi, belə olarsa, həftə sonuna qədər buraya gəlməyimə ehtiyac yoxdur. Ola bilsin ki, o hələ yazmayıbsa, onu sənə məktub yazmaqdan çəkindirməyi bacaracağam. Düzdür, sonra mən öz-özümə dedim ki, o, həqiqətən, yalnız izahat istəyir, ola bilsin ki, məhz sənin dostcasına dediyin ciddi söz onu sakitləşdirəcəkdir, ola bilsin ki, - mənim fikirlərim indi elə qaçışırlar ki - o sənin məktubunun önündə dizləri üstə düşəcəkdir.

Frans.

Onun sənə məktub yazmağına icazə verməyimin bir səbəbi də odur ki, o sənin mənə yazdığın məktubu görmək istədi. Amma mən onları göstərə bilmədim.

6) Çərşənbə axşamı, səhər

Mənim üçün kiçik bir zərbə: Parisdən aldığım teleqramdan məlum oldu ki, Madriddə yaşayan və mənim çoxdan görmədiyim sevimli qoca dayım sabah axşam gələcəkdir. Ona görə bunu zərbə hesab

edirəm ki, bütün vaxtı, hətta bütün vaxtdan da min dəfə çox, ən yaxşısı, əlbəttə, bütün vaxtı sənin haqqında düşünmək, sənինlə nəfəs almaq zərurətini əlimdən alır. Və buradakı mənzil narahat olacaqdır, mən hardasa başqa bir yerdə olmaq istərdim. Çoxlu şeyləri başqa cür etmək istərdim, büro da mənə heç lazım deyildir, amma sonradan qərara gəldim ki, bütün reallıqları aşaraq sənə aid olan reallıqları arzuladığım üçün bu mənim üzümə vurulan sillədir və mən buna layiqəm.

Nədənsə, bu qarışıq dünyada bizə, yalnız bizə aid olan şeylərdən daha yaza bilmirəm. Hər şey yaddan daha yaddır. Ədalətsizlik! Ədalətsizlik! Amma dodaqlarım titrəyir, dilim kəkələyir, başım isə sənin dizlərinə söykənir.

Vyanadan sonra bir aclıq qalmışdır, belə deyə bilərəmmi? Orada olarkən, məncə, ikinci gün təxminən belə bir söz dedin: "Dəhlizdəki mübarizə uzun çəkə bilməz". Merandakı sonuncudan əvvəlki məktubunda isə xəstəlik barədə yazırsan. Bu iki şey arasından çıxışı mən necə tapmalıyam? Bunu qısqanclıqdan yazmıram, Milena, mən qısqanmıram. Ya dünya çox kiçikdir, ya da biz elə böyükük ki, hər iki halda biz onu tamamilə doldururuq. Mən kimə qısqanmalıyam ki?

7) Çərşənbə axşamı, axşam

Görürsənmi, Milena, mən içində nə yazıldığını bilmədiyim halda, məktubu sənə yollayıram. Belə oldu: mən ona vəd etdim ki, saat 3:30da evlərinin yanında gözləyəcəyəm. Paroxodda gəzməyə hazırlaşırdıq, amma dünən mən gec yatmışdım, ona görə də pnevmatik

poçtla ona belə bir yazı göndərdim: nahardan sonra mütləq yatmalıyam, ona görə də yalnız saat 6-da gələcəyəm. Məktub və teleqraf qarantının olmaması və gecikmələrin mümkünlüyündən narahat olduğum üçün əlavə etdim: "Məktubu yalnız ikimiz müzakirə edəndən sonra Vyanaya göndər". O, bu məktubu səhər tezdən yarımhuşsuz vəziyyətdə yazmış - nə yazdığını deyə bilməsə də - və dərhal qutuya atıbmış. Mənim pnevmatik mesajımı alan kimi, yazıq qız poçtamta qaçır, məktubu hardasa axtarmağa çalışır, sevindiyindən məktubu ona verən qulluqçuya bütün pulunu hədiyyə edir, yalnız sabahı günü verdiyi pulun məbləği onu qorxudur və axşam məktubu mənim üçün gətirir. İndi mən nə etməliyəm? Ümidim bu məktuba icazə verməyimə və sənin cavabına əsaslanırdı, amma etiraf edim ki, ümidim mənasız olsa da, başqa yolum yox idi. Əgər məktubu indi açıb oxusam, ondan inciyəcəyəm və yəqin ki, onu göndərə bilməyəcəyəm. Budur, özümü sənin əllərinə verdiyim kimi, onu da tamamilə və bütöv şəkildə sənin əllərinə təqdim edirəm.

Praqada hava yüngülcə tutqundur, ürəyimdə bir ağırlıq vardır, hələ də məktub yoxdur. Düzdür, hər hansı məktubun gəlməsi qeyrimümkün olsa da, bunu ürəyə izah etmək mümkün deyildir. F.

8) Çərşənbə axşamı, bir az sonra

Bu məktubu təzəcə poçt yeşiyinə atmışdım ki, fikirləşdim: belə bir şeyi səndən necə tələb etmək olar? Əslində, deməliydim ki, düzgün və zəruri qərar qəbul etmək yalnız mənim işimdir, həqiqətən də, yad adama etibar edərək ona bu cür cavab məktubu yazmaq sənin üçün

tamamilə qeyri-mümkündür. Nə etməli, Milena, bu məktub və teleqrama görə məni bağışla, onların sənin hicranından yaranmış zəif mühakimələrimdən doğduğunu başa düş. Əgər sən cavab verməsən, dəhşətli bir şey olmaz, başqa çıxış yolu mütləq tapılacaqdır. Buna görə həyəcanlanma. Sadəcə, bu gəzintilər məni mümkün olmayan dərəcədə yordu. Bu gün Vışeqradda idim, məsələ budur. Çünki dayım sabah gələcəkdir və mən nadir hallarda tək qalacağam.

Bir az xoş şeylər haqqında danışaq: sənə məlumdurmu ki, Vyanada hamıdan gözəl geyinmişdin, sadəsə, ağlagəlməz dərəcədə gözəl? Mübahisə etməyə belə dəyməz - bazar günü idi.

9) Çərşənbə, axşam

Tələsik, tövşüyə-tövşüyə təzə evə köçməyim münasibətilə yazıram. Ona görə tövşüyərək ki, saat 10da valideynlərim Francencbaddan gəlirlər, saat 12-də dayım Parisdən gəlir və hamısı istəyir ki, mən onları qarşılayım; yeni ev isə ona görədir ki, yerimi dayıma verərək bacımın indi Marienbaddakı evinə köçmüşəm. Böyük və boş bir mənzildir, bu çox yaxşıdır; düzdür, küçə səs-küylüdür, amma bütövlükdə bu evdəyişmə pis olmadı. Sənə isə dərhal yazmağa borcluyam, çünki axırıncı şikayət məktubumdan (ən dəhşətlisini bu gün səhər utandığımdan cırdım; bir fikirləş, mənim səndən heç bir xəbərim olmadığı halda, poçtdan şikayətlənmək axmaqlıqdır) elə nəticə çıxara bilərsən ki, mən sənə inanmıram, mən səni itirməkdən qorxuram. Yox, qətiyyən belə deyildir. Məgər sənə inanmasaydım, sən mənə bu qədər qiymətli olduğun dərəcədə ola bilərdinmi? Belə

təəssürat ondan yaranır ki, mənə qısaca bədən yaxınlığını yaşamaq bəxş olundu, sonra isə qəfil bədən ayrılığı. (Niyə məhz bazar günü? Niyə məhz səhər saat 7-də? Ümumiyyətlə, niyə?) Yəqin ki, bütün bunlara görə baş gicəllənməsi ola bilər? Bağışla! İndi isə dərin, sakit yuxuya gedəndə bir sel kimi məni və məndən olan hər şeyi - o şeyləri ki, səndə sakitləşməyə şad olardı -qəbul et. F.

10) Cümə axşamı, səhər

Küçə səs-küylüdür, üzbəüzdə nəsə tikirlər, pəncərənin qabağındakı *rus kilsəsi* yox53, insanlarla dolu olan yaşayış evidir. Hər halda, otaqda tək olmaq həyat şəraitidir, otaqda tək olmaq xoşbəxtlik şəraitidir (daha dəqiq desək, müvəqqəti xoşbəxtlikdir, şəraitlərdən biridir, çünki mən orada yaşamıramsa, mənə sakitlik bəxş edən vətənim deyildirsə - məsələn, Tanrının dərkedilməz şəfqəti ilə parlayan bir cüt aydın və mavi gözlər kimi); ola bilsin ki, bu mənzil xoşbəxtliyin bir tərkib hissəsidir, hər şey elə sakitdir ki, hamam, mətbəx, dəhliz, üç digər otaq insanların birgə yaşadığı mənzillərdəki hayküy, gurultu, cinsi istəklər, bədənlərin cinsi tələbatı, başqa heç cür ödənilməyən arzu və istəklər, bütün çarpayılar və şkaflar arasında, bütün xəfə yerlərdə yolverilməz əlaqələr, ağlagəlməz, təsadüfi şeylər, qeyri-qanuni uşaqların olduqları otaqlardan fərqlidir. Bütün bunların davamı, arasıkəsilmədən, vəhşicəsinə, nəfəsi kəsən, səhərə qədər yaşanan bazar günlərinə yox, qulaqları kar edən, ağlı başdan çıxaran, fasiləsiz olaraq insanların keçdiyi şəhərətrafı yerlərdəki şənbə axşamlarına bənzəyir.

Bacım gəldi, mənə nahar gətirmək üçün uzun bir yol qət edib (buna qətiyyən ehtiyac yox idi, mənim özüm evə getməyə hazırlaşırdım), hələ bir neçə dəqiqə qapının zəngini də çalıb. Axır ki, mən yazdığım bu məktubdan ayılıb, fikirlərdən azad oluram. F.

Lakin mənzil mənə məxsus deyildir, bacımın əri də yayda tez-tez buraya gəlmək niyyətindədir.

11) Cümə axşamı, səhər

Nəhayət ki, məktubun gəldi. İndi əsas məsələ barədə bir neçə söz yazıram, hətta tələsiklikdən bəzi çaşqınlıqlara yol versəm və sonradan buna təəssüf etsəm də yazıram: bu hadisə üçümüzə aid olan misilsiz bir hadisədir, ona görə də bunu digər hadisələrin təcrübəsi ilə bulandırmaq olmaz (meyitlər - üçqat, ikiqat əzablar). Mən onun54 dostu deyiləm və dostuma da xəyanət etməmişəm, mən onun sadəcə tanışı da deyiləm, onunla çox bağlıyam, yəqin ki, dostdan daha artıq birisiyəm. Sən də ona xəyanət etməmisən, çünki onu sevirsən, sən nə desən də, hətta biz birləşsək də (çox sağ olun, kürəklər!) sən onu bir başqa səviyyədə və başqa sferada sevəcəksən. Nəticədə bu, doğrudan da, sənin mənim təkcə işimiz deyildir ki, gizlin saxlayaq və həm də təkcəəzab, qorxu, ağrı və qayğı da deyildir, - sənin məktubun birdənbirə nisbi sakitliyimi qorxutdu, bu bizim ümumi əlaqələrimizdən gəlir, yəqin ki, Merandakı yaşantılara qayıdacağam həmin vəziyyətə qayıdış yollarında nə qədər böyük əngəllər olsa belə - sən hətta bir müddət sussan da belə, üçümüzün məsələsi çox aydın və başa düşülən bir məsələdir. Mən də bütün variantları götür-qoy etməyin

əleyhinəyəm, ona görə əleyhinəyəm ki, mənim "sən"im vardır, əgər mən tək olsaydım belə düşüncələrdən məni heç kəs saxlaya bilməzdi... sən artıq, həqiqətən, özünü gurlayan döyüş meydanına çevirirsən. Bəs parçalanmış torpaq guruldayıb yıxılan evin ağırlığına necə tap gətirəcəkdir?

İndi tamamilə heç nə başa düşmürəm, üçüncü gündür ki, büroda otururam və bircə sətir də yazmamışam, ola bilsin ki, indi alındı. Yeri gəlmişkən, mən bu məktubu yazana kimi Maks içəri girdi, o, yəqin ki, susacaqdır; bacım, valideynlərim, qız və ondan başqa hamı elə bilir ki, mən Lins-dən keçib gəlmişəm. F.

Sənə pul göndərmək olarmı? Məsələn, L. vasitəsi ilə. Mən ona deyərəm ki, sən Vyanada mənə pul borc vermişdin və o, bu pulu sənin redaksiya qonorarınla birgə göndərər?55

12) Cümə

Hər cür yazışmaları bir heç hesab edirəm, əslində də onların bir xeyri yoxdur. Hər şeydən yaxşısı odur ki, Vyanaya gəlib səni özümlə götürüm; sən bunu istəməsən də, ola bilsin ki, mən elə belə də edəcəyəm. Əslində, iki imkan vardır ki, onlar bir-birindən yaxşıdırlar: sən ya Praqaya gəlirsən, ya da Libeşisə. Keçmiş tipik yəhudi şübhəsi ilə dünən gizlicə Y. — nın yanına getdim, onu Libeşisə getməsindən azca əvvəl tutdum, sənin Stasyaya məktubun onda idi. Yaxşı adamdır, şəndir,

açıqqəlbli, ağıllıdır, qoluna girərək danışmağa girişir, hər şeyə hazırdır, hər şeyi başa düşür, hətta bir az da artıq. O, arvadı ilə

Bryunnda Florianannın56 yanına getmək niyyətindədir, oradan isə Vyanada sənin yanına gələcəkdir. İndi günün ikinci yarısında o, Praqaya qayıdacaqdır, Stasyanın cavabını gətirəcək, onunla 3-də görüşəcəyəm, sonra isə sənə teleqraf vuraram. Çərənçiliyimə görə məni bağışla, bu on bir məktubumu tulla kənara, reallıq vaxtı gəlmişdir, o, yaxşı və böyükdür. Belə hesab edirəm ki, indi yalnız sənin ərinə olan sevgindən ehtiyat etmək lazımdır. Sənin yazdığın yeni tapşırığa gəlincə isə, onlar, doğrudan da, çətindir, amma məni sənə yaxınlaşdıran qüvvələri lazım olan qədər qiymətləndirməmək olmaz. Düzdür, hələ yatmıram, amma dünən sənin iki məktubuna görə düşündüyümdən daha sakitəm (təsadüfən Maks onun şahidi oldu ki, bu çox da yaxşı şey deyildir, axı necə olsa da, bu sırf mənim işimdir, aha, bax qısqanmayanın qısqanclığı belə başlayır, yazıq Milena!). Sənin bugünkü teleqramın da bir az məni sakitləşdirdi.

Bu teleqram həyəcanım, heç olmasa, o qədər də böyük deyildir, tamamilə dözülə biləndir. O öz üzərinə ağlagəlməz dərəcədə çətin iş götürmüşdür, işin mahiyyətinə görə bir az, ola bilsin ki, tam, vicdanla onu həyata keçirmişdir; bu işi daha uzaqlara aparmağa isə, fikrimcə, qadir deyildir və buna görə yox ki, onun buna gücü çatmır (onunla müqayisədə mənim gücüm nədir ki?), ona görə ki, indiyə qədər baş verənlər onu həddən artıq sıxır, həddən artıq qəzəbləndirir, bu işi görmək üçün fikrini cəmləməkdən məhrum edir. Ola bilsin ki, başqası ilə birlikdə bu onun üçün yüngül olacaqdır.

Niyə ona məktub yazmayım?

13) Cümə

Stasyanın məktubu ilə bağlı bir neçə söz - dayım sevimli adamdır, indi bir az mənə mane olur, məni gözləyir. Beləliklə, Stasyanın məktubu dostcasına və ürəkdən yazılmışdır, amma orada bir çatışmazlıq vardır, kiçik, ola bilsin ki, təmiz formal çatışmazlıqdır (heç də inanmıram ki, bu nöqsansız məktub daha da səmimi olur, hətta əksinədir), bu və ya başqa şəkildə onda ya nəsə çatışmır, ya da əksinə, artıqdır, ola bilsin ki, mühakiməlilik-sanki bu, ərindən irəli gəlir, dünən o mənimlə məhz bu cür danışmışdı. Mən, həqiqətən, mehriban olan insanlar haqqında hansı tonda danışıram? Qısqanclıq elə həmin qısqanclıqdır, amma, Milena, sənə söz verirəm, heç vaxt səni sıxıb əzab verməyəcəyəm, özümü, yalnız özümü! Amma yenə də bu məktubda, fikrimcə, bir anlaşılmazlıq vardır, axı sən, həqiqətən, Stasyadan nə məsləhət, nə də ərinlə danışmağını gözləyirsən. Sən, sadəcə, istəyirdin ki, onun səninlə bir yerdə olmağının heç nə ilə dəyişdirilməyəcəyini anladasan. Mənə belə gəlir.

Ümid edirəm ki, elə bu gün səndən xəbər alacağam. Öz aramızdır, lap sahib olduqlarından xəbərsiz olan kapitalistlərə bənzəyirəm. İndi, nahardan sonra, büroda bütün məlumatlar haqqında soruşarkən sənin məktubunu gətirdilər, sənin bu məktubun mənim Meran səfərimdən dərhal sonra gəlibmiş. Onu oxumaq çox qəribə idi. Sənin

14) Şənbə

İşlər pisdir, srağagün həmin iki yazıq məktub gəldi, dünən yalnız teleqramın gəldi (sakitləşdirici olsa da, fikrimcə, bütün teleqramlar

kimi bir az qırıq-qırıq idi), bu gün isə tamamilə heç bir şey yoxdur. Həmin məktublar mənim üçün hər cəhətdən elə də təskinləşdirici deyildi, orada deyilirdi ki, sən dərhal yenidən yazacaqsan, amma hələ də yazmırsan. Srağagün axşam mən sənə təcili teleqram vuraraq xahiş etdim ki, təcili cavab yazasan, cavab isə çoxdan gəlməli idi. Mətni təkrar edirəm: "Bu, yeganə düzgün şey idi; sakitləş, sən burada evindəsən, Y. arvadı ilə Vyanaya gəlir, yəqin ki, bir həftə sonra gələcəkdir. Pulu necə göndərməli?" Cavabını isə hələ almamışam. Özözümə deyirəm: "Vyanaya get. Amma Milena bunu istəmir, qətiyyətlə istəmir. Sənin getməyin onun üçün yeni bir qərar barədə düşünmək olardı, amma o bunu istəmir, o, həyəcan, şübhələr içindədir, ona görə də ona Stasya lazımdır". Və hər halda mən gəlməli idim, amma səhhətim yaxşı deyildir. Düzdür, sakitəm, nisbi sakitəm, baxmayaraq ki, gözləmədiyim halda son illər gündüz vaxtı güclü öskürürəm, hətta gecələr də iyirmi beş dəqiqəyə qədər çəkən müddətdə öskürürəm. Ola bilsin ki, bu, Praqanın iqliminə uyğunlaşa bilməməyimə və səni tanımamış, gözlərinə baxmamış olduğum vaxtlardakı Meranın dözülməz nəticələrinə görədir.

Vyana necə də qaranlıq oldu, halbuki dörd gün ərzində çox işıqlı idi. Orada mənim üçün nələr hazırlanır, görəsən, mən isə burada otururam, qələmi yerə qoyub üzümü əllərimlə qapayıram. F.

Sonra mən öz kreslomda oturaraq açıq pəncərədən yağışa baxdım və ağlıma cürbəcür şeylər gəldi: yəqin ki, sən xəstəsən, yorulmusan, yataqda uzanmısan, onda K. xanım mənimlə birgə fəaliyyətə keçərdi

və onda bu imkan qəribə tərzdə ən təbii, ən adi qaydada özünü doğruldardı - qapı açılır, kandarda sən görünürsən.

15) Bazar ertəsi

Ən azı iki dəhşətli gün keçirdim. İndi isə görürəm ki, sən qətiyyən günahkar deyilsən, hansısa xəbis bir şeytan sənin cümə axşamındakı məktublarını ləngidib. Cümə günü yalnız teleqramlarını aldım, şənbə günü heç nə olmadı, bazar günü də heç nə olmadı, bu gün isə cümə axşamı, cümə və şənbə günlərinin dörd məktubunu aldım. Çox yoruldum, qələmi götürməyə heyim qalmadı, məyusluqdan, kədərdən, sevgidən yoruldum, sevgimin cavabından dərhal ayırd etmək üçün ki, mənim üçün nələr qalır - çox yorğunam, yorulub iki sutka cansıxıcı təsəvvürlərə qapılanda bu cür eqoist olursan. Amma sənin həyatyaradıcı qüvvən sayəsində, Ana Milena, bir il kənddəki həyatımı çıxmaq şərti ilə son yeddi ildə, yəqin ki, daha az sarsıntı keçirmişəm.

Niyə cümə axşamı göndərdiyim təcili teleqramın cavabı indiyədək gəlməmişdir, mən əvvəlki kimi hələ də başa düşə bilmirəm. Sonra xanım K. — ya da teleqram vurmuşam, onun da cavabı yoxdur. Qorxma, sənin ərinə yazmayacağam, bunu mən o qədər də etmək istəmirəm. Mən yalnız Vyanaya gəlmək istəyirəm, amma bunu da etməyəcəyəm, hətta mənim gəlişimə sənin inkaredici münasibətin, pasportla bağlı çətinliklər, büro, öskürək, yorğunluq, mənim bacımın cümə axşamı olacaq toyu olmasaydı belə, bunu etməyəcəyəm. Amma hər halda, şənbə və bazar günlərində olduğu kimi, gecələr bu cür oturmaqdansa, gəlmək daha yaxşı olardı. Şənbə günü mən bir az

dayımla, bir az da Maksla şəhərdə gəzdim, hər iki saatdan bir büroya baş çəkib poçtla maraqlandım. Axşam yaxşı idim, L. — nin yanına getdim, sənin haqqında heç bir pis xəbəri yoxdur, K. — ya telefonla zəng edib, məni xoşbəxt edən məktubun barədə xatırlatdım, "Hoye fraye presse"dən olan bu adam da heç nə bilmir, amma sənin ərindən bu gün axşam sənin haqqında sorğu-sual edərək mənə zəng etməkdən imtina etdi. Beləcə, L. — nin yanında oturdum, arada yalnız sənin adını eşitdiyim üçün ona minnətdaram. Düzdür, onunla asan və xoş deyildir. O lap uşaq kimidir, amma çox təfəkkürlü uşaq kimi deyildir, lovğalanır, yalan deyir, komediya düzəldir, sakitcə oturub ona qulaq asanda görürsən ki, hədsiz hiyləgər və çirkin məzhəkəçidir. Xüsusilə ona görə ki, o təkcə uşaq yox, xeyirxahlıq, işə qoşulmaq, köməyə hazır olmaq məsələlərində böyükdür və çox ciddi dərəcədə yaşlıdır. Bu ikili xarakterdən qurtulmaq qeyri-mümkündür və mən əgər həmişə "Bir də, bir də sənin adını eşitmək istəyirəm" deyə özümü məcbur etməsəydim, çoxdan çıxıb gedərdim. O öz toyu haqqında (çərşənbə axşamı) eynilə bu cür danışırdı.

Bazar günü çox pis idi. Ümumiyyətlə, haqlı olaraq, qəbiristanlığa getməyə hazırlaşırdım, amma bütün səhəri yataqda uzanıb qaldım, nahardan sonra isə bacımın qayınana və qayınatası ilə görüşməyə getməli idim, onlarda olmamışam. Artıq saat altı oldu. Büroya gedib teleqram barədə soruşdum. Heç nə yoxdur. İndi nə etməli? Teatr afişalarına baxmaq lazımdır, çünki Y. qaçaqaçda tələsik xatırlatdı ki, Stasya bazar ertəsi Vaqnerə qulaq asmaq üçün operaya gələcəkdir.

Bax budur, oxuyuram ki, tamaşa saat 6-da başlayacaqdır, saat 6-da isə görüş müəyyən olunub. Çox pis. İndi nə etməli? Obstqassa gedib evə baxmaq lazımdır. Bəli, orada sakitlikdir, girib-çıxan yoxdur, bir müddət girişdə, sonra əks tərəfində gözləyirəm, belə evlər onlara nəzər yetirənlərin düşündüklərindən daha yaxşıdırlar. Bəs indi? "Dobre dilo"57 nun sərgisi olan Lüsern pasajındayam.

İndi o vitrin artıq yoxdur. Ola bilsin ki, Stasyanın evinə getdim, indi isə o evdə deyildir. Gözəl, sakit bir evdir, arxasında balaca bir bağşa vardır. Mənzilin qapısında asma qıfıl vardır, cəzalanmaqdan qorxmadan zəngi çala bilərəm. Aşağıda qapıçı ilə qısaca bir danışıq oldu, sonra isə "Milena"nın yerinə "Libeşis" və "Y" sözlərini deməli oldum, heyhat heç bir imkan yoxdur. Bəs indi nə etməli? İndi ən axmaq bir şey edirəm - "Arko"58 kafesinə gedirəm, uzun illərdir ki, buraya gəlmirəm, səni tanıyan bir adam axtarıram. Xoşbəxtlikdən orada heç kəs yox idi və mən dərhal gedə bilərəm. Belə bazar günləri barı az olaydı, Milena!59 F.

17) Çərşənbə axşamı, bir az sonra

Şənbə məktubunda sən necə də yorğunsan! Bu məktub barədə çox şeylər deyə bilərəm, amma yorğun halda bu gün heç nə deməyəcəyəm. Elə mən özüm də yorulmuşam, Vyanadan qayıdandan sonra ilk dəfədir ki, tamamilə yatmamışam, başım dağılır. Sənə heç nə deməyəcəyəm, sadəcə, səni kresloya oturdacağam (deyirsən ki, mənə qarşı kifayət qədər mehriban olmamısan, məgər sizdə kresloda oturmağa mənə icazə verməyin, özünün də qarşımda oturmağın ən böyük mehribanlıq,

şərəf və məhəbbət deyilmi) və özümü itirirəm, bilmirəm ki, sözlərlə, gözlərimlə, əllərimlə, yazıq ürəyimlə bu xoşbəxtliyi necə ifadə edim. Ona görə xoşbəxtəm ki, sən mənimləsən, hər halda sən həm də mənimsən. Mən axı təkcə səni sevmirəm, bir az da çox - sənin mənə bəxş etdiyin bütün varlığını sevirəm.

L. haqqında bu gün heç nə danışmayacağam, qız haqqında da eləcə; hər şey birtəhər öz yolu ilə gedəcəkdir; bütün bunlar nə qədər uzaqdır!

F.

"Yazıq Şpilman" haqqında danışdıqlarının hamısı düzdür. Əgər deyirəmsə ki, o mənim üçün heç bir əhəmiyyət daşımır, bu, sadəcə, ehtiyat üçündür, çünki sənin onunla necə bacaracağını bilmirəm, həm də bu hekayətdən utanıram, sanki onu özüm yazmışam; o, doğrudan da, saxtakarlıqla başlayır və çoxlu xətalardan, gülünclükdən, diletantlıqdan, ölümcül əzilib-büzülmədən (bu, xüsusilə onu bərkdən oxuduqda hiss olunur, sənə belə yerləri göstərə bilərəm); və musiqi ifası üslubundadır - bu, həqiqətən, yazıq və gülməli ixtiradır, bu yalnız ona yarayar ki, qızı cinləndirib (mən də daxil olmaqla bütün dünyanı əsəbiləşdirirdi) - hekayənin yaxşı bir şey vəd etmədiyi vaxta qədər onu bir kənara tullayaraq qəzəbinin sönməsi və öz içində parçalanması onun yaxşı sonluğu olardı. Qəribə psixoloq olan hekayəni danışan adam bununla tamamilə razılaşar, axı onun özü həmin "yazıq Şpilman"dır, çünki bu tarixçəni (sənin göz yaşlarınla bol-bol mükafatlandırılmış) ifa edir, özü də çox pis, qeyri-musiqili şəkildə ifa edir.

Çərşənbə

Sən yazırsan: *"Ano mas pravdu, mam ho rada. Ale F., i Tebe mam* rada"60. Mən bu frazanı çox diqqətlə oxudum, sözbəsöz, xüsusən "də"üzərində dayandım, hər şey düzdür, əgər düz olmasaydı, sən Milena olmazdın (bəs əgər sən olmasaydın, onda mən nə olardım?). Bu hətta çox yaxşıdır ki, bunları sən Vyanada yazırsan, əgər bunları Praqada deməydin, mən hər şeyi gözəl başa düşürəm, ola bilsin ki, hətta səndən də yaxşı başa düşürəm; hansısa bir zəiflik səbəbindən bu frazanın öhdəsindən gələ bilmirəm, sonsuz olaraq oxuyuram, ən nəhayət, onu mən də yazıram ki, onu sən də görəsən və biz onu birlikdə oxuyaq, gicgah-gicgaha (sənin saçların mənim gicgahlarıma toxunur).

***

Səndən karandaşla yazılmış iki məktub gələnə qədər bunları yazmışdım. Doğrudanmı, sən elə düşünürsən ki, onların gələcəyini mən bilmirdim? Amma bunları çox dərinliklərdə bilirdim, insan orada daim yaşamır, o, yer üzərindəki aşağı həyat tərzinə üstünlük verir. Bilmirəm ki, niyə həmişə mənim təkbaşıma olaraq bir iş görəcəyimdən qorxursan. Məgər kifayət qədər aydın şəkildə bu haqda yazmadım? Xanım Kolerə61 isə ona görə teleqram göndərdim ki, tam üç gün - özü də dəhşətli günlər - səndən heç bir məlumat, hətta teleqram belə ala bilməmişdim, az qalırdı ki, sənin xəstələndiyini düşünüm.

Dünən öz həkimimin yanında oldum, o müəyyən etdi ki, mənim vəziyyətim Merana qədər olan vəziyyətdədir, üç ay ciyərlərim üçün nəticəsiz keçib, sol ciyərimdə xəstəlik, əvvəlki kimi, yaxşıca oturub. O, hesab edir ki, bu nəticə tamamilə qeyri-qənaətbəxşdir, mən isə onu babat hesab edirəm; əgər mən həmin müddəti Praqada keçirsəydim halım necə olardı? O həm də hesab edir ki, çəkimdə heç bir artım olmayıb, amma mənim hesabıma görə, heç olmasa iki-üç kiloqram kökəlmişəm. Payızda o, iynə yeridilməsini sınamaq istəyir, amma buna dözə biləcəyimi güman etmirəm.

Mən bu nəticələri sənin öz sağlamlığını necə yandırıb korladığınla (əlbəttə ki, buna ehtiyac olmadan; belə hesab edirəm, məni buna inanmaq üçün dilə tutmağa lüzum yoxdur) müqayisə edirəm, mənə bəzən elə gəlir ki, biz bir yerdə yaşamaq əvəzinə, ölmək üçün sakit və rahat şəkildə bir yerdə uzanırıq. Amma, hər halda, nə olursa-olsun, səninlə birgə olacaqdır.

Açığını desək, həkimin dediklərinə baxmayaraq, mən bilirəm ki, azca sağalmağım üçün mənə sakitlik lazımdır, özü də tamamilə xüsusi bir sakitlik, başqa cür baxanda tamamilə xüsusi narahatlıq lazımdır.

***

Bu gün Fransanın milli bayramıdır,62 pəncərəmin altından, paraddan evə qayıdan qoşun keçir. Mən sənin məktublarının nəfəsindən hiss edirəm ki, bunda nəsə bir möhtəşəmlik vardır. Nə təmtəraq, nə musiqi, nə rəsmi-keçid addımları; bu yaxınlarda (alman) panoptikumundan63 qaçmış qırmızı şalvarlı, göy kaftanlı fransız dəstənin önündə

addımlayır, hardansa görünməyən güclərin manifesti səslənir: "Hər şeyə rəğmən, siz ey marş səsləri ilə addımlayan, qaçan, etibarlı insanlar, heç bir şeyə baxmadan, hətta sizin böyük axmaqlıqlarınıza da göz yumaraq sizi tərk etməyəcəyik". Gözlərimi bağlayaraq bu dərinliklərə baxır və səndə qərq oluram.

Nəhayət ki, mənə bir qalaq sənəd gətirdilər, təsəvvür elə ki, onlar büroda işlədiyim müddətdə yığılıb qalmışdır, indiyə qədər cəmi altı ədəd rəsmi məktub yazmışam, bunlar isə qalıblar. Şöbənin işçilərinin tənbəlliyi ucbatından mənim işləməli olduğum sənədləri vaxtında ala bilməmişəm, amma mən bundan çox məmnunam. İndi isə kağızlar buradadır. Bundan əlavə, mən bir az yata bilsəydim, heç bir dəhşətli şey olmazdı. Doğrudan da, bu məsələ barədə bu gün vəziyyət çox pis olub. F.

Cümə

Büroya getməzdən əvvəl tələsik yazıram, üç gün özümü sıxaraq susmaq istədim, amma sən orada dəhşətli mübarizə aparırsan, mən susmaq istədim, amma bu mümkün deyildir, axı bu mənim mübarizəmdir. Sən, yəqin ki, mənim neçə gecə yatmadığımı hiss elədin. Sadəcə, bunun səbəbi "qorxu"dur. Əslində də, o mənim iradəmi alır, məni elə yerə tullayır ki, harada olduğumu bilmirəm... üstəlik də axırıncı məktubunda bir neçə qeydlər etmisən ki, onlar məni xoşbəxt etdi, çünki sən nə deyirsənsə, idrakım, ürəyim, bədənim ona inanır, amma burada daha dərin əminlik vardır ki, onun harada yerləşməsini bilmirəm, amma onu heç cür inandırmaq mümkün

deyildir. Və ən nəhayət, boşalmağıma çox kömək edən möcüzəli, narahat, rahatlayıcı fiziki yaxınlığının təsiri günbəgün uçub gedir. Kaş sən burada olaydın! İndi burada qorxudan başqa yanımda heç kəsim yoxdur, tamamilə heç kəsim, onunla qol-boyun olaraq gecənin dərinliklərinə doğru şütüyürük.

Bu qorxuda nə isə bir qəribəlik vardır (o, qəribə tərzdə həmişə gələcəyin əleyhinə yönəlmişdir, yox, bu doğru deyildir),64 müəyyən mənada onu belə başa düşmək olar ki, o mənə böyük bir etirafın zəruriliyini daim xatırladır: Milena da yalnız bir insandır. Bu haqda sənin dediklərinin hamısı doğrudur, onu bir dəfə eşidərkən, yenə də eşitmək istəyirsən, amma burada söhbət ən əsas məsələdən yox, daha da böyük məsələdən gedir, axı qorxu təkcə mənim şəxsi qorxum deyildir, lap səsi olsa da, çox sıxıcıdır - həyat yaranandan bəri bütün inamlarda olan qorxudur.

Bunları sənə yazdım və başım dərhal sakitləşdi.

Sənin

Cümə axşamı, bir az sonra

"Ağ xoruz"da gecə yazılmış məktub və birinci günün məktubu gəldi, belə görünür ki, birincisi daha gec yazılmışdır, amma tam yəqin deyildir. Mən yalnız bir dəfə ona cəld baxdım və dərhal cavab yazmalıyam, səndən xahiş etməliyəm ki, haqqımda pis fikirdə olmayasan... Və burada heç bir qısqanclıq yoxdur, sadəcə, sənin ətrafında belə bir oyun gedir, ona görə də sənə hər tərəfdən toxunmaq istəyirəm, o cümlədən də qısqanclıq tərəfindən, amma bu, axmaqlıqdır

və bir daha təkrar olunmayacaqdır, bu yalnız tənhalığın xəstə düşüncələridir.

Maks haqqında da sənin yanlış təsəvvürlərin formalaşır. Dünən, nəhayət ki, sənin salamlarını ona çatdırdım, amma qəzəblə (yuxarıdakı qeydlərə bax!), çünki sənin salamlarını o həmişə alır. Ona görə də onun hamı üçün və həmişə öz izahatı vardır, o dedi ki, sən ona tez-tez salam göndərirsən və yəqin ona görə ki, mən bircə dəfə də onun səmimi salamlarını çatdırmamışam. Mən də, nəhayət ki, bunu elədim, onda yəqin, mənim sakitləşməyim naminə bunun arası kəsiləcəkdir. Mümkündür, bax mən də çalışıram.

Ümumiyyətlə, Milena, sən mənə görə narahat olma, bircə sənin mənə görə narahat olmağın qalmışdı. Əgər məni çulğayan və bu səhər sənə şikayətləndiyim "qorxu" olmasaydı, mən, demək olar ki, tam sağlam olardım.

Yeri gəlmişkən, belə çıxır ki, o vaxt sən meşədə dediyin kimi də düşünürsən? İkinci gün, yuxarıda, meşədə. Mən o günləri dəqiq fərqləndirə bilirəm, birinci gün inamsız, ikinci gün həddən artıq inamlı, üçüncü gün peşmançılıq, dördüncü gün mehribanlıq idi.

İndi isə mənim bacımın toyuna getmək vaxtımdır. Niyə, niyə mən bu aydın olmayan və dəhşətli məsuliyyət əzablarına malik bir insanam? Mən niyə, məsələn, sənin otağındakı xoşbəxt şkaf deyiləm, o şkaf sən kresloda, yaxud yazı stolunun arxasında oturanda, divanda uzananda, yatanda (yuxun şirin olsun!) düz sənə baxır. Niyə mən şkaf

deyiləm? Ona görə ki, səni son günlərdəki bədbəxt halda görsəydim, yaxud sən Vyanadan getməli olsaydın, əzabdan sınıq-sınıq olardım. F. Sənin tezliklə pasport alacağını bilmək çox xoşdur.

Cümə

Nahardan sonra, yaxalığımda mərsin çiçəyi, az-çox aydın düşüncə ilə (başımın ağrıdığına baxmayaraq - hicran, hicran...) bizim yeznəmizin iki sevimli bacısının arasında olmaqla toy süfrəsi arxasında oturmuşdum. İndi isə kifayətdir, daha qüvvəm qalmayıb.

Biz bir yerdə olanda necə də asan həyat sürəcəyik, - axmağam ki, bu haqda yazıram! - sual və cavab, gözgözə! İndi isə ən azı bazar ertəsinə qədər gözləyib səhər məktubuma cavab almalıyam. Məni düzgün başa düş və mənimlə mehriban ol. F.

Bazar ertəsi

Sən çox şeyləri qarışdırırsan, Milena!

Əvvəla, mən o qədər də ciddi xəstə deyiləm, mənə azca yatmaq lazımdır ki, özümü Meranda olduğu kimi yaxşı hiss eləyim. Axı ağciyər xəstəliklərinin böyük bir qismi, əsasən, sözəbaxan olurlar, xüsusən də isti yay vaxtlarında. Payızın sonunda onun öhdəsindən necə gələcəyəm - bunu sonra soruşarıq. İndi isə hansısa xırda şeylər məni əzab çəkməyə məcbur edir, məsələn, büroda qətiyyən heç bir şey edə bilmirəm. Əgər sənə yazmıramsa, onda kresloda oturub gözümü pəncərəyə zilləyirəm. Oradan çox şey görmək olur, çünki qabaqdakı ev birmərtəbəlidir. Deyə bilmərəm ki, mənim belə nəzər yetirməyim kədərlidir, amma gözümü ordan çəkə bilmirəm.

İkincisi, puldan qətiyyən korluq çəkmirəm, kifayət qədər pulum olur, bəzi artıq xərclər isə - məsələn, sənin məzuniyyətin üçün olan pullar - mənə zülm verir, çünki onlar hələ də məndədir.

Üçüncüsü, artıq sağalmağım üçün ən həlledici şeyi - bir dəfə və həmişəlik - etmisən və dönə-dönə də, hər saniyə eləyirsən; bu sənin mənə olan mehribanlığın və haqqımda fikirləşməyindir. (Ümumiyyətlə, mənə görə narahat olma: axırıncı günümdə də, birinci gündə olduğu kimi ,səni gözləyəcəyəm.)

Dördüncüsü, Praqaya səfər barədə yüngülcə ehtiyatla danışmağın tamamilə düzdür. "Düzdür", elə teleqramda da belə yazmışdım, amma o, sənin ərinlə danışığıma əsaslanırdı və yeganə düz şey idi. Bu gün səhər isə mən birdən tam aydın şəkildə dərk etdim ki, ürəyimdəki məhəbbətlə, titrəyişlə qorxuram ki, qəfildən, xırda bir şeydən ötrü çaşıb Praqaya gələrsən. Amma əslində elə bir xırda şey ola bilərmi ki, sənə təsir eləsin, axı sən həyatı bütöv şəkildə, dərinliklərinə qədər yaşayan insansan! Hətta Vyana günlərimiz də səni azdırmamalıdır. Ola bilsin ki, orada da sənin axşam onu görə biləcəyin barədəki şüursuz ümidinə borcluyuq. Yaxud da başqa bir şey: axırıncı iki məktubundan iki şey öyrəndim. Birincisi, Heydelberq planın barədə, ikincisi, Paris planı65 barədə; hər ikisi bankdan çıxmaqla əlaqəli idi, hər halda, mən "xilaskar" qismində oluram, amma zorla. Amma mən yenə də orada yoxam. İkinci plandan mənə aydın oldu ki, orada gələcək həyat proyektləri, imkanlar, gözləntilər, o cümlədən də sənin gözləntilərin vardır.

Beşincisi, özünə əziyyət və mənə sıxıntı gətirən məktublar yazmağın mənə verdiyin yeganə ağrıdır, bu ağrı sənin üzüldüyünə görədir. Mənə az-az məktub yaz, amma istəsən sənə hər gün yazacağam və sənin sakit vaxtların daha çox olacaqdır ki, sənə sevinc gətirən işinlə məşğul ola biləsən.

"Donadyo"66 ya görə çox sağ ol. (Kitabı hansısa bir yolla sənə göndərə bilərəmmi?) Onu indi, çətin ki, oxuya biləcəyəm, hər halda, bundan ötrü darıxmıram, sadəcə bacarmıram, vəssalam. Maksın "İudaizm, xristianlıq və bütpərəstlik"67 adlı - böyük kitabdır — əlyazmasını oxumalıyam, o məni bir az tələsdirir, amma hələ oxumağa təzəcə başlamışam; bu gün gənc bir oğlan 75 şeir gətirmişdi, onlardan bəziləri bir neçə səhifəlik idi, yenə də onunla mübahisəmiz olacaq, bir dəfə də bu cür olmuşdu.

Qızın cavab məktubunu göndərirəm ki, sən ondan nə yazdığımı müəyyən edə bilərsən və görərsən ki, dəlil-sübutsuz olaraq necə rədd olunuram. Mən daha cavab yazmayacağam.

Dünənki gecə də bazar günündəkindən heç də yaxşı deyildi. Hər şey hətta yaxşı başladı; evdən çıxıb qəbiristanlığa getməyə hazırlaşanda havanın temperaturu kölgədə 36° idi, tramvaylar üsyan səbəbindən işləmirdilər, məhz bu məni şad etdi, çünki bugünkü piyada səfərim şənbə günü Birja altındakı bağdakı gəzintiyə bənzədiyindən onun ləzzətini əvvəlcədən hiss elədim. Amma qəbiristanlığa çatanda qəbri tapa bilmədim, dəftərxana qıfıllı idi, nə qulluqçular, nə də qadınlar heç bir şey bilmirdilər, mən bir kitaba da baxdım, amma bu o

kitab deyildi, bir neçə saat gəzişdim, yazıları oxumaqdan başım şişdi və mən bu halda qəbiristanlıqdan çıxdım.

Şənbə axşamı

Budur, sənin iki teleqramın gəldi... Əsas odur ki, mən yuxusuz gecədən sonra bu məktubu - mənim sonsuz dərəcədə vacib hesab etdiyim məktubu oxuyuram.

Praqadan sənə yazdığım məktubların hamısı, axırıncı da daxil olmaqla, yazılmamalı idilər, təkcə bu kifayət edəcəkdi, ümumiyyətlə, qoy onlar da olsunlar, nə fərqi var, amma bu onlardan daha da yuxarıda dursun. Təəssüf ki, sənə dünən gecə, yaxud bu gün səhər və ya gecə danışdıqlarımın bir hissəsini belə, deyə bilmirəm. Bu və ya başqa şəkildə olsa da, əsas odur ki, sənin ətrafındakılar heyvani kütlüklə (amma heyvanlar elə deyildir), yaxud yüksək təfəkkürlə, şeytani nəzakətlə, qatil məhəbbəti ilə, nə ilə olursa-olsun, sənin haqqında danışmasınlar, - mən, mən, Milena, tam dəqiq bilirəm ki, sən nə cür hərəkət eləsən, o, düzgün qərardır - sən Vyanada qalırsan, yaxud buraya gəlirsən və ya əvvəlki kimi Praqa və Vyana arasında dolanırsan, ya da həm elə, həm də belə edirsən et, fərq etməz: *Bunu bilməsəydim, sənlə necə əlaqədə olardım?* Dənizin dərinliyində təzyiq altında olmayan kiçicik bir yer olmadığı kimi, sən də bu cürsən, amma başqa istənilən həyat mənim üçün rüsvayçı və dözülməzdir; indiyədək mən düşünürəm ki, o cür həyata mən tab gətirmərəm, insanlara dözmərəm və bundan çox utandım, amma sən bildirirsən ki, həyat mənə dözülməz görünür68. Sənin

Günün ikinci yarısı

Burada mən bu məktubun öhdəsindən gələ bildim, o da düzdür ki, bu mənim o qədər çox qüvvəmi əlimdən aldı ki, daha kontorun işlərinə gücüm qalmadı.

Stasyaya məktub: Dünən səhər Y mənim yanımda idi və mənə xatırlatdı ki, səndən məktub gəlmişdir, onu səhər evdən çıxanda stolun üstündə görüb, amma orada nə yazıldığını bilmir, axşam Stasyanın özü mənə danışacaqdır. Onun dost sevgisi mənə bir az qəribə göründü, məgər sənin məktublarında mənim barəmdə az yazılmışdırmı? Amma axşama aydın oldu ki, məktub hər halda çox yaxşıdır, hər ikimizi təmin edir, heç olmasa, onun dostcasına tonda yazdıqları bizi təmin edir (onu oxumamışam); hər şeydən əvvəl, orada əri üçün təşəkkür frazası var idi, bu, yəqin ki, məlumatımla əlaqədardır, o, Stasyanı həqiqətən sevindirmiş və gözlərini həmişəkindən bir az artıq parıldamağa vadar etmişdir. Onlar yaxşı adamlardır və Stasya sənin şəklinə qeyri-müəyyən tərzdə uzun müddət, diqqətlə, susaraq baxanda möcüzəli dərəcədə gözəl anlar yaşandı. Bu gecə haqqında daha bəzi şeylər danışım, mən yorğun idim, süst, kədərli, əzgin idim, lap əvvəldən bircə şeyə ehtiyacım var idi: yatağa. (Əlavə olunan vərəq, Stasyanın şəkli və Y. — nin izahatlarını - biz sənin otaqlarının quruluşunu müzakirə edirdik, onu əmr olunduğu kimi, sənə göndərirəm.)

Dünən mən sənə hər gün məktub yazmamağı məsləhət görmüşdüm, bunu bir daha məsləhət görürəm, amma bir az da inadla, çünki bu, hər

ikimiz üçün yaxşı olardı. Amma, Milena, xahiş edirəm ki, mənim neçə məsləhətimə əməl etmə və mənə hər gün yaz, lap bir neçə sətir olsa da, tamam qısa bir məktub, iki sətir, bir sətir, bircə söz, bu sözsüz də mən ötüşə bilərəm, amma əzablı işgəncələrlə! F.

Çərşənbə

Hər halda, mərdlik öz nəticələrini verir.

Hər şeydən öncə: Əgər mən onu düz anlayıramsa, Qross69, əlbəttə ki, çox şeylərdə haqlıdır; onun nəzəriyyəsinin doğruluğuna olan misallardan heç olmasa biri mənim diri olmağımdır - ümumiyyətlə, mənim daxilimdəki qüvvələr balansını nəzərə alsaq, onda gərək mən bu dünyadan çoxdan getməli idim.

Sonra: bundan sonra o necə olacaq - indi bu haqda söhbət getmir, amma bir şey aydındır ki, mən səndən ayrı qalaraq özümü qorxunun ağuşuna atıb, ona səni sevdiyindən daha artıq etibar edə bilmirəm və bunu heç bir şey etmədən, şövqlə edirəm, sanki onda əriyib qarışıram.

Sən haqlısan, mənim Vyanadakı davranışlarıma görə qorxu barədə mənə yerində tənə vurursan, amma bu qorxu qəribədir, onun daxili qanunlarını bilmirəm, onun təkcə qəfildən boğazımı tutmasını bilirəm, bu isə başıma gələn və gələ biləcək hər şeydən daha dəhşətli şeydir.

Onda, yəqin, belə çıxır ki, bizim hər birimiz öz cütü ilə yaşayırıq; sən Vyanada, mən isə öz qorxumla birgə Praqada və bizim hər ikimiz - təkcə sən yox, həm də mən - bu bağı qırmağa cəhd edirik. Milena, bir bax: əgər onda Vyanada olarkən sən mənə tamamilə inansaydın (səni inandıran həmin addımı atmağa qədər sən mənimlə razı idin), sən indi

Vyanada hamını günahlandırmazdın, daha doğrusu, heç bir "tənə" olmazdı, sən isə, sadəcə olaraq, Praqada olardın və sonuncu məktubunda özünü sakitləşdirməyin isə yalnız təskinlikdir, vəssalam. Sən razı deyilsənmi?

Əgər sən dərhal Praqaya gəlsəydin, yaxud heç olmasa, bu cür qərar qəbul etsəydin, bu mənim üçün sənin xeyrinə sübut olmayacaqdı, - sənə nisbətən mən heç bir sübuta ehtiyac duymuram, sən mənim üçün hər şeydən ucadasan, sən özün aydınlıq və etibarlılıqsan - amma bu mənim xeyrimə böyük bir sübut olardı, mən isə ona ehtiyac hiss edirəm. Burada mənim qorxum da əlavə yem tapır. Ola da bilsin ki, hər şey bir az da pisdir və məhz mən, "xilaskar kimi", səni Vyanada saxlayıram.

***

Hə-ə, meşədə pis hava olacağı barədə qorxurduq, amma hər şey yaxşı oldu. Gəl sonralar da o təhlükə altında yaşayaq, axı başqa cür mümkün deyildir.

Başa düşmürəm ki, bu xanımın məktubu niyə xoşunuza gəlmir. O, öz vəzifəsini - səndə qısqanclıq yaratmaq vəzifəsini - yerinə yetirib, düzdürmü? Bundan sonra zaman-zaman mən belə məktublar ixtira edəcək, onları öz əllərimlə yazacağam, kəskin şəkildə rədd etdiyindən daha yaxşılarını yazacağam.

Xahiş edirəm, heç olmasa, bir neçə kəlmə öz işindən yaz! "Pesta"? "Lipa"? "Kmen"? "Politika"?70

Yenə də nə isə demək istədim, amma yenə də bir gənc şair gəldi. Bilmirəm niyə, amma kimsə gələn kimi mən dərhal sənədlər barədə düşünürəm və bütün görüş ərzində başqa bir şey haqqında fikirləşə bilmirəm. Yorulmuşam, heç nə bilmirəm və istərdim ki, başımı sənin dizlərinə qoyum, saçlarımda sənin əllərini hiss edim və əbədi olaraq bu cür qalım.

Sənin

Hə bir də onu demək istəyirdim ki, sənin məktubunda (digər həqiqətlərlə yanaşı) bir böyük həqiqət vardı, *ze vlastne u jsi slovek, kery nema tuseni* otom71. Bu, təmiz həqiqətdir, sözbəsöz belədir: hər şey yalnız çirkab, alçaqlıq, cəhənnəm odunda yanmalı halda idi və orada mən, çox pis iş tutmuş uşaq anasının qarşısında durduğu kimi, sənin qarşında dururam. Təsəvvür elə ki, o uşaq ağlayır və söz verir: bir də belə eləməyəcəyəm. Amma, qorxu məhz belə şeylərdən güc alır: "Necə yəni, necə yəni?! - o təkrarlayır. - *Nema tuseni!72* Hələlik heç nə baş verməyib! Deməli, onu hələ xilas etmək olar!"

Mən diksinirəm - telefon! Direktorun yanına çağırırlar! Praqaya qayıtdığımdan bəri ilk dəfədir ki, məni xidməti işimlə əlaqədar müdiriyyətin yanına çağırırlar! Bax, indicə mənim bütün fırıldaqlarım açılacaqdır! On səkkiz gündür ki, ancaq məktub yazıram, məktub oxuyuram, əsasən də pəncərədən çölə baxıram: məktubu əlimdə çevirir, yenidən yerinə qoyuram; bir də ki, gələnlərlə söhbət edirəm, başqa heç nə eləmirəm.

Amma onun yanına enib kandarı keçən kimi, o, məni gülərüzlə qarşılayıb iş barədə danışdı (heç nə başa düşmədim), sonra vidalaşdı - o məzuniyyətə gedir. Dərkedilməz dərəcədə mehriban adamdır! (Düzdür, mən də mızıldandım ki, məndə hər şey hazırdır və sabahdan artıq məruzə etməyə başlayıram). Və indi də bunlar haqqında qısaca olaraq sənə məruzə edirəm, mənim əziz mələyim!

Şənbə

Sən məni yaxşı başa düşmürsən, Milena, mən ki tamamilə səninlə razıyam. Bunu təklikdə etməyə hazırlaşmıram.

Vyanaya gələcəyəmmi? Bu gün hələ heç nə deyə bilmərəm, amma düşünürəm ki, gəlməyəcəyəm. Əgər əvvəllər etirazım çox idisə, indi bircə dənədir: bu mənim ruhumun gücündən xaricdir, düzdür, uzaq, ikinci dərəcəli səbəblər də vardır, amma bu cür hamı üçün yaxşıdır. Təkcə onu əlavə edirəm ki, əgər sənin indi təsvir etdiyin şəraitdə *(nechat sloveka cekat)73* Praqaya gəlsən, vəziyyət eynilə əvvəlki kimi, lap bir az da çox qüvvəm xaricində olacaqdır.

Sənin bu altı ay haqqında mənə danışmaq istədiklərini öyrənmək zərurəti birdən yaranmadı. Əminəm ki, bu nəsə dəhşətli bir şeydir; əminəm ki, həyəcanlanmısan, hətta, ola bilsin ki, dəhşətli bir iş tutmusan; əminəm ki, sənin müasirin kimi mən buna dözməzdim (amma yeddi il bundan əvvəl heç də hamı buna dözməzdi); əminəm ki, müasirin kimi buna gələcəkdə də dözməyəcəyəm - bəsdir, bütün bunlar nəyə lazımdır, məgər mənim üçün ən vacib olan sənin həyəcanların və əməllərindir, ya sadəcə sənsən. Mən ki səni bu

hekayətlərsiz də lap yaxşı tanıyıram özümdən də yaxşı tanıyıram, amma bütün bunlarla əllərimin durumunu bilmədiyimi demək istəmirəm.

Sənin məktubun fərziyyəmlə qətiyyən ziddiyyət təşkil etmir, əksinə, axı sən yazırsan: *"Nejradeji buch utekla trevi sestou, ktera nevede ani k Tobe anis nim, nekam do* Samoty"74. Mən təklif edirəm ki, onu, mənim kimi, həmin gün yazasan.

Əlbəttə, xəstəliyin bu mərhələsində sən hətta ərini tərk də edə bilməzsən, amma sənin yazdığın kimi, xəstəlik sonsuz deyildir, sən cəmi bir neçə aydan bəhs etmisən, bir aydan da artıq müddət sovuşmuşdur, daha bir aydan sonra o, sənsiz də keçinə biləcəkdir.

Daha doğrusu, avqustda, lap geci sentyabrda.

Yeri gəlmişkən, etiraf edirəm: sənin bu məktubun onlardan deyildir ki, dərhal oxuyum, düzdür, onu dalbadal dörd dəfə oxudum, amma elə indicə öz rəyimi söyləyə bilmərəm. Düşünürəm ki, yuxarıda yazdıqlarım öz qüvvəsində qalır.

Sənin

Bazar

Bir daha dünənkilər barədə: sənin məktubun məni oyatdı ki, hər şeyə başqa yöndən baxım, amma indiyə qədər bundan ehtiyat edirdim. Onda hər şey başqa cür görünür və qeyri-adi olur.

Mən ki sənə görə ərinlə mübarizə aparmıram - mübarizə yalnız səndə başa çatır; əgər qərar sənin ərinlə mənim aramda gedən mübarizədən asılı olsaydı, çoxdan həll olunardı. Bu işdə mən sənin

ərini həddən artıq qiymətləndirmirəm, ola bilsin ki, lazım olan qədər də qiymətləndirmirəm, amma mən bir şeyi bilirəm: əgər o məni sevirsə, bu, varlının kasıba olan sevgisidir (bu yanaşmadan, sənin mənə olan münasibətində də bir az hiss olunur). Sənin onunla birgə ailə həyatında mən yalnız "böyük evdə"ki siçanam, bu siçana, ən yaxşı halda, ildə bir dəfə xalça üzərində sərbəst qaçmaq nəsib olur.

İşlər elə vəziyyətə gəlmişdir ki, bu qətiyyən qəribə görünmür və məni də təəccübləndirmir. Amma məni təəccübləndirən odur ki, sən bu

"böyük ev"də yaşayırsan, bütün varlığınla ona məxsussan, bütün həyat qüvvəni ondan alırsan, orada bir kraliça kimi dövran sürürsən və hər halda - bunu dəqiq bilirəm - imkanın vardır ki, (məhz ona görə ki, sən hər şeyi bacarırsan: *ya se prese nezastavim ani pred-anipredani*pred...)75 məni yalnız sevmək yox, bütövlükdə, tam şəkildə mənim olasan, özünün xüsusi xalçanda qaçasan.

Amma ən təəccüblüsü bu deyildir. Ən təəccüblüsü bax budur: mənə doğru gəlməyi arzu elə, daha doğrusu, əgər "musiqili şəkildə" ifadə etsək, mənə doğru gəlmək üçün bütün dünyanı qurban verərək elə dərinliyə en ki, sənin yüksəkliyindən baxanda nəinki az şeylər görünsün, hətta heç nə görünməsin. Bunun üçün (bax, ən qəribəsi elə budur!) enmək yox, insanın fövqündə duran bir səylə özündən yuxarı qalxmaq, öz sərhədlərindən qopmaq və elə yüksəklərə qalxmaq lazım gəlir ki, sonunda labüd parçalanma, dağılma və yoxolma baş verəcəkdir (yəqin ki, mənim üçün də belədir). Və bütün bunlar yalnız

ona görədir ki, mənim yanıma düşəsən, o yerə ki, heç bir şey oraya cəzb olunmur, orada mən boş əllə oturmuşam, heç bir ruhi nailiyyətim yoxdur, xoşbəxt və ya bədbəxt, layiqli, yaxud günahkar şəkildə, sadəcə, məni saldıqları həmin yerdə oturmuşam.

İnsanların cərgələndiyi siyahıda mən sənin yaşadığın yerlərin müharibəyə qədərki dövründə olan baqqallar kimiyəm (hətta şarmankaçalan da yox, o hara, mən hara!); hətta mən bu yeri amansız mübarizə nəticəsində qazanmışamsa da, belədir, - amma mən onu mübarizə nəticəsində qazanmamışam - fərqi yoxdur, bu xidmətimə görə olan yer deyildir.

Sənin köklər haqqında yazdıqların fövqəladə dərəcədə aydındır, yəqin ki, o elə belədir. Öz aramızdır, Turnauda əsas məsələ əvvəlcə bütün yan kökləri tapmaq və uzaqlaşdırmaq idi, təkcə əsas kök qalanda isə, hesab etmək olardı ki, iş görülüb qurtarmışdır, bir balta zərbəsi ilə o kökü də kəs və kənara tulla. İndiyə qədər qulaqlarımda həmin gurultu səslənir. Ümumiyyətlə, orada onu çıxarmaq çox yaxşı idi, çünki, o ağac, hamının bildiyi kimi, yeni yerdə yaxşı bitəcəkdi, bundan əlavə o, hələ ağac da deyildi, yalnız bir körpə idi.

Dünən yenidən L. ilə danışdım. Biz ki onun barəsində tam həmfikirik. Müəyyən şeylər onun xeyrinə işləyir, məsələn, o sənin haqqında danışarkən özünü ələ almağa çalışır, amma hər halda onun özünün məğzi, mayası yaxşıdır. O mənə nə danışdı? Onunla iki dəfə rastlaşdım, mahiyyət etibarilə, o hər dəfə eyni bir tarixçəni çoxlu xırda təfərrüatları ilə danışdı. Başqa birisinin nişanlısı olan qız, onun son

dərəcə narahatlığına baxmadan, yanına gələrək səkkiz-on saat onun yanında oturur (bir qız səhər onun mənzilində, digəri gecə redaksiyadadır, o, işlərini belə uyğunlaşdırır) və elan edir ki, o, qıza çox lazımdır və əgər o rədd edərsə, pəncərədən tullanacaqdır. O, doğrudan da, imtina edir və pəncərəni göstərir.

Qızlar pəncərədən tullanmırlar, amma dəhşətli bir şey baş verir, birisi isterika içində qışqırır, ikincisi - artıq onun nə etdiyi yadımda deyildir. Əlbəttə ki, hər şeyin əslində belə olduğunu, yaxud daha pis olduğunu inkar etmirəm, mən ancaq başa düşmürəm ki, bu niyə belə darıxdırıcıdır.

Onun öz nişanlısı barədə danışdığı hekayətdə bir maraqlı yer vardır. Qızın atası iki il melanxoniyadan əziyyət çəkirmiş və qız da ona qulluq edirmiş. Xəstəninotağındakı pəncərəni daim açıq saxlamaq lazım idi, amma aşağıdan maşın keçəndə onu bir dəqiqəlik örtmək lazım idi, çünki xəstə səs-küyə dözmürdü. Qız da pəncərəni açıb-örtürmüş. Bu barədə danışarkən L. əlavə elədi: "Təsəvvür edirsinizmi, sənətşünasın işinə baxın da!" (Qız sənətşünas idi.)

O mənə qızın şəklini göstərdi. Ehtimal ki, melanxolik yəhudi sifətidir: ensiz burun, sərt baxış, zərif və incə əllər, bahalı paltarlar...

Qız haqqında soruşursan, mən isə onun barəsində heç nə bilmirəm. O sənə yazdığı məktubu mənə verəndən sonra bir daha onu göməmişəm. Düzdür, onda biz görüşmək barədə razılığa gəlmişdik, lakin dərhal sənin ərinlə danışıqların barədə olan məktubun gəldi, düşündüm ki,

onunla danışmağa qadir deyiləm, ona görə də xeyirxah və səmimi niyyətlə görüşü ləğv etdim, sonradan da ona bu barədə yazı göndərdim, lakin görünür, onu səhv anlayıb, çünki ondan nəsihət verən ananın sözlərinə oxşar bir cavab aldım (bu məktubda o, xüsusilə sənin ərinin ünvanını xahiş etmişdi); təbii ki, mən pnevmatik poçtla, yubanmadan cavab göndərdim, artıq bir həftə keçsə də, onun haqqında heç bir şey eşitməmişəm, bilmirəm, bəlkə də sən ona nəsə yazmısan və bu ona təsir edib.

Sən yazırsan ki, gələn ay, ola bilsin ki, Praqaya gələcəksən. Mən isə az qalıram xahiş edim ki, gəlmə. Nə vaxtsa sənin gəlməyinin zəruri olan hansısa bir zamanında səndən xahiş etmək imkanını mənim üçün saxla, sən isə lap *indi* gəlirsən, indi gəlmə. Çünki sən yenidən geri qayıdacaqsan.76

Dilənçiyə gəlincə isə, nə yaxşı, nə pis, heç nə yoxdur, mənim, sadəcə, həddən artıq fikrim dağınıqdır, bir adamla o qədər ciddi məşğulam ki, dumanlı xatirələr kimi başqa bir şeylərə vaxtım qalmır.

Məsələn, belə xatirələrin birində deyilir: "Dilənçiyə həddən artıq vermə, yoxsa sonra peşman olarsan". Tamamilə kiçik bir oğlan ikən mən on kreyser77 xırda pul aldım, o vaxt bunu kiçik və böyük Rinqin arasında oturan qoca dilənçi qadına vermək istədim. Məbləğ mənə çox böyük görünürdü, düşünürdüm ki, heç bir dilənçiyə bu qədər pul verilməyib, ona görə də mən dilənçinin qarşısında utanırdım ki, bu cür eşidilməmiş, görünməmiş, hərəkət edəcəyəm. Lakin bu pulu ona verməyim lazım idi, ona görə də mən pulu xırdaladım, dilənçiyə bir

kreyser verdim, sonra isə kiçik Rinqdəki bütün bulvar kompleksini dolanaraq yenidən, sol tərəfdən peyda oldum və tamamilə yeni bir xeyirxah insan kimi dilənçiyə bir kreyser də verdim, yenidən qaçmağa başladım və bunu on dəfə xoşbəxtcəsinə təkrar etdim. (Ola bilsin ki, daha az sayda, çünki dilənçi tezliklə səbrini itirərək məndən uzaqlaşmışdı.) Oradakı hərəkətlərimdən, nəhayət, mən həm mənəvi, həm də fiziki cəhətdən elə əzab çəkirdim ki, dərhal evə getdim və anam mənə eynilə o cür on kreyserlik pul verənə qədər ağladım.

Özün görürsən ki, dilənçilərlə mənimki düz gətirmir, amma hər halda bildirirəm: Opera ətrafındakı hansısa bir dilənçiyə ən kiçik Vyana pulu ilə indiki və gələcəkdə olacaq bütün varidatımı verməyə hazıram, təki sən yanımda durasan və mənə sənin yaxınlığını hiss etmək nəsib olsun. Frans

Çərşənbə axşamı

İndi yazdığım yazıya fasilə verirəm.

Bugünkü iki məktubun, sənin qollarının arasında Vyana mənzərələri kimi elə fərəhli, elə təbiidir ki, sanki (sanki, sanki, sanki, sanki) meşə ətəklərindəki küləkdir. Milena, sənin yanında olmaq necə də yaxşıdır!

Bu gün qız bircə söz belə yazmadan, yalnız karandaşla bəzi qeydlər edərək, sənin məktubunu mənə göndərmişdir. Hər şeydən belə görünürdü ki, o məktubdan narazıdır; altından xətlər çəkilmiş bütün məktublar kimi onun da çatışmayan yerləri vardır və mən onlara baxdıqda dərk etdim ki, mənasız və mümkünsüz bir şey etmişəm - o

məktubu səndən tələb etmişəm, səndən üzr istəyirəm. Ümumiyyətlə, ondan da üzr istəməliyəm ki, məktub necə yazılırsa- yazılsın, onu, əlbəttə, incidəcəkdir. Məsələn, əgər sən yazırsan, həm də çox hörmətlə yazırsan: *"Ponevadz o vas nikdu ani nepsal ani nehovoril78"*, bu, yəqin ki, onu incidib, eynilə bunun əksi də onu incidəcəkdi. Məni bir daha bağışla. Sən Stasyaya ünvanladığın digər məktubunla, açığını desəm, mənə çox kömək elədin.

Cümə axşamı

Stasyadan gələn yazı çox gözəl idi. Amma demək olmaz ki, o həmin vaxt yazdığı kimidir, o indi sənin əvəzinə danışır, onunla sənin aranda ağlagəlməz bir uyuşma vardır, bu nə isə ruhi bir bağlılıqdır, sanki, vasitəçi olmaqdan daha artığına cürəti çatmayan bir adam hövsələ ilə eşitdiklərini danışır - o bu işə şüurlu şəkildə yanaşaraq məğrurluq duyur - amma belə şeyləri yalnız özü eşitməli və başa düşməlidir. Lakin o, fikrimcə, tamamilə o vaxt olduğu kimidir; yəqin ki, bu cür yazıları oxşar vəziyyətlər yaranarsa, bu gün də yaza bilər.

Mənə danışdığın hekayət qəribə işdir. Onların "yəhudilər barədə" olduqları üçün və yaxud da belə olmasa da, ümumi qazanın tezliklə stol üzərinə qoyulması ilə hərənin oradan zəhərli, ikrah doğuran, amma qədim, ümumiyyətlə, əbədi payını alacaqlarına görə məni sıxması düz deyildir. Ah, bütün bunların üstündən əlini mənə uzadırsanmı ki, mən uzun, uzun müddət onu öz əllərimdə saxlayım?

Dünən, nəhayət ki, qəbri tapdım79. Onu elə-belə axtaranda, doğrudan da, tapmaq mümkünsüz imiş, axı mən bilmirdim ki, bu sənin

ana xətti ilə olan qohumunun qəbridir, əgər diqqətlə ona doğru əyilsən, yazıları da oxumaq mümkündür - qızılı toz tamamilə dağılıb. Uzun müddət orada durdum, qəbir çox gözəldir, daşlardan möhkəm şəkildə qurulmuşdur, düzdür, tamamilə çiçəksiz idi, amma qəbir üzərindəki çiçəyin nə mənası vardır ki, bunu heç vaxt ağlıma yerləşdirə bilmirəm. Bir neçə ədəd müxtəlif rəngli qərənfili qəbrin qırağına qoydum.
Qəbiristanlıqda mən şəhərdəkindən özümü daha yaxşı hiss edirdim və bu hissiyyat uzun müddət çəkilmədi, mən qəbiristanlıqda olduğu kimi, xeyli vaxt şəhərdə gəzdim.

Yeniçek sənin kiçik qardaşındır, eləmi?

Doğrudanmı, sən sağlamsan? Noy-Valdeqqdəki şəkildə sən xəstəhal görünürsən, yəqin ki, şəkildə bu, bir az qabarıq görünür, amma hər halda şişirdilsə də, deməli, əsasında nəsə vardır. Sənin əsl şəklin isə məndə yoxdur, olanlarımdan birində səndə əsilzadə nəciblik, zəriflik duyulur, elə bir nümunəvi qız kimi görünürsən ki, sanki tezliklə, biriki ilə monastır pansionunu qurtaracaqsan (dodağının küncləri yüngülcə büzülmüşdür, amma bu yalnız mühafizəkarlıq və ya yumor əlamətidir), ikincidə isə indiki təbliğat plakatlarına bənzəyir: "Bax, Vyanada belə yaşayırlar". Açığını desəm, bu şəkildə sən mənim birinci dostumu dəhşətli dərəcədə xatırladırsan; nə vaxtsa onun haqqında sənə danışacağam.

Vyanaya isə mən gəlməyəcəyəm, yox; bunun üçün zahirdə ya yalan danışmaq lazımdır (xidməti işimdə deməliyəm ki, xəstəyəm), ya da iki

boş günümü ardıcıl buna həsr etməliyəm. Amma bunlar yalnız daxili əngəllərdir, dostum (bunu mən öz-özümə deyirəm).80

Teleqram! Sağ ol, sağ ol, bütün ittihamları geri götürürəm: bəli, onlar da var idilər və tamamilə ittiham da deyildilər, onlar nəvaziş idi, amma bu dəfə əllərimlə sığallamıram, mən bu dəfə ovuclarımla yox, əlimin arxa tərəfi ilə sığal çəkirəm, çünki onlar qısqanclıqdan çoxdan çat-çat olublar. Yenə də mənim yanıma gənc şair və qrafika ustası gəldi (amma o, əsasən, musiqiçidir),81 o daim gəlir, bu gün iki qravür gətirmişdi (biri Trotskiyə, digəri "Xoş Müjdə"yə82 aid idi-görürsən də, onun dünyası dar deyildir); ona və özümə xoş olmaq üçün mən dərhal ortaya sənin barəndə bir ipucu atdım, dedim ki, onları Vyanadakı dostuma göndərəcəyəm, bunun isə gözlənilməz nəticəsi o oldu ki, qravüraların hərəsinin iki surətini aldım (sənինkini mən burada saxlayıram - bəlkə onları sən dərhal almaq istəyirsən?). Sonra isə teleqram gəldi, onu oxudum, oxudum və oxumaqdan ayrıla bilmirdim, fərəh və minnətdarlıq hisləri qəlbimi doldurmuşdu, o isə bu müddət ərzində, heç nə olmamış kimi, danışığını davam etdirirdi (onun mane olmaq niyyəti yox idi, qətiyyən belə deyildi, bircə kəlmə ilə desəydim ki, işim vardır, bu sözü bərkdən desəydim ki, o ayılsın, onda sözünü yarımçıq kəsərək qaçıb gedəcəkdi və zərrə qədər də inciməyəcəkdi). Xəbər özlüyündə çox vacib xəbər idi, təfərrüatlar isə daha əhəmiyyətli olmalıdır. Və hər şeydən əvvəl: sən özünü necə "fəda edəcəksən" yəni? Bu ki mümkün deyildi; həkim bundan mənasız bir söz deyə bilməz.

Ax, bütün bunlar çox pisdir; amma hər halda - çox sağ ol, çox sağ ol.

Şənbə

Budur, artıq bu iki məktubu və açıqcanı yarım saatdır ki, oxuyuram (zərf də yaddan çıxmayıb, təəccüb edirəm ki, niyə məktublar şöbəsinin işçiləri gəlib sənə görə üzr istəmirlər) və yalnız indi hiss elədim ki, bütün bu müddətdə gülürmüşəm. Dünya tarixində elə bir imperator tapılarmı ki, o məndən üstün olsun? O öz otağına girir, orada isə üç məktub vardır, o yalnız onları açmalıdır, - ah işləri ləngidən barmaqlar! - geri çəkilir və inana bilmir ki, bu xoşbəxtlik ona nəsib olmuşdur.

Yox, mən heç də həmişə gülməmişəm, yük daşımaq barədə mən heç nə danışmıram, mən, sadəcə, buna inanmıram, lap inansam da təsəvvür edə bilsəm ki, sən bu cür gözəlsən - yox, o artıq gözəllik deyildir, o, göylərin yanlışlığıdır, lap həmin "bazar günündə83" olduğu kimidir, mən həmin "cənabı" başa düşürəm (o, düz eləmişdi, 20 kr. vermiş, 3 kr. qalığı almışdı).84 Amma hər halda mən inana bilmirəm, əgər bu baş versəydi belə, razıyam ki, o, dəhşətli və möhtəşəm olardı. Amma sənin heç nə yeməməyin, aclıq çəkməyin (onda bəs məni acmadığım halda niyə inadla yedizdirirlər?) və sənin gözlərinin altında halqalar vardır (bu artıq şəkildəki cizgilər deyildir və onlar fotoşəkildən aldığım sevinci yarıbayarı azaldır, amma yenə də kifayət edir ki, əllərini dönə-dönə, bütün ömrüm boyu öpüm, axı onda sənin nə vağzalda baqajı götürməyə, nə də onu daşımağa imkanın olmazdı). Ola bilsin ki, bunu heç vaxt bağışlaya bilməyəcəyəm, yüz il sonra biz

öz komamızın yanında oturanda da buna görə səni məzəmmət edəcəyəm. Bəli, bəli, zarafat eləmirəm. Bu nə cür ziddiyyətdir, bildirirsən ki, məni sevirsən, daha doğrusu, *mənim tərəfimdə* dursan, özün isə mənim *acığıma* ac qalırsan, burada artıq pullar vardır, orada da "Ağ xoruz" vardır.

Qızın məktubu haqqında sənin dediklərini istisnalar kimi bağışlayıram, çünki (məni *tajemnik85* adlandırırlar, çünki son üç həftə ərzində mənim məşğul olduğum

iş çox *tajemne86* -dir) sən (nəhayət ki!), bəli, sən haqlısan. Amma haqlı olmaq kifayətdirmi? Əsas isə budur: ola bilsin ki, mən haqsızam, sən azca da olsa arzu etmirsənmi - bu mümkün deyildir, bilirəm, amma söhbət arzudan gedir - haqsızlığımın bir hissəsini bölüşəsən, qız məktubunun laqeydliyindən kənara çıxasan, oradan haqsızlığımı çıxarasan, nəinki onu böyük hərflərlə yazasan? Açığını desəm, bu yazışmalar barədə, ümumiyyətlə, eşitməməyə üstünlük verərdim, çünki o, günahım ucbatından yaranıb, sənin məktubunu mən bir neçə xoş sətirlərlə ona geri qaytardım. Həmin vaxtdan heç nə eşitməmişəm, görüş təklif etmək qüvvəm xaricindədir, ümid edirəm ki, hər şey sakit və sülhlə qurtaracaqdır.

Sən Stasyaya yazdığın məktubunu müdafiə edirsən, ona görə sənə təşəkkür etmişdim.

Sən Noy-Valdeqqdə olmusanmı? Mən də tez-tez oraya gedirəm, qəribədir ki, biz rastlaşmamışıq. Bəli, sən dağlara dırmaşırsan və elə tez-tez gedirsən ki, Vyanada olduğu kimi, yəqin yanımdan uçub

keçmisən. Həmin dörd gün necə günlər idi? İlahə kinodan çıxır və balaca yükdaşıyan qız perronda durmuşdur - məgər dörd gün elə bu idi?

Bu məktubu Maks bu gün alacaqdır. Gizlicə oxuya bildiyimdən əlavə mən heç nə oxumamışam.

Bəli, *Landauerlə87* səninki gətirmir. Bəs onun almancası hələ də sənin xoşuna gəlirmi? Məktublarımdan əzab çəkərək, əhvalın pozularaq nə hala düşdün, yazıq bala (körpə yox, Tanrı göstərməsin!). Məgər məktubun sənə mane olduğunu deyəndə haqlı deyiləmmi? Sənin düzgünlüyünün nə xeyri vardır? Məktub alanda həmişə haqlı oluram, məktub almayanda nə düzgünlüyüm olur, nə həyatım, nə də başqa bir şeyim.

Ah, Vyanaya gedə bilsəydim!

Xahiş edirəm ki, tərcüməni göndərəsiniz, sizdən hər şeyi, hər şeyi, hər şeyi almağı gözləməyə səbrim çatmır.

Cümə

Milena, sən mütləq bilməlisən ki, səni sevirəmmi, sən dönə-dönə bu çətin sualı verirsən, amma məktubda buna necə cavab vermək olar (bu bazar gününün axırıncı məktubunda da mümkün olmadı)? Bax biz tezliklə görüşəndə, yəqin ki, bunu deyərəm (əgər səsim tutulmasa).

Təkcə Vyanaya gəlmək barədə yazma, gəlməyəcəyəm, lakin bu haqda hər dəfə xatırlatmağınla sanki çılpaq dərimə alov dillərini yaxınlaşdırırsan, artıq alov kiçik ocağa çevrilib, o səngimir, bir qaydada yanır, yox, bir az da alovlanır.

Sənin aldığın çiçəklərə görə mən çox təəssüf edirəm. O qədər mütəəssir oldum ki, onun necə çiçəklər olduğunu belə, ayırd edə bilmədim. Onlar, yəqin ki, sənin otağında qalacaqlar. Doğrudan da, otağındakı şkafın yerində olsaydım, günün günorta vaxtı çiçəkləri götürüb otaqdan çölə atılardım. Elə beləcə də girişdə o vaxta qədər durardım ki, onlar solardı. Yox? Bu, yaxşı deyildir. Və bütün bunlar necə də uzaqdır! Amma sənin qapının dəstəyi bax bu mürəkkəbqabı kimi mənim gözlərimin qarşısındadır.

Əlbəttə ki, sənin dünənki, yox, srağagünkü teleqramın məndədir, amma o vaxt çiçəklər hələ canlı idilər. O çiçəklər niyə səni fərəhləndirmişdir? Əgər onlar ən sevimli çiçəklərindirsə, onda dünyadakı bütün bu cür çiçəklər səni şad etməlidir. Bəs niyə məhz bu çiçəklər? Amma ola bilsin ki, bu çox çətin sualdır və ona yalnız şifahi cavab vermək lazımdır. Bəli, amma sən haradasan, Vyanadamı? Bəs bu Vyana haradadır?

Bu çiçəklərdən ayrıla bilmirəm. Kernrnerştrassah, bu nəsə şəffaf, yuxu, arzular... Çiçəklər isə realdır, onlarvazadadırlar (sən deyirsən: *marne88* və onları sinənə sıxırsan), onlara toxunmaq olmaz, axı bunlar sənin "ən sevimli" güllərindir. Amma bir baxın, Milena otaqdan çıxır, mən sizi qapıb həyətə tullayacağam.

Niyə sən kədərlisən? Nə isə baş vermişdirmi? Və sən mənə heç nə demirsən? *Yox, bu mümkün deyil*.89

Sən Maks haqqında soruşursan, amma o sənə çoxdan cavab vermişdir, düzdür, mən onun nə yazdığını bilmirəm, amma bazar günü mənim yanımda məktubu yola saldı. Bəs mənim bazar günündəki məktubumu aldınmı?

Dünən çox narahat gün idi, zəhlətökən narahat yox, sadəcə narahat - ola bilsin ki, gələn dəfə o haqda danışacağam. Başlıcası da o idi ki, cibimdə sənin teleqramın var idi: onlarla birgə gəzmək; bu, tamamilə xüsusi bir hissiyyatdır. Xüsusi bir insani şəfqət duyğusu yaranır ki, camaat bunu bilmir. Məsələn, Çex körpüsü tərəfə gedirsən, yolda teleqramı çıxarıb oxuyursan (oradakı sözlər həmişə yenidir; onlara baxırsan, oxuyursan, su kimi içib beyninə hopdurursan, kağız boşalıb adiləşir, amma onu cibinə qoyan kimi, o yenidən sözlərlə dolur). Sən onda boylanırsan və təhlükəli minalara bənzər insanları görürsən, onlarda qısqanclıq yoxdur, amma hər halda sifətlərində yazılmışdır: Necə? Bu teleqram məhz sənə gəlib? Bu barədə dərhal yuxarıya məlumat vermək lazımdır. Heç olmasa, qoy Vyanaya yubanmadan çiçək (bir qucaq dolusu) göndərsinlər. Hər halda bu teleqram məsələsini elə-belə qoymayacağıq". Amma buna bənzər heç bir şey yoxdur, hara baxırsansa, hamı sakitdir, tilovçular balığı tilova salmağa davam edir, veyllər gözlərini onlara dikməyə davam edir, uşaqlar futbol oynayır, dilənçilər körpünün yanından kreyser toplayırlar. Əlbəttə ki, diqqətlə baxsan, bütün bunlarda bir əsəbilik görərsən, insanlar özlərini məcbur edirlər ki, öz fikirlərini büruzə verməmək üçün öz məşğuliyyətlərini davam etdirsinlər. Amma məhz onların

özlərini məcbur etmələri çox xoşagələndir - sanki hər tərəfdən səslər eşidilir: "Hər şey düzgündür, teleqram sənə aiddir, biz razıyıq, biz artıq sənin o teleqramı almağa haqqının olub-olmadığını aydınlaşdırmaq istəmirik, biz buna göz yumuruq, onu özündə saxlaya bilərsən". Və onda mən onu bir dəqiqəlik çıxarıb yenidən baxıram, əvvəlcə təşvişə düşürəm ki, birdən onlar qəzəblənərlər, - niyə mən sakit, səssiz qalmamışam və onu gizlətməmişəm - yox onlar qəzəblənmirlər, necə idilərsə, *eləcə də öz işlərindədirlər*.90

Axşam yenidən bir fələstinli yəhudi ilə görüşdüm, bunu məktubda izah etmək mümkün deyildir (bu görüşün mənim üçün əhəmiyyətini nəzərdə tuturam) - balaca, demək olar ki, cırtdanboylu, zərif saqqallı, təkgöz adamcığaz idi. Amma bu görüşə gecənin yarısını həsr etməli oldum. Növbəti dəfə bu haqda danışaram.

Ola bilsin ki, sənin pasportun yoxdur, bəs onu almaq imkanın necə?

Cümə

Milena, mənim zirək Milenam, sənin otağın mənim xatirələrimdə dəyişilir. Yazı stolu və bütün ordakı quruluş əvvəlcə diqqəti cəlb etmirdi, çünki orada iş qaynayırdı, indi isə iş elə çoxdur ki, mən onu hiss edirəm, o məni inandırır, mən bu otaqda qızğın atmosferi, sərinliyi və fərəhi dəqiq hiss edirəm. Yalnız şkaf əvvəlki kimi yöndəmsizdir, qıfıl da bəzən açılmır-eybi yoxdur, düzələr, qapısı titrəyərək örtülür, xüsusən də sənin "bazar günü"nə aid donunu vermək istəmir. O, çox vecsiz şkafdır; əgər yeni mənzildə yaşamaq qisməti olarsa, biz onu tullayarıq.

Son zamanlar mən yazdığım bir çox şeyə görə təəssüf edirəm, amma sən mənə hirslənmə. Və xahiş edirəm ki, bunların sənin günahından olduğunu beyninə salma. (Bunlar sənin günahındırmı?) Daha böyük dərəcədə bu mənim günahımdır; mən bu barədə necə olsa da, bir dəfə yazacağam.

Cümə, axşam, bir az sonra

Ola bilsin ki, indiki vəziyyətim o qədər də yaxşı deyildir; ola bilsin ki, daha artıq xoşbəxtliyə, müdafiəyə və tamlığa güvənə bilərəm, - buna tamamilə əmin olmasam da, xüsusən də burada, Praqada nə cür olursaolsun, bütövlükdə mənim üçün yaxşıdır, fərəhlidir, tamamilə layiq olmadığım dərəcədə yaxşıdır, elə yaxşıdır ki, hətta məni dəhşət bürüyür - əgər bu cür şərait müəyyən qırılmalar olmadan bir az da davam edərsə, əgər mən hər gün səndən heç olmasa bircə söz ala bilsəm və hiss etsəm ki, buna görə sən çox da sıxıntı çəkmirsən, ola bilsin ki, bu artıq kifayətdir, özünə çox əzab vermə; fizikanı isə mən heç başa düşməmişəm (ən yaxşı halda "alov sütunu"nu bilirəm - bu, fizikadırmı?), *vaha svetanı91* da başa düşmürəm, əminəm, o da məni daha az tanıyır (bu cür nəhəng çəkiyə malik tərəziyə mənim 55 kiloqramım nə cür təsir edə bilər, o, sadəcə, hiss olunmaz, yəqin ki, tərəzi heç yerindən belə tərpənməz) və mən burada lap Vyanadakı kimiyəm, sənin əlin, özün onu çəkənə qədər, mənim əlimdədir.

Verfelin şeirləri portret kimidir, o hamıya o cümlədən də mənə baxır, başlıcası isə, əlavə olaraq şeir yazdığı şeytana baxır.

****

Məzuniyyət barədə qeydlərini heç də tamam anlamadım. Sən haraya getmək istərdin?

Cümə

Yox, həqiqətən də, ola bilər ki, işlər o qədər də pis cərəyan etməsin. Sonra isə, əgər zərərsiz, təmiz niyyətli masqaraçılığın vasitəçiliyi olmasa, insan ağır sıxıntı yükündən necə azad ola bilər? Və bundan əlavə, bu gün mən bütün yazdıqlarımı düzgün hesab edirəm. Sən müəyyən şeyləri düzgün qavramamısan, məsələn, "yeganə ağrı" barədə; bu məhz sənin özünə əzab-əziyyət verməyinin mənə göstərdiyi təsirdir, sənin məktublarının yox. O məktublar hər səhər mənə elə güc verir ki, həmin günü sovuşdura bilim, özü də həmin günü elə yaşayıram ki, onların heç birindən məhrum olmaq istəməzdim (təbii ki, bu məktubları nəzərdə tuturam, həmçinin həmin günləri də!) Və otağımın girişindəki məktublar da sözlərimi inkar etmir, artıq onları yazmaq və oraya qoymaq imkanı belə, mənim üçün böyük əhəmiyyət kəsb edir. Və qətiyyən qısqanmıram, səni də buna əmin edirəm, amma boş yerə qısqanmağı da başa düşməkdə çətinlik çəkirəm. Qısqanmamaq - bu həmişə mənə müyəssər olur, qısqanclığın lazımsızlığını dərk etmək isə bəzən. Bəli, bir də *"xilaskar"92* barədə. Ondakı ən qəribə şey odur ki (və bilirsən ki, onlara elə bu cür lazım idi, mən də bir tərəfdə durub fərəhlənirəm, amma ayrı-ayrı hallara yox, dünyanın bu qanununa fərəhlənirəm), onların nə isə dartıb

çıxartmaqlarına gəlincə, deməliyəm ki, onlar yalnız vəhşi inadla daha da dərinə batırlar.

İndi mənim, ola bilsin ki, Maksa verməli olduğum bir məlumatım vardır: sənin

- lap qısa olsa da - onun müfəssəl *opusu93* barədəki mühakimələrini *nəzərdə tuturam94*. O həmişə səni soruşur, işlərinlə, yeniliklərlə maraqlanır, səmimi- qəlbdən sənin qayğına qalır. Lakin, demək olar ki, bütün hallarda ona çox az şeylər danışıram, xoşbəxtlikdən, dilim də söz tutmur. Heç nə olmamış kimi, mən ona Vyanadan olan hansısa bir Milena haqqında danışa bilmirəm ki, o filan-filan cür deyir, filan cür eləyir, filanı nəzərdə tutur və s. Axı sən heç kim olan "Milena" və ya "O" deyilsən, bu, təmiz absurd olan şeydir, ona görə də danışmağa sözüm olmur.

Bu o qədər aydındır ki, hətta təəssüf hissi də keçirmirəm.

Amma yad adamla sənin barəndə danışa bilərəm, bu hətta incə məmnunluq hissi doğurur. Hətta bu işdə xırda bir komediya oynamağı da özümə rəva bilsəm

– amma zövqü çox böyük olur — məmnunluq bir az da çoxalır. Bu yaxınlarda mən *Rudolf Fuksla95* rastlaşdım.

Mən ona hörmətlə yanaşıram, amma onunla görüşməyin mənim üçün elə də böyük mənası yoxdur və onun əlini də kişi səyi ilə sıxmadım. Onsuz da bilirdim ki, söhbətimiz uzun çəkməyəcəkdir, qoy lap kiçik olsun - mən fikirləşdim. Söhbət dərhal Vyanaya və orada

onun hərləndiyi cəmiyyətə gəlib çıxdı. Mən adlara canlı maraq göstərdim, o sadalamağa başladı, amma yox, mən onları nəzərdə tutmuram, mənə qadınların adını de. "Hə, orada bu Milena Pollak da var idi, siz ki, onu tanıyırsınız". "Bəli, Milena", - mən təkrarladım və baxışlarımı Ferdinandştrassa yönəltdim, görək o nə deyəcək. Sonra başqa adları səpələməyə başladı, yenidən məni həmişəki öskürək tutdu və danışığın istiqaməti dəyişdi. Söhbəti necə təzələməli? "Siz xatırlayırsınızmı ki, mən müharibə vaxtı neçənci ildə Vyanada olmuşam?" - "On yeddinci ildə". "Bəs Ernest Pollak həmin vaxt Vyanada deyildi? - Onu görmədim. O hələ evlənməyib?" - "Yox".
Vəssalam. Əlbəttə ki, mən onu bir az danışmağa məcbur edə bilərdim, amma buna daha taqətim yox idi.

Səndə həblərlə bağlı vəziyyət (indi və son vaxtlar) necədir? Sən birinci dəfədir ki, baş ağrılarından yazırsan.

Paris planı haqqında bir neçə söz yaza bilərsənmi?

Sən indi haraya gedəcəksən? Orada yaxşı poçt əlaqəsi vardırmı? Nə vaxt?

Uzun müddətəmi? Altı aylığa?

Həmişə sənin hər hansı dərc olunmuş yazıların olan jurnalın nömrəsini mənə bildir.

Sən hər halda həmin ikigünlük Praqa səfərini düzüb-qoşmusanmı? (Sual təmiz maraq xətrinə verilir.)

"Buna baxmayaraq"a görə çox sağ ol, o söz birbaşa mənim qanıma nüfuz edir.

Cümə, nahardan sonra

Bu məktubu evdə tapdım. Bu qızı çoxdan tanıyıram, onunla hətta uzaq qohumuq da, hər halda ümumi bir qohumumuz vardır. Praqada ağır xəstə olan həmin əmioğlu haqqında yazaraq bildirir ki, bir neçə ay müddətində bacısı ilə birgə ona qulluq etmişlər. Fiziki cəhətdən mənə xoş gəlməsə də iri, gözəl yanaqları olan üzü, balaca girdə bədəni, xoşagəlməz pıçıltılı səsi vardır.

Mən, əsasən, onun haqqında yaxşı şeylər eşitmişəm, yalnız qohumu onun arxasınca pis danışır.

İki ay əvvəl belə məktublara mənim cavabım çox sadə olardı: yox, yox, yox!

İndi düşünürəm ki, buna haqqım yoxdur. Təkcə ona görə yox ki, ona kömək edə biləcəyimi düşünürəm, əlbəttə, hələ Bismark da daim və qəti şəkildə bu cür məktublara etina etməyərək bildirib ki, həyat səbirsizliklə gözlədiyin bir bayramdır, amma əsas bayram yeməyini sənin yanından gizlicə aparırlar, sən də özünü buna öyrətməlisən. Ah, nə qədər axmaq müdriklikdir, dəhşətli axmaqlıqdır! Milena, mənə verilmiş müəyyən şey əlimdədirsə, fikrimcə, onu ovcumda saxlamamalıyam!

Dayım sabah gedir, mən yenidən havaya, suya qovuşacağam, şəhər kənarına çıxacağam, bunlar mənə çox vacibdir.

O yazır ki, bu məktubu yalnız mən oxuya bilərəm, bu xahişi yerinə yetirərək, onu sənə yollayıram. Cır tulla onu. Yeri gəlmişkən, bir gözəl yer var orada: *zenu nepotrebüji* mnoho96.

Şənbə, bir az sonra

Sənin bugünkü məktubun nə qədər əziz, nə qədər səmimi, mənim üçün nə qədər fərəh və xoşbəxtlik gətirsə də, hər halda "xilaskarın məktubudur". Xilaskarlar arasındakı Milena! (Onların arasında olsaydım, o mənimlə olardımı? Yox, məhz onda, yəqin ki, olmazdı.) Milena xilaskarlar arasında - o, öz-özlüyündə bilir, dönə- dönə əmindir ki, başqasını ayrı yolla yox, ancaq orada olmaqla xilas etmək olar. Və budur, yalnız var olduğuna görə məni xilas edərək, indi də daha kiçik vasitələrlə başqalarını da xilas etməyə cəhd edirsən. İnsan batan adamı xilas edirsə, bu qəhrəmanlıqdır, amma daha sonra ona üzmək dərsi verirsə bu nə üçündür? Xilaskar öz vəzifəsini niyə yüngülləşdirir, daim orada olmaq faktından kimisə xilas etmək üçün istifadə etmir, niyə o bu işi məşqçilərin və Davosdakı otel sahiblərinin çiyinlərinə qoyur? Cəmi əlli beş kiloqram yüz qram çəkim vardır: əgər biz əl-ələ tutarıqsa, haraya uçub yox oluram? Əgər hər ikimiz uçuruqsa, onda bütün bunlar nəyə lazımdır? Və bundan əlavə, qısaca danışsam, mənim yuxarıdakı mülahizələrimin mahiyyəti budur ki, heç vaxt səndən belə uzaqlara getməyəcəyəm. Çünki Meran zindanlarından təzəcə qaçmışam.

Şənbə, axşam

Bütün bunlar artıq yazılıb, bu gün yenə də nə isə yazmaq istəyirdim, amma bunun artıq əhəmiyyəti yoxdur. Evə qayıtdım, qaranlıqda, stolun üstündə, gözləmədiyim halda sənin məktubunu gördüm, ona göz gəzdirdim, məni bir neçə dəfə şam yeməyinə çağırdılar, nə isə

yedim. Boşqabdan uzaqlaşmaq üçün yeganə yolum onun içindəkini udmaqdır, elə belə də elədim, sonra məktubu əsaslı şəkildə oxudum, yavaş-yavaş, amma səbirsizcəsinə, qəzəblə, bəzən çaşqınlıqla, bəzi vaxtlar təəccüblə; inanmaq olmur ki, bu belədir, amma bu sənin qarşındadır, sən hər halda inanmırsan, amma birdən duruxursan, barışırsan və başa düşürsən: bax, inam budur; sonra isə məyusluq səni bürüyür, çıxış yolu olmayan, ürək döyüntülərinə hopmuş məyusluq.

"Gələ bilməyəcəyəm", - bunu artıq birinci sətirdən sonuncu sətirədək bilirdim, amma bunların arasında neçə dəfə Vyanaya getdim, insan bəzən belə hallarda sanki on dəfə uzun-uzadı yuxular görür, əslində isə cəmi bir göz qırpımı çəkən vaxt bu qədər uzanır. Sonra poçta getdim, sənə teleqram göndərdim, bir az sakitləşdim və bax, artıq bu məktubun üzərində işləyirəm. Otururam və mənim gələ bilməməyimi sənə sübut etmək zərurətindən əzab çəkirəm. Düzdür, sən yazırsan ki, zəif insan deyiləm, ona görə də, ola bilsin ki, bu, mənə müyəssər olacaqdı, amma növbəti həftəni özümü burada saxlamalıyam, onu da bilirəm ki, hər gün gülərək, daim mənə baxabaxa sanki soruşurlar: "Ola bilərmi ki, sən, həqiqətən də, Vyanaya getməyəcəksən? Bu cür məktub alasan və getməyəsən?"

Musiqidən başım çıxmır, amma bu musiqini, təəssüf ki, bütün musiqiçilərdən yaxşı başa düşürəm. Gələ bilmədim, çünki iş yerimdə heç kəsi aldada bilmərəm. Daha doğrusu, işdə mən yalnız iki səbəbə görə yalan deyə bilərəm - qorxudan (bu, yalnız xidməti məsələlərlə bağlı olur, bu sahədə onsuz mümkün deyildir, burada hazırlıqsız, hətta

ilhamla, həvəslə yalan deyirəm), ya da son dərəcə zərurət məqamında (daha doğrusu *"Elza"97* həqiqətən xəstələnər - Elza, Elza, sən yox, Milena, sən xəstələnə bilməzsən, bu son dərəcə zəruri bir məqam olar, bu haqda heç düşünmək belə istəmirəm). Beləliklə, lazım gələndə mən də aldadıram, heç gözlərimi də qırpmıram, onda heç bir teleqram lazım deyildir, heç bir büro zərurət üzərində hakim deyildir, belə hallarda icazəli, ya icazəsiz gedirəm. Amma o hallarda ki, yalanın səbəbi, əsasən, xoşbəxtliyim olacaqsa və bu xoşbəxtliyə də çox ehtiyacım olacaqsa belə, mən aldada bilmərəm, iyirmi kiloqramlıq giri qaldıra bilmədiyim kimi bunu da bacarmaram. Elza barədə teleqramla müdirin yanına getsəm, yəqin ki, onu əlimdən alıb tullayardı, mən də ona və bu yalana hücum edər, sonra da dərhal direktorun kabinetindən qaçaraq çıxardım, daha ondan heç bir xahiş etməzdim. Başa düş, Milena, büro sadəcə axmaq idarə deyildir (əlbəttə ki, həm də axmaqdır, indi söhbət bundan getmədiyi üçün, heç olmasa, axmaqlığı onun üstündən götürəndə o, fantastik olur), o, hələ ki, keçmiş və indiki işimdir, əlbəttə, mən onunla üzülüşə bilərəm - ola bilsin ki, bu heç də pis olmazdı - amma bu, hər halda, mənim həyatımdır, mən onunla səhlənkar davrana bilərəm, əllərimi yanıma salaraq işləyərəm (mən elə belə də edirəm), hədsiz tənbəllik edə bilərəm (elə belə də edirəm), hamının yanında özümü mötəbər apara bilərəm ki, büroda əsas adam mənəm, lakin bir az sərbəst adam kimi yerimdən getmək üçün yalan deyim (bu mənəm - muzdlu xidmətçi!) və "yalnız" ürəyin elementar döyüntülərinin məni qovduğu yerə gedim - yox, belə yalan deyə

bilmərəm. Amma hələ sənin məktubunu alana qədər yazmaq istədiyim isə budur: mən elə bu həftə özüm üçün yeni məktub düzəldirəm və ya köhnə sənədlərimi qaydaya salıram ki, lazım olarsa, imkan düşən kimi, yubatmadan gələ bilim.

Hamısını yenidən oxudum və başa düşdüm ki, heç də bunları demək istəmirdim. Ola bilsin ki, lazım olduğu kimi deməyi bacarmadığım üçün mən heç də "güclü" deyiləm. Bunu da əlavə edirəm: yəqin ki, əksər məmurlardan daha az yalan deməyə qadirəm, onlar hamı tərəfindən ədalətsizliklə üzləşdiklərini deyirlər, hesab edirlər ki, işdə onlar hamıdan çox çalışırlar (əgər özümü bu cür hiss etsəydim, onda hesab elə ki, bu, Vyanaya sürət qatarını əvəz edirdi!), düşünürlər ki, büro axmaqcasına idarə olunur (o bunu daha yaxşı bacarardı), bu axmaq idarəetmənin nəticəsində öz yerində olmayan dəzgah kimidir; o, öz qabiliyyətlərinə *görəober- ober* təkər yox, *unter-unter* təkər yerində işləməlidir və s. Mənim üçün isə büro məktəb, gimnaziya, universitet, ailə kimidir, ümumiyyətlə, o canlı insan kimi, harada oluramsa olum, məsum gözlərlə baxır, mənə məlum olmayan bir qaydada mənimlə bağlıdır, amma o, əlbəttə ki, indi eşitdiyim Rinq boyunca gedən adamlardan mənə çox yaddır. O mənə hədsiz dərəcədə yaddır, məhz bu səbəbə görə ona qarşı çox diqqətliyəm, demək olar ki, ona yad olduğumu gizlətmirəm, amma bu cür məsumluq məgər dərk olunurmu - bax, buna görə də aldada bilmirəm.

Yox, mən "güclü" deyiləm, yaza da bilmirəm, heç nə bacarmıram. Sən isə, Milena, hələ bir məndən üz də döndərirsən, bilirəm, bu,

uzunmüddətli olmayacaqdır. Görürsənmi ki, ürək döyünməsə insan çox davam gətirə bilməz, bəs sən üz döndərəndə o necə döyünsün?

Kaş bu məktubdan sonra mənə teleqram vura biləydin! Bu, xahiş yox, nidadır. Əgər bunu sərbəst icra edə biləcəksənsə, onda elə. Yalnız onda! (Sən görürsənmi, bu sözün altından xətt çəkmirəm).

Mən yalan deməyimi yüngülləşdirən üçüncü şərti unutmuşam: əgər sən yanımda olarsansa!

Amma onda bu yalan dünyada ən məsum yalan olardı - axı direktorun otağında səndən başqa heç kəs olmayacaqdı! **Bazar günü**

Hələlik bilmirəm ki, şənbə günündəki axşam məktubu barədə nə deyəcəksən, hələ uzun müddət də bilməyəcəyəm. Heç nə olmamış kimi büroda otururam, bazar günü növbətçiliyidir (qəribə məşğuliyyətdir, otursan, vəssalam, başqaları bu cür növbətçilikdə adi vaxtlarda olduğundan daha az işləyirlər, mən isə elə adi qayda ilə işləyirəm), hava tutqundur, gah yağış yağır, gah da buludlu hava yazmağa mane olur - qısası hər şey kədərli və donuqdur, bunun başqa adı yoxdur. Yazırsan ki, məndə yaşamaq həvəsi vardır, amma o bu gün, demək olar ki, yoxdur; axı o haradan ola bilər - bu cür gecədən, yaxud bu cür gündən sonra? Heç bir şeyə baxmadan qəlbimin dərinliklərində o yenə də vardır (mehriban sözlər, zaman- zaman gəlin!), üzdə isə o çox azdır. Mənim heç özümün də özümdən xoşum gəlmir, direktorluğun qapısı önündə otururam, direktor yoxdur, amma birdən o, içəridən çıxıb desə ki: "Siz də mənim xoşuma gəlmirsiniz, ona görə də sizi işdən qovuram", onda təəccüb etmərəm və deyərəm:

"Sağ olun, Vyanaya təcili getmək üçün bu çox yerinə düşdü". "Belə, - o deyir, - onda siz mənim çox xoşuma gəlirsiniz və mən sizi işdən qovmuram?" "Ah, - deyirəm, - deməli, yenə də getmək olmaz". "Niyə? - o deyir, - Siz mənim yenə də xoşuma gəlmirsiniz və mən sizi işdən qovuram" və sonsuzluğa qədər bu cür davam edir.

Praqaya qayıdandan sonra, deyəsən, birinci dəfədir ki, sizi yuxuda görürəm. Sübh qabağı qısa ağır bir yuxu idi - xoşagəlməz gecədən sonra qısa yuxu. Bir azını xatırlayıram. Biz Praqada idik, Ferdinandştrassla Vilimekə qarşı sahilə tərəf gedirdik, küçənin o biri tərəfindən sənin hansısa tanışların keçirdi, biz boylanıb onları baxışlarımızla ötürürdük, sən onlar haqqında danışırdın, deyəsən, söz gəlib Krasa98 çatdı. (O, Praqada deyildir, mən bilirəm, onun ünvanını aydınlaşdırmağa çalışıram.) Sən həmişəki kimi danışırdın, amma dərkolunmaz, əlçatmaz olan nəyi isə gizlətdin, mən heç nə demədim, amma özümü lənətlədim, sadəcə, öz üzərimdə olan lənəti dilə gətirdim. Sonra biz kofe içirdik, deyəsən, ora "Union" kafesi idi (axı o, yol üstündə idi!), bizim stolun arxasında hansısa bir kişi və bir qız var idi, amma mən onları tamamilə tanımıram və bir kişi də var idi, o, Dostoyevskiyə çox oxşayırdı, lakin gənc, qarasaqqal və qarasaçlı idi, hər şey, məsələn, qaşları və gözünün üstündəki çuxurlar qeyri-adi dərəcədə iri görünürdü. Orada sən və mən var idik. Sən etirazını bildirməsən də, hər halda hiss olunurdu. Sənin üzün - mən sənin əzab çəkən sifətindən gözlərimi, sadəcə, ayıra bilmirdim - pudralanmışdı, özü də bacarıqsız tərzdə pudralanmışdı, çox hiss olunurdu, pis idi,

deyəsən, isti idi, yanaqlarında pudradan şəkillər görünürdü, mən onları indi də görürəm. Mən dönə-dönə irəli əyilib səndən soruşmaq istəyirdim ki, niyə sən pudralanmısan; sən hiss elədin ki, sual vermək istəyirəm, xəbərdaredici tərzdə - axı etiraz hiss olunurdu - soruşdun: "Sən nə istəyirsən?" Amma soruşa bilmirdim, cəsarətim çatmırdı və birdən hansısa bir üsulla mənə aydın oldu ki, bu pudralanma mənim üçün sınaqdır, məhz sual verməyim üçün həlledici sınaqdır, axı mən bunu istəyirdim, amma cəsarətim çatmırdı. Bax, belə bir kədərli yuxu mənim üstümə ələndi. Həmin o Dostoyevski də məni çox incitdi. O eynilə sənin kimi davransa da, hər halda, azca da olsa fərqli idi. Ondan bir şey soruşanda nəzakətlə, canıyananlıqla irəli əyilirdi, elə ki, nə soruşacağımı və nə deyəcəyimi bilməyəndə - bu isə hər dəqiqə baş verirdi - cəld geri çəkilir, bütün diqqətini kitaba yönəldir və dünyada hər şeyi, xüsusilə də məni unudurdu, öz saç-saqqalında itərək yox olurdu. Mənim üçün bunların niyə belə dözülməz olduğunu bilmirdim, amma dönədönə- başqa cür də bilmirdim - ona müraciət etməyə məcbur idim, amma hər dəfə öz günahım ucbatından onu itirirdim.

Mənim kiçik bir təskinliyim vardır, bu gün onu mənə qadağan eləmə, qarşımda "Tribuna"99 qəzeti vardır, mən qadağanı pozmamış və onu almamışam, qohumumla dəyişmişəm, daha doğrusu, qohumum onu mənə verdi. Xahiş edirəm ki, məni bu xoşbəxtlikdən məhrum eləmə. Çünki orada nə yazıldığı məni maraqlandırmır, səs eşidirəm, - mənim səsimi! - dünyadakı səslərin içindən bu səsi eşidirəm, məni bu xoşbəxtlikdən məhrum eləmə. Bütün bunlar nə qədər yaxşıdır!

Bilmirəm ki, bu necə olur ki, onu gözlərimlə oxusam da, qanım dərhal hər şeyi hərarətlə qəbul etdi. Həm də maraqlıdır! Həqiqətən də, mən ikinci qrupa aidəm: ayaqlarımdakı kündə mənim varlığımdır və mən razı deyiləm ki, sırf mənə aid olan məsələlər ictimailəşsin; bir dəfə kimsə mənə dedi ki, mən qu kimi üzürəm, amma bu kompliment deyildi və bu, həyəcan yaradırdı. Özümü əllərini açaraq oxucuları səndən müəyyən məsafədə saxlayan divə bənzədirəm - onun işi çox çətindir, o, oxucuları saxlamalıdır və eyni zamanda hər bir sözünü də eşitmək istəyir, bircə saniyə də səni gözündən itirmək istəmir.

Oxucular, yəqin ki, dikbaş, dəhşətli dərəcədə axmaqdırlar, üstəlik, qadınlar kimi hələ bir qışqırırlar: "Moda hanı? Ən nəhayət, bəs moda hanı? İndiyə qədər gördüklərimiz, sadəcə, "olsa-olsa,

Milenadır". "Sadəcə", elə mən də bu "sadəcə" ilə yaşayıram.

"Minhauzen Qibraltarda topları tulladığı kimi, mən də qalan hər şeyi nəhəng dənizə tulladım. Necə yəni? Bütün qalan dünyanı? Bəs aldatmaq? Sən büroda aldatmağı bacarmırsan? Bəli, əvvəlki kimi orada oturaram, darıxdırıcıdır, sabah da məktub gəlməyəcəkdir, bu, yuxuda səndən gələn sonuncu xəbər idi.

Bazar, axşam

Tez ol, bax, indi elə bir imkanımız vardır ki, hər həftə ondan istifadə edə bilərik; əvvəllər mən necə də bunu düşünməmişəm! Düzdür, mən əvvəlcə pasport almalıyam, bu sənin düşündüyün qədər sadə məsələ deyildir və Ottlasız100, demək olar ki, mümkün deyildir:

Hansısa bir şənbədə, nahardan sonra sürət qatarına otururam və təxminən (sabah dəqiq cədvəli öyrənərəm) gecə saat 2-də Vyanada oluram. Sən isə hələ cümə günü Praqaya gələn sürət qatarına bazar günü üçün bilet alırsan, mənə teleqram vurursan ki, bilet hazırdır, axı mən bu teleqramsız Praqadan çıxa bilmərəm. Sən məni vağzalda gözləyirsən, bizim öhdəmizdə 4 saat vaxt olur, səhər saat 7-də mən yenidən Praqaya gəlirəm.

Bax belə, düzdür, cəmi dörd saat, yorğun halda və gecə vaxtı olduğundan kədərli olsa da, ikilikdə (Harada? Frans Yozef vağzalının yanındakı mehmanxanada?) oluruq və belə bir imkan da vardır ki, sən Qmyundda məni qarşılayırsan, yolu qısaldaraq orada görüşür, Qmyundda gecəni keçiririk. Axı ora Avstriyanındır? Onda sənə pasport lazım olmayacaqdır. Mən təxminən saat 10-da orada olacağam, ola bilsin ki, bir az da tez olaram, bazar günü sürət qatarı ilə səhər saat 11-də qayıdaram (bazar günü yer almaq, yəqin ki, asan olar), əgər uyğun gələn qatar gec olarsa, bir az da sonra mümkündür. Amma sən oraya və geriyə necə gəlib-qayıdacaqsan, bunu bilmirəm.

Hə, nə deyirsən? Qəribədir ki, mən indi sənə sual verirəm, amma bütün günü səninlə danışmışam. Krasanın ünvanı: Maricnbad, "Ştern" mehmanxanası.

Bazar ertəsi

Teleqram cavab deyildi, amma cümə axşamındakı məktub isə cavab idi. Əbəs yerə yuxusuzluqdan əzab çəkməmişəm, bu gün səhər əbəs yerə məni dəhşətli kədər bürüməmişdi - hər şey ədalətlidir. Bəs ərinin

qanaxmadan xəbəri vardırmı? Başa düşürəm ki, hər şeyi şişirtmək lazım deyildir, ola bilsin, heç nə yoxdur, bəzən qan gələ bilər, amma bu qandır və bunu unutmaq olmaz. Amma sən əhəmiyyət vermədən öz xoşbəxtheyatını davan edirsən, sanki qanı hədələyirsən: "Hə, gəl də, gəl" və o gəlir. Burada mənim halımın necə olacağı isə səni qətiyyən həyəcanlandırmır, əlbəttə ki, sən *nemluvne101* deyilsən və nə etdiyini gözəl bilirsən, sən məhz bunu istəyirsən ki, mən burada - Praqa sahillərində durum, sən isə mənim gözlərim qarşısında, tamamilə öz iradənlə Vyana sularında qərq olasan. Yaxud da yeməyə bir şeyin yoxdursa, deməli, *pro sebe102* heç bir qayğın yoxdur.

Bəlkə sən düşünürsən ki, bu əslində mənim problemimdir? Nə etmək olar, deməli, sən haqlısan. Təəssüf ki, sənə çox pul göndərə bilmirəm, ona görə də naharda evə qayıdanda lazımsız kağızları sobaya tullayacağam.

Belə çıxır ki, biz bir-birimizdən tamamilə uzaqlaşmışıq, Milena, yalnız bircə böyük arzu bizi birləşdirir: sən burada olasan ki, üzün bacardıqca mənim üzümə yaxın olsun. Və əlbəttə ki, həm də ölüm arzusu - "yüngül" ölüm arzusu da bizi birləşdirir, amma bu tamamilə uşaq arzusudur, elə bil ki, riyaziyyat dərsidir, kafedrada müəllim öz qeyd dəftərini vərəqləyir, bəlkə də, familiyamı axtarır, mən də gücün, dəhşətin bu təntənəsi ilə reallığın, heçliyin, savadsızlığın dərkini müqayisə edərək onu izləyirəm və bircə arzu edirəm: görünmədən qalxaraq partaların arasından keçib müəllimin yanından, riyazi biliklərim kimi, qanad açıb uçmaq, qapını nə cürsə dəf etmək, bayırda

özümə gələrək təmiz hava ilə dərindən nəfəs almaq və dünyanın heç bir yerində bu otaqdakı kimi sıxıntımın olmayacağına əmin olmaq.

Bəli, bu daha "yüngül" olardı. Amma bu cür olmadı. Məni lövhəyə çağırdılar, məsələni diktə etdilər, həlli üçün loqarifm cədvəli lazım idi, mən isə onu unudub evdə qoymuşdum, amma yalandan dedim ki, o, partada qalıb (ümid edirdim ki, müəllim özününkünü mənə verəcəkdir), o məni cədvəl üçün göndərdi, mən artıq qorxunu həqiqətən hiss edərək (məktəbdə heç vaxt yalandan qorxu hissi keçirməmişəm) müəyyən etdim ki, cədvəl partada yoxdur, müəllim (srağagün mən onu gördüm) mənə dedi: "Of, sən timsahsan!" Mən dərhal "qeyri-kafi" aldım, bu hətta çox yaxşı idi, çünki bu qiyməti formal olaraq almışdım, həm də ədalətli qiymət deyildi (düzdür, aldatmışdım, amma heç kəs bunu sübut edə bilməzdi - məgər belədirsə, ədalətsizlik olmurmu?), ən əsası isə mən özümün biabırçı səliqəsizliyimi ört-basdır edə bildim. Deməli, əslində, bu hətta çox "yüngül" idi: "yox olmaq" olar, burada imkanlar sonsuzdur, hətta insan yaşayanda belə *"ölmüş" ola bilər*[103].

Təkcə bir şey çatışmır, - çərənçiliyimə baxmayaraq, bu aydındır - sən indi içəri girəsən və burada olasan, biz sənin sağalmağın barədə söhbət edək; bu imkanı isə biz yaratmalıyıq!

Bu gün mən sənə çoxlu şeylər demək istəyirdim, amma məktubunu oxudum və düşündüm ki, qan gəlirsə, nə demək olar? Xahiş edirəm ki, mənə dərhal həkimin nə dediyini və onun nə cür adam oldu- ğunu yaz.

Vağzaldakı səhnəni sən səhv təsvir etmisən, mən bir saniyə də tərəddüd etmədim, hər şey kədərli və gözəl idi, biz tamamilə tənha idik, ən dərkedilməz dərəcədə gülməlisi isə o idi ki, görünməyən insanlar birdən peyda olaraq üsyan etdilər; onlar perronun qapısının açılmasını tələb edirdilər.

Mehmanxananın qarşısında isə hər şey sənin dediyin kimi idi. Sən orada elə gözəl idin ki! Ola bilsin ki, o heç də sən deyildin. Axı qəribə idi ki, sən belə tezdən durmuşdun. Amma, o, sən deyildinsə, hər şeyi o cür dəqiq haradan bilirdin?

Bazar ertəsi, bir az sonra

Ah, indicə o qədər sənədlər gəldi ki... Mən bu cür yuxusuz başımla nədən ötrü çalışıram? Nəyə görə? Mətbəx sobası üçün. ***

Üstəlik bir şair də gəldi, o, ilk gələn adamdır, ağac üzərində oymaçılıq və ofortçuluqla104 məşğul olur, onda elə bir həyat sevgisi vardır ki, məndə olan hər şeyi üzə çıxarır, o mənə baxaraq səbirsizlikdən necə titrədiyimi seyr edir, əllərim bu məktub üzərində əsir, başım sinəmə düşür, amma o getmir ki, getmir, xeyirxah, diribaş, xoşbəxt-bədbəxt, təqdirəlayiq bir adamdır, məhz indi mənim üçün dəhşətli dərəcədə işgüzar cavandır.

Sənin isə ağzından qan gəlir...

Ümumiyyətlə, biz həmişə eyni şeyi yazırıq. Gah yazıram ki, xəstə deyilsənmi, gah da sən bu haqda soruşursan, gah mən ölmək istəyirəm, gah sən, gah sənin qarşında balaca uşaq kimi ağlamaq istəyirəm, gah da sən mənim qarşımda. Bir dəfə, on dəfə, min dəfə... həmişə sənlə birgə olmaq istəyirəm və sən də bu cür deyirsən.

Kifayətdir, kifayətdir!

Əvvəlki kimi, həkimin nə dediyi barədə məktubun yoxdur, sən ləng və qayğısız müxbirsən, hirsli və əziz - hə, daha nə qaldı? Heç bir şey, sadəcə, dizlərinin üstündə sakitləşmək.

Bazar ertəsi, nahardan sonra

Əgər bu gün səhər yazdığım məktubdan daha da artığını deməli olduğumu qərara almasaydım, onda yalançı olardım, xüsusən də, başqa heç kəslə bu qədər səmimi danışmadığım halda, sənin qarşında, çünki hələ heç kəs sənin kimi, heç nəyə baxmadan, heç nəyə

baxmadan (bu sanballı "heç nəyə baxmadan"ı sənin də sanballı "və hər halda!"nla qarışdırma) - bilərək və bağışlayaraq - məni bu cür təsdiq etməmişdir.

Sənin məktubların içərisində ən gözəli (bu haqda çox deyilib, çünki ümumiyyətlə, hər bir sətirdə mənim həyatımın ən gözəl dövrləri olub) - beləliklə, onların arasında ən gözəli, mənim "qorxumu" əsaslandırdığın, haqq qazandırdığın, eyni zamanda da onun yersiz olduğunu mənə təlqin etməyə əhd etdiyin yerlərdir. Çünki mən də öz qorxumun muzdla vəkili təəssüratı yaratsam da, qəlbimin dərinliklərində, əlbəttə, ona səmimi olaraq haqq qazandırıram - mən ki, tamamilə onun tərəfində dururam, və o məndə olan ən yaxşı şeydir. O məndə olan ən yaxşı cəhət olduğuna görə də, ola bilsin ki, təkcə sən onu sevirsən. Axı məndə elə bir xüsusi şey yoxdur ki, onu sevəsən. Onu isə sevmək olar.

Bu yaxınlarda sən soruşdun ki, ürəyimdəki bu qorxu ilə bizim şənbəmizi necə "möcüzəli" adlandıra bilərəm105; bunu izah etmək çətindir. Mən səni sevdiyimə görə (mən isə səni - anlaşılmaz varlığı sevirəm, dəniz öz dibindəki xırda daşları sevdiyi kimi sevirəm, mənim sevgim də səni qərq edəcəkdir, sənin üçün də mən o cür çınqıl daşı olacağam, əlbəttə ki, göylər nəsib edərsə), səni sevdiyim üçün bütün dünyanı sevirəm, bütün dünya isə sənin sol kürəyindir - yox, əvvəlcə sağ kürəyində idi və ona görə də onu bütöv şəkildə sevirəm, mən nə vaxtsa düzgün fikirləşib tapa bilsəm (sən isə rəhm elə, köynəyini azca

ondan aşağıya sal) - sənin sol kürəyini də, meşədə ikən üzümün üstündəki üzünü də, meşədə mənim üzümün altında olan üzünü də, yarıçılpaq döşlərinin üstündə hər şeyi unutmağı da sevirəm. Və ona görə də bizim bir bədən olduğumuzu deyəndə haqlısan, yalnız burada qorxu mənə təsir eləyə bilmir, axı bu mənim yeganə xoşbəxtliyim, yeganə vüqarımdır və mən nəzərdə tuturam ki, bu təkcə meşədə belə deyildir.

Amma bu gündüz həyatı ilə, bir dəfə sənin təhqirlə yazdığın "yarım saatlıq yataq" arasında "kişilik qayğıları" mənim üçün aşa bilmədiyim, bəlkə də keçmək istəmədiyim uçurumlar vardır. Orada gecə əhvalatları vardır, bütün anlamlarda gecə əhvalatları vardır, burada isə bütün dünya mənimdir, mən onu idarə edirəm, doğrudanmı, birdən-birə gecəyə tullanmalıyam ki, oraya da sahiblik edim? Məgər bir şeyə yenidən sahiblik etmək olarmı? Məgər bu onu itirmək demək deyildirmi? Mən burada dünyaya hökm edirəm, birdən oraya keçməliyəm, buranı buraxmalı, gözlənilməz cadugərlik, cəld fokuslar, müdriklik daşı, əlkimya, cadu halqası naminə oraya keçməliyəm. Uzaq, uzaq olsun, mən bundan dəhşətli dərəcədə qorxuram!

Hər gün açıq gözlərlə asanca bəxş oluna bilən bir şeyi cadugər həsrəti ilə bircə gecədə - tələsik, təngnəfəs, çarəsiz, köməksiz, fəth oluna bilən - cadugər vasitələrlə qamarlamaq! (Yəqin ki, başqa yolla uşaq əldə etmək mümkün deyildir, yəqin ki, uşaq da cadugərlikdir -

"yəqin ki". Sualı açıq saxlayaq.) Və ona görə də sənə və hamıya çox minnətdaram; *samozreime106* səninlə yanaşı olanda elə sakit və elə narahat, elə sehrlənmiş, elə azad oluram ki, - bunu anlayaraq bütün qalan ömrümdən vaz keçirəm. Gözlərimin içinə bax!

Beləliklə, yalnız xanım Kolerdən öyrənirəm ki, kitablarım yataq kamodunun üstündən yazı masasına adlamışdır. Bu köçürmə barədə mənim rəyimi soruşmaq lazım idi. Mən "yox" deyərdim.

İndi isə mənə sağ ol de. Mən bu axırıncı sətirlərdə tamamilə ağılsız (ağılsız-qısqanc) şeylər yazmaq arzusunu müvəffəqiyyətlə boğdum.

Vəssalam, bəsdir, indi isə Emiliya barədə danış.

Artıq gecdir, hər şeyə rəğmən gün bir az kədərli oldu. Sabah, yəqin ki, səndən məktub olmayacaqdır; şənbə məktubunu artıq almışam, bazar gününün məktubunu isə birigün alacağam - ola bilər ki, ertəsi gün sənin məktublarının təsirindən azad olduğum bir gün olacaqdır. Qəribədir ki, sənin məktubların məni kor eləyir, Milena, axı artıq bir həftə, yaxud daha artıqdır ki, sənə nəsə olduğunu hiss edirəm, nəsə qəfil yaxud tədricən, ciddi yaxud təsadüfi, aydın yaxud tam dərkedilməmiş; amma o baş verib, bunu bilirəm. Bunu yalnız sənin məktubunun detallarından görmürəm, əslində isə belə detallar vardır, məsələn, məktub xatirələrlə doludur (və məxsusi xatirələrlə), adətən, sən hər şeyə cavab verirsən, amma indi hamısına cavab verməmisən; səbəbsiz yerə kədərli olmusan; məni Davosa yollayırsan; sən birdən bu görüşə elə inad edirsən ki (amma buraya gəlməmək haqqındakı

məsləhətimi dərhal qəbul etmişdin); bildirmişdin ki, Vyana belə görüşlər üçün yaramır, sən demişdin ki, gəlişinə qədər belə görüşləri təşkil etmək lazım deyildir və birdən sonuncu üç-dörd məktubdakı bu cür tələskənlik anlaşılmır. Əslində, buna hey sevinməli, sevinməliyəm, amma bacarmıram, çünki sənin məktublarında gizli bir qorxu hiss edirəm, o ya mənə görədir, ya da mənim əleyhimədir - bilmirəm, amma sən elə qəfildən, elə tələskənliklə görüşməyi təkid edirsən ki, bunda bir qorxu gizlənib. Amma hər halda mən çox şadam ki, bu imkan artıq vardır, sən onu artıq tapmısan. Əsər sən burada gecə qala bilməsən, bunu da təşkil edə bilərik, məsələn, birlikdə olacağımız vaxtın bir neçə saatını qurban verərik; bazar günü saat 7-də sürət qatarı ilə gedərsən Qmyunda, - mən o vaxt belə eləmişdim - buraya isə saat 10-da gələrsən, mən səni gözləyəcəyəm, mənim geriyə qayıdışım isə beşin yarısına adlayır və bizim olsa-olsa altı saat vaxtımız qalır. Sürət qatarının axşam reysi ilə Vyanaya qayıdırsan və on ikiyə iyirmi beş dəqiqə işləmiş orada olursan - kiçik bir bazar gəzintisi).

Ümumiyyətlə, bütün bunlar məni narahat edir, daha doğrusu, narahat eləmir, çünki sənin təsirin mənim üzərimdə çox böyükdür. Mən hədsiz narahat olmaq əvəzinə, - çünki məktubunda nəyinsə haqqında susursan - mən sakitliyimi saxlayıram, sənin necə görünməyindən asılı olmayaraq sənə inamım bu cür böyükdür. Əgər sən nəyinsə haqqında susursansa, düşünürəm ki, belə lazımdır.

Bazar ertəsi, axşam

Həm də başqa bir şeyə görə, tamamilə qeyri-adi səbəbə görə sakit qalıram. Sənin bir xüsusiyyətin vardır ki, onun kökləri sənin varlığının lap dərinliklərindən gəlir və o xasiyyəti kim duymursa, yalnız öz günahıdır - o elə bir xasiyyətdir ki, onu başqa heç bir adamda görməmişəm, onu yalnız səndə gördüyüm üçün, ümumiyyətlə, çətin təsəvvür edirəm. O bundan ibarətdir ki, sən insanı əziyyət çəkməyə məcbur edə bilmirsən. Və sən bunu yalnız şəfqət hissinə görə etmirsən, sən bunu, sadəcə, bacarmırsan.

Yox, bu, demək olar ki, fantastikadır: az qala bütün günü mən bu barədə düşünmüşəm, yazmağı isə qərara ala bilmirdim, bəlkə də bütün bunlar az və ya çox dərəcədə sənin ağuşuna atılmaq üçün söylənilən təmtəraqlı üzrxahlıqdır.

İndi isə yatmaq lazımdır! Maraqlıdır ki, indi, bazar ertəsi günü, gecə saat 11-də nə eləyirsən?

Çərşənbə axşamı

İnsanlar barədə çox az, zəif bilirsən, Milena. Mən bunu çoxdan demişəm. Yaxşı,

Elza xəstələnib, bu tamamilə mümkündür, ona görə də Vyanaya getmək lazımdır, amma qoca Klara xala da ağır xəstədir? Hə, sənin fikrincə, mən hər şeyi bir kənara qoyaraq direktorun yanına gedərək gülmədən Klara xala haqqında danışa bilərəmmi? (Əlbəttə ki, burada da insanların öz bilikləri olmadan ötüşmək olmaz, hər bir yəhudinin özünün Klara xalası vardır, mənimki isə lap çoxdan ölüb). Ola bilsin ki, bu tamamilə istisnadır. Yaxşı ki, bizim ona artıq ehtiyacımız yoxdur. Qoy ölsün, o ki tək deyildir, yanında Oskar vardır. Yeri gəlmişkən, Oskar kimdir? Klara xala Klara xaladır, bəs Oskar kimdir? Hər necə olursa-olsun, onlar bir yerdədirlər. Ümid edirəm ki, heç olmasa, bu arxipronır107 xəstələnməyəcəkdir.108

***

Ən nəhayət, məktub, özü də necə məktub! Başlanğıcda dediklərim axşam yazdığın məktuba aid deyildir, amma narahatlıq (mənim ifadəmə görə sakit narahatlıq) yaranmışdırsa, artıq o sakitləşmir. Nə yaxşı ki, biz görüşəcəyik. Yəqin ki, mən sabah, yaxud birigün sənə teleqram vuracağam (Ottla artıq bu gün pasport dalınca getdi), bu şənbə Qmyunda gəlməyi bacaracağammı (Vyana üçün bu həftə, hər

halda, artıq gecdir, çünki bazar gününün sürət qatarına bileti vaxtından əvvəl almaq lazımdır), sən öz gəlməyini də teleqramla mənə bildirməlisən. Bütün hallarda, poçta gedəcəyəm ki, sən teleqramı tez alasan. Belə edərik: əgər teleqram vursam ki, "mümkün deyildir", deməli, bu həftə gələ bilməyəcəyəm. Onda teleqram-cavabı gözləməyəcəyəm, qalan şeylərin hamısını məktubla müzakirə edərik (növbəti dörd həftədə görüş, əlbəttə ki, sənin hansı şəhərə gedəcəyindən asılı olacaqdır, ola bilsin ki, məndən çox uzaqda olduğun üçün tam bir ay görüşə bilməyəcəyik). Yaxud da teleqram vuracağam ki, "Şənbə günü Qmyundda olacağam". Bu halda ya "mümkün deyildir", ya da "Şənbə günü Qmyudda ola bilərəm" cavablarını gözləyəcəyəm. *Son iki halın hər birində, ola bilsin ki, hər şey razılaşdırıldığı üçün, heç bir başqa teleqram tələb olunmasın.* (Yox, teleqramının alınmasına sənin şübhən qalmaması üçün təsdiq teleqramını da vuracağam). *Biz hər ikimiz Qmyunda gedəcəyik* və ya bu şənbə, ya da bazar günü görüşürük. Bütün bunlar çox sadə səslənir.

Təxminən iki saat vaxt itirildi, məktubu ləğv etmək lazım gəldi. Otto Pik109 buraya gəlmişdi. Yorulmuşam. Biz bəs nə vaxt görüşəcəyik? Niyə saat yarım ərzində sənin adını cəmi üç dəfə eşitdim? Sən haradasan? Komanın yerləşdiyi kənd yolundamı?

Mən də yoldayam və bu yol çox uzundur. Ancaq buna görə özünü üzmə, hər halda biz yoldayıq, getməkdən başqa bir variantımız isə, sadəcə, mümkün deyildir.

Çərşənbə

Bəs həkim haradadır? Məktubu oxumadan onu başdan ayağadək axtardım ki, həkimi tapım. O haradadır?

Mən tamamilə yatmıram: bu o demək deyildir ki, tamamilə buna görə yatmıram, harmoniyasız insanlarda başqalarına nisbətən daha çox yuxusuzluq olur, lakin hər halda, mən yatmıram. Niyə? Vyanaya gəlməyimdən çox vaxt keçdiyinə görəmi? Yaxud da öz xoşbəxtliyimi çox qabartdım? Süd, yağ və salatlar artıq mənim üçün azlıq edir və başqa yeməklər-sənin gəlişin lazımdır?

Tamamilə mümkündür ki, başqa səbəb vardır, amma günlərim çox ağır keçir. Digər tərəfdən də, mən boş mənzildə yaşamaq xoşbəxtliyindən məhrum olmuşam, indi özümünkülərin yanında oluram (ona görə də teleqramı dərhal almamışam).

Ola bilsin ki, mənə təkcə mənzilin genişliyi belə, yaxşı təsir eləmir, yaxud da təkcə o təsir eləmir, bu, iki mənzildə olmaq imkanından irəli gəlir: birisi gündüzlər yaşamaq üçün, digəri isə, ayrıca olaraq, axşam və gecələr üçün. Bu sənə aydın olurmu? Mənə isə yox, amma bu belədir.

Bəli, şkaf barədə. Belə çıxır ki, o bizim birinci və sonuncu çəkişməyimizin səbəbi olacaqdır. Deyirəm: "Biz onu tullayaq". Deyirsən: "Yox, saxlayaq". Mən: "Ya o, ya da mən. Özün seç". Sən: "Bu saat. Şkaf, Kafka - burada bir ahəngdarlıq vardır. Şkafı seçirəm". "Yaxşı", - mən deyirəm və yavaşca pilləkənlərlə aşağı düşürəm

(hansı?) və əgər Dunay kanalını dərhal tapa bilmirəmsə, demək, hələ yaşayacağam.

Qalan şeylərdə isə şkafın əleyhinə deyiləm, sadəcə, həmin donu geymə. Axı onu tamam köhnəldəcəksən, bəs onda mən nə edəcəyəm?

Qəbir əcaib bir yerdir. Çünki mən məhz *(vlastne)* həmin yeri axtarırdım, bir az bərk getsəm də, inamla böyük dairələr boyunca gəzir, sonda isə lap böyük dairələr boyunca gedirdim, nəticədə isə səhv edərək başqa bir qəbri ehtimal etdim.

Ola bilsin ki, sən gedirsən və vizan belə yoxdur. Və zərurət olarsa dərhal gəlməyin barədə inam da bu zaman itirilmiş olur. Sən hələ bir istəyirsən ki, mən yatım da? Bəs həkim? O haradadır? Əvvəlki kimi, hələ də yoxdur?

Konqresin şərəfinə olan xüsusi marka yox idi, mən də elə düşünürdüm ki, beləsi olmuşdur. Çox təəssüf ki, əvvəllər mənim üçün "konqres markaları" gətirmişdilər - ən adi markalar idi, təkcə konqresin ştempeli var idi; amma yəqin ki, bu ştempelə görə onlar bu qədər qiymətli idilər, amma oğlan bunu başa düşmürdü. Hər dəfə markalardan birini məktuba qoyacağam, əvvəla, qiymətli olduğuna görə, ikincisi də, hər dəfə təşəkkür almağım üçün belə edəcəyəm.

Bax, görürsənmi, sənə qələm lazımdır, niyə axı Vyanada vaxtdan daha yaxşı istifadə etmədik? Niyə, məsələn, biz dəftərxana mağazasından uzaqlaşıb getmədik, ora elə gözəl idi və biz bir-birimizə elə yaxın idik ki...

Sən hələ də bu axmaq zarafatları şkafa oxumamısanmı? Sadəcə, sənin otağında olan hər şeyi dəlicəsinə sevirəm.

Bəs həkim?

Sən filatelistlə tez-tezmi görüşürsən? Sual göründüyü qədər də xoşagəlməz deyildir. Nə vaxt ki, pis yatırsan, onda səbəbini anlamadığın suallar verirsən. Elə hey soruşmaq istəyirsən, çünki yatmamaq suallar yaradır; əgər cavab olarsa, elə yuxu da olardı.

Amma ağlı başında olmamaq haqqındakı izahatların, ümumiyyətlə, çox xoşagəlməz zarafatdır. Ən nəhayət, sən pasport aldınmı? ***

Çərşənbə

Cümə günü yazdığın məktubun gəldi; əgər cümə axşamı yazmamısansa, onda hər şey yaxşıdır; təki heç biri itməsin.

***

Haqqımda yazdıqlarının hamısı dəhşətli dərəcədə ağıllı yazılardır, qoy hər şey belə də qalsın. Yalnız yazdığın bircə şey haqqında açıqlama vermək istəyirəm: mənim bədbəxtliyim ondadır ki, bütün insanları - hamısından da öncə mənim üçün qiymətli olan insanları - yaxşı hesab edirəm, özü də ağlım və ürəyimlə belə hesab edirəm (indicə birisi içəri girdi və qorxdu — boşluğa yönəlmiş üzümdə yazdığım bu qənaətim ifadə olunmuşdu), amma bədənim inanmaq istəmir ki, lazım olan vaxtda onlar, həqiqətən, yaxşı olacaqlar, o qorxudan sıxılır, sınaq vaxtını gözləmək əvəzinə (bu mənada, həqiqətən də, dünya xilas olardı), yavaşca divara tərəf sürünür. ***

Yenidən məktubları cırmağa başladım, elə dünən axşam birini cırdım. Sən çox bədbəxtsən və bu mənim üzümdəndir (əlbəttə ki, başqa səbəblər də vardır - biri o birisinə təsir edir), bu barədə açıq danışa bilərsən. Bu dərhal alınmayacaqdır, bunu başa düşürəm.

Dünən həkimdə idim. Gözlədiyimin əksinə olaraq, nə o, nə də tərəzi yaxşılaşdığımı göstərmədi - düzdür, heç pisləşmə də olmayıb. Amma o hesab edir ki, harasa getməliyəm. Cənubi İsveçrədən sonra (bunun səbəbini açıqladıqdan sonra o başa düşdü ki, bu mümkün deyildir) o fikirləşmədən (heç bir şey deməsəm də) Aşağı Avstriyanın iki sanatoriyasının adını çəkdi, dedi ki, bunlar ən yaxşılarıdır: "Qrimmenştayn sanatoriyası (doktor Frankfurter) və "Vyana meşəsi" sanatoriyası, yeri gəlmişkən, o indi bunların heç birinin poçt ünvanlarını bilmir. Bəlkə sən imkan olanda, aptekdə, hansısa bir həkimin yanında olanda, yaxud poçt və ya teleqraf məlumat kitabçasından bunu öyrənə bilərsən? Bu, təcili deyildir. Lakin mən əmin deyiləm ki, oraya gedəcəyəm. Bunlar xüsusi ağciyər sanatoriyalarıdır, gecə-gündüz öskürək və qızdırmadan əzab çəkənlər üçündür, orada ət yeməlisən, orada köhnə cəlladlar iynə vurmağa qoymayanların qollarını bururlar, yəhudi həkimlər isə saqqallarını tumarlayaraq sakitcə buna baxırlar, xristianlara və ya yəhudilərə fərq qoymadan eyni dərəcədə qəddardırlar.

Axırıncı məktublarından birində sən, deyəsən, yazmışdın ki (mən stoldan bu məktubu tapmağa tərəddüd edirəm, ola bilər ki, mən tələsik

oxuduğumdan onu yaxşı başa düşməmişəm, yəqin ki, bu elə belə də olmuşdur), işin sonu yaxınlaşır. Burada bir dəqiqəlik sıxıntıların təsiri nə qədərdir və əbədi həqiqətin payı nə qədərdir?

Sənin məktubunu bir daha oxudum, "dəhşətli dərəcədə" sözünü geri götürürəm, orada nə isə çatışmır, orada müəyyən şeylər əskikdir, deməli, o sadəcə nağıldır". Kabuslarla "qaçdı-tutdu" oynamaq insanlar üçün, ümumiyyətlə, çox çətindir.

Sən Blyayla110 görüşmüsən. O nə işlə məşğuldur? İnanıram ki, hər şey axmaqcasına keçmişdir və ziddiyyətlər yenə də qalmışdır. Bunun yaxşı cəhəti də vardır, amma o, əlli mil uzaqlıqdadır və gəlməkdən imtina edir, Zalsburqun bütün zəngləri çalınarsa, o ehtiyatlanıb daha neçə mil uzaqlaşacaqdır.

Çərşənbə

Sən Kazanovanın Venesiya həbsxanasından qaçması əhvalatını bilirsənmi? Əlbəttə, bilirsən. Orada həbsxana həyatının ən pisi, ən dəhşətlisi haqqında ötəri təsvirlər vardır - yerin altında, yarımqaranlıqda, rütubət içində, laqunlll səviyyəsində, ensiz taxta üzərində insan yarıbükülü vəziyyətdə qalır, su topuqlara qədər qalxır, qabarmalar zamanı dizlərə qədər də çatır. Ən dəhşətlisi isə su siçanlarıdır, gecələr onlar ciyildəyir, dişləyir, gəmirirlər (yəqin ki, qız ona verilən çörək qırıntıları uğrunda bu siçanlarla mübarizə aparırmış) və hamısından daha dəhşətlisi odur ki, onlar həmişə gözləyirlər ki, insan nə vaxt gücdən düşüb taxtanın üstündən yıxılacaqdır. Bilirsənmi,

sənin məktubunu bu hissiyyatla oxudum. Hər şey elə dəhşətli, elə əlçatmazdır, əsas isə, elə yaxın və elə uzaqdır ki, lap öz keçmişin kimidir. Və yarıbükülü vəziyyətdə orada otururşan, ayaqların qıc olur və sən qorxudan titrəyirsən, işin yalnız ondan ibarət olur ki, qaranlıqda siçanların parıldayan gözlərinə gözünü zilləyirsən, bir müddətdən sonra isə artıq yuxarıdamı olduğunu, yaxud onların yanına yıxılaraq elə onlarınkı kimi uzun sifətindəki iti dişlərini ağartdığını və ciyildədiyini fərq edə bilməyəcəksən. Ah, belə hekayələri daha danışma, tez yanıma gəl, hə, nə oldu, tez gəl. Bu "vəhşiciyəzləri" isə sənə verirəm, lakin bir şərtlə, sən onları dərhal evdən qovursan.112 Doktor haqqında isə, ümumiyyətlə, daha heç bir söhbət yoxdur? Axı sən and içərək bildirdin ki, doktorun yanına gedəcəksən, öz sözünə isə sən əməl etmədin. Daha qan gəlmir, sən də ona görə getmirsən? Özüm haqqında danışmaq istəmirəm, mənimlə müqayisədə çox sağlamsan, həmişə elə bir cənab kimi yaşayacağam ki, onun çamadanını daşımaq lazımdır (bu, təbəqələşmədə cinahları göstərmək üçün deyildir, çünki burada əvvəlcə cənabın özü gəlir, sonra onun çağırdığı yükdaşıyan gəlir və gücünün çatmadığı çamadanını aparmasını xahiş edir). Bu yaxınlarda vağzaldan evə gedirdim, mənim çamadanımı götürən qulluqçu birdən öz təşəbbüsü ilə - deyəsən, bu barədə ona bircə kəlmə də deməmişdim - mənə təskinlik verməyə başladı. Ona aydın olmayan müəyyən şeyləri, əlbəttə ki, bilirəm, amma çamadanı daşımaq - bax, bu onun işidir, o bu işə vərdiş edib və s. Yalnız onda ağlıma gəldi ki,

onun nitqi mənim fikrimə cavabdır, o qədər inandırıcı olmasa da ağlımdan keçirdiyim, lakin açıq şəkildə demədiyim fikrimə cavabdır, beləliklə, bu məsələdə mən səni özümlə müqayisə etmirəm, amma özümdən asılı olmayaraq öz vəziyyətimi düşünməli oluram, nə qədər çox düşünürsənsə, o qədər də çox həyəcanlanırsan və həkimin yanına getməlisən. Bu, üç il bundan əvvəl olmuşdu, mən heç vaxt ciyərlərimdən şikayət etməmişəm, heç vaxt yorulmurdum, istədiyim qədər yeriyə bilirdim və öz qüvvəmin tükəndiyi sərhədə qədər heç vaxt gedib çatmamışdım (fikirlərim barədə nə deyə bilərsən, burada daim sərhədlər barədə məsələyə toxunuram) və birdən nə vaxtsa isti bir gündə, deyəsən, avqustda, gözəl bir havada, başımdan başqa hər şeyin qaydasında olduğu bir vaxtda - üzgüçülük məşğələsində ikən öskürdüm və al-qırmızı rəngdə bir şey tüpürdüm. Bu çox qəribə idi və hətta maraqlı idi, doğrudurmu? Bircə saniyəliyə ona baxdım və dərhal da bu ləkəni unutdum. Sonra isə bu tez-tez baş verirdi, tüpürmək istəyən kimi qırmızı ləkə görünürdü - sanki o, sifarişlə gəlirdi. Artıq nəinki maraqlı deyildi, hətta darıxdırıcı idi və yenidən onu unutdum.
— Dərhal həkimin yanına getsəydim də, ola bilərdi ki, hər şey həkimsiz baş verə biləcəyi kimi olardı, amma onda heç kəs bilmirdi ki, məndən qan gəlir və heç kəs həyəcanlanmadı. Amma indi kimsə həyəcanlanır, xahiş edirəm, get həkimə.
Sənin ərinin mənə onu-bunu yazmağa hazırlaşması qəribədir. Bəlkə də məni döyəcək, yaxud boğacaq? Doğrudan da, bunu başa düşmürəm.

Təbii ki, sənə tamamilə inanıram, lakin özlüyümdə heç cür təsəvvür edə bilmirəm ki, sanki mənimləsən, birdən deyirsən: "bax, bu dəqiqələrdə Vyanadayam, orada dəhşətli bir hay-küy vardır və s.", mən isə bütün bunları hiss etmirəm. Və hər ikimiz pəncərədən Vyana tərəfə baxırıq, təbii ki, bunun bizə zərrə qədər də təsiri olmur. Həm də ki bir məsələ: gələcəkdən danışarkən unutmursanmı ki, mən yəhudiyəm — *jasne, nerarletne113?* Yəhudilik qorxulu məsələdir, hətta sənin ayaqlarının altında olsa belə.

Çərşənbə

Gəlişim barədə sənin yazdıqlarını *(cekas, az to Tobe bude* nutne114), yaxşısı budur ki, boş buraxım, əvvəla, bunun vaxtı keçib, ikincisi, ağrı yaradır, çünki burada bir haqq qazandırmaq vardır ki, niyə şənbə axşamı və bazar gününün səhəri yazdığın məktublar bu cür kədərlə doludurlar. Və üçüncüsü, ola bilsin ki, biz artıq şənbə günü görüşdük (Bazar ertəsi gününün səhəri vurduğum üç teleqramın əvvəlkilərini, yəqin ki, hələ almamısan, ümid edirəm ki, üçüncüsü vaxtında gələcəkdir).

Atanın məktubu ilə əlaqədar olan kədərini başa düşürəm, çünki bur cür uzun, dəhşətli dərəcədə əzablı münasibətlərin hər cür yeni ifadəsi səndə yenidən üzgünlük yaradır. Bu məktubdan yeni heç bir şey gözləmirəm. Atanın məktubunu oxumadan belə, yeni heç bir şey olmayacağını duyuram. O, səmimi və tirandır, əmindir ki, ürəyini təmin etmək üçün tiran olmalıdır. Əslində imzanın əhəmiyyəti çox

azdır, o yalnız tiranı təmsil edir, axı yuxarıda *“lito" və "strasue smutne"115* yazılmışdır, bununla da hər şey qüvvəsini itirir.

Təbii ki, onun və sənin məktubların arasındakı uyğunsuzluq səni qorxudur, sənin məktublarından mənim xəbərim yoxdur, amma hər halda, ağlıma, digər tərəfdən də, onun qeyri-təbii hazırlığı və sənin "anlaşılmayan" inadkarlığının bir araya sığmadığı barədə fikir də gəlir.

Sən cavab barədə şübhə edirsən? Daha doğrusu, şübhə edirdin, çünki yazırsan ki, indi cavabının necə olacağını bilirəm. Bu qəribədir. Əgər sən cavab verərək məndən soruşsaydın ki, "mən nə cavab verdim?", onda yubatmadan nə cavab verdiyini deyərdim.

Əlbəttə, bütün şübhələrdən uzaq duraraq, atan üçün mənimlə ərin arasında heç bir fərq yoxdur, zəncilər kimi eyni cürük, amma sən bu barədə niyə dəqiq bir şey deyə bilmirsən və cavab məktubunda niyə bu məsələni qabardırsan? Onu aldatmaq lazımdırmı?

Fikrimcə, cavabda yalnız ona deyə biləcəklərini yaza bilərsən, onun başqa birisini, demək olar ki, görmədiyini, gərgin şəkildə, qəlb çırpıntıları ilə sənin həyatını izləməsini nəzərə alaraq bu tonda yazmalısan: "Bütün "təkliflər" və "bütün sərt şərtlər" mənasızdır, Milena öz həyatını yaşayır, o başqa cür yaşaya bilməz. Milenanın həyatı qəmli olsa da, hər halda, sanatoriyadakından daha "sağlam və sakitdir". Milena istəyir ki, nəhayət, bunu başa düşəsiniz, o artıq heç nə istəmir, xüsusən də, "yaşayış yeri" barədə isə söhbət belə ola bilməz. O xahiş edir ki, hiddətlə ondan uzaqlaşmayasınız, qəlbinizin

səsinə qulaq asaraq onunla insan kimi danışasınız, insanın insanla danışdığı qaydada danışasınız. Belə etsəniz, siz Milenanın həyatındakı kədərin çox hissəsini kənarlaşdıra bilərsiniz və sizin ona "yazığınız gəlməz".

Atanın cavabının ad günündə gələcəyini deməklə nəyi nəzərdə tutursan? Əslində, bu ad günündən qorxmağa başlayıram. Şənbə günü görüşəcəyik, ya yox? 10 avqustda axşam mənə teleqram vur.

Kaş ki, şənbə günü, yaxud bazar günü Qmyanudda ola biləydin!

Bu, həqiqətən, çox vacibdir!

Belə olarsa, üz-üzə görüşəcəyimizdən əvvəl bu, sonuncu məktub olardı. Və mənim düz bir ay işsiz qalan gözlərim (əlbəttə ki, yalnız məktubları oxumuş və pəncərədən çölə baxmışdır) səni görəcəkdir.

Məqalə almancada olduğundan çexcə daha yaxşıdır, əlbəttə ki, müəyyən qeyri- dəqiqliklər də vardır, daha doğrusu, o, bataqlığı xatırladır - ayaqlarını güclə dartaraq gedirsən. Dünən "Tribuna"dan olan bir oxucu mənə dedi ki, mənim nə vaxtsa dəlixanada ciddi araşdırmalar apardığım hiss olunur. "Yalnız öz xüsusi xəstəxanamda!", - mən cavab verdim, bundan sonra o mənim "xüsusi dəlixanam" barədə kompliment deməyə cəhd etdi. (Tərcümədə iki-üç xırda səhvlər vardır.)

Çərşənbə axşamı

İndi, gecə saat 10-dur, bürodayam, teleqram gəldi, bu elə tez oldu ki, teleqramın mənim dünənki teleqramımın cavabı olduğunu düşündüm,

amma orada yazılmışdı: səhər saat 11-də göndərilib. Teleqram saat 7-də, yəni 8 saata gəlib.

Bu teleqramın özünün bir təskinliyi də bizim coğrafi baxımdan birbirimizə çox yaxınlığımızdır: bir sutkadan az bir vaxtda mən səndən cavab ala bilirəm. Və heç də həmişə cavab "gəlmə!" olmayacaqdır.

Hər necə olsa, kiçicik bir imkan qalır: ola bilsin ki, sən hələ məktubumu almamısan, mən orada sənə izah edirəm ki, heç bir gecə də Vyananı tərk etməli olmursan və Qmyunda gəlirsən. Ola bilsin ki, sən özün də bunu müəyyən etmisən.

Necə olursa-olsun, əvvəlki kimi bu cür cüzi imkanla mən otuz gün ərzində (sənin məzuniyyətin müddətində) viza götürmək haqqında düşünürəm. Deyəsən, mən bunu eləməyəcəyəm, çünki sənin teleqramın çox qətidir, bu səfər barədə səndə dəf olunmaz şübhə vardır. Gördüyün kimi, Milena, heç bir dəhşətli şey yoxdur, elə mən özüm də səni "artıq" dörd həftədən sonra yenidən görmək üçün kəskin arzu etmirəm (yeri gəlmişkən, bu yalnız görüş imkanımın belə sadə olduğunu başa düşmədiyimizə görədir); əgər biz görüşsək buna görə istisna olmadan sənə minnətdar olardım ki, imkanın və özünün üstündən xətt çəkməyə tamamilə haqqın vardır (əgər gəlmirsənsə, deməli, elə belə də lazım olduğu barədə yazmıram), bu haqda heç yazmağa da dəyməz, sadəcə, mən qara mənzildən sənə tərəf yönələn dar dəhlizi elə sevinclə quraşdırıb düzəldirdim və bütün hər şeyi buna uyğunlaşdırırdım ki, ola bilsin (başısoyuqluğum dərhal "əlbəttə!

əlbəttə! əlbəttə!" deyir), o, sənə tərəf aparmaqdansa nüfuzedilməz "xahiş edirəm ki, gəlmə" qayasına dirənsin, istəristəməz bu cür cəld düzəldilmiş həmin yolla yavaş-yavaş evə qayıdaraq içi mən qarışıq hər şeyi dağıdardı. Ümumiyyətlə, bunlar kifayət qədər ağrılı məsələlərdir, amma çətin ki, onlara pis deyilə bilsin, madam ki, bu haqda yazmağa tez güc toplaya bilmişəmsə, deməli, elə də pis deyildir. Ən nəhayət, yeni yollar meydana çıxacaqdır, qoca köstəbək lağım qazmağa vərdişkardır.

Pis isə bax budur: dünən, deyəsən, qeyd etmişdim ki, görüşümüz çox vacib idi. Bu mənada onu qətiyyən əvəz etmək olmazdı, xüsusən buna görə teleqram çox məyus elədi. Amma nə bilmək olar, birdən sənin birisi gün yazacağın teleqramında təskinlik tapıldı?116

Bir xahişim var: bugünkü məktubunda iki sərt cümlə vardır. Birinciyə (o *Tu neprijedes, ponevodz cekos, oz to Tobe jednou bude nutne, yo, obus prijel)117* müəyyən dərəcədə, haqq qazandırmaq olar, amma tamamilə yox, ikincidə *(Mej se pekne, Fronku)118* isə bütün cümləni eşitməli olursan: *Teleqrofovot Ti ten folesnu teleqrom nemo tedu smyslu, neposlom ho.* 119 Bəs, niyə onu yolladın, bu *"Mej se pekne, Fronku"-yə* heç cür haqq qazandırmaq olmaz. Cümlə belə idi, Milena, onu hansısa bir üsulla geri qaytara bilərsənmi, birmənalı olaraq geri götür onları, istəyirsənsə birincinin bir qismini, ikincinin isə hamısını geri götür!

Bu gün səhər atanın məktubunu zərfə qoymağı unutmuşam, bağışla. Yeri gəlmişkən, əlavə olaraq, nəzərdən qaçırmışam ki, üç il ərzində bu, ilk məktubdur, mən indi başa düşürəm ki, o sənə necə təsir etmişdir.

Amma öz aramızdır, bununla yanaşı onu da deməliyəm ki, atana yazdığın məktubun əhəmiyyəti daha da artır, *orodo yəqin ki, nə isə prinsipiol yeni şeylər vor imiş.*

Bəli, məktubunda üçüncü cümlə də vardır ki, o əvvəlkilərdən də artıq mənə qarşı yönəlib; şirniyyatın mədəyə zərərli olması barədə fraza.

Cümə axşamı

Deməli, bu gün gözlənilmədən məktubsuz bir gün olacaqdır, mən çoxdan idi ki, bundan qorxurdum. Deməli, birinci gün sən o qədər ciddi yazmısan ki, ertəsi — gün də məktub yaza bilməmisən. Eybi yoxdur, mənə dəstək verən bir teleqramın, heç olmasa əlimdədir.

Cümə

Sənin qarşında fərqlənmək, iradə gücümü göstərmək, sənə məktub yazmağıma ara vermək, heç olmasa bir sənədi işləyib qurtarmaq istədim, amma otaq elə boşaldı ki, heç kəsə lazım olmadım, sanki kimsə dedi: "Onu mənə verin, məgər görmürsünüz, o öz qayğılarına qərq olmuşdur, sanki işi başından aşır". Beləliklə, mən yalnız yarım səhifə yaza bildim və yenidən sənə qayıtdım, bu məktubun üzərinə əyildim, o vaxt meşədə sənlə yanaşı uzandığım kimi.

Bu gün məktub yoxdur, amma qorxmuram, məni düzgün başa düş, Milena, heç vaxt səndən ötrü qorxmuram; əgər bir başqa vaxt elə təəssürat yaransa ki, - beləsi isə tez-tez yaranır - onda bu zəiflikdir, bu, ürəyin sıxıntısıdır, axı ürək nəyin naminə döyündüyünü möhkəm surətdə bilir; nəhənglərin də zəif dəqiqələri olur, hətta Herakl da, məncə, bir dəfə huşunu itirmişdi. Amma dişlərimi sıxaraq sənin gözlərinə baxanda ən aydın günləri görə bilirəm, ona görə də hər şeyə dözürəm: hicrana, həyəcana, qayğılara, sənin susmağına.

Nə qədər xoşbəxtəm, sən məni nə qədər xoşbəxt etmisən! Bir müştəri gəldi (bircə fikirləş ki, mənim də müştərim vardır!), fikrimi məktubdan yayındırdı, hirsləndim, amma onun girdə, çəhrayı, xeyirxah sifəti, başqa sözlə, Almaniya imperatorluğunun adamları kimi aydın üz cizgiləri olan sifəti var idi, o qədər xoşagələn adam idi ki, zarafatımı da işgüzar cavab kimi qiymətləndirdi; amma necə olursa-olsun, o mənə mane oldu, mən onu bağışlaya bilmədim, ona görə də stuldan qalxıb onunla başqa bölmələrə getməli oldum, bu sənə görə, ay mənim xeyirxahım, artıq bir hərəkət kimi göründüyündən, ayağa qalxdığım vaxt qulluqçu sənin məktubunu gətirdi, mən onu birbaşa pilləkəndə açdım və - ey göylər! - orada fotoşəkil var idi, daha doğrusu, heç vaxt, heç vaxt unudulmayacaq bir məktub idi, ildə bir dəfə, əbədiyyətdə bir dəfə gələn bir məktub idi, şəkil elə yaxşı idi ki, daha bundan yaxşısı ola bilməzdi; bu yazıq, balaca şəklə yalnız göz

yaşlarının arasından və döyünən ürəklə baxmağa icazə verilə bilər, başqa heç cür baxmaq olmaz.

Və yenə də hansısa yad adam mənim qarşımda oturur.

***

Başladığım mövzunun ardı olaraq deyirəm: hər şeyə dözərəm, çünki sən ürəyimdəsən; əgər mən bir dəfə yazmışamsa ki, sənin məktubların olmayan gün dəhşətlidir, bu doğru deyildir, onlar yalnız dəhşətli dərəcədə ağırdır - qayıq ağır idi, onun qıraqlarına qədər qalxan dalğalar qorxulu idi, amma hər halda sənin dalğalarında, sənin axınında üzürdü. Yalnız mən sənin qətiyyətli yardımın olmadan bir şeyə dözə bilmirəm, Milena. Həmin "qorxu"ya - mən burada çox zəifəm - bu dəhşətli qorxuya mən nəzər sala bilmirəm, o məni qamarlayıb aparır.

Yarmila haqqında danışdıqların məhz ürək zəifliyinin nəticəsidir, bir anlıq sənin ürəyin mənə olan sədaqətini dayandırır və sənin ağlına belə fikir gəlir. Məgər biz bu mənada iki adamıq? Və məgər "qorxum" özünü ləkələmək qorxusundan güclümü fərqlənir?

Yenidən məni yazmaqdan ayırdılar; artıq büroda yazmaq qeyrimümkün olub.

Əgər bugünkü təskinləşdirici məktubun olmasaydı, vəd etdiyim uzun məktub mənə yenidən qorxu aşılayacaqdı. Onun içərisində nələr olacaq?

Dərhal mənə cavab yaz, pul çatdımı? Əgər onlar itmişlərsə, yenə də göndərəcəyəm, əgər itməyibsə, yenidən göndərəcəyəm və beləliklə, o vaxta qədər ki, daha heç nəyim qalmayana qədər və o vaxta qədər ki, hər şey qaydaya düşənə qədər göndərəcəyəm. F.

Çiçəkləri isə almamışam, - deyəsən, sonuncu dəqiqələrdə sən onları mənə bəxş eləmişdin.

Cümə

Beləliklə, səni tanıdığım vaxtdan indiyə qədər heç vaxt olmayan bir dərəcədə vəziyyətin pisdir. Sənlə birlikdə və sənin xəstəliyin arasındakı məsafə məndə qəribə hislər oyadır, sanki otağındayam, amma sən məni yalnız tutqun halda seçirsən, mən isə özümü itirərək

pəncərədən yatağa qədər və tərsinə gəzişirəm, heç kəsə, heç nəyə inanmıram, heç bir həkimə, heç bir müalicəyə gümanım qalmayıb, ancaq tutqun göylərə baxıram, sanki o, uzun illər ərzində hey zarafat edirmiş, indi isə ilk dəfə mənim qarşımda öz çıxılmaz və çarəsizliyini göstərib, o da mənim kimi özünü itirib. Sən yataqda uzanırsan? Bəs sənə yeməyi kim gətirir?

Necə yeməkləri? Və bu baş ağrıları! Bacaran kimi mənə hər şey barədə yazarsan. Nə vaxtsa bir aktyor dostum var idi, Şərqi Avropalı bir yəhudi idi, hər üç aydan bir onun kəskin baş ağrıları olurdu və bir neçə gün davam edirdi; ümumiyyətlə, o tamamilə sağlam idi, amma belə günlərdə elə olurdu ki, küçədə divara söykənərək dururdu və ona heç cür kömək etmək mümkün olmurdu və yalnız yarım saat irəli- geri gedərək gözləyirdin. Xəstələr sağlamları, sağlamlar da xəstələri tərk edirlər.

Bəs ağrılar müntəzəm surətdəmi qayıdır? Bəs həkim nə deyir? Onlar nə vaxt başlayıb? İndi sən yəqin ki, həblər udursan? Ay-ay-ay! (Amma "körpəciyim" də deməyə haqqım yoxdur, bunu bacarmıram).

Heyf ki, sənin gəlişin yenidən təxirə düşdü, indi sən, ola bilsin ki, yalnız bir həftə sonra cümə axşamından o tərəfə gələ bilərsən. Mən isə səni görmək xoşbəxtliyinə nail ola bilməyəcəyəm, orada göllərin, meşənin, dağların əhatəsində necə sağalacaqsan? Amma mənim kimi acgöz adama nə qədər xoşbəxtlik lazımdır ki? Heyf ki, sən bu qədər uzun müddət Vyanada əzab çəkəcəksən.

Davos barədə biz hələ razılaşarıq. Mən oranı istəmirəm, çox uzaqdır və tamamilə faydasızdır. Əg r Praqadan gedə bilsəydim, - getmək isə yəqin ki, lazım gələcəkdir - onda ən yaxşısı harasa kəndə getməliyəm. Düzdür, orada məni gözləyirdilər, amma bütün bunları fikirləşmək lazımdır, hər halda noyabra qədər heç yana gedə bilməyəcəyəm.

Dünən gecə mən hansısa *ŞtaynlallQ* görüşdüm, ola bilsin ki, sən onu kafedə görmüsən, onu həmişə kral Alfonsla müqayisə edirlər. İndi bir vəkilin yanında sənədləri tərtib edir, o mənimlə qarşılaşdıqda şad oldu: mənimlə xidməti işlə əlaqədar söhbəti var idi, sabahısı günü mənə zəng etməli oldu. "Hə, söhbət nədən gedir?" - "Boşanma işidir, mənə də aidiyyəti vardır, daha doğrusu, o məndən bu işə müdaxilə etməyi xahiş etmişdir". "Bu necə olur?" Sözün əsl mənasında ürəyim qopdu. Amma sonra aydın oldu ki, söhbət bir şairin valideynlərinin boşanmasından gedir və tanışımın anası d-r Şteyndən xahiş edib ki, mən, şairə təsir edərək, anası ilə yaxşı davranması, onu təhqir etməməsi üçün nəsihət edim.

Yeri gəlmişkən, qəribə nikahdır. Təsəvvür elə ki, arvad artıq bir dəfə ərdə olub və birinci nikahdan uşağı da olub, bu uşaq da həmin şairdir. Ola bilsin ki, o, arvadın birinci ərinin familiyasını daşıyır. Nə isə onlar evlənmiş, uzun illərdən sonra, şairin atasının inadkarlığı nəticəsində yenidən boşanıb. Qadın indiki mənzil çatışmazlığı nəticəsində özünə yaşayış yeri tapa bilməyib və yalnız buna görə bir

yerdə yaşamalı olub və hələ də ikinci ərinin nikahındadır, amma bu hal onu əri ilə barışdıra, həm də onu boşanmadan da çəkindirə bilməyib. Hər halda biz gülməli dərəcədə bədbəxt adamlarıq, doğrudur? Mən onun ərini tanıyıram, o, xeyirxah adamdır, anlayışlı, işgüzar, həyatsevərdir.

Sənə lazım olanların siyahısı, əlbəttə ki, gəldi, nə qədər uzun olsa da, bir o qədər yaxşıdır. Sənin arzuladığın hər bir əşyanın içərisinə soxularaq onunla birgə Vyanaya gələcəyəm (direktor bu cür səfərlərin əleyhinə deyildir). Beləliklə, sənin yanına gəlmək imkanlarını bacardıqca çox elə. Yeri gəlmişkən, "Tribuna"da çap olunmuş məqaləni müvəqqəti olaraq mənə göndərərsən.

Öz aramızdır, əgər poçt xidmətinin yarıtmazlığını nəzərə almasaq, mən sənin məzuniyyətinə çox şad oldum. Sən, heç olmasa, qısaca olaraq, orada olanları təsvir edərsən? Sənin həyatın, sənin otağın, sənin cığırın, pəncərədən görünən mənzərə, yeməyin - qoy mən də sənlə birgə onları yaşayım. ***

Şənbə

Kədərli və pərişanam - sənin teleqramını itirmişəm; o, əlbəttə ki, özü itməyib, amma təkcə onu axtarmalı olacağam barədəki fikrin özü məni haldan çıxarır. Öz aramızdır, bunda sən özün günahkarsan; əgər o bu qədər gözəl olmasaydı, onu əlimdə bu qədər çox gəzdirməzdim.

Məni yalnız bir şey sakitləşdirir ki, o da həkim barədə yazdıqlarındır. Ola bilsin ki, qanaxmanın heç bir şeyə dəxli yoxdur;

mən elə belə də təsəvvür edirdim - mən təbabətdə köhnə qurdam. Bəs o, ciyərlərin zədələnməsi barədə nə deyir? Aclıq və çamadan daşımağı, yəqin ki, o sənin reseptinə yazmadı. Bunlarla yanaşı, mənimlə yola getməyinə razılaşdımı? Bəlkə heç mənim barəmdə söhbət getmədi? Əgər həkim səndə mənim heç olmasa kiçicik izlərimi də tapa bilməmişsə mən bununla nec razılaşa bilərəm? Yaxud da ciyərlərdəki zədələr mənim defektlərimdir?

Beləliklə, həqiqətən də, ciddi bir şey yoxdurmu? Və onun ağlına gələn yeganə şey səni bir aylığa kəndə göndərmək oldu? Bu o qədər də çox şey deyildir.

Amma kəndə getməyinin əleyhinə heç nə deyə bilmərəm, hər halda, sənin Vyanada yaşamağının əleyhinə olduğumdan daha çox dəlilim yoxdur. Get, xahiş edirəm, get! Sən bir dəfə bu cür səfərə çox ümidlər bəslədiyini yazmışdın; bu mənim onu arzulamamağıma baxmayaraq kifayət edir.

İndi isə bir daha Vyanaya səfərim barədə. Sən bu barədə ciddi surətdə yazanda hər şeydən pis hal yaranır - səbəblər barədə tərəddüd etməyə başlayıram və səbirsizliklə onun məni tərk edəcəyini gözləyirəm. Amma o tərk eləmir. Xarici əngəllər (daxili maneələr barədə danışmıram, onlar nə qədər güclü olsalar da, məni tutub saxlaya bilməzlər, ona görə yox ki, mən çox güclüyəm, əksinə, ona görə ki, zəif olduğuma görə onun məni saxlamasına yol vermirəm) barədə mən artıq yazmışam ki, bu cür səfərlər üçün mən yalana əl

atmalıyam, yalandan isə vicdanlı adamlar kimi yox, şagird kimi qorxuram. Bundan əlavə məndə belə bir hiss də vardır, - heç olmasa, belə bir intuisiya vardır ki - bir dəfə ya özümə, ya sənə görə Vyanaya gələcəyim qaçılmazdır, amma ikinci dəfə hətta avara şagird kimi də aldatmağı bacarmayacağam. Bu gələcək yalan imkanını mən ehtiyatda saxlayıram, onunla yaşayıram, bu sənin zərurət məqamında dərhal gəlmək barədəki vədinə bərabərdir. Ona görə də indi gəlmirəm; bu iki günün reallığı əvəzinə (xahiş edirəm, Milena, onların şəklini təsəvvür eləmə, bu mənim üçün mənəvi əzabdır, bu mənim

üçün ehtiyac yox, sonsuz istəkdir) onu zərurət üçün daim saxlamağı üstün tuturam.

Bəs çiçəklər? Onlar yəqin ki, artıq solmuşlar? Sənin həyatında elə hallar olmuşdurmu ki, çiçək hədiyyəsi yerinə düşməyib, bəs mənimkilər necə? Dəhşətli dərəcədə xoşagəlməz hissiyyatdır.

Sənin Maksla mübahisənə qoşulmuram. Kənarda duraraq haqqı etiraf edirəm və özümü sanki sığınacaqda hiss edirəm. Sən, şübhəsiz ki, bütün mühakimələrində haqlısan, lakin onun yerində olduğunu təsəvvür elə. Sənin vətənin vardır və sən bilərəkdən ona qarşı laqeydsən (ola bilsin ki, bu elə ən yaxşı haldır, çünki sən bilsən ki, onun nəyinə qarşı laqeydsən, artıq ona qarşı laqeyd olmaq onsuz da mümkün olmayacaqdır). Onun isə vətəni yoxdur, ona görə də heç nəyə laqeyd ola bilmir və daim onu qurmağa çalışır, bunun haqqında düşünür; o, qərənfil bərkidilmiş şlyapasını çıxarırmı, gün altında,

hovuzda uzanırmı, yaxud sənin tərcümə edəcəyin kitabları yazırmı (o bu işdə hamıdan az həyəcanlanır, sən isə, yazığım, sevimlim, günahkarlıq hissinə görə öz üzərinə çox yük götürmüsən, görürəm ki, sən işin üstünə əyilmisən, boynun açılaraq görünür, sənin arxanda dururam, sən isə qətiyyən heç nədən şübhələnmirsən, xahiş edirəm ki, dodaqlarımın oraya toxunuşunu hiss edəndə qorxma, bu, yalnız köməksiz məhəbbətimdir) - hə, Maks bütün vaxtlar bu haqda düşünməlidir, hətta sənə yazanda da!

Və ən qəribəsi budur ki, düzgün olaraq ondan müdafiə olunarkən, əslində ona tabe olursan. Y qin ki, o, mənim valideynlərimlə birgə həyatım barədə və Davos haqqında sənə yazıb. Hər şey belə deyildir. Əlbəttə ki, valideynlərlə bir yerdə yaşamaq pis şeydir, təkcə böyürböyürə yaşayaraq həyəcanlar keçirmək yox, həm də bu dairədə şəfqət və məhəbbətlə yüklənmək (doğrudan, atama yazdığın məktubu oxumamısan), sanki milçək kimi yapışqan yerdə çapalamaq, amma öz aramızdır, bunda da xüsusi, aşkar üstünlüklər vardır, birisi Marafon yürüşü ilə mübarizə aparır, başqası yemək stolu uğrunda, müharibə allahı və qələbə ilahəsi hər yerdə hökm sürür. Ona görə də, sadəcə, mexaniki olaraq köçməyin mənası yoxdur, xüsusən də evdə nahar etməyə davam edirsənsə - indi bu mənim üçün ən yaxşısıdır. Davos haqqında isə növbəti dəfə danışarıq. Davosdan mənə bir şey lazımdırsa, o da yola düşərkən səndən alacağım öpüşdür.

Şənbə

Doğrudanmı, mən bu cür əziz və dözümlüyəm? Bilmirəm, bilmirəm; təkcə onu bilirəm ki, bu cür teleqramdan bütün bədənim yüngülləşir, amma bu yalnız bir teleqramdır, uzanmış əl deyildir.

Amma o, kədərlə səslənir, yorğundur - xəstə yatağından gələn səsə oxşayır. Bütün bunlar kədərlidir. Məktub da gəlməyib, yenə də bütöv bir günü məktubsuz keçirəcəyəm; görünür, hər halda sənin vəziyyətin çox pisdir. Sənin bütün günü yuxarıdakı otaqda (o otaqda ki, indi öz otağımdan daha çox orada yaşayıram) uzanıb qalmadığını, teleqramı özünün verdiyini mənə bir kimsə deyəcəkmi?

Bu gecə sənə görə mən qətl törətmişəm - ağılsız bir yuxu, axmaq bir gecə keçirdim. Təfərrüatlarını güclə xatırlayıram.

***

Hər halda məktub gəldi. Artıq ondan hər şey aydındır. Düzdür, o birilərdən də çox şeylər aydın idi, amma onların açıq yazılmasını istəməyə cəhd etməmişdim. Öz aramızdır, məgər sən aldada bilərsənmi? Həmin açıq alın heç vaxt adamı aldatmaz.

Mən Maksı günahlandırmıram. Əlbəttə ki, onun öz məktubunda yazdıqlarının heç birisi doğru deyildir; heç nə və heç kəs, hətta ən yaxşı adam da aramızda durmamalıdır, məhz buna görə bu gecə qətl törətmişdim. Qohumlarım söhbət zamanı kiminsə nəyi isə icra etməyi bacarmadığından danışırlarmış, hansısa bir qohum sözünün sonunda ironiya ilə deyibmiş: "Amma Milena, əlbəttə ki, bacarar". Buna görə onu hansısa bir yolla öldürdüm, həyəcanlı halda evə qayıtdım, anam hey dalımca qaçırdı, burada da söhbət elə o cür gedirdi, nəhayət, xırıltılı səslə bağırdım: "Əgər kimsə Milena haqqında pis bir şey söyləsə, məsələn, atam da olsa, mən onu öldürəcəyəm, ya da özümü öldürəcəyəm". Mən bu vaxt yuxudan ayıldım, amma bu nə ayılma idi, nə də yuxu...

Yenidən mən əvvəlki məktublara qayıdıram, onlar qızın həmin məktubuna oxşayırdı. Amma axşamkı məktub nə isə, bir az başqa cür idi, səhər çağının ağrıları kimi idi. Və bir dəfə gecə sən yazmışdın ki, hər şey mümkündür, amma səni itirə biləcəyim qeyri-mümkündür, əslində isə yüngül bir toxunuş kifayət edər ki, səni itirim, bəlkə də bu artıq olmuşdur və ya olacaqdır.

Hər halda, sənin bu məktubun bir nəfəs dərmədir, çünki əvvəlkilərdə mən diri- diri dəfn olunmuşdum, çalışırdım ki, sakitcə uzanıb qalım, səs eləməyim, çünki düşünürdüm ki, mən bəlkə, doğrudan da, ölüyəm.

Düzünü desəm, bu məni o qədər də narahat eləmədi, bunu gözləyirdim, necə bacarırdımsa, buna tab gətirməyə hazırlaşırdım ki, o nə vaxt gələcək; budur, o gəldi, əlbəttə, buna hələ hazır deyiləm, heç o məni elə də narahat eləmədi. Qaldı ki, sənin öz vəziyyətin haqqında yazdığına, ümumiyyətlə, bu tamamilə dəhşətdir - mənim gücüm çatmayacaq dərəcədə dəhşət. Nə isə, bu barədə sən sanatoriyadan qayıdanda ətraflı danışarıq, ola bilsin ki, əslində, möcüzə baş verəcək, ən azından sənin gözlədiyin fiziki möcüzə; yeri gəlmişkən, sənə inamım o qədər tamdır ki, heç bir möcüzəni arzu etmirəm - mən səni, ey möcüzəm, qarğanmışım, amma təbiətin qarğaması üçün əlçatmaz olanım, səni sakitcə meşəyə, gölə və dietaya tapşırıram; kaş ki, başqa şeylər olmayaydı.

Dönə-dönə sənin məktublarındakı fikirlərə qayıdanda, - hələlik onu yalnız bir dəfə oxumuşam - sənin indiki və gələcəkdəki həyatını yazdığını düşünəndə, atan haqqında, mənim haqqımda fikirlərinə qayıdanda, sonda bir vaxt aydın şəkildə sənə dediyim nəticəyə gəlirəm: sənin əsl bədbəxtliyin mənəm, başqa heç kəs yox (yeri gəlmişkən, mən daxili bədbəxtliyi nəzərdə tuturam); çünki mən olmasaydım, ola bilsin ki, hələ üç ay əvvəl sən Vyanadan getmişdin,

əgər üç ay əvvəl də getməsəydin, onda indi mütləq gedəcəkdin. Vyanadan getmək istəmirsən, mənsiz də bunu istəməzdin, amma məhz buna görə quş uçuşu hündürlüyündən baxanda belə, sənin hislər dünyanda mənim təsirimi görmək olar, bu təsir sənin Vyanada qalmaq imkanını yüngülləşdirir.

Amma bu qədər dərinliklərə və mürəkkəb incəliklərə getmək lazım deyildir, bir aşkar fikirlə kifayətlənmək yetər: bir dəfə ərini tərk etmisən, indi onu tərk etməyin daha asandır, çünki şərait daha güclü təsir edir, amma sən onu yalnız tərk etmək naminə tərk etməlisən, başqa bir adama görə yox.

Bütün bu mühakimələr daha artıq səmimi danışmaqdan başqa bir şeyə yaramır.

Bu şeyləri mən fərəhlə alacağam. Amma fikrimcə, toxunma mallarını Vyanada almaq daha yaxşı olardı, çünki onların aparılması üçün, deyəsən, icazə lazımdır (bu yaxınlarda hətta kitabları da aparmaq üçün icazəm olmadığına görə, poçtda qəbul etmədilər, amma qonşu poçt şöbəsində onu sakitcə götürdülər), deyəsən, mağazada nə etmək lazım olduğunu bilirlər. Mən daim zərfə azca pul qoyacağam. Sən "bəsdir" deyəndə isə dərhal bunu dayandıracağam.

"Tribuna"nı oxumağı lütf etdiyinə görə çox sağ ol. Birigün, bazar günü mən bir qızın Vatslav meydanında "Tribuna" aldığını gördüm, yəqin ki, o bunu modalar haqqındakı yazılara görə alırdı. O qız elə də

yaxşı geyinməmişdi (hələlik yaxşı geyinməmişdi). Təəssüf ki, yadımda qalmadı və onun sonrakı irəliləyişini izləyə bilmirəm. Xeyr, sən haqlı deyilsən, modalar haqqındakı qeydlərini zəif qiymətləndirirsən. Sənə, həqiqətən, çox təşəkkür edirəm ki, artıq onları açıq şəkildə oxumaq mümkündür (gizlində mən artıq onları alçaqcasına bir neçə dəfə oxumuşam).

Şənbə

Onsuz da bu məktubun içində nə olduğunu bilirdim, hər şey sənin məktublarının arxasından bəlli idi, sənin gözlərində idi, - onların aydın dərinliklərində nə isə bir şey məgər dərk olunmaya bilərmi? - sənin alnının cizgilərində idi. Bütün bunları əvvəldən bilirdim; bütün günü pərdələri örtüb yarıyuxulu, mürgülü, qorxulu halda keçirərək axşam pəncərələri açanda qətiyyən təəccüblənməyən - axı o hər şeyi bilir - çöldə qaranlığın, möcüzəli, zil qaranlığın hökm sürdüyünü dərk edir, bir insan kimi bilirdim. Və sənin necə iztirab çəkdiyini, məngənədə qıvrıldığını, qurtulmağa cəhd etdiyini görürəm və barıt çəlləyinə məşəli atırıq! - Heç vaxt qurtara bilməyəcəksən, mən bunu görürəm. - Amma yenə də deyə bilmirəm ki: "Olduğun yerdə qal". Tərsini də deyə bilmirəm, sənin qarşında dururam, sənin əziz və bədbəxt gözlərinə baxıram (hər halda, sənin mənə göndərdiyin yazıq şəklə baxmaq özü bir əzabdır, bu əzabı özümə gündə yüz dəfə rəva görürəm, bununla yanaşı, bu elə bir şərəfdir ki, bir düjin pəhləvana qarşı onu qorumağa da hazıram), özümü doğrudan da güclü hesab edirəm, sən

haqlısan, məndə nəsə bir güc vardır: əgər onu qısaca və kobud şəkildə ifadə etsək, onda belə deyə bilərik ki, bu, harmonik (musiqili) olmamağımdır. Lakin bu o qədər də böyük deyildir ki, - bu dəqiqələrdə olduğu kimi - məktubu davam etdirməyi bacarım. Hansısa bir məhəbbət və əzab hisləri məni çulğalayır və stoldan aparır.

Bazar, axşam

Sonuncu məktubundakı xüsusilə aydın şəkildə yazdığın bir arqument məni haldan çıxarır, burada, şübhəsiz, məntiqi səhv vardır, özün də onu yoxlaya bilərsən. Sən mənə de ki, ərini həddən artıq sevirsən (bu isə təmizhəqiqətdir) və buna görə də onu tərk edə bilmirsən (mən də demək istəyirəm ki, əgər sən, hər halda, bunu qərara alsan, mənim üçün çox dəhşətli olardı) - sənə inanıram və sənինlə razılaşıram. De ki, sən özün onu tərk etməyə hazırsan, lakin onun daxilən sənə ehtiyacı vardır, sənsiz yaşaya bilmir, ona görə də sən onu tərk etməyi bacarmırsan - bu halda da sənə inanıram və sənինlə razılaşıram. Amma sən deyəndə ki, o, zahirən sənsiz həyatla bacara bilmir və sən məhz buna görə (başlıca səbəb kimi!) onu tərk edə bilmirsən, onda bu ya yuxarıda sadaladığım səbəblərin gizlədilməsi üçündür (məhz gizlədilməsi üçün, əsaslandırılması üçün yox, çünki bu səbəblərin əsaslanmağa ehtiyacları yoxdur), ya da bu, sənin sonuncu məktubunda yazdığın kimi, beynin acı zarafatlarından biridir ki, bizim bütün bədənimiz (təkcə bədənimiz yox!) buna görə qıc olaraq qıvrılır.

Bazar ertəsi

Hazırlaşırdım ki, əvvəlki ruhda sənə məktub yazım, dərhal dörd məktub gəldi, onlar birdəfəyə gəlmədi, əvvəlcə huşdan getməyin barədə mənə yazdığına görə peşman olduğunu yazdığın məktub, bir az sonra bayılmadan dərhal sonra yazdığın məktub və onunla birgə, həqiqətən, çox gözəl bir məktub, bir az da keçəndən sonra Emiliya barədə yazdığın məktub gəldi. Onların ardıcıllığını, hələlik müəyyənləşdirməkdə çətinlik çəkirəm, çünki artıq günləri qeyd etmirsən.

Ola bilsin ki, *"strach-touha"*121 sualına cavab verəcəyəm, çətin ki, bu dərhal alınsın, amma çalışacağam ki, bir neçə məktubda bu məsələyə toxunum, onda, yəqin ki, hər şey qaydasında olacaq. Həm də yaxşı olardı ki, atama yazdığım (ümumiyyətlə, pis, lazımsız) məktubla da tanış olasan. Ola bilsin ki, onu özümlə Qmyunda gətirim.

Əgər *"strash"* və *“touha"nı* məhdudlaşdırsaq, elə sən də sonuncu məktubunda belə etmişdin, onda ona cavab vermək çox asan olardı. *Onda mənim yalnız "strash"ım olardı.* Bax iş bundadır.

"Birinci gecə" yadıma düşdü. Biz onda Seltnerqassda yaşayırdıq, qarşımızda paltar mağazası var idi, qapısının önündə daim bir satıcı qız dururdu, yuxarıda isə mən olurdum, onda iyirmidən azca artıq yaşım vardı, irəli-geri gedərək birinci dövlət imtahanı üçün və mənə mənasız görünən şeyləri əzbərləyirdim. Bu, yayda olmuşdu, belə vaxtlar üçün tamamilə təbii, amma dözülməz bürkü var idi, mən

pəncərə önündə durub dilimin ucunda Roma hüququnun rəzil bəndlərini təkrarlayaraq, nəhayət işarələrlə görüş haqqında onunla razılaşdım. Axşam saat səkkizdə mən onun dalınca getməli idim, amma axşam aşağı düşəndə artıq orada bir başqası da var idi, bunun elə bir fərqi yox idi, çünki dünyadakı bütün insanlardan qorxurdum, o cümlədən də bundan; əgər o da olmasaydı, yenə qorxacaqdım. Ancaq qız onun əlindən tutaraq mənə işarə etdi ki, arxalarınca gedim. Biz adaya qədər getdik, orada pivə içdik, qonşu stolda idim, sonra onlar tələsmədən qızın evinə getdilər, mən də onların dalınca hardasa Flyayşmarkt ətrafındakı evə çatdıq, sonra bu adam qızla vidalaşdı, qız evə girdi, bir az gözlədim, o yenidən göründü, biz birlikdə mehmanxanaya getdik. Mehmanxanaya qədər hər şey cazibədar, həyəcanlandırıcı və ikrahdoğurucu idi, elə mehmanxanada da belə idi. Səhərə yaxın isə yenə əvvəlki kimi isti və gözəl idi, biz Karl meydanına gedənə qədər mən, ümumiyyətlə, xoşbəxt idim, amma bu xoşbəxtlik yalnız ondan ibarət idi ki, daim tüğyan edən ehtirasım, nəhayət, sakitləşmişdi, əsas isə odur ki, hər şey *daha da* ikrahdoğurucu, *daha da* çirkin deyildi. Sonradan bir daha bu qızla görüşdüm, fikrimcə, bu, iki gecə sonra olmuşdu, hər şey birinci dəfə olduğu kimi yaxşı idi, daha sonra bağ evinə getdim, orada bir qızla eşqbazlıq elədim və artıq Praqada o qıza nəzər yetirməyi bacarmadım, artıq onunla bir kəlmə də danışmadım, o nəzərimcə qəzəbli düşmənim idi, sonda isə mehriban, xoşagələn qız olaraq qaldı, daim məni küt

baxışlarla izləyirdi. Demək istəmirəm ki, düşmənçiliyimin yeganə səbəbi bu qızın mehmanxanada etdiyi kiçicik bir çirkin hərəkət (boş şeydir, onun haqqında danışmağa dəyməz), yaxud dediyi kiçicik bir xoşagəlməz söz (boş şeydir, onun haqqında danışmağa dəyməz) olub, lakin bunlar hafizəmə yazıldı, mən dərhal başa düşdüm ki, bunu heç vaxt unutmayacağam, eyni zamanda da zahirən bu iyrənc və çirkin şeylərin, əlbəttə, qaçılmaz olduğunu başa düşdüm, yaxud qərara gəldim, amma daxilən məhz bu iyrənc və çirkin şeylərin dünyada qaçılmaz bir şey olduğunu (bunun kiçik əlamətləri onun xırda hərəkətləri və qısa sözləri idi) mən ağılsız bir güclə mehmanxanaya tərəf dartılanda başa düşdüm, yaxud da başa düşdüyümü sandım, çünki bir başqa vaxt mən bütün gücümlə oradan qaçardım.

Onda belə idi və belə də qaldı. Ehtirasım illərdi ki, sakit idi, qəfil, yenidən tamamilə aydın olan iyrəncliyə, nədənsə yüngülcə ikrahdoğuran, ürək bulandıran çirkinliyə cəhddən titrədi; ən yaxşı halda belə, bir az kükürd, bir az da cəhənnəm iyi verən naməlum bir qoxu ifadə edən duyğuya ehtiyac hiss elədi. Bu vərdişdə mənasız, çirkin dünyada mənasızca dolaşan, mənasızca sürüklənən Əbədi yəhudidən nə isə bəzi şeylər var idi.

Amma bəzən elə vaxtlar olurdu ki, ehtiras sakit olmayanda - heç bir şey sakit olmayan vaxtda - hər halda, çətin ki, ehtiyac hiss etmirdim, onda həyat yalnız ümidlə yaxşı, sakit və həyəcanlı olurdu (sən bundan

yaxşı həyəcan tanıyırsanmı?) Belə vaxtlarda onlar bir qədər davamlı olurdusa, həmişə tənha olurdum.

Həyatımda *indi belə dövrdür və mən tənha deyiləm.* Çünki təkcə sənin bədən yaxınlığın yox, elə özün də məni sakitləşdirir və həyəcanlandırırsan. Buna görə də mən çirkinliyə can atmıram (ilk vaxtlar Meranda olarkən açıq niyyətimin əksinə olaraq, gecə-gündüz xidmətçi qızı ələ keçirmək haqqında planlar qururdum və hətta daha pisi, orada olduğum son vaxtlarda sevimli bir qız mənə ilişdi, onu başa düşmək üçün sözlərini əvvəlcə öz dilimə çevirməli olurdum), formal olaraq çirkinlik görmürəm, daxildən bunu istəyən bir şey yoxdur, amma həyatın daxildən çölə çıxaracağı çoxlu şeylər vardır, günaha enmədən əvvəl hiss olunan bir cənnət havası vardır. Bu havadan çox az hissə olduğu üçün *"touha"* yoxdur, tam şəkildə isə hava yoxdur, ona görə də "qorxu" vardır. Budur, artıq sən hər şeyi bilirsən. Mən buna görə Qmyund gecələrindən "dəhşətə gəldim", amma bu, adi "qorxu" idi. Ah, düzdür ki, bunun adisi də kifayətdir, Praqada da başqa cür yox, elə Qmyunddakı kimi "qorxu"m vardır.

İndi isə Emiliya barədə danış. Mən hələ ki, Praqada məktub ala bilərəm.

Bu gün zərfə heç bir şey qoymuram, yalnız sabah. Axı bu məktub çox *əhəmiyyətlidir*, mən istəyirəm ki, sən heç bir təhlükə olmadan onu alasan.

Huşdan getmə çoxlu əlamətlərdən biridir. Xahiş edirəm, mütləq Qmyunda gəl. Əgər bazar günü tezdən yağış yağarsa gələ bilməyəcəksən? Amma mən, nə olursa- olsun, bazar günü səhər Qmyund vağzalında olacağam. Yəqin ki, sənə pasport lazım olmayacaqdır? Artıq arayış məsələsini qaydaya salmısan? Mənim sənə gətirə biləcəyim bir şeyə ehtiyacın vardırmı?122

Stasya haqqında mənə xatırladanda onun yanına getməyimi nəzərdə tutursan? Amma o, çətin ki, Praqada olar (əgər o, Praqada olsa belə, ora getmək daha çətindir). Sən onu növbəti dəfə xatırladana qədər, yaxud Qmyunda gedənə qədər bu işi təxirə salacağam.

***

L. haqqındakı qeydlərimi (bu necə yaddaşdır! - bu, ironiya yox, qısqanclıqdır, heç qısqanclıq da yox, axmaq bir zarafatdır) sən tərsinə başa düşmüsən. Sadəcə, mənə elə göründü ki, onun danışdığı bütün insanlar ya "axmaq", ya "fırıldaqçı", ya da "pəncərədən tullanan"lardır, amma sən, sadəcə, Milenasan və ləyaqətlisən. Bu məni sevindirdi, ona görə də sənin şərəfini yox, onun şərəfini qorumaq üçün bu barədə sənə yazdım. Öz aramızdır, əgər dəqiqliyi gözləsək, digər istisnalar da var idi: həmin vaxtları onun gələcək qayınatası, nişanlısı, qaynı, nişanlısının əvvəlki əri - bütün bunlar əsl "mötəbər" adamlar idi.

Sənin bugünkü məktubun çox qəmlidir, ən əsası isə onlarda ağrı elə gizlənmişdir ki, mən özümü tamamilə kənar adam kimi görürəm. Əgər

otaqdan çıxmaq lazım gəlirsə, pilləkənlə aşağı-yuxarı qaçıram və yenidən orada — olaraq stolun üstündəki "Mən də şənbə günü

Qmyundda olacağam" yazılmış teleqramını görmək istəyirəm. Amma hələlik heç nə yoxdur.

Bazar

Teleqram. Bəli, ən yaxşısı odur ki, biz görüşək. Yoxsa biz işləri qaydasına salana qədər nə qədər vaxt keçəcəyi məlum deyildir. Münasibətlərimiz niyə belə oldu? Sən məgər bir addım irəliləyiş görürsənmi? Və sən də bütün bunlara görə, əlbəttə, əzab çəkirsən. Mən çoxdan bütün bunlara son qoya bilərdim, perspektivi çox aydın görürəm, amma qorxaqlıq güclənib. Məgər açıq şəkildə mənə aid olmayan, mənə ünvanlanmamış məktuba (mən başa düşdüm!) cavab verərkən yalan demirdimmi? Ümid edirəm ki, bu mənada "yalan" cavablardan biri səni Qmyunda gəlməyə vadar edəcəkdir.123

Qəlbimdə, bu məktubda göründüyü kimi, kədər yoxdur, sadəcə, indi başqa bir şey demək mümkün deyildir. Elə sakitlikdir ki, bu sakitlikdə bircə söz deməyə cəsarət etmirsən. Eybi yoxdur, bazar günü biz beşaltı saat bir yerdə olacağıq, danışmaq üçün az vaxt olsa da, susmaq üçün, əldən tutmaq üçün, gözlərə baxmaq üçün kifayətdir.

Bazar ertəsi

Cədvələ əsasən, işlər mən düşündüyümdən də yaxşı olacaqdır, ümidvaram ki, cədvəl düzdür, indi bizdə vəziyyət aşağıdakı kimi ola bilər.

1- ci imkan daha pisdir:

Şənbə günü saat 14.12-də, günortaüstü mən buradan çıxıram, gecə 11.10-da Vyanaya gəlirəm, yeddi saatımız olduğuna görə, bazar günü səhər saat 7-də qayıdıram. Bizim o şərtlə yeddi saatımız ola bilər ki, mən axşamqabağı bir az yata bilim, yoxsa sənin qarşında, olsa-olsa, yazıq və xəstə bir vəhşi olacaqdır.

2- ci imkan, cədvələ əsasən, çox əladır:

4.12-də buradan çıxıram və artıq (artıq! artıq!) 7.28-də Qmyundda oluram. Hətta mən bazar günü sürət qatarı ilə gəlsəm belə, oraya 10.46-da çatardım, bizim on beş saatımız olacaqdır ki, bir neçə saat yatmaq olar. Amma işlər daha yaxşı olacaq. Mən heç də mütləq bu qatarla getməli olmayacağam, çünki 4.38-də günortaüstü Praqa sərnişin qatarı gedir, elə onunla da gedə bilərəm. Onda bizim *iyirmi bir* saat birgə vaxtımız olur və biz (sən bir fikirləş!) nəzəri cəhətdən, bu imkandan hər həftə istifadə edə bilərik.

Burada təkcə bir sıxıntı vardır, amma fikrimcə, o qədər də ciddi deyildir, hər halda, sən arayış məsələsini qaydaya salmalısan. İş bundadır ki, Qmyund vağzalı

Çexiyanındır, şəhər isə Avstriyanın; pasportdakı hər hansı axmaq bir problem ona gətirib çıxarır ki, Vyana sakinləri pasportsuz çex vağzalından keçə bilməzlər? Axı onda Vyanaya gedən Qmyundlular da çex vizası olan pasport almalıdırlar, yox, mən buna heç cür inana bilmirəm, bu elə bil ki, lap bizim acığımıza bu cürdür. Və bundan

əlavə, bir pis şey də odur ki, mən tam bir saat Qmyund gömrükxanasında gözləməliyəm, sonra isə vağzaldan çıxmalıyam, bu isə bizim iyirmi bir saatımızı azaldır.

Onu deməliyəm ki, bu cür vacib şeylərdən sonra heç bir əlavə edə bilmərəm. Öz aramızdır, məni bu gün məktubsuz qoymadığın üçün sənə "sağ ol" düşür. Bəs sabah? Telefonla zəng etməyəcəyəm: əvvəla, həddən artıq həyəcanlı oluram, ikincisi, bu, sadəcə, mümkün deyil (artıq mən bilmişəm), üçüncüsü də, biz tezliklə görüşəcəyik. Təəssüf ki, Ottlın indiki vaxtda imkan tapıb pasport üçün polis idarəsinə getmək imkanı yoxdur, sabah gedəcəkdir. Bəli, sən markalarla bağlı əla hərəkət eləmisən (təcili poçtla bu markaları neyləmişəmsə, ona bu barədə danışanda az qalmışdı ki, ağlasın). Sən mənə markalara görə kifayət qədər səthi təşəkkür edirsən, amma mən buna elə şadam ki, təsəvvür elə, sənə hələ bir legioner markası da göndərirəm. İndi mən nağıl danışmaq istəmirəm. Başım vağzal kimidir, qatarlar gəlir və gedir, gömrük baxışı, baş sərhəd müfəttişi caynağında mənim vizama baxır, ancaq bu dəfə orda hər şey qaydasındadır, budur, o deyir: "Bəli, bəli, hər şey qaydasındadır, vağzaldan çıxış bax o tərəfdədir".

"Cənab baş müfəttiş, sizdən xahiş edirəm ki, lütfən qapını mənim üçün açın, mən özüm heç cür bacarmıram. Bəlkə də, Milena küçədə gözlədiyi üçün heydən düşüb zəifləmişəm?" "Ooo, buyurun, - o deyir, - sizi tanımamışdım". Və qapı taybatay açılır...

Çərşənbə axşamı

Sənin ad gününə çox da yaxşı hazırlaşmadım, adi vaxtlardan da pis yatdım, başım istidir, gözlərim iltihablaşmış, gicgahlarım dağılır, üstəlik də öskürürəm. Yəqin ki, kiçik bir sözü belə, öskürmədən deyə bilmərəm. Xoşbəxtlikdən, arzulamalı bir şey yoxdur, yalnız təşəkkür etmək lazımdır ki, bu dünyada varsan, mən isə lap əvvəldən (görürsənmi, dünyanı mən də pis tanıyıram, amma səndən fərqli olaraq bunu etiraf edirəm) bunu təsəvvür etmirdim. Və bu dünyada mövcud olduğuna görə sənə minnətdaram (bu minnətdarlıqdırmı?), minnətdarlıq əlaməti kimi, eynilə vağzaldakıtək səni öpürəm, orası da yadımdadır ki, o vaxt bu hərəkətim sənin xoşuna gəlməmişdi (mən bu gün, nədənsə, yaman dikbaşam).

Son vaxtlar mənim üçün belə pis olmamışdı, bəzən hətta lap yaxşı da olmuşdu, amma mənim əsas təntənəli günüm bir həftə əvvəl oldu. Mən zəif halda üzgüçülük məktəbinin hovuzu ətrafında bitibtükənməyən gəzinti həyata keçirirdim, axşam düşürdü, artıq camaat azalırdı, amma hələ də kifayət qədər idi. Birdən mənimlə tanış olmayan üzgüçülük üzrə ikinci təlimatçı yaxınlaşaraq soruşdu: *"Chtel byste si zayezdit?"*[124] İş onda idi ki, burada Sofiya adalarından gəlmiş bir cənab var idi və o, Yəhudi adasına üzüb getmək istəyirdi. Məncə, o, hansısa böyük tikinti podratçısı idi; Yəhudi adasında nəhəng tikinti işləri gedirdi. Əlbəttə, milçəkdən fil düzəltmək lazım deyildir, təlimatçı mən bədbəxti seçməmişdən əvvəl ətrafa boylandı, sanki

kimisə axtarırdı, sonra isə sanki məni seçərək yaxınlaşdı. Ona görə də mənə bəxş olunan qayıqda gəzmək hədiyyəsindən yararlanmağı qərara aldım, amma orada, nə olursa-olsun, podratçının mötəbərliyi səbəbindən təlimatçı, şübhəsiz ki, cavan, cəld, kifayət qədər güclü adam axtarırdı ki, vəzifəsini icra edəndən sonra qayığı özünün yolverilməz üzgüçülük məqsədi üçün istifadə etməsin, dərhal qayıtsın. Görünür ki, o məni bu keyfiyyətlərə malik olan adam kimi hesab etmişdi. Sağlam bədənli Trnka (üzgüçülük məktəbinin sahibi - onun haqqında sənə sonra danışaram) bizə yaxınlaşaraq soruşdu ki, cavan oğlan üzməyi bacarırmı. Məni açıq kitab kimi oxuyan təlimatçı onu sakitləşdirdi. Mən, ümumiyyətlə, bircə kəlmə də danışmadım. Sərnişin gəldi və biz üzməyə başladıq. Yaxşı tərbiyə görmüş gənc kimi mən susurdum. O, qeyd etdi ki, bu gecə çox gözəldir. Cavab verdim: ano125. Sonra o dedi ki, artıq soyuqdur. Yenə də cavab verdim: *ano.*

Nəhayət, o, çox sürətlə avar çəkdiyimi qeyd elədi, onda mən təşəkkür üçün heç nə deyə bilmədim. Görünür, mən qayığı tez bir vaxtda Yəhudi adasına çatdırdım, o, sahilə düşdü, təşəkkür etdi, təəssüf ki, çay pulu verməyi unutdu (hə də, sən balaca deyilsən ki!). Mən dərhal geri qayıtdım. Sağlam bədənli Trnka belə tez qayıtmağıma təəccübləndi.

Çoxdan idi ki, dünənki kimi fəxr etməmişdim, mən azca, tamamilə azca olsa da, həmişəkindən bir az çox sənə layiq olduğumu düşündüm.

Həmin vaxtdan bəri mən hər axşam üzgüçülük məktəbinin önündə bu cür sərnişinin gələ biləcəyini gözləyirəm, amma hələlik beləsi yoxdur.

Keçən axşam azca mürgülədiyim vaxt sənin ad gününü necə qarşılayacağım barədə ağlıma bir fikir gəldi: sənin üçün mühüm olan yerlərə baş çəkəcəyəm. Və dərhal, qeyri-ixtiyari olaraq, Qərb vağzalının önündə hazır oldum. Bina çox kiçik idi, içəridəki yerlər də, yəqin, çox az idi, çünki bu vaxt sürət qatarı gəldi, vaqonun biri binanın içərisinə yerləşmədi. Çox məmnun idim, çünki vağzalın qabağında üç nəfər yaxşı geyinmiş qız durmuşdu (birisi çəpgöz idi). Bu çox arıq qızlar yükdaşıyan idilər. Başa düşdüm ki, sənin bu məşğuliyyətində, ola bilsin ki, qeyri-adi heç nə yoxdur. Hər halda, çox şad oldum ki, sən artıq burada deyilsən, amma digər tərəfdən, sənin burada olmadığına çox kədərləndim. Təskinlik üçün sərnişinlərdən kiminsə itirdiyi kiçik bir portfel tapdım, ətrafdakıların təəccübü altında bu portfeldən xeyli pal-paltar çıxarmağa başladım.

"Tip"in xüsusilə ikinci hissəsi çox əladır: sərt, acıqlı, antisemit və qəşəng. Mən, ümumiyyətlə, indiyə qədər publisistikanın bu qədər incə şey olduğunu bilmirdim. Sən oxucularla elə sakit, elə maraqlı, elə etibarlı danışırsan ki, ətrafdakı hər şeyi unudaraq yalnız oxucu haqqında düşünürsən, sonunda isə birdən oxucudan soruşursan: "Mən yaxşımı yazdım? Bəli? Yaxşıdır? Onda bu məni çox fərəhləndirir, amma təşəkkür üçün məni öpməyinə icazə vermirəm". Sonra isə, doğrudan da, hər şey sona çatır, artıq sən yoxsan.

Sən bilirsənmi ki, mənə konfirmasiya üçün hədiyyə etmişlər (yəhudilərin də öz konfirmasiyaları vardır126)? Mən 83-cü ildə doğulmuşam, sən anadan olanda da mənim on üç yaşım var idi. Doğumun on üçüncü ili xüsusi bayramdır, mən güclə əzbərlədiyim mətni sinaqoqda oxumalı, sonra isə evdə də kiçik bir nitq söyləməliyəm (bunu da əzbərləmişdim). Mən onda çoxlu hədiyyələr almışdım. İndi isə mən bunu belə təsəvvür edirəm: mən elə də razı qalmamışdım, hansısa bir hədiyyəm çatışmırdı, onu göylərdən istədim, o isə bunu on avqusta qədər uzatdı.

Əlbəttə ki, incəliklərinə qədər bilsəm də, sonuncu on məktubu dönədönə oxuyuram. Sən də mənimkiləri oxu, orada qızlar pansionundakı çoxlu suallara cavab vardır.

Atan haqqında Qmyundda danışarıq.

Həmişə qızların qarşısında köməksiz olduğum kimi "Qreta"nın qarşısında da köməksizəm. O vaxt sənə qarşı, ümumiyyətlə, bir niyyətim var idimi? Xatırlamıram. Mən sənin əllərindən tutmaq istəyirəm, sənin gözlərinə baxmaq istəyirəm. Və vəssalam, Qreta da çıxıb gedir! "Layiq olmadığım"a gəlincə isə, *necharu, jak takovy slovek...* 127 özüm də tapmaca qarşısında qalmışam; bu tapmacanı bizim tapa biləcəyimizə, ümumiyyətlə, inanmıram. Yeri gəlmişkən, bu küfrdür. Necə olursa- olsun, bircə dəqiqəni də hədər yerə sərf etmək istəmirəm. İndi görürəm ki, sən məndən daha çox yalan deməyə məcbur olursan. Bu məni çox üzür. *Əgər ciddi bir əngəl çıxarsa,*

sakitcə Vyanada qal, heç mənə xəbər də vermə, sadəcə, Qmyunda gedib üç saat sənin yaxınlığında qalacağam. Artıq mənim vizam vardır. Sən mənə, ən azından, bu gün teleqram vura bilməyəcəksən, çünki indi sizdə qiyamdır.

Çərşənbə

Sənin bağışlanmaq haqqındakı xahişini başa düşmürəm. Madam ki, hər şey sovuşub, mənim səni bağışladığım özü-özlüyündə aydındır. Hər şeyin ötüb keçmədiyi vaxt hirsli idim, amma o vaxtlar sən qətiyyən buna görə narahat deyildin. Hər şey keçmişdə qalmışdırsa, səni necə bağışlamaya bilərəm! Belə şeyləri düşünmək üçün sən nə qədər çaşqın haldasan!

Atanla müqayisə edilməyi, ən azından, indilik xoşlamıram. Doğrudanmı, səni mən də itirirəm? (Öz aramızdır, məndə bunun üçün atanda olan qüvvə yoxdur). Amma sən buna inad edirsənsə, onda toxunma şeyləri geri qaytarsan yaxşı olar. Həmin toxunma şeylərinin alınması və göndərilməsi tam üç saat vaxt apardı, - o vaxt buna çox ehtiyacım var idi - doğrudan da bu məni xeyli dirçəltdi, buna görə sənə çox minnətdaram. Bu barədə danışmaq üçün indi çox yorğunam, ikinci gecədir ki, yatmıram. Mən bir az güc toplaya bilərəmmi ki, Qmyundda azca tərifləsinlər?

Doğrudanmı, Amsterdamdakı səyahətçi qadını qısqandın? Əlbəttə ki, o, etdiklərini əla eləyir (əgər o bunu inanaraq eləyirsə!), amma sən məntiqi səhv buraxırsan. Belə həyat sürən adamın həyatı bir

məcburiyyətdir, amma bu cür yaşaya bilməyənlər üçün isə azadlıqdır. Bu hər yerdə belədir. Belə "qısqanclığın" sonu ölüm arzulamaqdır.

Maks barədə istədiyin kimi düşünə bilərsən. Amma sənin ona verdiyin təlimatları bildiyim üçün, işlərin sonu yaxınlaşdıqda məni onun yanına aparacağını istəyəcəyəm, onunla bir neçə günlük gəzinti barədə müzakirə aparacağam, "çünki özümü çox möhkəm hiss edirəm", sonra isə evə doğru sürünərək sonuncu dəfə öz ölüm yatağıma uzanacağam.

İş o yerə gedib çatmadığı üçün mən belə danışıram. Amma temperaturum 37,5°-yə (yağışda 38°) çatanda isə teleqramları sənə çatdırmaq üçün poçtalyonlar sənin uzun pilləkənlərində bir-birini itələyəcəklər. Onlar o vaxt üsyan edəcəklər, amma indi, ad günündə bunun üçün əlverişli vaxt deyildir!

Mənim həmin adama markaları verəcəyim barədəki hədələrimə poçt həddən artıq diqqət yetirib. Mən təcili məktubu alanda marka artıq qoparılmışdı. Yeri gəlmişkən, həmin adamı düzgün başa düş, axı o, hər cür markaları toplamır. Hər növ üçün onun böyük vərəqi olmalıdır, bir növ marka üçün ayrılmış vərəq dolanda isə o, yeni vərəq ayırır və s. Bütün gecəni onların qarşısında əyləşir, kök, şən və xoşbəxtdir. Hər bir yeni növ üçün sevinməyə yeni səbəbi olur, məsələn, bu gün əlli hellerlik markaya görə indi poçt haqları da artır (yazıq Milena!) və əlli hellerliklər nadir markaya çevrilir!

Kroyşen haqqında danışdıqlarına gəlincə isə, mənim xoşuma gəlir (Aflyor yox, bu əsl ağciyər sanatoriyasıdır, orada iynə vururlar - fu! - bizim bir əməkdaşımız üçün bura sonradan onun vərəmdən ölməsi üçün birinci stansiya olmuşdu), belə ölkə ürəyimcədir, oranın tarixi keçmişi vardır. Amma ora payızın sonunda açıq olurmu, xariciləri qəbul edirmi, ora xaricilər üçün baha deyilmi və məndən başqa birisi başa düşəcəkmi ki, kökəlmək üçün ac ölkəyə niyə gedirəm? Amma mən hər şeyi oraya yazıb öyrənəcəyəm.

Dünən yenidən Ştaynla danışdım. O elə adamlardandır ki, həmişə hamı ilə ədalətsiz davranır. Bilmirəm ki, ona niyə gülürlər. O, hamını və hər şeyi tanıyır, bütün xüsusiyyətlərini ətraflı şəkildə bilir, bununla bərabər, ciddidir, mühakimələri çox ehtiyatlıdır, ağıllı şəkildə ifadə olunmuşdur, hörmətcildir. Amma onların bir az artıq dərəcədə açıq olması, bakirə şöhrətpərəstliyi onun yalnız qiymətini artırır, xüsusilə də gizli şəkildə, hərisliklə, cinayətkarcasına şöhrətpərəst adamları görəndə o gözündə qalxır. Mən birdən Haasdan başladım, Yarmilanın üzərindən keçdim, bir az gözləyərək sənin ərinin yanında oldum və nəhayət... Yeri gəlmişkən, sənin haqqında hekayətlərə qulaq asmağı sevməyim doğru deyildir, mən bütün günü sənin adını eşitmək istəyirəm. Əgər mən soruşsaydım, o sənin haqqında çoxlu şeylər danışardı, amma soruşmadım və o, səmimi bir kədərlə, misralarla sənin, demək olar ki, yaşamadığını, kokainlə məhv olduğunu dedi (sənin sağ olduğunu bildiyim an mən ona necə minnətdar idim!). Öz

aramızdır, o, ehtiyatlı və ciddi adamdır, özünün adi maneraları vardır. O əlavə etdi ki, bunu gözləri ilə görməyib, yalnız eşidib. Sənin ərin haqqında o, qüdrətli bir sehrbaz kimi danışdı, sənin Praqa dövrünə aid yeni adları da sadaladı: deyəsən, Kredlova idi. O hələ çox danışacaqdı, amma mən yüngülcə, kefsiz olduğum üçün, vidalaşdım, birinci növbədə isə ona görə ki, mən susaraq onunla yanaşı addımlayır, eşitmək istəmədiyim şeylərə qulaq asırdım, məni bunlar qətiyyən maraqlandırmadı.

Təkrar edirəm, əgər hər hansı əngəl yaranarsa ki, sənin üçün müəyyən bir *xırda* xoşagəlməzlik yarada *bilər,* Vyanada qal, əgər başqa heç cür olmasa, hətta mənə xəbərdarlıq etmədən bu cür edərsən. Amma gəlsən, dərhal sərhəd maneələrini dəf edərsən. Əgər mənə məlum olmayan hər hansı yöndəmsiz bir iş baş versə və Vyanaya gələ bilməsəm (onda xanım Kolerə teleqram vuraram), onda sən Qmyunddakı vağzalın yanında olan mehmanxanada mənim

teleqramımı tapa

bilərsən.

Altı kitabın hamısını aldınmı?

"Kavarna"128 nı oxuyarkən mən Ştaynı dinlədiyim vaxtda olduğu kimi hislər keçirirdim, amma sən ondan yaxşı danışırsan;

ümumiyyətlə, kim belə yaxşı danışa bilər? Axı "Tribuna"nı alan hər kəslə sən niyə danışırsan? Oxuduğum müddətdə elə bilirdim ki, qəhvəxananın qarşısında gecə-gündüz, illər boyu gəzişirəm;

müştərilərdən kimsə içəri girəndə, yaxud çölə çıxanda mən açıq qapıdan içəri boylanıram ki, sənin əvvəlki kimi orada olduğuna əmin olum və yenidən gəzməyə və gözləməyə başlayıram. Bu, kədərli və yorucu deyildi. Sənin oturduğun qəhvəxananın önündə gözləməkdə hansı kədər, yaxud yorğunluq ola bilər!

Cümə

Minhauzenin hər şeyi yaxşı bacarması məni sevindirir, o daha mürəkkəb işləri yerinə yetirməli olurdu. Qızılgüllərə diqqətlə qulluq edəcəklər, eynilə əvvəlkilər kimi? Bunlar hansı çiçəklərdir?

Kimdəndir?

Qmyunda gəlincə isə, sən soruşmamışdan əvvəl mən cavab yazmışdım. Mümkün olduğu qədər özünü az üz, onda məni də lap az üzərsən. Mən sənin bu cür aldatmalarını o qədər də nəzərdə tutmamışdım. Amma sənin ərin necə inana bilər ki, səni bir dəfə görəndən sonra mən sənə məktub yazmıram və görmək istəmirəm?

Sən yazırsan ki, bəzən məni sınamaq istəyirsən. Bu bir zarafatdır, eləmi? Xahiş edirəm ki, belə eləmə. Artıq etiraf üçün çoxlu-çoxlu qüvvə sərf olunur, bəs etiraf etməməyə nə qədər qüvvə lazımdır? Anonsların ürəyincə olduğu məni çox sevindirir.129 Sən isə ye, ye! Ola bilsin ki, mən indi pul yığmağa başlasam və sən iyirmi il gözləsən, o vaxt kürklər ucuzlaşsa (çünki Avropa adamsızlaşacaq və xəzdərili heyvanlar küçələrdə qaçışacaq), ola bilsin ki, o vaxt kürk almağa pul çatacaqdır.

Sən təsadüfən bilmirsənmi ki, nəhayət, nə vaxt yatacağam: şənbə gününün gecəsi, yaxud bazar günü?

Sənə məlum olsun ki, bu möhürlü markalar onun ən əziz arzusu idi (onun çoxlu "əziz" arzuları vardır). "To *je krasa, to je krasa*!"130 - o inandırır. O burada nələr görür ki!

İndi isə yeməyə gedirəm, sonra isə xidməti işlə əlaqədar olaraq valyuta idarəsinə.

Cümə

Heç bilmirəm ki, niyə yazıram, əsəbdəndir, yəqin elə səhər də əsəbdən sənin təcili məktubuna cavab olaraq göndərdiyim teleqramdakı sözlər namünasib idi. Bu gün nahardan sonra Şenkerdən hər şeyi öyrənəcəyəm və təcili cavab yazacağam.

****

Məktubda bu şeylər barədə dönə-dönə müzakirə apararaq o nəticəyə gəlirsən ki, sən özün ərinə bağlısan (əsəblərim necə də laxlayıb, mənim gəmim, deyəsən, bu günlərdə idarəni itirib), özü də bu bağ, həqiqətən, pozulmaz sakramental nikahdır, mən də elə bu cür bağla hansınızlasa bağlanmışam, amma bu dəhşətli cütlüyün nəzərləri tez-tez mənim üzərimə düşür, bunu hiss edirəm. Ən təəccüblüsü odur ki, bu cütlüklərin hər birisi pozulmaz olsa da, heç bir şey haqqında danışmaq lazım deyildir, hər şeyin əksinə olaraq bir nikahın pozulmazlığı digərinin də pozulmazlığını labüd edir, hər halda, onu möhkəmləndirir və tərsinə. Beləliklə, sənin tərəfindən oxunmuş hökm qüvvədə qalır;

nebude toho nikdu131, və bundan sonra gələcək haqqında danışmayaq, yalnız indiki zaman haqqında danışaq.

Bu həqiqət şərtsizdir, tərəddüdsüzdür, dünya ona əsaslanır, amma etiraf edirəm ki, hislərimi (yalnız hislərimi - həqiqət isə, şərtsiz olaraq, olduğu kimi qalır. Bilirsənmi, növbəti lazım olan şeyi yazmağı qərara alanda iti ucları mənə tərəf tuşlanmış qılınclar yavaş-yavaş mənim bədənimə doğru yaxınlaşır, bu ən təkmilləşmiş əzabdır; onun məni yalnız cızması kifayət eləyir ki (deşmək haqqında heç danışmıram, cızması kifayət eləyir), məni bürüyən qorxunun təsirindən hər şeyi - səni, özümü, hər şeyi, ilk qışqırtı ilə satam, əldən verəm). Bax bu cür deyimlə mən etiraf edirəm ki, belə şeylər haqqında yazışma hislərimi (bir daha öz həyatım naminə təkrar edirəm: yalnız hislərimi!) elə vəhşiliklə nümayiş edir ki, guya mən hardasa Mərkəzi Afrikada yaşayaraq və bütün ömrümü orada keçirərək, Avropada, Avropanın mərkəzində yaşayan sənə siyasi təhsil barədə dönməz rəylərimi məktubla məlumat verirəm. Amma bu yalnız metaforadır, axmaq, yöndəmsiz, yalan, sentimental, yazıq, qərəzli, kor metaforadır, başqa bir şey deyildir - indi isə deşin, qılınclar!

Ərinin məktublarından mənə sitatlar gətirməkdə düz eləmisən, düzdür, hər şeyi axıradək başa düşmürəm (amma məktubu mənə göndərmək lazım deyildir!), təkcə bir şeyi aydın görürəm: burada o, "subay" kişi kimi yazır, sanki "evlənməyə" hazırlaşır. Amma bu təsadüfi "xəyanət" nə deməkdir - o heç xəyanət də hesab olunmur, axı onsuz da siz

ümumi yolunuzda birgə qalırsınız, yalnız bu yolun sərhədləri daxilində o azca sola dönüb ki, buna "xəyanət" adı verilir, sənin daim artan dərin kədərli vaxtlarında da, xoşbəxt anlarında da davam edən bu "xəyanət" - mənim əbədi itaətkarlıq və sədaqətimlə nisbətdə xəyanətdir!

Sənin ərinə qarşı münasibətini gözəl başa düşmüşəm. Sizin ayrılmaz ittifaqınızın bütün sirri (qaçılmaz, üzüntülü sirri) onun çəkmələri haqqında sənin qayğılarında dönə-dönə əks olunur. Bu mənə çox əzab verir, amma səbəbini bilmirəm. Ümumiyyətlə, hər şey çox sadədir: sən onu tərk elə, o ya başqa qadınla yaşamağa başlayacaq, ya da pansiona yerləşəcək, çəkmələri isə indikindən daha yaxşı təmizlənəcəkdir. Bu isə həm axmaqlıqdır, həm də axmaqlıq deyildir - bilmirəm ki, bunlara görə niyə əzab çəkirəm. Bəlkə, sən bilirsən?
Əgər sən əvvəlcədən pul barədə yazsaydın, ad gününü korlamalı olmayacaqdın. Mən pulları özümlə götürəcəyəm. Amma ola bilsin ki, biz tamamilə görüşmədik, bu qarmaqarışıqlıq içərisində belə şey mümkündür.

Və daha bir şey. Sən gecə-gündüzlərini bir yerdə keçirən və bunun onlara nəsib olmadığı insanlar haqqında yazırsan. Sonuncu vəziyyət mənə daha sərfəli görünür. Onlar nə isə axmaq bir iş tutublar, yəqin ki, yaxud da, ola bilsin ki, sənin ədalətli olaraq qeyd etdiyin kimi, bu səhnənin çirkinliyi bir çox cəhətdən onların yad olmalarına əsaslanır, bu adi çirkinlik, üstəlik də heç vaxt yaşamadıqları mənzilin çirkinliyidir - onlar qəfildən təkanla qapıları taybatay açıblar. Bəli, bu

pisdir, lakin geri dönməyən bir hal baş verməyib, hər şeyin formal olaraq göylərdə hazırlandığı kimi bir iş olmayıb, sənin dediyin kimi, yerdə hər şey yalnız "top oyunudur", sanki Həvva almanı dərsə də (bəzən mənə elə gəlir ki, bu ilk günahı mən hamıdan yaxşı başa düşürəm) bunu yalnız Adəmə göstərmək üçün edib, çünki alma onun xoşuna gəlmişdi. Qaçılmaz və qəti hökm isə bir parça dişləmək idi, onunla oynamağa isə nə icazə verilmişdi, nə də qadağa qoyulmuşdu.

Çərşənbə axşamı

Bu məktuba cavabı, ola bilsin ki, 10-14 gün sonra alacağam, əvvəlkilərin əksinə olaraq bu, adətin tərk olunmasıdır, eləmi?132 Və mənə məhz indi sənə izah oluna bilməyən, yazıla bilməyən bəzi şeylər demək istəyirəm, ona görə yox ki,

Qmyundda elədiyim nəsə bir axmaqlığı düzəldim, ona görə yox ki, suda qərq olan nəyisə xilas edim, ona görə ki, bütün insanlarda rast gəlindiyi kimi, məndən dəhşətə gələrək uzaqlaşdığında halımın necə olacağını sənə yaxşıca izah eləyim. Bəzən mənə elə gəlir ki, bədənimdən qurğuşun kündələr asılıb, onlar elə ağırdırlar ki, mən elə indicə dəniz girdabına düşəcəyəm, kimsə məni tutub saxlamaq, yaxud "xilas eləmək" istəsə də öz cəhdinin qarşısını alacaqdır, ona görə yox ki, mənə qarşı çox qəzəblidir. Amma bunlar, əlbəttə ki, sənə yox, mənim yorğun, boşalmış (amma bədbəxt və həyəcanlı yox, hətta bu cür vəziyyətə az qala minnətdar olduğum) başımın güclə seçə bildiyi kölgənə dedikləridir.

Beləliklə, mən dünən Yarmilanın yanında idim. Sənin üçün bunun əhəmiyyəti çox vacib olduğundan mən bunu sonraya saxlamadan, əslində də Yarmila ilə nə vaxtsa danışmalı olacağam fikri məni həyəcanlandırırdı və bunu dərhal etməli olduğumu qət etdim. Üzümü qırxmadığıma baxmayaraq (artıq onu qaz dərisinə oxşatmazsan), bu mənim niyyətimin qarşısını çətin ki, kəsə bilərdi. Təxminən yeddinin yarısında mən yuxarıda idim, zəng işləmirdi, taqqıltıya heç kəs səs vermədi, poçt yeşiyindən *"Narodni Listi"*133 görünürdü, açıq-aydın evdə heç kəs yox idi. Mən orada gəzişərkən həyətdən iki qadın içəri girdi, onlardan biri Yarmila idi, digəri, yəqin ki, anası idi. Yarmilanı dərhal tanıdım, amma o nə fotoşəklinə, nə də sənə oxşamırdı. Biz dərhal küçəyə çıxdıq və on dəqiqə keçmiş kadet korpusunun arxasında irəli-geri gəzişdik. Mənim üçün ən təəccüblüsü o idi ki, sənin əvvəlcə dediyinin əksinə olaraq, bu on dəqiqədə çox danışqan görünürdü. O, demək olar ki, fasiləsiz surətdə danışırdı, bu onun mənə yolladığı uzun-uzadı məktubunu yada saldı. Danışanın kimliyindən asılı olmayaraq uzunçuluqda bir müstəqillik vardır, bu dəfə isə bu cəhət daha aydın hiss olunurdu, çünki o vaxt məktubda olduğu kimi müəyyən, konkret şey haqqında söhbət getmirdi. Onun bu canlanmasını, öz sözlərinə görə, həmin hadisədən fövqəladə dərəcədə həyəcanlanması ilə izah eləmək olar.134 Verfelə görə, o, Haasa teleqram vurub (hələlik cavab yoxdur), sənə təcili məktub və teleqram göndərib, həmin məktubu isə sənin xahişinə əsasən yandırıb, sonra da

səni necə sakitləşdirə biləcəyini düşünərək nahardan sonra yanıma gəlmək və artıq bu haqda məlumatı olan birisi ilə danışmağı düşünüb. (Görünür, o mənim harada yaşadığımı bildiyini düşünürmüş. İş isə belədir: bir dəfə payız vaxtı biz Ottla və balaca Rujenka ilə birlikdə (o vaxt Paledə Şönborn mənim sonumun yaxınlaşdığını bildirmişdi) qayıqla Rudolfinumda gəzməyə çıxmışdıq və mənim o vaxt qətiyyən əhəmiyyət vermədiyim qadınla birlikdə olan Haasla qarşılaşmışdıq, bu, Yarmila idi. Haas ona mənim adımı dedi və Yarmila da bir neçə il əvvəl üzgüçülük məktəbində mənim bacımla ara-sıra danışdıqlarını bildirdi və həmin vaxt üzgüçülük hovuzunun sırf xristian məktəbi olduğu üçün Yarmilanı məhz yəhudi görünüşlü bir adam kimi yadda saxladığını söylədi. Ottla ona bizim mənzili göstəribmiş. Ümumiyyətlə, bu cür uzun bir əhvalat olub.) Ola bilsin ki, o buna görə mənim gəlişimə çox şad olmuş və canlanmışdı, yeri gəlmişkən, işlərin bu cür mürəkkəbləşməsinə görə o çox kədərlənərək bildirdi ki, bu vəziyyət artıq şəksiz-şübhəsiz ötmüşdür və şəksiz- şübhəsiz heç bir təsiri də olmayacaqdır. Mənim izzəti-nəfsim isə qane olmamış vəziyyətdə qaldı, - etiraf eləyirəm ki, mən bunun əhəmiyyətini tamamilə başa düşməsəm də, mənə tapşırılan işin havası ilə yaşayırdım - bu məktubları özüm yandıraraq külünü öz əlimlə Belvederin üstünə səpmək niyyətində idim.

O özü haqqında az danışdı: bütün vaxtı evdə oturur (onun üzü bunu təsdiq edirdi), heç kəslə danışmır, yalnız kitablara baxmaq üçün kitab

mağazasına gedir, ya da məktub yollamaq üçün poçta gedir. Bundan əlavə, o yalnız sənin haqqında danışdı (yaxud da mən sənin haqqında danışdım, bir gün ötəndən sonra bunları ayırd etmək çətindir); mən onda yada saldım ki, Berlindən yazdığın məktubların birində sən Yarmilanı qonaq qəbul etmək imkanı tapdığın üçün nə qədər sevinirsən, o isə, ümumiyyətlə, sevinməyin mümkün ola biləcəyinə inanmadığını, özünün isə sevinmək səbəbi ola biləcəyinə qətiyyən inana bilmədiyini dedi. Mən ona dedim ki, keçmiş günləri, sadəcə, həyatdan silmək mümkün deyildir, həyatda yenidən onları yaşamaq imkanları həmişə mövcuddur. O dedi ki, bəli, əgər biz hamımız bir yerdə olsaydıq, onda hər şey ola bilərdi, son dövrlərdə səni görməyi çox arzuladığını dedi və sənin tamamilə təbii və zəruri olaraq - o bir neçə dəfə öz önündəki yeri göstərdi, onun əlləri daim hərəkətdə idi - burada, burada, burada olmalı olduğunu qeyd etdi. Onun evinin önündə xudahafizləşdik.

Amma bundan əvvəl o sənin mənə göstərmək istədiyin çox gözəl fotoşəklinə görə çox hirsləndirdi. Çünki sonradan aydın oldu ki, Berlinə getməzdən əvvəl bu fotoşəkli əlində tutubmuş, sonra da məktub və kağızları yandırmışdır, bu gün nahardan sonra yenidən həmin şəkli axtarmışdır, lakin tapa bilməyib.

Sonra da mən sənə teleqram vurdum, bir az şişirdərək bildirdim ki, tapşırıq icra olunmuşdur. Bəs mən daha artıq bir şey eləyə bilərdimmi? Və sən məndən razısanmı?

Məktubun sənə yalnız iki həftə sonra çatacağını bilərək səndən bunu xahiş etmək mənasızdır,135 amma bu mənasız xahişimə dair xırda bir işarət: xahiş edirəm ki, indiki etibarsız dünyada (insanın ayağını yerdən üzdükləri və elə üzdükləri ki, heç bir şey edə bilmədiyi dünyada) məndən qorxaraq uzaqlaşmağı özünə rəva görmə, hətta əgər bir dəfə (yaxud min dəfə, yaxud lap indicə, ola bilər ki, "indiki an" daim davam etsin) səni məyus etsəm də, ümumiyyətlə, bu nə xahişdir, nə də sənə ünvanlanmamışdır, heç özüm də bilmirəm ki, o kimə ünvanlanıb. Bu, sadəcə, qısılmış, boğulmuş sinəmin boğulmuş nəfəsidir.

Çərşənbə

Sənin bazar ertəsi yazdığın məktubun... Həmin bazar ertəsi səhərindən, daha doğrusu, naharından bəri davam edən xoş duyğular (nə deyirsən de, amma istənilən səfər öz-özlüyündə bir istirahətdir, sanki sənin yaxalığından tutub yaxşıca silkələyirlər) artıq uçub getmişdir, həmin vaxtdan bəri mən sənin üçün yeganə bir mahnı oxuyuram, o arasıkəsilmədən dəyişilsə də, hər halda, eyni bir mahnıdır, röyasız bir yuxu kimi bol, yorucu və sıxıcı, bəzən mən onun sədaları altında yuxuya gedirəm, sevin ki, sən onu eşitmirsən, sevin ki, sən bu qədər uzun müddətə mənim məktublarımdan qurtulmusan.

Ah, insanı dərk etmək! Əgər sən həqiqətən də çəkmələri təmizləyirsənsə, hansı etirazım ola bilər ki! Sağlıqla təmizlə, sonra isə onları küncə qoy və bu haqda unut. Amma, sənin fikrən daim onları

təmizləməyin, məni bəzən incidir (və onları təmiz olmağa imkan vermir).

Cümə axşamı

Mən dönə-dönə başqa bir cümlə, məhz *jsi* muj136 frazasını eşitmək istəyirəm. Məhz niyə onu? Çünki o, eşqi və məhəbbəti ifadə etmir, sadəcə, gecəni və yaxınlığı bildirir.

Bəli, böyük bir yalan idi, mən də onda iştirak etmişdim, amma, ən pisi o idi ki, qəlbimin dərinliyində, öz-özümlə tək qalanda onu məsum hesab edirdim.

Təəssüf ki, daim mənə elə tapşırıqlar verirsən ki, mənim gedişimə qədər onlar öz-özlüyündə yoluna qoyulur. Madam ki, sən mənə belə az etibar edirsən və azca da olsa, özümə inamı təlqin edirsən, onda bunlar çox aşkar hiss olunur.

Yarmila teleqramının (bizim görüşümüzə qədər göndərilmiş teleqramın) mənə nə aidiyyatı ola bilər, xüsusən də qısqanclıq barədə, mən bunu başa düşə bilmirəm. Mənim görünməyim sanki onu şadlandırdı (sənə görə), amma onun yanından ayrılanda daha çox şadlandı (mənə görə, daha doğrusu, onun özünə görə).

Soyuqdəymə ilə əlaqədar sən bir neçə söz yaza bilərdin; sənə harada soyuq dəymişdir: Qmyunddamı, yaxud qəhvəxanadan evə gedərkən yolda? Burada isə əsl yaydır, bazar günü yenə də yalnız Cənubi

Bohemaya yağış yağdı, mənim islaq paltarlarıma baxan hər kəsin, mənim Qmyund tərəfdən gəldiyimi duya biləcəyindən qürurlanırdım.

Cümə

Yaxından baxdıqda sənin yaşadığın pis şəraiti anlamaq olmur, daha da uzaqdan boylanmalı olursan, amma onda da bu yenə çətin anlaşılır.

Sən "dırnaqları" səhv başa düşmüsən, əslində, onun özü heç başa düşülən deyildi. Qmyund haqqında dediklərinin hamısı, sözün geniş mənasında, doğrudur. Xatırlayıram ki, Praqada sənə xəyanət edibetmədiyimi soruşdun. Yarıciddi, yarızarafat, yarılaqeyd soruşdun - sanki tamı üç parçaya bölmüşdün, məhz buna görə də bu mümkün deyildir. Mənim də sənə yazdığım bir məktubda eynilə bu cür sual var idi. O mümkündürmü?

Amma bu azdır, mən daha da mümkün olmayan bir şey etmişəm. Mən sənə dedim ki, yox, mən sənə sadiqəm. Necə olur ki, insanlar belə danışırlar? Və həmin gün biz bir-birimizlə yad adamlar kimi danışdıq və bir-birimizə qulaq asdıq.

Dünən axşamüstü Yarmila yanıma gəlmişdi (bilmirəm ki, o mənim indiki ünvanımı haradan tapıb), mən evdə olmadığım üçün o sənin üçün yazdığı məktubu və bu məktubu göndərmək barədə karandaşla yazdığı xahişini qoyub qayıdıb, sənin şəhər kənarındakı ünvanını o bilirmiş, amma hesab edir ki, bu cür daha etibarlıdır.

Bazar ertəsi

Budur, çox gözləmək lazım gəlmədi, Zalsburqdan iki məktub aldım, təki Gilgendə hava yaxşı olsun, amma hər halda, payızdır artıq. Mən həm yaxşıyam, həm də pisəm, baxır hansı tərəfdən yanaşırsan, ümid edirəm ki, payızda hələ bir müddət yaxşı olacağam. Qmyund haqqında isə, nə cür olursa-olsun, mütləq biz yazışacağıq, yaxud da danışacağıq - bu, pis ovqatımın bir hissəsidir; Yarmilanın məktubunu əlavə edirəm. Ona pnevmatik poçtla cavab verdim: əlbəttə ki, məktublarını böyük məmnuniyyətlə sənə göndərirəm, amma onlarda təcili şeylər olmamalıdır, axı mən sənin ünvanını bir həftədən sonra alacağıma ümid edirəm. O cavab vermədi.137

Cümə axşamı

Əvvəlcə mən karandaşla yazdığın məktubu oxudum, bazar ertəsi məktubundakı altı cızılmış yerlərə tələsik nəzər yetirdim, sonra isə hər halda, bunu təxirə salmağa qərar verdim; mən elə qorxmuşam və elə pis haldayam ki, bütün varlığımla sözün daxilinə nüfuz edə bilmirəm, əgər bu sözə hücum etsələr bütün varlığımla onu müdafiə etməyi, yaxud bütün varlığımla məhv olmağı bacarmıram. Amma burada təkcə ölüm yox, xəstəlik də vardır.

Hələ məktubu oxumazdan əvvəl - buna bənzər bir şeyi sən özün də məktubun sonunda yazmısan - birdən düşündüm ki, payız imkan verərsə, sən orada bir az da çox qala bilməzsənmi? Bu mümkündürmü?

Zalsburqdan tezliklə məktub gəldi; Gilgendən məktublar gec gəlir, amma mən digər mənbələrdən də xəbərlər alıram. Qəzetdə Polqarın qeydlərində söhbət bir göldən gedir, onlar hədsiz üzücü olsa da qəlbi açır, çünki həm də bir az şəndir, amma belə yerlər çox azdır, orada Zalsburqdan də məlumatlar vardır, festival haqqında, dəyişkən havalar haqqında yazılar o qədər də şən deyildir, hər halda, sən çox gec getdin; bunlardan əlavə, bəzən Maks mənim xahişimlə Volfqan və Gilgen haqqında danışır, uşaq vaxtlarında orada o çox xoşbəxt olmuşdur, keçmiş vaxtlar, yəqin ki, ora çox yaxşı olub. Amma "Tribuna" olmasaydı, bütün bunlar bir şey ifadə etməzdi, bu hər gün səndən bir şey tapmaq imkanı verir, doğrudan da, gah bir, gah başqa bir şey tapır. Bu haqda danışmağım sənin xoşuna gəlmir? Amma mən onu məmnuniyyətlə oxuyuram. Və sənin ən yaxşı oxucundan başqa kim bu barədə danışmalıdır? Hələ sən mənə deyənə qədər ki, mənim haqqımda düşünərək yazırsan, mən bunların mənimlə bağlı olduğunu hiss edirdim və bu mənada qəzeti sinəmə sıxırdım, indi isə sən bu haqda birbaşa deyəndə mən daha çox çəkinib qorxuram, məsələn, qar üzərindəki dovşan haqqında oxuyarkən, demək olar ki, onda tamamilə özümü görürəm.138

Hər halda, ikinci məktubu da oxudum, özü də bu yerdən başladım: *Nechci, abus na to odrovidal.* 139 Orada əvvəllər nə olduğunu bilmirəm, amma bu gün, sənin qəlbimdə danışdığım kimi olduğuna qətiyyətlə şahidlik edən məktubuna baxaraq, onu oxumadan da bütün

yazılanların doğru olduğunu etiraf etməyə hazıram, hətta sonrakı mərhələlərdə bu, əleyhimə olsa belə. Mən çirkinəm, Milena, həddən artıq çirkinəm, ona görə də təmizlik barədə bu cür hay-küy qaldırıram. Heç kəs cəhənnəmin dibindəkilər qədər məsum nəğmələr oxuya bilməz, mələklərin şərqisi hesab etdiyimiz - onların oxumasıdır.

***

Artıq bir neçə gündür ki, mən "hərbi xidmətə" başlamışam, daha dəqiq desək, "manevr" edirəm, xeyli əvvəllər mənə aydın olub ki, mənim üçün ən yaxşı şey elə budur. Günün ikinci yarısı nə qədər mümkündürsə, o qədər yatmaq, sonra iki saat gəzmək, daha sonra isə nə qədər mümkündürsə, o qədər gümrah halda oyanıqlı vəziyyətdə qalmaq. Amma işlər bu "nə qədər mümkündürsə" kəlməsində düyünə düşür. Nə nahardan sonra, nə gecə, nə səhər, "çox uzun müddətdə mümkün" olmur, büroya gedəndə isə tamamilə əzgin oluram. Əsl qənimət isə məhz gecənin dərinliyində - saat ikidə, üçdə, dörddə olur; indi isə əgər gec vaxtda, gecə yarısında da yatmağa uzanmıramsa, onda gecə də, özüm də, gündüz də hədər olur.

Amma bunlar heç, bu cür "xidmət"in hələlik nəticəsi olmasa da çox yaxşıdır. Heç nəticəsi olmayacaq da. Mənə yarım il lazımdır ki, onun azca da olsa "dilini aça bilim", sonra isə dərk edim ki, hər şey qurtarmışdır, elə "xidmət" müddətim də qurtarmışdır. Amma mənim dediyim kimi, bu öz-özlüyündə yaxşı şeydir, hətta zaman-zaman güclü öskürək ona mane olsa belə yaxşıdır.

Əlbəttə ki, məktub elə də pis deyildi, amma karandaşla yazılmış həmin məktuba, hər halda, mən layiq deyiləm. Ümumiyyətlə, yerdə, yaxud göylərdə ona layiq olan bir kimsə vardırmı?

Cümə axşamı, gecə

Fikrimcə, bu gün əlimi sallayıb oturmuşam, aradabir mütaliə etmişəm, əsasən isə gicgahlarımda səssiz, tamam sakit ağrılı döyüntülərə qulaq asaraq işsiz qalmışam. Bütün günü sənin məktubunun fikri başımdan çıxmayıb, onun haqqında acı-acı, zərifcəsinə, həyəcan və tamamilə qeyri-müəyyən qorxu ilə (bu qorxu hansısa bir qeyri-müəyyənliyə görədir, çünki həmin qeyri-müəyyənlik mənim qüvvəmdən qat- qat çoxdur). Buna görə hətta məktubu ikinci dəfə oxumağa da cəsarətim çatmadı, onlardan birinin yarım səhifəsini isə mən heç birinci dəfə də oxumamışdım. Niyə insan öz olduğu ilə və tamamilə məxsusi şəkildə, intihardan saxlayan bir gərginliklə barışa bilmir (sən bir dəfə buna bənzər bir şey deyəndə sənə gülməyə cəhd etmişdim!) - yox, o özünə arxayın şəkildə bu qəfəsdə var-gəl edir, düşüncəsiz şəkildə oradan çıxır (hələ bir, heyvanlar kimi bu düşüncəsizliyə sevinir də!). Və yüksək gərginlikli elektriki özünə cəzb edir, nəticədə cərəyan ona nüfuz edərək, demək olar ki, onu yandırır.

Bununla nə demək istədiyimi heç özüm də bilmirəm. Mən, sadəcə, sənin məktublarındakı deyilməyən, lakin gizlədilən şikayətləri tutub saxlamaq istəyirəm - onlar məktublarından eşidilir, mən bunu bacararam, çünki onlar mahiyyətcə həm də mənimdir. Sənlə hətta

burada, qaranlıqda da birlikdə olmamızın özü çox təəccüblüdür və mən hər saniyə buna inanmağa hazır deyiləm.

Cümə axşamı

Bu gecəni yuxu əvəzinə sənin məktublarınla keçirdim (öz iradəmdən asılı olmayaraq). Amma mənim vəziyyətim, hələlik, heç də ən pis halda deyildir - daha da pis olduğu vaxtlar olur. Düzdür, səndən məktub gəlməyib, amma bunun eybi yoxdur. İndi bu hətta çox yaxşıdır ki, hər gün bir-birimizə məktub yazmırıq; sən bunu məndən tez başa düşmüsən, bunu etiraf elə. Gündəlik məktublar münasibətləri möhkəmlətmək əvəzinə zəiflədir; əvvəllər onu dibinə qədər içir və özlüyündə on qat güc və on qat yanğı hiss edirdin (Praqa barədə danışıram, Meran barədə yox). İndi isə hər şeydə ciddi dönüş olub - indi məktubu oxuyanda dodaqlarını dişləyirsən, gicgahlarındakı ağrıdan başqa heç bir şey hiss etmirsən, heç bir şeyə gümanın qalmır. Qoy olsun, amma bir şey xahiş edirəm: Milena, xəstələnmə, təkcə xəstələnmə! Yazmaya bilərsən, qoy belə olsun (dünənki iki məktub kimi məktubların öhdəsindən gəlmək üçün mənə nə qədər vaxt lazımdır? Axmaq sualdır, məgər belə şeylər günlərləmi hesablanır?), amma təki bunun səbəbi xəstəlik olmasın. Bu halda, istisnasız olaraq, özüm haqda düşünürəm. Onda mən nə edəcəyəm? Yəqin ki, elə indi etdiyimi. Amma bunu necə edəcəyəm? Yox, bu haqda fikirləşmək belə istəmirəm. Bu vaxt sənin haqqında düşünəndə hər şeydən artıq bir şeyi təsəvvür edirəm: sən yataqda uzanırsan - lap o vaxt

Qmyunddakıçəmənlikdə uzandığın kimi (sənə öz dostum haqqında danışırdım, amma sən, demək olar ki, qulaq asmırdın). Bu səhnə elə də əzablı deyildi, hətta indi sənin yataqda uzandığını təsəvvür etməkdən daha yaxşı idi. Beləliklə, sən yataqda uzanırsan, mən isə bir az sənin qayğına qalıram: qısa müddətə yanına qaçıram, əlimi alnına qoyur, yuxarıdan aşağı baxaraq gözlərində qərq oluram, sonra isə otaqda gəzərkən daim hər saniyə, ramedilməz bir qürurla dərk edirəm ki, sənin üçün yaşayıram, dərk edirəm ki, bu mənə nəsib olub, yenidən sənə təşəkkür edirəm ki, bir dəfə mənim qarşımda duraraq əlini mənə uzatmısan. Və sənin xəstəliyin də çox ciddi deyildir, o tezliklə sovuşacaqdır, əvvəlkindən də sağlam olacaqsan, sən yenidən öz bütün böyüklüyünlə ayağa qalxacaqsan, mən də bütün bunlardan sonra, bir gözəl gündə, ümid edirəm ki, ağrısız və səssiz şəkildə torpağın altına girəcəyəm. Belə ki, bütün bunlar əzab deyildir, amma sənin orada, yad yerdə ağrıdığını öz-özlüyümdə təsəvvür etməli oluram...

Sən də konduktorları sevirsən, eləmi? Bəli, o vaxtkı şən və çəlimsiz vyanalı konduktor! Amma burada da yaxşı adamlar vardır; uşaqlar konduktor olmaq istəyirlər ki, onlar kimi qüdrətli və hörmətli olsunlar, hər yana getsinlər, ayaqlıqda duraraq uşaqlara tərəf əyilib kömək etsinlər, üstəlik də onların əlindən komposter və çoxlu tramvay biletləri vardır; amma bu imkanların hamısı məni qorxudub- ürküdür, mən də həyatda sevinmək və hər bir şeydə iştirak etmək üçün konduktor olmaq istərdim. Mən bir dəfə yavaş-yavaş sürünən

tramvayın arxasınca gedirdim, konduktor isə - şair mənim ardımca büroya girdi, mən konduktorla işimi bitirənə qədər qoy o gözləsin - arxa meydançada duraraq bədənini çölə tərəf əyib mənə nə isə qışqırdı.

Yozef meydanının səs-küyündən onu eşitmədim, o, həyəcanlı halda əlləri ilə işarələr edir, haranı isə göstərirdi, mən başa düşmədim və tramvay xeyli uzaqlaşdı, konduktorun səyləri boşa çıxdı, nəhayət, onu anladım: yaxalığımdakı qızıl sancaq açılmışdı və o, diqqətimi buna cəlb etmək istəyirdi. Mən bu haqda bu səhər xatırladım, ötən gecədən sonra küt və xəstə ruh kimi tramvaya oturdum və konduktora 5 kr. uzatdım, o isə məni şənləndirmək üçün (məni yox, çünki o heç mənə baxmadı da, sadəcə, atmosferi şənləndirmək üçün) mənə qalığı qaytarandan sonra əsginazlar haqqında nə isə yaxşı sözlər dedi. Mən isə onları qulaqardına vurdum, bundan sonra mənimlə bir yerdə duran bir cənab da pulumla bağlı sözlərə görə mənə gülümsədi, mən də öz növbəmdə ona gülümsəməklə cavab verdim - başqa nə cür ola bilərdi ki? - və hər şey dərhal yaxşılaşdı. Kaş bu Sankt- Gilgenin üstündəki yağışlı havanı da bir az şənləndirəydi!

Şənbə

Möcüzədir, Milena, möcüzə! Sənin məktubunda (çərşənbə axşamındakı) ən möcüzəli şey - sakitlik, inam, aydınlığın yaranmasıdır.

Hələ səhər heç nə yox idi, mən də asanlıqla bu faktın özü ilə barışmışdım, amma məktubun alınmasından sonra hər şey dəyişdi, yazmaqla onların hamısı elə əvvəlki kimi qalsa da, əsas odur ki, yazmaq lazımdır - bu əzabdır, bu isə xoşbəxtlikdir; beləliklə, faktın özü ilə barışmışdım, məsələn, əgər bütün dünənki gün, axşam və gecənin yarısını sənինlə söhbətə həsr etmişəmsə və bu işdə uşaq kimi səmimi və ciddi olsam da, sən isə ana kimi diqqətli və ciddi olmusansa (həqiqətdə isə mən belə ana və belə uşaq görməmişəm), bu məktuba ehtiyacım var; ümumiyyətlə, bütün bunlar ötəridir, mənə yalnız sənin susmaq səbəbini bilmək lazımdır ki, səni daim xəstə vəziyyətdə yataqda təsəvvür etməyim, elə güman etməyim ki, sən orada - balaca otaqda, payız yağışının altında tənhasan, uzanmısan, sənin titrətmən vardır (sən özün yazmışdın), soyuqlaman vardır (sənin özün yazmışdın), gecələr tərləyirsən, yorulursan (bütün bunları sən yazmışdın). Təki bunlar olmasın, onda hər şey yaxşı olardı və mən bundan yaxşı bir şey arzulamazdım.

Sənin məktubunun birinci abzasına cavab vermək istəmirəm, ondan əvvəlki məktubunun məşhur birinci abzasını hətta xatırlamıram da. Bütün bunlar bir-birinə çox dərindən dolaşmış elə şeylərdir ki, yalnız ana və uşağın öz aralarında söhbəti zamanı açıla bilər, çünki onların arasında belə söhbətlər olmadığı üçün öz-özünə aydınlaşır. Mən də bütün bunlara əhəmiyyət verməyəcəyəm, çünki ağrı gicgahlarımda gizlənərək gözləyir. Bəlkə sevgi oxu mənim ürəyimin əvəzində

gicgahlarımı yaralamışdır? Qmyund haqqında da, ən azından, bilərəkdən yazmayacağam. Burada çox şeydən danışa bilərəm, amma bu və ya başqa şəkildə hər şey ona gətirib çıxaracaqdır ki, əgər mən həmin axşam, hətta səndən ayrılsaydım da, Vyanadakı birinci gün bundan daha yaxşı olmayacaqdı, çünki Vyananın, Qmyunda nisbətən bir üstünlüyü var idi ki, mən oraya qorxudan və taqətsizlikdən yarıhuşsuz vəziyyətdə qayıtmışdım, həmin vaxt Qmyundda olduğu kimi heç bir şeydən şübhələnməyərək gəlmişdim, - o qədər axmaq, həddən artıq özümə güvənli idim ki, guya mənə heç nə ola bilməzdi - ev sahibi kimi gəlmişdim; qəribədir, bütün narahatlıqlarla birgə məndə sahiblənmək hissi yaranmışdı, ola bilsin ki, bu mənim həm burada, həm də başqa yerlərdə olan əsas qüsurumdur.

Artıq üçə iyirmi beş dəqiqə işləyib, sənin məktubunu mən saat ikidə almışam, hələlik yazmağı saxlayır və nahar etməyə gedirəm, yaxşımı?

Yekun cümlənin tərcüməsi çox yaxşıdır.140 Bu hekayədə hər bir cümlə, hər bir söz, onun bütün harmoniyası, musiqisi (əgər belə demək mümkünsə) "qorxu" ilə əlaqədardır; onda bir uzun gecədə bu yara birinci dəfə açılmışdı və bu əlaqəni tərcümədə, mənim fikrimcə, çox

dəqiq vermisən, axı sənin sehrkar əlin vardır!

Məktub alarkən əsas əzablı şeyin nə olduğunu sən bilirsən. Bu gün sənin və mənim məktublarımızın arasında, böyük inamsızlıq içərisində bu nə qədər mümkündürsə, o qədər aydın, xeyirxah ünsiyyət hökm

sürür, mən indi əvvəlki məktublarıma cavab gözləyəcəyəm, etiraf edirəm ki, mən ondan dəhşətə gəlirəm.

Yeri gəlmişkən, əgər sənin ünvanını yalnız bazar ertəsi almışamsa, sən çərşənbə axşamı mənim məktubumu necə gözləyə bilərsən?

Bazar

Dünən qəribə bir yanlışlığa düşdüm. Gündüz sənin məktubuna (çərşənbə axşamı yazdığın məktuba) görə çox şad idim, amma axşam onu yenidən oxudum, birdən başa düşdüm ki, mahiyyətcə o da o birilərindən fərqlənmir, onun sözlərindən hiss olunur ki, orada çoxlu bədbəxtliklər vardır. Səhvim onu göstərdi ki, özümə nə qədər qapanmışam, yalnız özüm haqqında düşünürəm, səndən isə yalnız o şeyləri qəbul edirəm ki, onları qəbul edə bilərəm və onları kimsə məndən almasınlar deyə, harasa səhraya qaçmağa hazıram. Onda yazıdan ayrılaraq öz otağıma qaçdım və orada birdən stolun üstündə sənin məktubunu gördüm, acgözlüklə sətirlər boyunca nəzərlərimi gəzdirdim, xoşbəxtlikdən orada qalın hərflərlə məni ittiham edən yazılar olmadığı üçün bu dəfə gicgahlarımda sakit döyüntülər hiss etdim və xam xəyallara düşərək sənin dağların, meşələrin əhatəsində, göl sahilində sakit- sakit durduğunu təsəvvür etdim, - bütün bunlara görə (və sənin bu məktubunla və sənin əsl vəziyyətinlə qətiyyən əlaqəsi olmayan səbəblərə görə) - bütün bunlara görə sənin məktubun mənə çox fərəhli göründü, ona görə sənə tamam axmaqlıqlarla dolu bir məktub yazdım.

Bazar ertəsi

Görürsənmi, Milena, hər şey beləcə narahatdır, insanı dənizdə gah oraya, gah da buraya tolazlayır, yalnız kinindən, qəzəbindən onu udmur. Bu yaxınlarda səndən hər gün yazmamağı xahiş etmişdim, onda bunu səmimi surətdə demişdim, mən məktublardan qorxurdum; onda məktub yox idi, özümü çox sakit hiss edirdim; stolun üstündə məktubu görəndə bütün gücümü (bu isə məndə onsuz da çox azdır) toplamalı oldum - bu gün həmin açıqcanı almasaydım çox bədbəxt olardım (onu özümə götürdüm). Sağ ol.

İndiyə qədər oxuduğum Rusiya haqqındakı bayağı bir məqalə mənə çox böyük təsir etdi, daha doğrusu, vücuduma, əsəblərimə, qanıma nüfuz elədi.

Onu heç də yazıldığı kimi dərk etmədim, əvvəlcədən onu öz orkestrim üçün yenidən dəyişdirdim. (Məqalənin axırını cırdım, orada kommunistlərə qarşı ittihamlar var idi ki, buraya onun dəxli yoxdur, ümumiyyətlə isə bütün bunlar, sadəcə, onun bir hissəsidir.)

Cümə axşamı

Bazar gününün və bazar ertəsinin məktubları və açıqcası gəldi. Xahiş edirəm, Milena, çox sərt ittiham etmə. Mən burada tənhalıqda və uzaqdayam, həm də nisbətən sakitlikdəyəm, ona görə də ağlımda cürbəcür fikir, qorxu, həyəcan yaranır, mən də onları, sadəcə yazıram, bunlarda böyük bir məna olmasa da yazıram, mən onda sənlə danışıram, hər şey haqqında unuduram, sənin haqqında da unuduram,

yalnız bu cür iki məktubun gələndə hər şeyi yenidən, bütövlükdə xatırlayıram.

Sənin qış barədə əndişələrindən birini mən qətiyyən başa düşmürəm. Əgər sənin ərin belə xəstədirsə, üstəlik iki ciddi xəstəlikdən əziyyət çəkirsə, o büroya gedə bilməz, amma ştatda olan əməkdaş olduğu üçün onu azad edə bilməzlər; o, xəstəliyinə görə həyatını başqa cür qurmalıdır, bununla da hər şey, heç olmasa, zahirən düzələcək, asanlaşacaqdır, amma bütün bunlar çox kədərlidir.

Bu dünyadakı mənasızlıqlardan biri də günah məsələsinə ciddi baxmaqdır, ən azından belə düşünürəm. Burada mənasızlıq təkcə o deyildir ki, ətrafdakı insanlar səni günahlandırırlar (bu elə də böyük bədbəxtlik deyildir, çünki ən dəhşətli bədbəxtlikdə, ümumiyyətlə, günahlandırmırlar), aydındır ki, həyəcan və qarmaqarışıqlıqda belə günahlandırmaları ürəyinə salırsan; mənasızlıq ondan ibarətdir ki, insanlar bütün bunları elə adi dəlillərlə müzakirə etməyi düşünürlər ki, onlar aydın şəkildə sonu görünən dəlillərdir - bax bunu qətiyyən başa düşmürəm. Əlbəttə ki, sən günahkarsan, amma belə olduqda, sənin ərin də günahkardır və yenə də sən, sonra yenə də o, çünki insanlar bir yerdə yaşayırlar, başqa cür mümkün deyildir, günah isə sonsuz zəncirlərlə ilk insanın günahına qədər gedib çıxır, bəs onda o günahı qurdalamağın mənim bu günümə, yaxud həkim İşlin yanına getməyə nə dəxli var?

Küçədə isə hey yağış tökür və qurtarmaq bilmir. Bunun mənə dəxli yoxdur, quru və isti yerdə oturmuşam, yalnız ona görə utanıram ki, məhz pəncərəmin önündə bir rəngsaz onun üçün düzəldilmiş yeşikdə durmuşdur, indi bir az sakitləşən yağışa və çörəyin üstünə yaxdığım yağın bolluğuna görə rəngsaz, sanki hirslənərək rəngi şüşəyə çiləyir, elə bumda da bir fantaziya vardır, çünki o mənə yüz qat az diqqət yetirir, nəinki mən ona. Bəli, indi o, doğrudan da, yağan yağışın və küləyin altında işləyir.

Vays haqqında sonradan eşitdiyimə görə, yəqin ki, xəstə deyilmiş, amma pulsuz halda oturur, bu hal yayda da olmuşdu və Fransesbadda onun üçün siyahı ilə pul yığılmışdı. Mən ona üç həftə əvvəl sifarişli məktubla cavab verdim və hələ bu əhvalatı eşitməmişdən əvvəl məktubu Şvarsvalddakı ünvanına yolladım. O cavab vermədi. İndi o, Ştarnberq gölündə öz rəfiqəsi ilədir, qız Bauma141 kədərli- ciddi (onun təbiəti belədir), amma mahiyyətcə qüssə doğurmayan (bu da onun xarakterindədir) açıqcalar göndərir. O, Praqadan getməzdən əvvəl (orada o, böyük müvəffəqiyyətlər qazanıb) mən onunla tələsik danışdım. O, pis görünürdü - ümumiyyətlə, o, zəif və zərif, lakin yenilməyən bir qızdır - çoxlu tamaşalardan yorulmuşdu. Vays haqqında təxminən belə dedi: "O indi Şvarsvaldadır və çox pis yaşayır, eybi yoxdur, tezliklə biz birlikdə Ştarnberq gölündə olacağıq, onda hər şey yoluna düşəcəkdir". **Bazar**

Burada əsas şey nədir, Milena? Sənin yazdıqlarınmı, yoxsa etibar? Bir dəfə sən Merandan göndərdiyin axırıncı məktublarının birində bu haqda yazmışdın, mən ona cavab yazmağa macal tapmamışdım.

Başa düş ki, Robinzon gəmi tutaraq təhlükəli səyahət etməli, gəmi qəzası keçirməli və daha çox şeylərlə qarşılaşmalı olmuşdu, amma mən təkcə səni itirməli olsam, artıq Robinzona çevrilərəm, lap ondan da artıq Robinzon olaram. Onun adası var idi, Cüməsi var idi, çoxluçoxlu şeyləri var idi, ən nəhayət, onu xilas edəcək gəmi var idi ki, bütün ötənləri bir yuxuya çevirmişdi, mənim isə heç bir şeyim qalmazdı, heç adım da olmazdı, çünki onu da sənə vermişəm.

Ona görə də sənə nisbətən daha da müstəqiləm, məhz buna görə asılılıq hər cür sərhədləri aşır. "Yaxudyaxud" məsələsi çox mühümdür. Ya sən mənimsən, onda hər şey çox yaxşı olur, yaxud da səni itirirəm, onda isə çox pis olur - onda, ümumiyyətlə, heç nə olmur, nə qısqanclıq, nə əzab, nə qorxu, sadəcə, heç nə. Yəqin ki, sehrbazlıq - bir adama belə etibar etmək ona görə baş tutur ki, arxanda qorxu hiss edirsən, amma bu sənə görə yaranan qorxu deyildir, ümumiyyətlə, cadugərlikdə olduğu kimi, bir nəfərə etibar edib bel bağlamağa görə yaranan qorxudur. Və bunun əksinə olaraq (yəqin ki, elə əvvəlcədən də belə olub) sənin sevimli və adi üzündə bu qədər ilahi sifətlər cəmləşib.

Hə, nəhayət ki, Samson Dəliləyə öz sirrini açdı və o, Samsonun saçlarını kəsməyi bacardı, amma buna qədər hazırlıq görəndə onun

əlləri bir neçə dəfə titrəmişdi, qoy kəssin: qoy kəssin, axı onun da bu cür sirri vardır, onsuz da heç nə dəyişməyəcəkdir.142

Üç gündür ki, aşkar görünən heç bir səbəb olmadan gecələri çox pis yatıram, heç olmasa, sən sağlamsanmı? Əgər bunu cavab adlandırmaq olarsa, tez bir cavab yazıram: elə indicə sənin teleqramın gəldi. Elə gözlənilməz və açıq şəkildə gəldi ki, mən hətta qorxmağa da macal tapmadım. Əslində, o mənə bu gün çox lazım idi; sən bunu nədən bildin? Səndən aldığım bütün zəruri şeylər sənin təbiiliyindən qaynaqlanır.

Çərşənbə

Anlaşılmazlıqdır, yox, anlaşılmazlıqdan da daha pisdir, Milena, əlbəttə, sən üzdən hər şeyi düzgün anlayırsan, amma burada başa düşüləcək və ya başa düşülməyəcək şeylərin olduğu nə deməkdir ki?

Bu anlaşılmazlıq dönə-dönə təkrarlanır, bu Meranda da baş vermişdi, özü də bir yox, iki dəfə. Mən axı səndən elə məsləhət verməni xahiş etməmişdim ki, sanki stol arxasında mənimlə üzbəüz oturmuş adamdan məsləhət istəyirəm. Öz-özümlə danışırdım, özümdən məsləhət istəyirdim, yaxşı bir yuxu görürdüm, sən isə məni oyandırırsan.

Bilmirəm, mənim bolşevizm haqqındakı qeydlərimi düzgün başa düşdünmü? Müəllifin orada tənqid etdiyi şeylər mənim üçün dünyada mümkün ola biləcək ən böyük fəxrdir.

***

Əgər dünən axşam (mən saat 8-də küçədən Yəhudi İcmasının mərasim zalına boylananda, orada Rusiyadan gəlmiş yüzdən çox emiqrant yəhudi var idi, onlar burada Amerika vizası gözləyirdilər, zal kütləvi mitinqdə olduğu kimi dolu idi, sonra isə, saat birin yarısında mən onların bir-birinin üstündə necə yatdıqlarını gördüm, onlar hətta kresloda yatmışdılar, orada kimsə öskürür, bir böyründən o biri böyrü üstə çevrilir, yaxud ehtiyatla cərgələr arasından keçirdi, bütün gecəni elektrik işığı yanırdı) mənə imkan verilsəydi ki, istədiyim adamın yerində olum, onda mən Şərqdən gələn kiçik oğlan uşağı olardım, o hardasa küncdə, tamamilə qayğısız halda oturub, onun atası zalın ortasında başqa kişilərlə müzakirələr aparır, isti geyinmiş anası yola götürdüklərinin içərisində eşələnir, bacısı qızcığazlarla boş-boş sözlər danışır, aradabir barmaqlarını öz gözəl saçlarının içinə salır. Bir neçə həftə sonra, nəhayət ki, onlar Amerikada olacaqlar. Düzdür, bu o qədər də sadə iş deyildir, artıq dizenteriya halları olub, insanlar döngədə duraraq pəncərədən içəridəkiləri hədələyirlər, hətta yəhudilərin öz aralarında da mübahisələri olur, hətta iki nəfər bıçaqla bir-birinin üzərinə getmişdi. Onda sən, balaca oğlan hər şeyi dərhal qeyd edir və qiymətləndirirsən - sənin başına nələr gələ bilər? Sənin kimi bir dəstə uşaq burada döşəklərin üstü ilə tullanır, stulların altı ilə sürünür və onlara nə vaxt çörək veriləcəyini gözləyirlər, çörəyi kim verirsə-

versin, fərqi yoxdur, axı onlar *birxalqdır,* onun üzərinə yaxmağa nə olursaolsun, axı hər şey onlar üçün yeyilə biləndir.

Çərşənbə axşamı

Bu gün iki məktub və açıqca gəldi. Mən onları tərəddüdlə açdım. Sən ya dərkolunmaz dərəcədə xeyirxahsan, ya da dərkolunmaz dərəcədə özünə sahiblik edirsən, çox şey birincinin xeyrinədir, bəzi şeylər isə ikincinin xeyrinədir.

Təkrar edirəm: sən tamamilə haqlı idin. Mənim V. ilə danışığım sənə qarşı hörmətsizlik, dikbaşlıq, uşaq axmaqlığı, özündənrazılıq, hətta etinasızlıq hisləri ilə dolu idi və əgər sən mənə qarşı belə etsəydin, - bu isə mümkün deyildir - mən ağlımı itirərdim, heç teleqram da vura bilməzdim.143

Teleqramı ikinci dəfə oxudum, bir dəfə tələsik, alan kimi, sonra isə bir neçə gün sonra baxdım və onda onu cırdım.

Onu birinci dəfə necə oxuduğumu təsvir etmək çox çətindir, hər şey birdən tökülürdü üstümə. Ən görünən şey o idi ki, sanki sən mənə zərbə vurdun, fikrimcə, teleqram "yubanmadan" sözü ilə başlanırdı, bu isə zərbə idi.

Yox, mən bu gün bu haqda yaza bilməyəcəyəm, ona görə yox ki, çox "ağıram". Bir dəfə sənə yazdığım kimi, həmin "heç nə" əsərək məni sovurub.

Əgər yuxarıdakı xatırladığım hərəkəti axmaq niyyətlə etsəydim heç bir şey aydın olmazdı və onda bu zərbəni haqlı olaraq almış olardım.

Yox, biz hər ikimiz günahkarıq və heç birimiz də günahkar deyilik.

Ola bilsin ki, sən haqlı heyrətini dəf edə bilərsən və Vyanada tapdığın V. — nin məktubu ilə barışırsan. Teleqram gələndə nahardan sonra mən sənin atanın mənzilinə gedərək V-ni görmək istədim. Aşağıda *1* schodu144, yazılmışdı, həmişə elə bilirdim ki, bu, "birinci mərtəbə" deməkdir, amma məlum oldu ki, o lap yuxarıda imiş. Qapını gənc, yaxşı və şən xadimə açdı. V. yox idi, elə belə də gözləyirdim, amma yenə də nə isə etmək istədim, bilmək istədim ki, o, səhər nə vaxt gələcəkdir. Səhər onu evin yanında gözlədim, o çox xoşuma gəldi, ağıllı, işgüzar, səmimi idi. Onunla sənə yazdığım teleqramdan başqa bir şey danışmadım.145

Üçüncü gün Yarmila büroda yanıma gəldi, çoxdan imiş ki, səndən xəbəri yox imiş, subasma barədə də xəbəri yoxmuş, səni soruşmağa gəlmişdi. Hər şey əla keçdi. O, cəmi bir neçə dəqiqə qaldı. Onun məktubu barədə sənin xahişini isə unutduğumdan sonradan yazıb ona göndərdim.

Məktubu hələ diqqətlə oxumamışam, sonra yenidən yazacağam. Elə indicə teleqram gəldi. Doğrudanmı? Doğrudanmı? Sən daha məni döyəcləmirsən?

Yox, sən fərəhlənə bilməzsən, bu mümkün deyildir. Teleqram dəqiqənin təsiri altında yazılmışdır, elə keçən dəfə də belə olmuşdu, nə onda, nə də bunda həqiqət yoxdur, bəzən oyananda nə işıq, nə şəfəq görmürsən və sanki yatağın yanında solğun çiçəklərlə bəzədilmiş və qəbul etməyə hazır olan açıq qəbir görürsən.

Mən güclə sənin məktublarını oxumağa cəsarət edirəm; onları fasilələrlə oxuya bilərəm, - oxu zamanı keçirdiyim ağrılara tab gətirmirəm - Milena, yenidən sənin saçlarına toxunuram, onları kənarlaşdırıram, doğrudanmı, mən belə qəddar vəhşiyəm, sənin olduğum kimi özümlə qəddar, qəzəbli davranıram, daha doğrusu, mənim əleyhimə duranlar və məni zəhərləyənlərin qəzəbli adlandırılması doğru olardı? Amma mən onları kinli və qəzəbli adlandırmağa heç cəsarət də eləmirəm; amma mən sənə məktub yazanda mənə belə gəlir ki, bunu edirəm.

Ümumiyyətlə isə hər şey mənim yazdığım kimidir. Mən sənə yazmaq istəyəndə nə ondan əvvəl, nə də ondan sonra yuxum gəlmir; nə vaxt ki yazmıram, onda mən ən azı bir saat yata bilmirəm, artıq yox. Mən sənə yazmayanda yalnız yorğunluq, kədər və qəlbimdə ağırlıq hiss edirəm, yazanda isə məni narahatlıq və qorxu bürüyür. Birbirimizə əzablarımızı bölüşmək üçün yalvarırıq: mən sənə gizlənmək üçün, hardasa unudulmaq üçün yalvarıram, sən də beləcə, amma bunların doğrulması ağılsızlıq və dəhşətli dərəcədə absurddur.

Sən soruşursan: bu necə mümkün ola bilər? Mən nə istəyirəm? Mən nə edirəm?

Təxminən belə cavab verirəm: mən meşə vəhşisiyəm, heç meşədə də olmamışam, çirkli bir çuxurda uzanmışdım (ora yalnız mənim orada olduğuma görə çirkindir) və birdən genişlikdə səni gördüm,

bütün gördüyüm möcüzələrdən ən möcüzəlisi olan səni gördüm, hər şeyi unutdum, özümü də unutdum, qalxdım və yaxına gəldim - bu yenilikdən, doğma azadlıqdan hələ bir az qorxsam da, hər halda yaxına getdim, sənə sıx-sıx qarışdım, sən isə o qədər mehriban idin ki, sənin önündə yumaq kimi büzüşərək, sanki haqqım çatır kimi, üzümü əllərimə söykədim, elə xoşbəxt, elə məğrur, elə azad, elə qüdrətli idim ki, elə bil ovcunda öz evimi tapmışdım, - bu fikir məndən əl çəkmirdi: evimi tapmışdım - amma mən mahiyyətcə vəhşi idim, vəhşinin evi isə meşədə, yalnız meşədə olur, bu genişlikdə isə mən yalnız sənin mərhəmətin sayəsində yaşayırdım, sənin gözlərindən, heç özüm də dərk etmədən (axı mən hər şeyi unutmuşdum), öz taleyimi oxuyurdum. Bu çox uzun çəkə bilməzdi. Hətta zərifdən zərif əllərinlə mənə sığal çəksən də, sən meşəyə, mənim yuvama aid olan qəribəliklərimi görməyə bilməzdin, əsl vətənimdən gəlmə xüsusiyyətlərim barədə qaçılmaz olan "qorxu" haqqında söhbətlərin təkrarlanması başlandı, onlar qəlbimi sıxdı (sənin qəlbini də, lakin səninkini nahaq yerə sıxırdı). Hər biri həssas əsəblərimə toxunurdu və mənə getdikcə aydın olurdu ki, sənin üçün necə iyrənc əzabam, hər yerdə yoluna çıxan əngələm - Maksla bağlı anlaşılmazlıq da buradan gəldi. Qmyundda hər şey aydınlaşdı, sonra Yarmilanın canıyananlığı və anlaşılmazlığı meydana çıxdı, sonra da B. ilə bağlı bu axmaqlıq, kobudluq və laqeydlik horrası yarandı, bunların arasında da çoxlu xırda şeylər oldu. Mən kim olduğumu xatırladım, sənin gözlərindən

oxudum ki, məni aldatmırsan, sonra da özümün dəhşətli yuxumu (öz yerində olmayıb, amma orada, sanki öz evindəki kimi yerləşən insan haqqındakı yuxu) real həyatda gördüm, mən hiss etdim ki, geriyə sürünməliyəm, öz qaranlıq yerimə qayıtmalıyam, günəş işığına dözə bilmirdim, kədər içərisində idim, azmış vəhşi kimi var gücümlə qaçdım və həmin bu əl çəkməyən fikir yarandı: "Onu da özümlə götürsəydim". Həm də onun əksi olan fikir də var idi: "Məgər onun olacağı yerdə qaranlıq olacaqmı?"

Sən soruşursan ki, mən necə yaşayıram. Bax bu cür yaşayıram. Birinci məktub artıq getmişdi ki, sənin məktubun gəldi. Bunun altında, "qorxunun" altında gizlənənlərdən başqa, şeylərin hamısından yayınaraq, - bunlardan ürəyim bulanır, ona görə yox ki, onlar ürəkbulandıran şeylərdir, ona görə ki, mədəm çox zəifdir - bunlardan yayınaraq hər şeyin, sənin söylədiyindən daha sadə olduğunu görmək olar. Təxminən belədir: tənhalıqda natamamlığa dözmək lazımdır, hər an bu belədir, amma ikilikdə natamamlığa dözmək lazım deyildir. Məgər gözü və ya ürəyi qoparıb atsan, başqa göz və ürək yoxmudur? Axı bu elə də pis deyildir, bu, şişirtmə və yalandır, əslində, hər şey şişirdilir, təkcə qüssə əslində olduğu kimidir, onu şişirtmək olmur. Amma qüssənin həqiqiliyi də onun barəsindəki hər cür yalanın ifadəsi qədər həqiqi deyildir.

Cəfəngiyat kimi səslənir, amma o elə belədir ki, vardır.

Və mən deyəndə ki, sən mənim üçün ən sevimlisən, bunun özü də əsl sevgi deyildir; sevgi odur ki, onu bıçaq kimi özüm-özümə sancıram.

Yeri gəlmişkən, sən özün də deyirsən: *"Nemate sily milovat"*[146]. Məgər bu, "heyvan" və "insan" arasında kifayət qədər fərq deyilmi?

Sən sona qədər, yaxud da heç olmasa, qismən başa düşməyi bacarmırsan ki, söhbət nədən gedir, Milena. Heç mən özüm də başa düşmürəm, mən hələ də bu partlayışdan tamam titrəyirəm, özümü ağılsızlığa qədər çatdırıram, bu nə deməkdir, o gələcəkdə məndən nə istəyəcəkdir - bilmirəm. Təkcə onun indi nə istədiyini bilirəm: sakitlik, qaranlıq, mağara. Yalnız bunları bilirəm və ona baş əyməliyəm, başqa cür bacarmıram.

O, bir partlayış idi, bir hissəsi artıq keçdi, amma onu doğuran güc daxilimdə dayanmadan vibrasiya edir, onun səsini mən indiyə qədər də eşidirdim, sonra da eşidəcəyəm, çünki mənim bütün həyatım bu nəhəng yeraltı səsi yaradır, o sussa, həyatım da bitər, axı o, asan və sadədir, lap göz qırpmaq kimidir. Məgər biz bir- birimizi tanıyan vaxtdan bəri o daim eşidilmirmi və məgər o olmasaydı, sən heç olmasa ötəri bir baxışla olsa belə, məni təltif edərdinmi?

Əlbəttə ki, bütün bunları rədd edib demək olmaz ki, indi hər şey keçdi, indi sakitləşmişəm, xoşbəxtəm və bizim münasibətimizdən tamamilə məmnunam. Belə deməzsən, bu təxminən doğru olsa da

(məmnuniyyət var, yalnız məlum mənada xoşbəxtlik də vardır, amma səssizlik yoxdur), axı mən daim insanlara dəhşət aşılayacağam, ən çox da öz-özümə. Sən nişan haqqında xatırlamısan; əlbəttə, orada hər şey çox sadə idi - ağrı ilə sadə yox, onun təsiri ilə sadə idi. Sanki sən iyrənc bir həyat yaşamısan və birdən-birə səni bu iyrəncliyə görə cavab verməyə çəkmişlər, artıq başın məngənədədir, bir qayka sağ gicgahın, bir qayka da sol gicgahının tuşunda bərkidilib, onları yavaşyavaş bərkitməyə başlayırlar, sən isə ya deməlisən ki, "Bəli, bu iyrənc həyat mənim üçün əzizdir", ya da "Yox, mən ondan əl çəkirəm".

Əlbəttə, nə qədər ki, ciyərlərin partlamamışdır, "yox" deyəcəksən.

İndiki hərəkətlərimi əvvəlki əhvalatlarımla yanaşı qoymaqda haqlısan, mən axı elə əvvəlki kimi qalmışam və eyni hisləri yaşayıram. Fərq yalnız odur ki, indi təcrübəm vardır və etirafımı yubatmıram ki, onu məndən qopartmaq üçün məngənəyə salsınlar, onu gətirən kimi artıq qışqırıram, vicdanım artıq bu cür gərginləşib, o qədər güclü olmasa da, tamamilə gücsüz olsa belə, gərginləşib. Daha bir şey: sən soruşanda ki, bir başqasına yox, yalnız sənə həqiqəti söyləmək, özümün və sənin naminə həqiqəti söyləmək olarmı? - Əlbəttə ki, səndən yalnız həqiqəti eşitmək mümkündür.

Amma sən kədərlə deyəndə ki, səndən məni tərk etməməyini xahiş etmişəm, bu sözündə sən haqlı deyilsən. Bu məsələdə mən əvvəllər də indi olduğum mövqedə idim. Mən sənin baxışlarınla yaşayırdım

(burada heç bir şəxsiyyəti ilahiləşdirmək yoxdur - belə baxışlar hər kəsi ilahiləşdirir), ayaqlarımın altında real torpaq yox idi; bundan çox qorxurdum, mən öz torpağımdan nə qədər yüksəklərə qalxdığımı tamamilə təsəvvür etmirdim. Bu həm mənim üçün, həm də sənin üçün çox pis idi. Həqiqətən, bircə söz, ələdüşməz gerçəyin bircə sözü kifayət idi ki, məni boyum bərabərinə çəksin, sonra daha bir söz və daha da enmə, nəhayət, bütün dayaqlar yox oldu, mən yerə düşdüm, amma mənə yenə də elə gəldi ki, çox yavaş düşürəm. Mən qəsdən bu cür "gerçək sözlərindən" misal gətirmirəm, çünki o, adamı haldan çıxarır və heç vaxt sona qədər doğru olmur.

Milena, səndən xahiş edirəm ki, sənə məktub yaza bilməyim üçün başqa bir imkan fikirləş. Yalançı açıqcaları göndərmək axmaqlıqdır; sənə hansı kitabları göndərəcəyimi özüm də unutmuşam; sənin nə vaxtsa hədər yerə poçta gedəcəyini düşünmək dözülməzdir; ayrı bir imkan fikirləş, səndən xahiş edirəm.

Bazar ertəsi, axşam

Beləliklə, sən çərşənbə günü poçta gedirsən və məktub isə yoxdur, daha doğrusu, şənbə gününün məktubu olacaqdır. Büroda yazmağı bacarmadım, çünki işləmək istəyirdim, amma işləyə də bilmədim, çünki sənin haqqında düşünürdüm. Axşama yaxın yataqdan qalxa bilmədim, bu çox yorulduğumdan yox, çox "ağır" olduğumdan idi, daim bu sözü işlədirəm, o mənə uyğun gələn yeganə sözdür, başa düşürsənmi? Bu, "gəminin ağırlığı" kimidir, sanki idarəetməni itirib və

dalğalara deyir: "Mən özüm üçün çox ağıram, sizin üçün isə çox yüngüləm". Amma bunun özü də tam dəqiq deyildir, bunu müqayisə ilə ifadə edə bilməzsən.

Amma əslində ona görə yazmadım ki, özümü bulanıq, dumanlı hiss edirəm: sənə çox-çox vacib şeylər barədə o qədər yazmaq lazımdır ki, heç bir sərbəst vaxt bunun üçün qüvvələri toplamağa bəs eləməz. Bu belədir ki var.

İndiki vaxt haqqında deməyə sözüm yoxdur, gələcək haqqında isə, ümumiyyətlə, heç bir sözüm yoxdur! Mən, doğrudan da, xəstə yatağından indi-indi dururam (zahirdən bu, "xəstə yatağı"na bənzəyir), hələ də yatağa meyilliyəm və hər şeydən artıq oraya qayıtmaq istəyirəm. Amma bu yatağın nəyi ifadə etdiyini də bilirəm.

Milena, haqlı olaraq həmin insanlar haqqında yazmısan: "Nemate sily milovat". Amma sən məktub yazanda bunu ədalətli hesab etmirdin. Ola bilsin ki, onların sevgisinin gücü ondadır ki, onlar sevməyi bacarırlar. Amma burada da belə insanlar üçün aşağılayıcı bir çalar vardır. Əgər onlardan biri öz sevgilisinə deyirsə ki, "İnanıram ki, sən məni sevirsən", bu daha da kiçik bir söz olan "Mən sənin sevgilinəm" sözündən heç də başqa bir şey deyildir. Başqa sözlə, bunlar sevgililər yox, dil mütəxəssisləridir.

Sənin məktubundakı "cütlərdəki natamamlıq", hər halda, anlaşılmazlıqdır.

Mən axı, olsa-olsa, onu nəzərdə tuturdum ki, öz çirkinliklərimdə yaşayıram və bu mənim işimdir. Amma buraya səni də çəkmək - bu tamam başqa şeydir, həm də, sadəcə olaraq, sənə qarşı zorakılıq deyildir, hələ bir xırdaçılıqdır da. Düşünürəm ki, başqaları üzərində zorakılıq, hər şeydən əvvəl, ona aid olduğu üçün yatmağıma mane ola bilərdi. Yox, iş bunda deyildir. Bütün dəhşət ondadır ki, sənə baxanda öz pisliyimi daha aydın şəkildə dərk edirəm, əsası odur ki, elə bu səbəbə görə bundan xilas olmaq daha çətinləşir, bir az qeyri-mümkün olur (bu bütün hallarda qeyri- mümkündür, bu halda isə mümkünsüzlük yüz qat artır). Və qorxudan alnımda tər yaranır; sənin hansısa bir günahından heç söz belə, gedə bilməz, Milena.

Səhv eləmişəm və çox təəssüf edirəm ki, sonuncu məktubumda keçmiş vəziyyətlərlə əlaqədar müqayisələr aparmışam. Gəl birlikdə onların üstündən xətt çəkək.

Deməli, sən, doğrudanmı, ağrımırsan?

Milena, əlbəttə, Praqada belə bir adam yaşayır, o sənin ləyaqətindir, ona görə mübarizə aparan gecədən başqa, heç kəs onu sənin əlindən ala bilməz, o isə hər şeyə görə mübarizə aparır. Bu necə bir ləyaqətdir! Mən onu kiçiltmirəm, o öz- özünü təqdim edir, o elə nəhəngdir ki, sənin yuxarıdakı otağın ayı da qaralda bilir. Sən belə qaranlıqdan qorxmursan ki? Qaranlıq, həm də səmimiyyətsiz bir qaranlıq!

Sənin, mənim "məşğuliyyətlərimdən" nəyi isə görməyin üçün şəkilləri əlavə edirəm. Dörd dənə dirəkdir, ortadakı ikisinin arasından millər keçirilib, "cinayətkarların" əlləri onlara bağlanır; iki başqa

dirəkdən isə ayaqlar üçün millər keçirilmişdir. İnsanı bu cür bağlayandan sonra millər getdikcə aralanır və insan ortadan parçalanır. İxtiraçı sütuna söykənərək qollarını bir-birinə çarpazlaşdırıb, o sanki bütün bunların orijinal ixtira olduğundan qürrələnir, amma əslində isə bunları qəssaba baxaraq öyrənib, qəssab da öz dükanının qarşısında öldürüb təmizlədiyi donuzu beləcə tarıma çəkir.

Mən soruşuram, ümumiyyətlə, mövcud olmayan, amma sənin təsvir etdiyin adamdan qorxursanmı: Vyanadakı həmin adam deyildi, Qmyunddakı həmin adam deyildi, bu, sonuncusu ola bilərdi ki, o da lənətə gəlsin. Bunu bilmək çox vacibdir, çünki biz yenidən görüşəndə yenə də Vyanada olan şey, hətta Qmyundda olan şey baş qaldıracaqdır, həmin məsumluq, heç bir şey baş verməmiş kimi, həmin vaxt aşağıdan, dərinlikdən o gözəgörünməz, mövcud olmayan adama qarşı qəzəblənəcəkdir, o "heç kim", öz-özünə də bəlli olmayan, başqalarından daha az mövcud olan, lakin qüdrətinə görə bütün reallıqlardan daha real olan (məhz buna görə də o qalxmır, niyə də görünməz olmasın?) o adam yenidən hər şeyi darmadağın edəcəkdir.

Bəli, Miçsi K. buraya gəlmişdi, hər şey yaxşı oldu. Amma mən, əgər bu azca da olsa mümkündürsə, başqa adamlar haqqında heç nə yazmayacağam, çünki onların məktublarımıza daxil olması bütün günahların səbəbidir. Amma onlar haqqında yazmayacağımın səbəbi o deyildir ki (onların özləri heç bir şeydə günahkar deyildirlər, onlar, sadəcə, həqiqət yolunu açıblar, onların özləri də bu yolla gedirlər),

onları bu yolla cəzalandırmaq (əgər buna onların cəzası kimi baxıla bilirsə) istəmirəm, sadəcə, mənə elə gəlir ki, artıq onlara burada yer yoxdur.

Burada qaranlıqdır, bu qaranlıq otaqda yalnız aborigenlər hərəkət edə bilirlər, hətta onların özləri də burada güclə səmti müəyyənləşdirə bilirlər.

Bilirdinmi ki, bu ötüb keçəcək? Bilirdim ki, keçməyəcək.

Hələ uşaq vaxtı nəsə axmaqlıq eləyəndə - insanların nəzərində isə axmaqlıq olmayan (və ya həddən artıq axmaq bir şey olan), amma mənim xüsusi nəzərimdə çox axmaq şey olan (əslində, əgər bu, insanların nəzərində heç bir axmaqlıq kəsb etmirdisə, onda bu mənim hansısa bir xüsusi xidmətimin gücü deyil, dünyanın kor olmasının, yaxud onun, sadəcə, yatdığına görə idi) iş tutanda çox təəccüblənirdim ki, hər şey əvvəlki kimi, öz qaydasınca gedir, yaşlılar bir az tutqunlaşsalar da, lakin əsasən, dəyişməyərək heç nə olmamış kimi gəzirlər, onların dodaqları əvvəlki kimi kip sıxılıb (mən həmişə, lap erkən uşaqlıq çağlarımdan bu dodaqlara aşağıdan yuxarıya baxaraq onların sakit və dərkedilməz dərəcədə təbii kip olmaları ilə fəxr edirdim). Bütün bunları bir müddət müşahidə edərək nəticəyə gəldim ki, deyəsən, mən heç bir pis şey etməmişəm və eləyə bilmərəm, heç bir mənada bu mənim işim deyil, mənim qorxum uşaq aldanışıdır, ola bilsin ki, yenidən hər şeyi qorxub dayandığım yerdən başlayacağam. Vaxt ötdükcə dünyanın belə dərk olunması tədricən dəyişdi. Əvvəla, o

qənaətə gəldim ki, başqaları hər şeyi çox gözəl hiss edirlər və kifayət qədər də öz hislərini aydın şəkildə ifadə edirlər, sadəcə, mən özüm həmin vaxtadək kifayət qədər itigözlü olmamışam; bu itigözlülüyü mən çox tez əxz etdim. İkincisi, başqa insanların bu dərkedilməzliyini, - əgər o həqiqətən mövcuddursa - məni təəccübləndirməkdə davam etsə də, artıq öz xeyrimə sübut kimi istifadə etmədim.

Beləliklə, onlar heç nə hiss etmədilər, varlığımın heç bir zərrəsi də onların dünyasına nüfuz etmədi, mən onlar üçün şübhədən kənarda idim, mənim yolum onların dünyasından kənarda idi; əgər mənim varlığım çay idisə, onun çox iri bir qolu onların dünyasının xaricindən axırdı.

Yox, Milena, səndən çox xahiş edirəm, məktub yazmaq üçün başqa imkanlar düşün, tap. Sən hədər yerə poçta getməməlisən, hətta sənin balaca məktubdaşıyanın da - o haradadır? - oraya hədər yerə getməməlidir, hətta poçtdakı xanımdan da artıq sorğu-sual edilməməlidir. Əgər sən başqa yol tapmasan, onda bununla barışmalı olacağam, amma heç olmasa onu tapmağa çalış. ***

Dünən mən səni yuxuda gördüm. Təfərrüatları yadımda qalmayıb, amma biz hey bir-birimizə çevrilirdik - sən mən olurdun, mən isə sən olurdum. Axırda, necə oldusa, sən yandın, mən xatırladım ki, alovu parça ilə söndürmək olar, köhnə pencəyimi qapdım və sənin üzərindəki alovu döyəcləməyə başladım. Amma yenə də çevrilmə oldu və belə çıxdı ki, sən yox imişsən və mən özüm yanırmışam, elə özüm

də pencəklə özümün alovumu söndürürəm. Amma bu kömək eləmədi və mənim əvvəlki qorxumu təsdiq elədi ki, bu üsulla alovla mübarizə aparmaq olmaz. Bu vaxt yanğınsöndürənlər gəldilər və axır ki, səni xilas elədilər. Amma sən əvvəlkindən fərqli idin, başqa cür olmuşdun, şəffaf idin, tabaşirlə qaranlığa çəkilmiş şəkil kimi idin, həyat əlaməti yox idi səndə, bəlkə də sən sevindiyindən hissiyyatsız olmuşdun ki, artıq xilas olmuşam, sən mənim qucağıma yıxıldın. Yenə də çevrilmənin qeyri-müəyyənliyi fəaliyyətə keçdi, bəlkə də mən kiminsə qucağına düşdüm.

Elə indicə A. gəldi, sən onu tanıyırsan? Bircə bu vizitlər qurtarsaydı! İnsanlar elə canlı və ölməzdirlər, həqiqətən, ölməzlik mənasında yox, amma onların indiki həyatlarının dərinliklərindəki canlılıqdır. Mən onlardan çox qorxuram. Qorxudan onların gözlərindən istənilən arzularını oxumağa hazıram və minnətdarlıq üçün onların ayaqlarından öpməyə hazıram, təki onlar dəvətsiz-zadsız başqasının görüşünə getsin. Tənhalıqda yenə də yaşayıram, amma müştəri gələndə, o məni formal olaraq məhv edir ki, sonradan öz gücü ilə yenidən diriltsin, amma onun gücü çatmır.

Bazar ertəsi onun yanına getməliyəm, elə buna görə də başım indidən hərlənir.

Milena, niyə sən bizim gələcəkdəki birgə həyatımızdan yazırsan, axı o heç vaxt olmayacaqdır. Bəlkə də sən elə buna görə ondan yazırsan? Bir dəfə biz Vyanada bu barədə ötəri şəkildə danışırdıq, məndə belə

bir hiss var idi ki, bizə tanış olan birisini axtarırıq, biz onsuz darıxırıq, biz onu çağırırıq, onu ən əziz adlarla dilə tutaraq çağırırıq, amma cavab yoxdur; axı o necə cavab verə bilər ki, o nə yanımızda idi, nə də ki, ətrafımızda.

Dünyada, şübhəsiz, həqiqətlər çox azdır, bu da onlardan biridir: biz heç vaxt bir yerdə yaşamayacağıq, nə də bir ümumi mənzildə, yanyana, ümumi masa ətrafında - heç vaxt bu olmayacaq, hətta bizim ümumi şəhərimiz də olmayacaqdır. Mən az qaldı deyəm ki, buna sabah yataqdan qalxmayacağım kimi əminəm (tək özümün qalxmayacağım kimi! Mən özümü özümün altımda görürəm, özümü ağır bir xaçın altında yatan kimi görürəm, o məni yerə sıxır, üzüstə uzanmışam, azca qımıldanmaq üçün, üzərimə sərilmiş meyitin ağırlığına üstün gəlmək üçün çox ağır bir iş görmək lazım olur) və büroya getməyəcəyəm. Və elədir ki, var, yəqin ki, qalxmayacağam, amma qalxmaq lazım gələrsə, ondan insan gücündən azca çox güc sərf etməli olacağam, mən onu, yəqin ki, eləyə biləcəyəm - azca insan qüvvəsindən artıq güclə mən birtəhər qalxaram.

Amma sən bütün bu mühakimələri - qalxaram, yaxud qalxmaram - hərfi mənada qəbul etmə, işlər, həqiqətən, o qədər də pis deyildir; məsələ odur ki, sabah duracağıma bizim birgə yaşayacağımızdan daha çox əminəm. Yeri gəlmişkən, Milena, məni, özünü və təsəvvürəgəlməz dərəcədə hündür dalğaları olan "Praqa" ilə "Vyana" dənizlərini qiymətləndirəndə, yəqin ki, bu rəydə olursan.

Çirkinlik və ya pisliyə gəlincə isə, niyə dönə-dönə onu nümayiş etdirməməliyəm, axı o mənim yeganə sahib olduğum şeydir (özüm tam əmin olmasam da, elə bütün insanların da sahib olduğu şeydir). Bəlkə ciddilikdəndir? Bu, deyəsən, özünü doğrultmaq üçün yeganə səbəbdir.

Ölüm haqqındakı fikirdən dəhşətə gəlirsən? Mən isə qorxudan dəhşətə gəlirəm. Bu çox pis əlamətdir. Ölümü arzulamaq, amma ağrını qəbul etməmək. Yoxsa insan ölümlə risk edə bilər. Səni, Bibliya göyərçinləri kimi, buraya göndəriblər, amma yaşıl bir budaq tapa bilmədiyin üçün yenidən həmin qaranlıq gəmiyə doğru sürünürsən.147

***

Həmin iki sanatoriyanın məlumat kitabçalarını aldım, orada sürprizlər, əlbəttə, ola bilməz, amma qiymətlərin yüksək olması və Vyanadan belə uzaq olması ürəkaçan deyildir. Bu mənada bunların hər ikisi birbirinin eynidir. Ağlagəlməz dərəcədə bahalıqdır, gündəlik xərclər 400 kron, bəzən isə hətta 500 krondur, hələ bu da son həddeyildir.

Vyanadan dəmiryolu ilə üç saatlıq və yarım saatlıq da avtomobillə yol getmək gərəkdir, başqa sözlə, yenə də uzaqdır, təxminən, Qmyund kimidir, özü də bu sərnişin qatarı ilə gedəndə belədir. Qrimmenştayn bir az ucuzluq olduğu üçün seçim edərkən, heç olmasa, onun üzərində dayanıram.

Görürsənmi, Milena, yalnız özüm haqqında düşünürəm, bu daim belədir, ya da ikimizə aid olan vacib məsələləri əhatə edir, yerdə qalan bütün şeyləri bir kənara qoyuram, hətta "Kmen" və "Tribuna" üçün sənə təşəkkür də etmədim, sən isə hər şeyi çox əla şəkildə icra etmisən. Masamın üstündə olan nüsxəni sənin üçün göndərirəm, amma sən hər hansı qeydləri almaq istəsən, mən onda onu yenidən oxumalıyam, bu isə asan məsələ deyildir. Sənin başqa tərcümələrini böyük məmnunluqla oxuyuram. Tolstoyun söhbəti ruscadanmı tərcümə edilmişdir?

Deməli, sən qriplə xəstələnmisən? Heç olmasa, burada vaxtımı çox şən keçirdiyim üçün özümü günahlandırmalı oluram. (Bəzən mən başa düşmürəm ki, bu insanlar "şən" anlayışını necə düşünmüşlər, yəqin ki, onu kədərin əksi hesab etmişlər.) Əminəm ki, sən artıq mənə yazmayacaqsan, amma bu məni təəccübləndirmədi və kədərləndirmədi. Ona görə kədərləndirmədi ki, bütün kədərli hallarda o zəruri görünür və həm də ona görə ki, deyəsən, bütün dünyada mənim bədbəxt ağırlığımı müəyyənləşdirəcək bir ağırlıq yoxdur və ona görə təəccübləndirmədi ki, ümumiyyətlə, əvvəllər də əgər deməydim ki, "İndiyə qədər mən sənin mehriban idim, indi isə, vəssalam, mən gedirəm", təəccüblənməzdim. Əlbəttə ki, qəribə şeylər baş verir, amma bu daha təəccüblü şeylərdən, məsələn, bizim hər səhər durduğumuzdan daha az təəccüblüdür. Amma bu sürpriz,

ümumiyyətlə, məni ruhlandırmır, əksinə, onu xoşagəlməzlik kimi qəbul edirəm.

Milena, sən xoş sözə layiq işlər görürsənmi? Bütün olanlara əsasən sənə belə sözlər demək şərəfinə nail olmamışam, amma bacarsaydım, deyərdim.

Biz düşündüyümdən daha tez görüşəcəyik? (Mən "görüşəcəyik" yazıram, sən isə "bir yerdə yaşayacağıq" yazırsan.) Amma düşünürəm ki (və hər yerdə onun təsdiqini görürəm, hər yerdə, hətta buna əlaqəsi olmayan şeylərdə də, hər şey bunu deyir), biz heç vaxt bir yerdə yaşamayacağıq, nə bu yaxında, nə də gələcəkdə, daha doğrusu, bu heç vaxt olmayacaqdır.

Qrimmenştayn, hər halda, daha yaxşıdır. Qiymətlərdəki fərq gündə 50 krondur, bundan əlavə, digər sanatoriyalarda yataq rejimi üçün ləvazimatları özünlə aparmalısan (ayaqlar üçün xəz bürüncək, yastıq, adyal və s.; mənimsə belə şeylərim yoxdur), Qrimmenştaynda bunları icarəyə götürmək olar, "Vyana meşələrində" bunlar böyük girovla verilirsə, Qrimmenştaynda belə deyildir, Qrimmenştayn hündürdədir və s. Yeri gəlmişkən, hələlik heç bir yana getmirəm. Bütün həftə ərzində özümü çox pis hiss etmişəm (azca hərarətim var idi, elə təngnəfəs olurdum ki, masanın arxasından qalxmağa qorxurdum, üstəlik də güclü şəkildə öskürürdüm), amma görünür ki, bu, uzunmüddətli gəzintinin nəticəsidir — gəzinti vaxtı dayanıb xeyli

söhbətlərə yol vermişəm, indi hər şey xeyli yaxşılaşmışdır və sanatoriya yenə də ikinci plana keçib.

Sanatoriya üçün məlumat kitablarını aldım. "Vyana meşələri"ndə cənub tərəfə qapısı olan otaq 380 kron və daha bahadır, Qrimmenşteyndə isə ən bahalı otaq 360 krondur. Fərq çox böyükdür, amma hər iki halda bu, iyrənc bir qarətdir. Nə etmək olar, əvvəlcə iynə vurdurmaq üçün pul ödəyirsən, sonra isə dərmanların özlərinə də ayrıca olaraq ödəyirsən. Mən hər hansı bir kəndə getmək istəyirdim, ən yaxşısı isə Praqada qalmaq və hansısa bir sənət öyrənməkdir; indi mən hər şeydən az sanatoriyanı istəyirəm. Mən orada nə görmüşəm ki? Baş həkim səni dizləri arasında sıxaraq, karbol qorxulu əlləri ilə, barmaqları ilə ət tikəsini ağzına təpişdirir, sonra da onu boğazınla mədənə tərəf ötürür. ***

İki saat taxtda uzanaraq daim yalnız sənin haqqında düşündüm.

***

Sən unudursan ki, Milena, biz bir yerdəyik, döşəmədəki varlığa - mənə baxırıq, bu halda baxan "mən" isə cansız olmalıdır.

Öz aramızdır, payız da mənimlə oynayır, gah şübhəli tərzdə mənə isti olur, gah da ki, həmin tərzdə soyuq olur, amma buna əhəmiyyət vermirəm, yəqin ki, hər şey elə də pis deyildir. Mən, əslində, Vyanadan keçib getməyi düşünürəm, çünki ciyərlərimin vəziyyəti yaydakına nisbətən həqiqətən də pisdir - tamamilə təbii olaraq küçədə danışmaq mənim üçün çətindir, nəticəsi də xoşagəlməz olur. Doğrudan

da bu otaqdan getməli olsam, onda tez Qrimmenştayna çatıb *şezlonqa* 148 yıxılmaq istəyirəm. Ola bilsin ki, səyahət mənim xeyrimə olacaqdır, çünki Vyana havasını mən, həqiqətən də, həyatverici hesab edirəm.

"Vyana meşələri" yaxında yerləşsə də, məsafə fərqləri o qədər də böyük deyildir. Sanatoriya Lebbercdorfda yerləşmir, stansiyadan sonra sanatoriyaya qədər tam yarım saat avtomobil yolu vardır. Ola bilsin ki, bu sanatoriyadan mən Badenə getdim - bu yəqin qaydalara ziddir - onda elə həmin müvəffəqiyyətlə, deyək ki, Qrimmenştayndan
Vyananın Noyştadt qəsəbəsinə də gedə bilərəm, bunların fərqi nə sənin, nə də mənim üçün böyük deyildir.
Belə çıxır ki, Milena, sən əvvəlki kimi məndən qorxmursan və mənə qarşı nifrət hissin, yaxud da buna bənzər bir hissin yoxdur? Sənin ciddiliyin və sənin gücün hansı dərinliklərdən gəlir?

Çinlilərin *"bubaçka kniha"149* adlı kitabını oxudum, bunu ona görə xatırladım ki, burada söhbət yalnız ölümdən gedir.

Bir adam ölüm yatağında oturur və ölümə yaxın olduğunun imkan verdiyi qədər rahatlıqla deyir: "Bütün həyatım boyu, onu bitirmək arzusu ilə çalışdım". Başqa bir əhvalatda şagird ancaq ölüm haqqında danışan müəlliminə bunu deməyə cürət edir: "Sən həmişə ölümdən danışırsan, amma özün ölmürsən". - "Hər halda mən ölürəm. Məhz özümün sonuncu nəğməmi oxuyuram. Bu mahnı birində uzun olur, digərində qısa. Amma fərq yalnız bir neçə sözdə olur".

Ölümcül yaralanaraq səhnədə özünün sonuncu ariyasını oxuyan qəhrəmana gülmək, həqiqət olsa da, ədalətsizlikdir. Biz uzanaraq illərlə oxuyuruq.

Bir də *"Güzgü adamı"*150 nı oxudum. Nə qədər tükənməz həyat enerjisidir! Yalnız bir yerində yüngülcə qüsur vardır, əvəzində isə hər yerdə bolluq və bərəkət vardır, hətta xəstəlik də bərəkətlidir. Kitabı bir gecəyə acgözlüklə içdim.

***

Səni "indi" orada incidən nədir? Əvvəllər elə düşünürdüm ki, bunun qarşısında gücsüzəm, amma özümün yalnız indi gücsüz olduğumu bildim. Sən də belə tez-tez ağrıyırsan.

İndicə direktorun yanında idim. İş ondadır ki, keçən həftə Ottla iradəmin əleyhinə olaraq onun yanına getmişdi, ştatda olan həkim məni müayinə etmişdi və yenə də, iradəmin əksinə olaraq, məni məzuniyyətə göndərirlər.

Milena, bağışla, yəqin ki, bu cür qısa yazmağım axırıncı dəfə olacaqdır, əvvəlcədən otaq sifarişinə görə həyəcanlanmışdım (aydın olmuşdu ki, sifariş baş tutmayıb). Nə olursa-olsun Qrimmenştayna gedəcəyəm, amma xırda-para şeylər hələlik mənə mane olur, güclü adamlar belə şeylərin öhdəsindən asanlıqla gələr (belə adam heç Qrimmenştayna getməzdi!), mən isə bacarmıram. Bundan əlavə, sanatoriyanın bildirişinə əsasən müvəqqəti yaşamaq üçün yerli hökumətdən icazə almalıyam, bu icazəni, yəqin ki, zəmanət təqdim etdikdən sonra verəcəklər, amma onu hələ də almamışam.

Nahardan sonrakı vaxtımı küçədə keçirirəm, indi buranı yudofobiya, yəni *"Yəhudi düşmənliyi"151* həyəcanları bürüyüb. Özüm kiminsə yəhudiləri *"prasive plemeno"152* adlandırdığını eşitdim. İnsan hiss edəndə ki, ona bu ölkədə nifrət edirlər, onda onun buradan çıxıb getməsini necə başa düşməmək olar? (Bunun üçün sionizmə, yaxud xalq birliyi hisslərinə ehtiyac yoxdur). İnsanın dözüb ölkədə qalmasını qəhrəmanlıq hesab edirlər, amma bu, tarakan qəhrəmanlığıdır, çünki onları da heç bir vəchlə vanna otağından yox etmək mümkün deyildir.

İndicə pəncərədən gördüm ki, atlı polislər, süngü taxmış jandarmlar bağırışan kütləni qovur - burada, yuxarıda, pəncərə önündə isə, daimilik mühafizə altında yaşadığın üçün dondurucu xəcalət hissi keçirirəm.

Mən yaxşıyam, buna heç bir söz yoxdur, amma bu məktubu göndərməyə əlim gəlmir, o dərəcədə özümə qapanmışam ki, səndən məktub gəlməməyimin səbəbini yalnız bir şeydə görürəm.

Yerli hökumətə təqdim olunacaq zəmanəti artıq göndərmişəm; icazə gələndən sonra isə bütün qalanları (otaq sifarişi, pasport) isə uzun vaxt aparmayacaqdır, mən də onda gələcəyəm. Bacım məni Vyanaya qədər ötürmək istəyir və həqiqətən də mənimlə gələcək, Vyanada da, yəqin ki, iki gün qalıb bir az gəzəcəkdir, axı o hamiləliyinin dörd ayındadır və onun doğulmasına qədər bir az səyahət etmək istəyir.

Erenştaynın 153, sənə yazdıqlarına əsasən, mənim düşündüklərimdən daha iti nəzərləri var imiş. Ona görə də onun haqqında məndə yaranmış təəssüratlara yenidən baxmalıyam, amma onu görmək məsələsi hələlik heç cür alınmır. Onunla görüşümüz cəmi yarım saat davam elədi - onunla özümü çox yaxşı hiss edirdim, mənəvi qohumluq bağlılığı barədə bir söz demək olmasa da, yad da deyildik, rahatlıq hissiyyatı, qeyri-ögeylik münasibətləri var idi, mən belə hisləri qonşu partada oturan məktəblidən duymuşam. Mən ona yaxşı münasibət bəsləyirdim, o mənə çox lazım idi, məktəbin dəhşəti biz ikilikdə olanda vecimizə gəlmirdi, onun qarşısında başqalarından daha çox səmimi olurdum, amma mahiyyətcə ittifaqımız acınacaqlı ittifaq idi. Təxminən Erenştayn kimi, onda da qüvvələrin coşub-daşdığını hiss etmədim. Onun niyyəti çox xeyirxahdır, gözəl danışır və çoxlu çalışır, amma hər küncdə belə köməkçilər olsaydı, onlar Qiyamət gününün vaxtını yaxınlaşdıra bilməsələr də, bugünkü günü daha da dözülməz hala gətirərdilər.

Sən*"Tanya"da154* keşişlə Tanya arasındakı danışığı oxumusanmı? Müəllifin niyyətinin əksinə olaraq bu, gücsüz köməyin bir nümunəsidir, Tanya onun gözləri qarşısında, təsəlli kabusunun təsirindən ölür.

Erenştayn öz-özlüyündə çox güclüdür, onun gecələr oxuması qeyriadi dərəcədə əladır (kitabda155 Krausla bağlı müəyyən yerləri çıxmaq şərti ilə). Və artıq dediyim kimi, onun nəzərləri çox itidir.

Yeri gəlmişkən, Erenştayn az qalır ki, şişmanlaşsın, hər halda, o çox yekəlibdir (buna baxmayaraq, o gözəldir, bunu inkar etmək olmaz!) və arıqlar haqqında yalnız onu bilir ki, onlar arıqdırlar. Əksər hallarda bu tamamilə kifayətdir, məsələn, mənim üçün.

Jurnallar yubanıb, yeri gələndə bunun səbəbini sənə deyəcəyəm, amma hər halda, onlar gələcəkdir.

Yox, Milena, hər ikimizin güman elədiyi vəziyyət Vyanada yoxdur, biz heç o vaxt da bu imkana malik deyildik, əllərimlə yuxarıdan yapışıb özümü yuxarı dartaraq barmaqlıqlar arasından baxmışdım, sonra yaralanmış əllərim boşalmış və yıxılmışdım. Əlbəttə ki, bizim üçün hansısa bir imkan mövcuddur, dünya imkanlarla doludur, amma o hələ mənə məlum deyildir.

Saat qrafikləri barədəki yazılarınla məni çox sevindirdin. Onu coğrafi xəritə kimi öyrənirəm. Onlar, heç olmasa, etibarlı şeylərdir. Amma iki həftədən az olmayan bir müddətdə gələ bilməyəcəyəm, ola bilsin ki, bir az da gec. Məni hələ də müəyyən şeylər büroda saxlayır; əvvəllər mənə təcili cavablar yazan sanatoriya indi vegetarian pəhrizimlə bağlı sorğuma inadlı şəkildə susmaqla cavab verir; elə özüm də bu səfərə bir elin səfər edəcəyi kimi hazırlaşıram: onların köçməyə ya qətiyyətləri çatmır, ya bəzilərini buna inandırmaq lazım gəlir, nəticədə isə hamı gözləyir, amma gedə bilmirlər, çünki uşaqlardan biri ağlayır. Üstəlik, az qala bu səyahətdən az qalır ki, qorxuya düşüm, çünki (məsələn, dünən, müalicə olduğum uzun illər

ərzində ilk dəfə olaraq, ona iyirmi beş dəqiqə işləmiş artıq yataqda idim, ona iyirmi beş dəqiqə işləmişdən ta təxminən on birə qədər fasiləsiz olaraq öskürdüm, sonra yatdım, saat on ikidə sağ böyrüm üstə çevrildim və yenidən saat birə qədər öskürdüm) mehmanxanada heç kəsin buna dözməyəcəyindən çəkinirəm. Keçən il vaqonun yataq yerində, heç bir çətinlik olmadan getmişdim, amma indi bunu heç cür təsəvvür edə bilmirəm.

Bu heç də belə deyildir, Milena. İndi sənə məktub yazan adamı Merandan tanıyırsan. Sonra biz bir yerdə idik və bir-birimizi tanımaq barəsində söhbət belə gedə bilməzdi, daha sonra yenidən ayrıldıq.

Bu haqda yenə də nələri isə demək istərdim, amma sözlər qəhərlənmiş boğazımdan çıxa bilmədi.

Elə mən də beləyəm. Tez-tez düşünürəm ki, bax bu haqda sənə yazmalıyam, sonra isə yaza bilmirəm. Yəqin ki, feldfebel Perkins əllərimdən tutur, elə ki, o, bir dəqiqəlik buraxır, gizlicə, cəld bir neçə söz yazıram.

Sənin məhz bu yeri tərcümə etməyin, hislərin qohumluğundan xəbər verir. Bəli, işgəncə mənim üçün çox zəruridir, mən məhz işgəncə ilə məşğul oluram - işgəncə verən və işgəncə verilənlərin tərəfindən çıxış edirəm. Niyə? Təxminən Perkinsdə olan səbəb üzündən, bir az da mexaniki, ənənəvi üsulla: lənətə gəlmiş ağızdan lənətlənmiş sözü eşitmək üçün.

Buradakı axmaqlığı mən bir dəfə belə ifadə etmişdim (axmaqlığı etiraf etmək heç nəyi dəyişmir): "Heyvan sahibinin əlindən qırmancı alır və özü özünü qırmanclayır ki, özü ağa olsun, amma fərqində olmur ki, bu, sahibin qırmancda yaratdığı yeni düyünün fantaziyasıdır".

Əlbəttə ki, işgəncə etmək yaxşı şey deyildir, əgər düyün açılsaydı, İsgəndər də ona işgəncə etməzdi.156

Öz aramızdır, sanki burada da yəhudi adəti vardır. Yəhudilərin əleyhinə bu qədər yazılar çap edən "Venkov"157 bu yaxınlarda baş məqaləsində sübut edib ki, yəhudilər hər şeyi korlayırlar və xarab edirlər. Onlar hətta orta əsrlərdəki flagellantizmi 158 də xarab eləyiblər.

Təəssüf ki, təfsilatı tapıb oxuya bilmədim, orada yalnız bir ingiliscə kitaba ünvanlanmış materiallar var idi. İndi universitet kitabxanasına getmək üçün çox "ağıram", amma çox istərdim ki, yəhudilər onlara çox uzaq olan orta əsrlərdəki bu hərəkatın başına nə iş açmışlar. Bəlkə bir tanış alimin vardır ki, onun haqqında nə isə bilir?

Sənə kitabları göndərdim. Qəti şəkildə bildirirəm ki, heç də narahat olmuram və son zamanlar gördüyüm ən məntiqli işlərin biri də budur.

Alyoş satılıb, onu indi mağazalarda yalnız Yeni ilə yaxın tapmaq olacaqdır, bunun əvəzinə Çexovu götürdüm. "Nənə" tamamilə pis nəşr olunub; yəqin ki, sən onu görsəydin almazdın. Amma mən almalıydım, çünki tapşırıq belə idi...

Sən həmin sanatoriyadakı yanğın barədə bir şey oxumusanmı? İndi Qrmimmenştayn ağzınadək dolacaq və burnunu dik tutacaqdır. X. məni orada necə tapıb baş çəkəcəkdir? Sən yazırdın ki, o Merandadır. Sənin ərinlə görüşməyimi istəməməyin, bunu mənim özümün istəməməyimdən güclü ola bilməz. Əgər o özü mənim yanıma gəlməsə - o isə çətin ki, bunu edəcəkdir - bizim görüşməyimiz praktiki surətdə istisna olunur.

Səfər bir az da təxirə düşür, çünki büroda məşğulam. Görürsənmi, "məşğulam" deməyə utanmıram. Əlbəttə ki, bu, iş də ola bilər, tamam başqa şeylər də ola bilər; amma bu mənim üçün yarımyuxu kimi bir şeydir, o ölümə nə qədər yaxındırsa, yuxu da ona o qədər yaxındır. "Venkov" hətta çox haqlıdır. Köçmək lazımdır, Milena, köçmək!

Sən deyirsən ki, Milena, bu sənin üçün anlaşılmazdır. Bu xəstəliyi qəbul etməklə onu başa düşməyə cəhd elə. Bu, xəstəliyin çoxlu simptomlarından biridir, psixoanalizin kəşf etdiyi bir şeydir. Bunu xəstəlik hesab etmirəm və psixoanalitik terapevtik hissəsinə bədbəxt bir aldanış kimi baxıram. Bütün bu xəyali xəstəliklər, nə qədər kədərli olsa da, inamla bağlı şeylərdir, bədbəxtliyə düçar olan adamın cəhdidir, müəyyən təbii əsaslara köklənir; çünki psixoanaliz dinin ilk zərurətinin əsasında fərdin "xəstəliyini" görür, düzdür, burada heç bir dini birliyimiz yoxdur, təbii ki, məzhəblər də yoxdur, yalnız cüzi saylı sektalar vardır, oradan da insanlar tezliklə uzaqlaşırlar, amma ola bilər ki, baxışların müasirliyə yönəldiyi üçün belə görünür.

Lakin real zəminə əsaslanan bu dəyərlər dəyişdirilə bilən xüsusiyyətlər deyildir, onlar lap başlanğıcda insanın mahiyyətinə hopdurulub və sonralar da onun mahiyyətini formalaşdırır (o cümlədən də bədənini) və bu istiqamətə yönəldir. Məgər bunu sağaltmağa güman etmək olar?

Mənim vəziyyətimdə üç dairə düşünmək olar, ən içəridə "A" dairəsi, sonra "B", sonra da "V" dairələrini təsəvvür edək. "A" nüvəsi "B"yə izah edir ki, o niyə əzab çəkməlidir və özünə etibar etməməlidir, niyə imtina etməlidir (bu, imtina deyildir, imtina etmək çox çətindir, bu, sadəcə, imtina zərurətidir), niyə o yaşamağa haqlıdır. (Bu mənada məgər Diogen ağır xəstə deyilmi? Bizlərdən hansımıza İsgəndərin parlaq nəzərləri sataşarsa, məgər xoşbəxt olmarıq? Diogen isə İsgəndərdən məyusluqla xahiş etmişdi ki, günün qabağını tutmasın, o, insanı qarsayan, ağlını əlindən alan yunan günəşinin altında oturmuşdu.) "V" isə yaradıcı adama heç nə izah eləmir, "B", sadəcə, ona əmrlər verir. "B" təhdidedici zərurət altında, qorxudan soyuq tər basmış halda (bəzən də başqa hallarda alnında yaranan, gicgahlarında, yanaqlarında, saçlarının dibində puçurlanan, ümumiyyətlə,
– bütün kəlləsinin tər içində olduğu halda - "V"-də məhz belə olur). "V", ola bilsin ki, təfəkkürdən daha çox, qorxudan göstəriş alaraq fəaliyyət göstərir, o etibar edir, o inanır ki, "A" hər şeyi "B"-yə izah edəcəkdir, "B" də hər şeyi düzgün başa düşərək sonrakına ötürür.

Mən qeyri-səmimi deyiləm, Milena (öz aramızdır, məndə elə bir təəssürat vardır ki, əvvəllər açıq və aydın məktub yazmaq maneram var idi, bu belədirmi?), "həbsxana rejimi"nin yol verdiyi çərçivədə səmimiyəm, bu isə lap çoxdur, "həbsxana rejimi"nin özü isə getdikcə sərtləşir. Amma "bu qayda" ilə gələ bilmərəm, "bu qayda" ilə gəlmək mümkün deyildir. Bir xüsusiyyətim vardır ki, tanışlarımdan məni mahiyyətcə olmasa da, çox güclü dərəcədə fərqləndirir. Hər ikimiz Qərb yəhudilərinin bir neçə xarakterik nüsxələrini tanıyırıq, bildiyimə əsasən, mən də həmin qərbi avropalılardanam, bu bir az şişirdilmiş şəkildədir, çünki mənə bircə saniyə də sakitlik bəxş olunmayıb, ümumiyyətlə, mənə heç nə bəxş olunmayıb, hər şeyi qazanmaq lazım gəlir, özü də nəinki indini, hətta gələcəyi də qazanmalıyam, hətta keçmiş barədə də vəziyyət belədir, amma hər bir adam onu əvvəlcədən alır, bunu da qazanmaq lazımdır, ağır işdir, əgər yer sağa fırlanırsa

- bunun belə olduğunu bilmirəm - onda mən sola fırlanmalıyam ki, keçmişimin də əvəzini ödəyərək onun yerini doldurum. Bütün bu öhdəliklərə görə gücüm tamamilə qalmayıb, mən dünyanı çiyinlərimdə saxlaya bilmirəm, mən qış pencəyinin ağırlığına güclə dözürəm. Əslində, bu gücsüzlüyün təəssüfə layiq olması mütləq deyildir; belə məsələlər üçün heç bir güc bəs eləmir! Burada öz gücünlə ötüşmək cəhdlərinin hər biri ağılsızlıqdır və ağılsızlıqla mükafatlandırılır. Buna görə də, sənin yazdığın kimi, "bu qayda" ilə gəlmək mümkün deyildir. Mən istədiyim yolla getmək gücündə

deyiləm, mən heç o yolla getməyi istəyə də bilmirəm, yalnız sakitlikdə olmağı bacarıram, başqa heç nəyi arzu etməyi bacarmıram da.

***

Bu ona bənzəyir ki, hər bir gəzintidən əvvəl insan təkcə yuyunub, saçını daramaqdan və s. — dən başqa, - elə təkcə bunların özü kifayət qədər yorucudur - üstəlik hər bir gəzintidən əvvəl zəruri olan paltarı tikmək, çəkmələri təmizləmək, şlyapanı düzəltmək, eşilib-didilən yerləri kəsmək və s. kimi işləri də icra etməli olsa da, onlardan bəziləri görülməmiş qalır. Təbii ki, o necə lazımdırsa, o cür alınmır, onun örtbasdır etdikləri şeylərlə müəyyən qədər ötüşmək olar, amma məsələn, Qrabenedə159 birdən hər şey dağılır və o, lüt, tamam cır-cındır içində qalır.

Oradan Köhnə Rinqə160 — geriyə bu görkəmdə qaçmaq necə də böyük əzabdır! Yolunun sonunda isə o Ayzenqassda yəhudi ovuna çıxmış qızğın ovçulara rast gəlir.

Məni düzgün başa düş, Milena, bu insanı batmış adam kimi təsəvvür etmirəm, qətiyyən yox, amma o, Qrabenə gedib çıxarsa da, dəqiq batmış adamdır, orada həm özünü, həm də bütün dünyanı rüsvay edəcəkdir.

Axırıncı məktubunu bazar ertəsi aldım və elə bazar ertəsi də ona cavab verdim.

Danışırlar ki, ərin Parisə gedəcəyini deyib. Bu nədir, köhnə plan çərçivəsindəki müəyyən yenilikdirmi?

Bu gün sənin iki məktubun gəldi. Həmişə olduğu kimi, sən yenə də haqlısan, Milena, öz məktublarımdan utandığım üçün sənin məktublarını açmağa güclə cəsarət edirəm. Və bu həm də ona görədir ki, mənim məktublarım ya həqiqətdir, ya da heç olmasa həqiqətə gedən yolun yarısındadır, Əgər məktublarım yalan olsaydı, sənin cavablarını necə alardım? Buna cavab vermək çox asandır: ağlımı itirərdim. Beləliklə, mənim həqiqətim elə də böyük xidmət deyildir, axı o şeyləri deməyə can atıram ki, onları demək alınmır, o şeyləri izah etməyə çalışıram ki, onları izah etmək mümkün olmur, ciyərlərimdə oturan şeydən danışmaq istəyirəm, sadəcə, orada yaşaya biləcək şeylərdən anlatmağa çalışıram. Yəqin ki, bunların əsasında həmin qorxu vardır, onun haqqında çoxlu söhbətlərimiz olub, amma bu hər yerə yayılmış qorxu, ən nəhəng və ən kiçik qorxu, sözü demək qarşısında yaranan keyləşdirici qorxudur. Düzdür, ola bilər ki, bu təkcə qorxu deyildir, amma nədənsə, qüssə bütün qorxuducu şeylərdən daha yüksəkdə durur.

"O mne rozbil"[161]— bu, təmiz ağılsızlıqdır. Hər şeydə təkcə özüm günahkaram və günahım ondadır ki, mənimlə bağlı həqiqətlər çox azdır, hər halda azdır, yenə də, yenə də yalan, öz qarşımda və insanlar qarşısında qorxudan yaranan yalanlar çoxdur. Bir az doğru ilə nəfəs almaq üçün indi mən bir az susuram. Yalan dəhşətlidir - bundan daha acı mənəvi əzab yoxdur. Ona görə də sənə yalvarıram, icazə ver susum: indi məktublarımda, Vyanada olanda isə danışığımda.

Yazırsan ki, *o mne rozbil,* ancaq sənin necə əzab çəkdiyini mən görürəm; yazırsan ki, yalnız küçələrdə sakitlik tapırsan, mən isə isti otaqda, xalatda və tufli geymiş halda sakitcə otururam və "saat yayı"nın imkan verdiyi vaxta qədər gözləyirəm (mən axı "vaxtı gözləməliyəm").

***

Müvəqqəti yaşama icazəsini alana qədər nə zaman gələcəyimi deyə bilmərəm. Üç gündən artıq müddət üçün yerli hökumətin xüsusi icazəsi lazımdır. Zəmanəti bir həftə əvvəl göndərmişəm.

"O mne rozbil", mən yenidən bu haqda düşünürəm, bunun əksi olan cümlə kimi, bunun özü də düz deyildir.

Bu nə mənim xətamdır, nə də başqa insanların xətası. Sadəcə, mənim yerim ən sakit səssizlikdədir, bax mənim üçün ən düzgün olanı budur.

***

Bu əhvalatı sənin üçün qəzetdən kəsmişəm. *Levini162* Münhendə güllələyiblər, doğrudurmu?

Bu gün cümə axşamıdır. Çərşənbə axşamına qədər Qrimmenştayna getmək üçün tam qərara gəlmişdim. Doğrudur, nə vaxtdır bu haqda düşünürdüm, onda daxili bir təhdid hiss edirdim, görünür ki, qismən buna görə də səfərin vaxtını uzadırdım, amma hesab edirdim ki, bunu asanca dəf edə bilərəm.

Çərşənbə axşamı, gündüz kimsə mənə dedi ki, Praqanın razılığını gözləmək məcburi deyildir, onu Vyananın özündə də almaq olar. Bu qayda ilə yollar açıldı. Günün ikinci yarısını şezlonqda iztirab çəkərək keçirdim, axşam sənə məktub yazdım, amma onu göndərmədim, hələ də güman var idi ki, özümlə bacara biləcəyəm, amma bütün yuxusuz gecəni, həqiqətən də, əzab içində keçirdim. Məndə iki şey bir-biri ilə döyüşür, - onlardan biri getmək istəyir, o birisi qorxur - amma onların hər ikisi hislərimdir, yəqin ki, hər ikisi yaramazdır.

Mən gələ bilmirəm: sənin qarşında duracağımı təsəvvür edəndə belə dözə bilmirəm, gicgahlarımda dözülməz ağrılar yaranır.

Artıq sənin məktubun daxilimdə tablaşılmayacaq bir məyusluq yaradır, indi də üstəlik bu. Sən yazırsan ki, artıq ümidin yoxdur, amma məndən uzaqlaşmağına həmişə ümidin vardır.

Nə sənə, nə də bir başqasına izah edə bilmərəm ki, daxilimdə nələr baş verir. Bunu necə edə bilərəm, axı heç özüm də izah edə bilmirəm.

Amma əsas bu deyildir, əsas odur ki - elə onda da hər şey aydınlaşır: ətrafımdakı atmosferdə insan kimi yaşamaq mümkün deyildir. Sən bunu görürsən, amma hələ də inanmaq istəmirsən?

Şənbə, axşam

Sarı zərfdəki məktubu hələ almamışam; onu açmadan geri göndərəcəyəm.

Əgər yazışmağımıza son qoymağımız yaxşıdırsa, deməli, dəhşətli dərəcədə çaşmışam. Amma səhv etmirəm, Milena.

Sənin haqqında danışmayacağam, işim olmadığına görə yox, ona görə ki, sadəcə, bu haqa danışmaq istəmirəm.

Beləliklə, yalnız özüm haqqında: Milena, sən mənim üçün nə deməksən - sən mənim üçün yaşadığımız bu dünya deməksən, bunu gündəlik sənə göndərdiyim kağız qalaqlarının içində tapa bilməzsən. Bu məktublar elə olduqları kimidir, yalnız əzab verməyə qadirdirlər, əgər onlar əzab vermirlərsə, onda daha pisdir. Onlar nəyi verməyə qadirdirlər? Qmyundakı bir günü - anlaşılmazlıq və utanc gününü, demək olar ki, heç vaxt silinməyəcək utanclıqları verə bilərlər. Mən səni birinci görüşümüzdəki vaxt küçədə olduğun kimi görmək istəyirəm, amma məktublar buna Lerxenfelderştrassın hay-küyündən daha çox mane olurlar.

Amma bunlar da əsas deyildir, əsas odur ki, məktub məktub çərçivəsindən çıxa bilməməyimi bir az da dərinləşdirir, sənin qarşında, elə özümün də qarşımda gücsüzlüyümü artırır, sənin minlərcə məktubların və minlərcə arzularım bunu dəf eləmir və daha da əsas odur ki (bəlkə də o, gücsüzlüyümün nəticəsidir, amma buradakı səbəblərin hamısı toranlıqda gizlənib), sənin qarşısıalınmaz hökmran səsin mənə susmağı əmr edir.

Sənlə əlaqədar şeylər yenə də deyilmədi, əslində, bunun böyük bir hissəsi məktublarında vardır (bəlkə də sarı məktubda, daha doğrusu, teleqramdadır, sən də onu, ola bilsin ki, haqlı olaraq geri qaytarmağımı

tələb edirsən), bir hissəsi isə elə yerlərdədir ki, həmin yerlərdən, şeytan müqəddəs yerlərdən qaçdığı kimi qorxub qaçıram.

Qəribədir ki, mən də sənə teleqram vurmaq istədim, uzun zaman bu fikirlə oynadım, nahardan sonra yatağımda, axşam Belvederdə hey bu haqda götür-qoy elədim, söhbət cəmi-cümlətanı bu mətndən gedir:

"Sonuncu məktubdakı altından xətt çəkilmiş yerlərə mütləq və müsbət cavablar gözləyirəm", amma axırda qərara gəldim ki, bu cümlədə əsaslandırılmamış və ikrahdoğurucu bir etibarsızlıq vardır, ona görə də teleqramı göndərmədim.

Bu məktubun arxasında oturub heç nə etmədən, gecə saat ikinin yarısına qədər ona və onun arxasından sənə baxdım. Bəzən görürəm ki -yuxuda yox ha! - sənin üzün saçlarının arasında gizlənib, mənə onlara toxunmaq nəsib olur, sənin üzün aşkar olur, əlimi sənin alnına, gicgahlarına çəkirəm və bax budur sənin üzünü ovcumda saxlayıram.163

Bazar ertəsi

Bu məktubu cırmaq istədim, istədim ki, teleqram da göndərməyim, teleqramlar ikimənalı olurlar, amma açıqca və məktublar gəldi - bu açıqca və bu məktub! Hətta onlardan da sonra, Milena, əgər danışmaq üçün yanan dilimi dişləyib qanatsam belə, necə inana bilərəm ki, sənin indi möhtac olduğun yeganə şey mənim məktublarımdır, danışmaq istəyir, axı sən özün dəfələrlə, lap düşünmədən olsa belə, demişdin ki, ehtiyacın yalnız sakitlik, dinclikdir. Amma bu məktublar isə yalnız

əzabdır, onlar əzabla yoğrulub, çarəsiz dərdlərdən yaransalar da, özləri də əzablar və çarəsiz dərdlər yaradırlar, bəlkə də onlar bu qışda bir az da güclənsinlər.

Susmaq yeganə yaşamaq vasitəsidir, burada da belədir, orada da. Kədərlidir, amma bundan nə çıxar ki? Yalnız uşaq yuxusu kimi dərin və günahsız halda yatarıq. Bu isə əzablardır, bu yuxunu da, günü də şumlayan xış kimidir, bax dözülməz olan budur!

Çərşənbə

Elə bir qanun yoxdur ki, sənin mənə yazdığın, ümumiyyətlə, yaza biləcəyin məktubdakı "Mən bilirəm ki, sən mənimsən..." kimi ən gözəl sözlərinə minnətdarlıq etməyim üçün sənə məktub yazmağı mənə qadağan eləsin.

Qalan bütün şeylərdə sən çoxdan mənimlə razısan ki, artıq birbirimizə məktub yazmağımıza dəyməz; mənim bu barədə birbaşa deməyim təmiz təsadüfdür, sən də bunu deyə bilərdin. Madam ki, biz bir-birimizlə razıyıq, daha izah etməyə ehtiyac yoxdur ki, yazmamaq niyə yaxşı olacaqdır.

Pis cəhəti yalnız odur ki, mənim onda (bundan sonra sənin poçtla bağlı qayğıların olmayacaqdır) qətiyyən, demək olar ki, tamamilə sənə məktub yazmaq imkanım olmayacaqdır, amma hər halda yenə də bir imkanım qalacaqdır: sənə mətnsiz açıqcalar göndərmək! Bu ona işarə olacaqdır ki, poçtda məktub vardır. Sən isə zərurət yaranan kimi, daim mənə yaz, əslində bu öz-özlüyündə aydındır.

V. — nin yanında çox pis hərəkət elədim, bu, şübhəsiz ki, belədir, amma yəqin ki, bu, qorxudan mənə göründüyü qədər də pis deyildi. Əvvəla, mən xahişçi kimi getməmişdim, həm də ki sənin adından getməmişdim. Səni yaxşı tanıyan bir adam kimi getmişdim, o adam Vyanadakı vəziyyətə bir az bələddir və səndən iki kədərli məktub alıb.

Mən vidalaşmıram. Bu, vida deyildir, elə bir ağırlıq qüvvəsidir ki, məni tamamilə aşağıya dartmaq üçün zəruri fürsəti gözləyir. Amma o bunu bacararmı - axı sən yaşayırsan.

Əziz Milena xanım,164 arxa cəbhə və onunla əlaqədar şeyləri qorumaq barədəki söhbətlərə lüzum yoxdur, heç hərbi vəziyyətlərdə də vətənə xəyanət barədə çox danışılmır. Bunlar elə şeylərdir ki, onları sonadək anlamaq olmur, olsa- olsa, sənin "camaata" nisbətən artıq münasibətdə olduğun şeyləri yalnız təxmin edə bilərsən. Sən hadisələrə təsir edirsən, çünki xalqsız heç bir müharibə aparmaq olmaz, buradan səs və qərarları kənarlaşdırırsan, bütün bu şeylərin müzakirəyə ehtiyacı olduğundan, o müəyyən qaydada - instansiya iyerarxiyası ilə həll olunur. Əgər sən, əslində, bir dəfə öz sözlərinlə hadisələrə təsir edirsənsə, bunun ziyandan başqa heç bir təsiri olmur, çünki belə sözlər qeyri-kompetent, cilovsuz (saxlanması qeyrimümkündür!) olurlar, onlar sanki yuxudakı kimi söylənilir, dünya casuslarla doludur, onlar gizlicə qulaq asırlar. Bu məsələdə, yaxşısı budur ki, sakit xarakter nümayiş etdirəsən, təxribatlara qarşı tam ləyaqət və etinasızlıq göstərəsən. Burada təxribatlar hər şeydə ola

bilər, hətta kanal qırağında oturduğunuz otluqda da (yeri gəlmişkən, yanan sobanın yanındakı yataqda, isidici termoforla, iki adyal və yorğanın altında olmağıma baxmayaraq, soyuqladığım indiki vaxtda bu tamamilə məsuliyyətsizlikdir). Nəticədə isə, insanın xarici görünüşünə əsasən ətrafa təsir edə bilməsi barədə qənaət hasil olur və burada da mənim, əgər belə demək olarsa, dəhşətli gəzintilər zamanı sizinlə müqayisədə öz xəstəliyimin ucbatından dəqiq məğlubiyyətim görünür.

Xəstəliyimdən o mənada danışarkən, mahiyyətcə, heç kəs inanmır, doğrudan da, bu yalnız zarafatdır.

Çox tezliklə "Donadyo"nu oxumağa başlayacağam, amma indiyədək kitabı sizə göndərməliydim, qüssənin nə olduğunu bilirəm, kiminsə belə kitabları uzun müddət saxladıqdan sonra ondan inciyə biləcəyini də bilirəm. Məsələn, müəyyən adamlara qarşı əvvəlcədən şübhə içərisində olsam da, əlimdə sübut olmadığı üçün onların hər birində "Arvadlar yayı"165 ola biləcəyini düşünürdüm, amma Oskar Baumun oğlu Frankfurt yaxınlığındakı məktəbdən hamıdan tez ona görə qayıtdı ki, özünün kitablarını götürməyi unutmuşdu, xüsusən də Kiplinqin "Stalky & Co" kitabını, fikrimcə, onu ən azı yetmiş beş dəfə oxumuşdu. Xülasə, əgər "Donadyo" ilə də belə olacaqsa, onu məmnuniyyətlə oxumaq istədiyimə baxmayaraq, göndərərəm.

Əgər felyetonlar olsaydı, yəqin ki, modalar haqqında məqalələri oxumazdım (bu bazar onlar hara yox olmuşlar?); əgər mənə həmişə tarixi bildirsəniz çox şad olardım. İndi bir az ağrı hiss edirəm, nə vaxt çıxa biləcəyəmsə, "Şeytan"ı alacağam.

Georq Kayzerin166 əsərlərindən onu bir az tanıyıram, onun səhnə əsərlərindən heç birini görməsəm də, artıq o qədər də çox tanımaq istəmirəm. İki il əvvəl onun məhkəmə prosesinin hesabatlarını, xüsusilə də özünü müdafiə üçün söylədiyi nitqini oxuyarkən çox mütəəssir olmuşdum, o burada elan edirdi ki, başqalarının əşyalarını götürməyə haqqı çatır, özünün tarixdəki yerini Lüterlə müqayisə edərək, əgər ittiham olunarsa, Almaniyanın bayrağının endirilməsini tələb etmişdi. Burada, yatağımın önündə o özünün böyük oğlundan (onun üç uşağı var idi) danışırdı, on yaşlı bu uşağı, o, məktəbə buraxmırdı, heç özü də məşğul olmurdu, uşaq hələ də oxuyub-yaza bilmir, amma əla şəkil çəkir, günlərlə meşədə, yaxud göldə itib-batır (onlar şəhər kənarındakı tənha evdə yaşayırlar, ora Berlin yaxınlığındakı Qrunhayddadır). Vidalaşarkən Kayzerə dedim: "Hər halda, bu, böyük işdir". O cavab verdi: "Və yerdə qalan bütün boş şeylərin içərisində yeganə böyük işdir". Onu öz qarşında görmək qəribədir və o qədər də xoş deyildir - yarı Berlin kommersantı, əsəbi, həyəcanlı, yarımdəli. Belə görünürdü ki, o tamamilə əzilməyib, hətta çox güclü görünürdü də, onu başqa şey yox, tropik yerlər sındırmışdı (o, gəncliyində Cənubi Amerikada xidmət etmişdi, evə xəstə

qayıtmışdı, səkkiz ili çarpayıda keçirəndən sonra müalicəxanaya aparılmış və orada dirçəlib.). Bu ikiləşmə onun üzündə də əks olunmuşdu: üzü yastı, mavi gözləri təəccüblü dərəcədə boş idi, onlar narahat halda ora-bura çevrilirdi, sifətinin başqa hissələri də belə idi, onların bəzi hissələri oynaşanda digər hissələri hərəkətsiz qalırdılar, sanki iflic idilər. Amma onun barəsində Maksda tamamilə ayrı təəssürat var idi, Maks onu qəribə hesab edirdi, bəlkə bu onunla dostluq münasibətinə görə idi, o Kayzeri məcbur etmişdi ki, mənim yanıma qalxsın. Görürsənmi, ona az qala bütün məktubu həsr elədim. Mən isə başqa şeylər demək istəyirdim, növbəti dəfə.

Əzizim Milena xanım, etiraf etmək lazım gəlir ki, bir zamanlar bir adama həsəd aparırdım, çünki sevilirdi, yaxşıca himayə olunurdu, təfəkkürün və gücün himayəsi altında idi, çiçəklərin arasında uzanmışdı. Başqa şeylərdə olmasa da, bu həsəd aparmaqda çox mahirəm.

Müntəzəm oxuya bilmədiyim "Tribuna”nı, nəhayət ki, oxudum, düşünürəm ki, Sizin yayı yaxşı keçirməyiniz barədə qənaətimdə haqlı imişəm. "Tribuna”nın bir nömrəsini Planda167 əldə etmişəm, vağzalda bir bağ sahibi o birisi ilə söhbət edirdi, jurnalı əlində tutaraq arxasında saxlamışdı, bacım onu mənim üçün xahiş etdi. Əgər səhv etmirəmsə, alman kurortları haqqında Sizin çox gülməli felyetonunuz dərc olunmuşdu. Həm də siz hardasa yazmışdınız ki, yayı sakit, lal səssizlikdə, dəmiryol xətlərindən uzaqda keçirmək böyük

xoşbəxtlikdir, bu da çox sevimli idi, ya da felyetonda belə yazılmışdı? Yox, deyəsən, başqasında idi. Həmişə olduğu kimi "Narodni list"də yazılarınız əladır, orada yəhudiləri, modanı, məktəbi bir yana qoyub vitrinlər haqqında yazmısınız. Sonra siz aşpazlar haqqındakı məqaləni çevirmişiniz, niyə? Bibiniz çox qəribə adamdır, o gah yazır ki, heç

nəyi pəncərədən atmaq olmaz, bunların hamısı etirazedilməz həqiqətlərdir, hər halda ümidsiz mübarizələrdir, amma əgər çox diqqətlə oxusan orada əziz, hissiyyatlı, xoş şeylərə rast gəlirsən, o, almanlara nahaq yerə nifrət edir, almanlar əla xalqdır və belə də qalacaqlar. (Siz Eyxendorfun *"Ey* uzaq vadilər, təpələr"168 şeirini, yaxud da

Yustinus Kernerin çarxlı dəyirman169haqqındakı şeirini bilirsinizmi? Əgər bilmirsinizsə, mən necə olursa olsun, onları Sizə göndərərəm.)

Plan barədə nəsə demək olardı, amma bu artıq keçmişin işidir. Ottla mənə qarşı çox xeyirxahdır, baxmayaraq ki, onun əlində bir uşağı da vardır. Ciyərlərimin vəziyyəti, ən azından, belə demək olar ki, acınacaqlıdır, burada olduğum iki həftə ərzində həkimə getmək barədə qərara gələ bilməmişəm. Amma düşünürəm ki, əgər Planda olsaydım, iş belə pis olardı, əgər Planda olsaydım - ey müqəddəs tələskənlik! - saatlarla yorulmadan odun yarardım ki, bir neçə dəqiqəlik xoşbəxtlik hiss eləyim. Bütün qalan məsələlərdə yuxu və onu müşayiət eləyən yuxusuzluq bəzən bir az pis olurdu. Bəs sizin ciyərləriniz - o məğrur, güclü və yenilməz ciyərləriniz necədir?

Sizin K.

Çoxdandır ki, sizə yazmırdım, Milena xanım, elə bu gün də təsadüfən yazdım. Amma öz susqunluğumun səbəbi üçün özümə haqq qazandırmaq heç nəyə dəyməz. Siz ki məktub yazmağa necə nifrət etdiyimi bilirsiniz. Mənim həyatımdakı bütün bədbəxtlik odur ki (bu qətiyyən şikayət deyildir, yalnız ümumiləşmiş nəzəri nəticədir), bunlar ya belə demək olarsa, məktublardan, ya da onları yazmaq imkanından yaranır. Məni insanlar çaşdıra bilmir, amma məktublar çox tez aldadır, həm də özümünkülər. Mənim timsalımda bu xüsusilə bədbəxtlikdir, bu barədə mən heç nəyi yaymayacağam, amma o həm də ümumidir. Əminəm ki, məktub yazmaq barədə kiçicik bir ehtimal belə - nəzəri cəhətdən fikirləşsək - dəhşətli ruhi pozğunluq gətirir. Bu, əslində xəyalatlarla ünsiyyətdir, təkcə məktubu göndərdiyin adamın xəyalatı ilə deyil, həm də öz məxsusi xəyalatınla əlaqəlidir, bu, sən məktub yazanda əlinin altında boy atan xəyalatdır, seriyalarla məktublar silsiləsi yazanda isə bir məktub digərini möhkəmləndirir və onun şahidi kimi göndərilir. Kimin ağlına gələr ki, bir-biri ilə məktub vasitəsilə ünsiyyət saxlaya bilərlər! Uzaqdakı adam haqqında düşünmək olar, yaxındakı adama toxunmaq olar- bütün qalanlar insan qüvvəsinin fövqündədir. Məktub yazmaq isə bunu acgözlüklə gözləyən xəyalatlar qarşısında içini faş etməkdir.

Yazılaraq göndərilmiş öpüşlər ünvanına gedib çatmır - onları yolda ikən xəyalatlar elə yoldaca içirlər. Bu bol qidanın sayəsində onlar

təsəvvürolunmaz miqdarda çoxalırlar. Bəşəriyyət bunu hiss edir və onunla mübarizə aparır; insanlar arasındakı hər cür şəffaflığı yox etmək üçün, imkanları daxilində insanlar arasında təbii ünsiyyətə yetişmək üçün dəmiryol xətləri, avtomobillər, aeroplanlar fikirləşib tapır, lakin bunlar kömək etmir, bu kəşflər yalnız fəlakət anlarında baş tutur, rəqib daha güclü və inamlıdır, poçtdan sonra teleqraf, telefon və radionu ixtira etmişlər. Xəyalatları acından ölmək təhlükəsi izləmir, amma biz həlak oluruq.

Təəccüblüdür ki, öz felyetonlarınızda hələlik heç nə yazmamısınız, ona görə yox ki, onların dərc olunması nəyinsə qarşısını almaq, yaxud nəyəsə çatmaq üçün deyildir, amma onlara başa salmaqdır ki, artıq onları dərk ediblər.

Açığını desək, "onları" dərk etmək olar və ayrı-ayrı istisnalar zamanı onlar əngəlsiz, maneəsiz hansısa bir məktubu buraxırlar və o sənə dost əli kimi uzanır, yüngülcə, mehribanlıqla əlində olur. Amma ola bilər ki, bu yalnız görüntüdür və belə hallar, yəqin ki, ən qorxuludur, başqalarından daha çox ondan ehtiyatlanmaq lazımdır, amma bu illüziyadırsa, onda ən təkmil illüziyadır.

Buna oxşar bir şey mənimlə də baş vermişdir, çünki mənim də ağlıma gəldi ki, Sizə yazım. Bu gün dostumdan məktub almışam, Sizə də məlumdur ki, biz çoxdandır yazışmırıq, bu isə yüksək dərəcədə ağıllı işdir. Çünki yuxarıda deyilənlərdən aydın olur ki, məktub yuxu əleyhinə ən gözəl vasitədir. Onlar hansı formada gəlirlər! Onlar quru,

boş halda qəlbimizdə dolaşırlar - bir anlıq sevinc və sonra uzunmüddətli əzab! Sən onu özünü itirmiş halda oxuduğun müddətdə gözündəki yuxu qırığı da buxarlanır, çırpınıb pəncərədən uçur və uzun müddət geri qayıtmır. Ona görə də bir-birimizə məktub yazmırıq. Amma tez-tez, azca da olsa, onun haqqında düşünürəm. Mən, ümumiyyətlə, az düşünürəm. Amma dünən mən onun haqqında uzun müddət düşündüm, saatlar keçdi və mənim üçün qiymətli olan - düşmənçiliyə görə qiymətlidir - bu gecə saatlarını təsəvvür etdiyim məktubdakı eyni bir sözə həsr edirdim, öz dostuma bəzi şeyləri təkrarlayırdım, çünki həmin moment mənə onlar fövqəladə dərəcədə əhəmiyyətli görünürdü. Səhər isə, doğrudan da, ondan məktub gəldi, orada belə bir qeyd var idi ki, bir hiss onu bir aydır tərk etmir (daha doğrusu, bu fikir bir ay əvvəl onun beynində yaranıb) - o düşünür ki, yanıma gəlməlidir - bu qeyd qəribə bir tərzdə hislərimlə üst-üstə düşürdü!

Bu tarixçə mənə bəhanə verdi ki, məktub yazım, artıq bir dəfə də yazmışdım, axı mən necə də Sizə məktub yazmayım, Milena xanım, axı mən sizə hamıdan artıq həvəslə yazıram (ümumiyyətlə, nə qədər çox həvəslə yazmaq mümkündürsə, o qədər - bu isə xəyalatlar üçün deyilmişdir, onlar masamın yanında hərisliklə gözləyirlər).

Çoxdandır ki, qəzetlərdə Sizdən heç bir şey tapa bilmirəm, yalnız modalar haqqında qeydlər vardır, cüzi istisnalarla, onlar mənə nəşəli və dinc göründülər, xüsusilə də bahar barədəki son yazılarınız.170

Düzdür, buna qədər üç həftə idi ki, "Tribuna"nı oxumurdum (amma onları tapmağa çalışıram), çünki Şpindelmildə171 idim.

Sonra məktubunuz gəldi. Məktublarla bağlı məndə qəribə hallar olur. Lazım gəlir ki, - nə vaxt lazım gəlməmişdir ki? - səbir edəsiniz. Bütün bu illər ərzində heç kəsə yazmamışam, bu mənada lap ölü kimiyəm, heç bir ünsiyyət ehtiyacım yoxdur, sanki bu dünyanın da adamı deyiləm, sanki mən bütün bu illər ərzində mexaniki olaraq mənə tapşırılanları yerinə yetirmişəm, əslində isə daim qulağım səsdə olub ki, qonşu otaqdan xəstəlik məni çağırmayanda, kiminsə çağırışı üçün qaçmışam, indi isə getdikcə ona tabe oluram. Amma otaq da qaranlıqlaşmışdır və yaxşı seçmək olmur ki, bu xəstəlikdir, ya yox.

Hər halda həm düşünmək, həm də yazmaq çox çətinləşmişdir, başqa vaxtlarda əlim öz-özünə kağız üzərində gəzirdi, fikirlər haqqında isə heç danışmağa dəyməz (dönə-dönə ildırımtək çaxan fikirlərinizlə fəxr edirəm: fikirlər toqquşur və ildırım çaxır); hər halda səbirli olun, bu tumurcuq yavaş-yavaş açılır, ona görə onu tumurcuq adlandırıram ki, kip bağlıdır.

Mən "Donadyo"nu başladım, amma hələlik çox az oxumuşam, hələlik mahiyyətinə nüfuz edə bilməmişəm; onun172 yazılarından oxuduğum azca bir hissə mənə çox cüzi təsir edib. Onun sadəliyini tərifləyirlər, amma sadəlik Almaniyanın, Rusiyanın özəlliklərindir.

Bu baba sevimlidir, amma onu səthi, üzdən oxuya biləcəyini əngəlləyəcək gücdə deyildir. İndiyə qədər oxumağa macal

tapmadıqlarım (hələlik Liondayam), fikrimcə, Filipp üçün yox, Fransa üçün xarakterikdir. Floberin parıltısı, deyək ki, onun küçənin qırağındakı qəfil şadlığıdır. (Bəlkə Siz bu abzası xatırlayırsınız?)

Tərcümə sanki iki adam tərəfindən edilmişdir, gah çox yaxşı, gah da anlaşılmaz dərəcədə pis (Volfun yeni tərcüməsi çıxacaqdır.). Necə olursa-olsun, onu məmnuniyyətlə oxuyuram, çox mötəbər oxucu olmuşam, amma həddən artıq yavaş oxuyuram. Bu kitabla bağlı mənə mane olan şey qızların qarşısında acizliyimdir, bu o səviyyəyə çatır ki, qızları təsvir edən müəllifə inanmıram, şübhələnirəm ki, o da qızlara yaxınlaşmağa cəsarət etməyib. Müəllif sanki bir kukla düzəldərək onu Donadyo adlandırıb ki, oxucuların diqqətini əsl Donadyodan yayındırsın, real Donadyo tamam başqadır və başqa bir yerdə yerləşir. Yox, doğrudan da, mənim üçün onun bakirə uşaqlıq illəri, bütün qəşəngliyinə rəğmən, quru bir sxemə bənzəyir, sanki burada onun haqqında danışılanlar baş verməyib, çox sonralar baş vermişdir və daha sonrakı vaxtlar düşünülüb quraşdırılmışdır, sanki musiqi qanunlarındakı üvertüradır və reallıqla harmoniya yaradılıb. Bəzi kitablarda bu hislər birinci səhifədən axırıncıya qədər səni tərk etmir.

"Na Velke ceste"173 ni tanımıram. Çexovu isə çox sevirəm, bəzən ona dəlicəsinə vuruluram.

"Uill və dəyirman"174 da mənə tanış deyil, Stivensonu mən yalnız Sizin sevimli yazıçınız kimi tanıyıram. "Franslar"175 ıgöndərirəm. Bir azacıq yerlər istisna olmaqla, o, xoşunuza gəlməyəcəkdir.

Bunu mənim nəzəriyyəmlə izah etmək olar: yaşayan yazıçılar öz kitabları ilə canlı əlaqədədirlər. Onlar öz varlıqları ilə kitablarının lehinə, yaxud əleyhinə çalışırlar. Kitabların əsl, müstəqil həyatı müəllifin ölümündən sonra, daha doğrusu, bir müddət sonra başlanır, çünki həmin hünərli ərlər öz ölümlərindən sonra da öz kitabları uğrunda mübarizə aparırlar. Sonra isə kitablar yetimləşir və yalnız öz ürək döyüntülərinin ümidinə qalırlar. Məsələn, məhz buna görə Meyerber tamamilə məntiqə uyğun olaraq bu ürək döyüntülərini möhkəmlətməyi qərara alıb və özünün bütün operalarını miras qoyub, bu miraslar da onlara qarşı inamdan asılı olaraq cürbəcürdür. Lakin bu haqda çox da vacib olmayan daha əlavə şeylər də demək olar,
"Franslar"a gəlincə, bu barədə belə demək olar ki, diri yazıçının kitabı - mənzilin uzaq küncündəki yataq otağıdır, əgər onun özü valehedicidirsə, otaq da valehedicidir, əks halda isə dəhşət saçır. Əgər mən desəm ki, kitab mənim ürəyimcədir, yaxud birbaşa bunun əksini söyləsəniz, - amma ola bilsin ki, siz belə deməyəsiniz - onda çətin ki, bu, kitab haqqında mühakimə hesab olunsun.

Bu gün "Donadyo"dan böyük bir hissə oxudum, amma onunla heç cür uyuşmuram. Bu gün bunun izahı ilə də uyuşa bilmirəm, çünki yanımdakı mətbəxdə bacım aşpazla danışır, əlbəttə ki, yüngülcə bir öskürməklə bu danışığı kəsə bilərəm, amma istəmirəm, çünki bu qızın - o bizdə cəmi bir neçə gündür ki, işləyir - on doqquz yaşı vardır, qeyri-adi dərəcədə güclüdür, inandırır ki, o, dünyada ən bədbəxt

adamdır, amma bunun səbəbini izah edə bilmir, o, bədbəxt olduğu üçün bədbəxtdir, o, bacımın təsəllisinə möhtacdır (bacım isə keçmiş vaxtlardan, atam demişkən, xidmətçilərin yanında oturmağı sevirdi). Mən bu kitab haqqında səthi olaraq nəsə desəm, ədalətsizlik olar, çünki deyəcəklərim öz içimdən gəlir, kitabın içindən yox. Əgər dünən kimsə qətl törətmişsə, - ola bilərmi ki, bu "dünən" nə vaxtsa "srağagün"lə əvəz olunsun"? - onda həmin şəxs cinayətin təfsilatı haqqındakı hekayətə qulaq asa bilməz. Bu hekayətlər onun üçün xoşagəlməz və darıxdırıcıdır, həm də əsəblərinə toxunur. Təntənəsiz təntənə, qeyri-zəruri zərurilik, heyranedici kinayə - heç birisi mənim zövqümcə deyildir. Rafael Donadyonu dilə tutarkən, bunun ona çox lazım olduğuna baxmayaraq, tələbə otağında olan yazıçı və həm də dördüncü - oxucu - elə eləyirlər ki, kiçik otaq tibb, yaxud psixologiya fakültəsinin auditoriyasına çevrilir. Və üstəlik də kitabda ruh düşkünlüyündən başqa bir şey yoxdur. Əvvəlki kimi, Sizin məqalə haqqında çox düşünürəm. Qəribə olsa da, mənə elə gəlir ki, uydurma dialoqları reallığa döndərmək üçün: yəhudlik! yəhudilik! -tənhalıq qüssəsindən yox, yüksək dərəcədə düşüncənin nəticəsi ola nikah ittifaqları ola bilər və fikrimcə, mələk də mahiyyətcə bu cür düşünür. Axı qüssə çəkmək üçün nikaha girənlər nəyi əldə edə bilərlər?

Tənhalığı bir başqa tənhalığın üzərinə qoymaqla isti, doğma ocaq yox, katorqa yaradırlar. Bir tənhalıq digərində əks olunur, bu hətta gecənin dərinliklərində və qaranlığında da bariz hiss olunur. Əgər tənhalıq

inamın üzərinə əlavə olunarsa, onda tənhalıq daha pis situasiyaya düşür (bu hətta zərif, dərkolunmayan tənhalıq olsa belə). Nikaha girmək - əvvəlcədən dəqiq və ciddi şəkildə buna inamlı olmaq deməkdir.

İndiki halda hər şeydən pisi odur ki (hətta mən də bunu gözləmirdim), bu çox vacib olan məktubu da davam etdirə bilmirəm. Acıqlı yazışma şeytanları mənə hücum edərək gecələrimi dağıdırlar, gecələrim isə onsuz da öz-özünə dağılırdılar. Mən qurtarmalıyam, artıq bacarmıram. Ah, yuxusuzluğunuz mənimki kimi deyildir! Xahiş edirəm ki, artıq mənə yazmayın.

Salamlarınıza görə çox sağ olun. Mənə gəlincə isə, buraya qısa müddətə gəlmişəm, vəziyyət Praqada getdikcə çətinləşirdi. Amma bu əsl səyahət yox, yalnız tamamilə yararsız qanadların çırpıntısıdır. K.

Əziz Milena xanım, Dobrjixoviçdən göndərdiyim açıqcanı, yəqin ki, almısınız.

Hələlik burdayam, amma bir neçə gün sonra evə gedəcəyəm, çox bahalıqdır, çox yuxusuz oluram və s., qalan şeylər isə qeyri-adi dərəcədə gözəldir. Sonrakı səyahətlərə gəlincə isə, bu gözəlliyə görə,

Praqadan hətta yarım saatlıq yol olsa belə, indi onu daha çox istəyirəm. Qorxduğum şeylər yalnız odur ki, əvvəla, çox bahalıqdır, öləndən sonra heç bir miras qoymaq istəməyənlər üçün son günlərini burada keçirməyə yarayar; ikincisi, qorxuram, bəli, bu ikincisi cənnət

və cəhənnəmdir. Əgər bunlardan yaxa qurtara bilsəm, dünya mənim üçün açıqdır. Səmimi salamlarla, Sizin K.

(Mətnin yuxarısında yuxarıdan aşağıya doğru yazılıb: Qalığı da pis qaytarırlar, gah çox, gah da az və baş açа bilmirsən - ofisiant çox diribaşdır).

Öz aramızdır, tanışlığımız müddətində artıq üçüncü dəfədir ki, Siz qəfildən, mənim ən pis vaxtımda tam dəqiqliklə, bir neçə sətir də olsa belə, məni sakitləşdirirsiniz, qoruyursunuz, ya da ki, onu necə adlandıracağımı bilməsəm də onu edirsiniz.

Sonuncu görüşümüzdən sonra Siz qəfildən yox olanda (həm də təəccüb doğurmadan) birinci dəfə haqqınızda sentyabr ayında mənim üçün xoş olmayan bir xəbər eşitdim. Bununla yanaşı olaraq, iyul ayından mənim üçün vacib olan - hər halda nə qədər vacib olan şeylər vardır! - bir iş oldu; mən Baltikə, daha doğrusu, Murisə getdim. Axır ki, bu bağlı otaqdan çıxaraq Praqadan uzaqlaşmışdım. İlk vaxtlar mənim üçün çox pis idi. Sonra isə Murisdə olarkən Berlinə getmək imkanı oldu. Axı oktyabrda Fələstinə getməyə hazırlaşırdım, bu barədə danışmışdıq, bundan bir şey çıxmadı, təbii ki, bu, yataqdan heç vaxt qalxa bilməyənlərin fantaziyasıdır. Əgər mən heç vaxt yataqdan qalxa bilməyəcəyəmsə, belə olan halda niyə də Fələstinə getməyim? Amma

Murisdə olarkən Berlin xalq evinin yay düşərgəsi ilə tanış oldum, orada, əsasən, şərqdən gəlmiş yəhudilər qalırdılar. Ora məni çox cəlb

elədi, həm də yolun üstündə idi. Berlinə getmək imkanları barədə düşünməyə başladım. Həmin vaxtlar bu imkan Fələstinə getməyimdən artıq real deyildi, sonra isə getdikcə gücləndi. Berlində yaşamaq, əlbəttə ki, mənim üçün qeyri-mümkün idi, nəinki təkcə Berlində, hətta hara olursa-olsun, bu olacaq bir iş deyildi. Amma burada - Murisdə olarkən ağlagəlməz bir kömək tapdım.176 Avqustun ortasında Praqaya qayıtdım, Şelezendə olan kiçik bacımın yanında tam bir ay qaldım. Orada olarkən yanan məktub barədə eşitdim, özümdəki bu yanğını bir az yüngülləşdirmək üçün kədər içərisində sənə yazdım, amma məktubu göndərmədim, çünki sənin haqqında heç nə bilmirdim, ən nəhayət, Berlinə yola düşməzdən əvvəl onu yandırdım. Xatırladığın həmin üç məktubdan isə indiyə qədər xəbərim yoxdur. Mən kiməsə qarşı edilmiş bu dəhşətli

həqarətdən çox kədərlənmişdim və həmin üç nəfərdən hansının bu işi tutduğunu dəqiq bilmirdim. Nə olursa-olsun, mən bu məyusluqdan qurtula bilmirdim, o ayrı cür olsaydı belə, məyusluğum keçməzdi, hətta Murisdə olarkən həmin məktubları alsaydım belə, vəziyyət dəyişməzdi.

Sentyabrın sonunda Berlinə getdim, səfərə çıxmamışdan bir az əvvəl sənin İtaliyadan göndərdiyin açıqcanı almağa macal tapdım. Gücümün son damlası səfər öncəsi hazırlıqlara və səfərin özünə sərf olundu, daha taqətim qalmadığı üçün bu, səfər yox, dəfn kimi idi.

Və indi burdayam; hələlik Berlində vəziyyətim sənin, yəqin ki, düşündüyün kimi pis deyildir; şəhər kənarında, kiçik bir bağı olan villada yaşayıram, düşünürəm ki, heç vaxt belə gözəl mənzilim olmayıb, o mənim üçün həddən artıq yaxşı olsa da, tezliklə onu itirəcəyəm, yeri gəlmişkən, o burada ikinci mənzilimdir. Yeməklər hələlik Praqadakından çox az fərqlənir (yalnız mənim yeməklərim). Sağlamlığım da beləcə. Vəssalam. Davam edə bilmirəm, onsuz da çox danışdım, hava xəyalatları bütün bunları acgözlüklə udurlar. Sən isə öz məktubunda çox az danışırsan. Ümumi vəziyyət necədir: yaxşı, yoxsa dözülə bilən? Müəyyənləşdirə bilmirəm. Əlbəttə ki, heç özümdə də bunu müəyyənləşdirə bilmirəm, həmçinin də "qorxunu". F.

Əziz Milena xanım, artıq çoxdandır ki, Sizə yazmağa başladığım məktub məndədir, amma onu heç cür davam edə bilmirəm, köhnə xəstəliklərim burada da məni tapıb yüngülcə taqətdən saldılar, burada hər şey çətinliklə başa gəlir, qələmin hər tərpənişi mənə çox təmtəraqlı görünür, sanki nə isə güc çatmayan bir iş görürəm, əgər mən yazıramsa ki, "səmimi salamlarla", mənə elə gəlir, mənim bu salamlarımda, Lerxenfelderştrassın nəm, boğucu, nəfəs ala bilməyəcəyim, səs- küylü küçələrinə yetəcək qüvvə vardır. Yaxşısı budur ki, ümumiyyətlə, yazmayım, yaxşı, yaxud pis vaxtları gözləyim, qalan məsələlərdə vəziyyət mənim üçün yaxşıdır, mənə nəvazişlə xidmət edirlər, dünyada mümkün ola biləcək ən yaxşı xidmətlərə bərabər ola biləcək xidmət göstərirlər. Xarici aləm haqqında mənim

bilgim yalnız qiymət artımları ilə məhdudlaşır, bu isə çox bariz hiss olunur, Praqa qəzetlərini almıram, Berlin qəzetləri isə cibimə uyğun deyildir, siz zaman-zaman "Narodni listı" qəzetindən məni nə vaxtsa fərəhləndirmiş şeyləri kəsərək mənə göndərə bilərsinizmi? (Yeri gəlmişkən, mənim ünvanım dəyişmişdir: Şteqlis, Qrunevaldstrass, 13. Zayfertin yanında). İndi isə "səmimi salamlarla" və onlar artıq bağ qapısının önündə torpağa tökülsələr nə gözəl olar, ola bilsin ki, Sizin də gücünüz çox olar.

Sizin K.